Xeybər Göyyallı

NOVRUZ:
GENEZİSİ, TARİXİ TRANSFORMASİYALARI VƏ MƏRASİMLƏRİ

Bakı – 2015

Elmi redaktor: **Məhərrəm Qasımlı**
Dövlət Mükafatı laureatı, professor

Redaktor: **Ramiz Kərəm**

Xeybər Göyyallı
Novruz: genezisi, tarixi transformasiyaları və mərasimləri.
Bakı, Qanun Nəşriyyatı, 2015, 232 s.

Kitabda Novruz dəyərləri yeni bir yanaşma ilə araşdırılıbdır. Türk xalqları mühitində yaranmış, formalaşmış və mürəkkəb inkişaf yolu keçmiş Novruz böyük bir mədəniyyət toplusu kimi geniş tədqiqata cəlb olunmuşdur. Tədqiqatda Novruz sisteminin ilkin yaradıcılarının türklər olduğu əsaslı şəkildə sübuta yetirilib. Elmi araşdırmada ilk dəfə olaraq fundamental şəkildə Novruzun xronologiyası şumerlərdən başlanılmış, Altaydan tutmuş Mərkəzi Avropaya qədər böyük bir ərazidə yaşamış qədim türklər tərəfindən mükəmməl bir sistem halına salınmış Novruzun tarixi transformasiyaları sayılan Şamanizm, Ergenekon, Ayzıt, Tura bayramlarının tədqiqi ilə davam etdirilmişdir.

ISBN 978-9952-26-979-6

© Qanun Nəşriyyatı, 2015
© Xeybər Göyyallı, 2015

Kitabın içindəkilər

Ön söz əvəzi
Novruz dəyərləri dünyanıdərk fəlsəfəsidir..... 4

Giriş 10

I FƏSİL
Novruzun genezisi və tarixi mifoloji qaynaqları 14

1.1. Turan Novruzun ilkin vətəni kimi..... 14
1.2. Turanlıların Tura bayramı 44

II FƏSİL
Novruz qədim dövr və orta əsr mənbələrində 55

2.1. «Avesta»da Novruz dəyərləri 55
2.2. Orta əsr müəllifləri (Ə.Biruni, Ö.Xəyyam, Q.Təbrizi, N.Gəncəvi) Novruz haqqında..... 81

III FƏSİL
Novruz mərasimləri 106

3.1. Novruz mərasimləri 106
3.2. Novruz mərasimləri qədim və orta əsr mənbələrində.. 146

IV FƏSİL
Novruzun elmi-astronomik əsasları və əhatə coğrafiyası 183

4.1. Novruzun elmi-astronomik əsasları 183
4.2. Fəsillərin yaranmasında Novruzun yeri 197
4.3. Novruzun əhatə coğrafiyası 209

Nəticə 224
Ədəbiyyat 227

Nizami Cəfərov
Professor, AMEA-nın müxbir üzvü

ÖN SÖZ ƏVƏZİ

Novruz dəyərləri dünyanıdərk fəlsəfəsidir

Mədəniyyət hər bir xalqın maddi və mənəvi simasının güzgüsüdür. Xalqı formalaşdıran, inkişaf etdirən, vahid əxlaq, təfəkkür, dünyagörüş və s. ətrafında birləşdirən onun zərrə-zərrə yaratdığı mədəniyyətidir. Xalqların tarix səhnəsində qalması, öz yerini qoruyub saxlamaları birbaşa onların yaratdıqları mədəniyyətlə bağlıdır. O da bəlli bir məntiqdir ki, mədəniyyətini qoruyub saxlamayan xalqlar tarix səhnəsindən silinmişlər.

Mədəniyyət tarixi kateqoriyadır. O, konkret zaman və məkanda yaranır, inkişaf edir, təkmilləşir, bu və ya digər səbəbdən zamanın (siyasətin) basqısına məruz qalır, ideologiyaların prinsipləri ilə uyğunlaşmadığından onun ayrı-ayrı komponentləri yasaqlanıb unutdurulur. Tarixin çox böyük məşəqqətli sınaqlarından öz hünər və iradələri sayəsində qalib çıxmış türklər hələ miladdan öncə möhtəşəm bir mədəniyyətin ilkin yaradıcıları və qoruyucuları olmuşlar. Bu dəyərli faktı zaman-zaman öz məxəzlərində türklərlə bağlı şanlı və qürurgətirən səhifələri (əlyazmaları) məqsədli şəkildə xaincəsinə məhv etmiş qədim çinlilər də təsdiqləmişlər. Qədim çinlilər etiraf edirdilər ki, türklər böyük sivilizasiyanın yaradıcılarıdır. Uzaq Altaydan tutmuş Mərkəzi Avropaya qədər uzanmış böyük bir ərazidə bir neçə dəfə əzəmətli imperiyalar qurmuş qədim türklər sonralar müxtəlif səbəblərdən tarixin ayrı-ayrı məqamlarında öz dövlətçiliklərini itirmişlər. Tarixə yoldaşlıq etmiş bu böyük imperiyalar məhz həmin qədim və zəngin mədəniyyətin sayəsində qurulmuş və idarə edilmişdir. Qədim türklər bu və ya digər səbəblərdən öz ərazi və dövlətlərini itirsələr də, xoşbəxtlikdən,

mədəniyyətlərini ən çətin tarixi sınaqlar dövründə belə qoruyub saxlamışlar. Ancaq qədim türk torpaqlarında qurulmuş yad dövlətlər türklərin torpaqlarını müxtəlif adlar altında ərazilərə bölmüş, bir-birindən aralı salmış, onların iqtisadi və mədəni əlaqələrinə bu və ya digər formada qadağalar qoymuşdular. Türk xalqlarının yaşadıqları ucsuz-bucaqsız əraziləri ələ keçirmiş çar hökuməti və onun mənəvi davamçısı sayılan sovet dövləti onların maddi-mənəvi mədəniyyətlərinə bu və ya digər formada qadağalar qoymuşdular. Sovet dönəmində bu qadağa və yasaqlar xüsusilə repressiv xarakter daşımışdır. Yaradıcısı qədim türklər olan Novruz dəyərləri rəsmi şəkildə qadağan olunmuşdur. Bu qadağalar təsadüfi deyildir. Sovet dövlətinin siyasətinə qulluq göstərməyən, onun ideologiyasına sərf etməyən hər nə varsa yasaqlanmışdır. Türk xalqlarının ümumi mədəni-mənəvi sərvəti olan Novruzun qadağan edilməsinin ən birinci səbəbi onun mahiyyətində birləşdiricilik xüsusiyyətinin olması idi. Məlumdur ki. Novruzda insanlar bir yerə toplaşır, söhbətləşir, təntənəli bayram şənlikləri keçirirlər. Bundan öncə, sovet ideologiyası ilkinliyə, təbiiliyə, həmçinin milliliyə xidmət göstərəcək hər şeyi ucdantutma ya birdəfəlik ləğv etmiş, ya da ideologiyaya qulluq edəcək bir formaya salmışdır. Bu tendensiyanı daim işlək halda saxlamaqda məqsəd özəlliyə, milliliyə xidmət edən milli mədəniyyəti tələm-tələsik sıradan çıxarmaq idi. Xalqın tarixinin, ümumən onun min illərlə yaratmış olduğu mədəniyyətinin sıradan çıxarılmasında başlıca məqsəd xalqları, o cümlədən Azərbaycan türklərini öz mədəniyyətlərindən uzaqlaşdırmaq, qanıbir, canıbir türk xalqlarını bir-birindən aralı salmaq idi. Bütün bu qadağa və yasaqlar sonda bir çox milli adət-ənənələrin unudulması ilə nəticələnmişdi. Əslində, bütün türk xalqları genetik cəhətdən eyni soydan olduqları kimi, dil və mədəniyyət baxımından da çox yaxındırlar. Sünicəsinə yaradılmış əngəllər hesabına uzun illər türk xalqları bir-birindən tədric olunmuş vəziyyətdə yaşamışdılar. Çoxsaylı türk xalqları arasında uzun illər maddi və mənəvi inteqrasiyanın olmaması, demək olar ki, onları bir-birindən dil, düşüncə cəhətdən də uzaqlaşdırmışdı.

Sovet dövlətinin məngənəsində sıxılan türk xalqlarına ümumi sərvətləri sayılan Novruzun son törənlərini açıq şəkildə qeyd etmək belə qadağan olunmuşdur. Elə bu siyasi-ideoloji qadağaların ucbatından sovet dövründə Azərbaycanda da Novruz fəlsəfəsindən söhbət açmaq «tabu»ya çevrilmişdir. Sovet hakimiyyəti illərində Azərbaycanda Novruz şənlikləri ilk dəfə 1967-ci ildə rəsmi səviyyədə Bahar bayramı adı altında açıq şəkildə keçirilmişdir. Bu məqamda onu da qeyd etmək yerinə düşər ki, sonradan Novruz adlandırılan bu müqəddəs bayrama qədim və orta əsrlərdə həm də Bahar bayramı deyilmişdir. Totalitar düşüncənin hakim olduğu dövrdə Novruz barədə ən cəsarətli fikirlərdən biri elə məhz onun Bahar bayramı adlandırılması idi. 1967-ci ildə Novruz haqqında uzun illər ərzində qoyulmuş qadağalar nisbətən aradan qaldırılsa da, onun həqiqi mahiyyəti barədə hələ də elmi şəkildə danışılmırdı. Ondan qəzet-jurnal səhifələrində yalnız ildə bir dəfə bayram ərəfəsində əkin-biçin, təsərrüfat və məişət bayramı kimi söhbət açılmışdır.

Bəli, Novruz yeni mövzu deyildir. Onun tarixi bəşərin (türkoğlunun) yaşı qədərdir. Ancaq ilk dəfə bu kitabda Novruz fundamental şəkildə tədqiqata cəlb olunubdur. Onu da deyək ki, bu kitabda ilk dəfə Novruz fəlsəfəsi tamamilə yenil bir yanaşma ilə araşdırılmışdır. Novruza ilk dəfə bütövlükdə bir sistem kimi yanaşılmışdır. Novruz məişət-təsərrüfat bayramı səviyyəsindən dünyabaxış, təfəkkür tərzi səviyyəsinə qaldırılmışdır.

Müəllif, çox doğru olaraq, Novruzun genezisini (mənşəyini) tarixin ilkin övladları olmuş şumerlərdən başlayır. Şumerlərin qədim türklərin ulu əcdadları olduqlarını Amerika və Avropa şumeroloqları birmənalı şəkildə təsdiq etsələr də, sırf konyukturadan çıxış edən bəzi tədqiqatçılar qısqanclıqdan məqsədli şəkildə qədim türkləri şumerlərdən uzaqlaşdırmışlar. Mövcud türk dillərinin şumer dili ilə yaxınlığı, bu gün həmin dillərdə hələ də işlək halda olan qədim şumer sözləri və s. faktlar türklərin şumerlərin genetik və mənəvi varisləri olduqlarını təsdiqləyir. Bu genetik və mənəvi bağı təsdiq edən tarixi faktlardan biri də budur ki. Azərbaycan türklərinin etnogenizində iştirak etmiş tayfaların nümayəndələri nə

az, nə çox, düz, 91 il Şumer-Akkad dövlətinə başçılıq etmişdirlər. Şumer yazılarına görə. onlar yazın gəlməsini ilin başlanğıcı kimi hər il təntənəli şəkildə qeyd etmişdirlər. Şumerin paytaxtı olan Ur şəhərində təzə ay allahı Nanna Sinin məbədi qarşısında, baş meydanda yeni il möhtəşəm bayram şənlikləri ilə qarşılanardı. Həmin vaxt məbədin kahinləri təzə ildə məhsulun bol, əkin-biçinin, malheyvanın, həmçinin insanların arasında artım olması üçün Nanna Sinin heykəlini qucaqlarında pilləkənlərlə aşağı endirər, ayin keçirər, sonra onu yenidən məbədə qaldırarmışlar. Həmin ay allahı Nanna Sinin heykəli insan başlı öküz fiquru obrazında olmuşdur. Şumerlərdə şir, öküz, maral və başqa heyvanlar səmadakı ulduz bürclərinin rəmzləri sayılmışdır.

Haqlı olaraq, kitabda Novruzun inkişaf mərhələləri şumerlərdən sonra onların genetik və mənəvi davamçıları olan turanlılarla (türklərlə) davam etdirilmişdir. Şumer sivilizasiyası müxtəlif səbəblərdən tarixə qovuşmuşdur. Ancaq bu zəngin və əzəmətli bəşər mədəniyyəti digər xalqların mədəni inkişafına güclü təsir göstərmişdir. Tarixin çox-çox sonrakı mərhələlərində Novruz adlandırılmış dəyərlər toplusunun ilkin nüvələrindən birini də sırf qədim türklərlə bağlı olan Ergenekon bayramının komponentləri təşkil edir. Ergenekondan çıxış qurtuluş sayılıbdır (Transformasiyaya uğramış Novruzda da, ən azı, qışdan bir qurtuluş vardır). Böyük ehtimalla deyə bilərik ki, min illərlə Ötükəndə yaşamış türklərin oradan böyük köçü başlamışdır. Qədim türklərin doğma yurd-yuvalarından köçməsinin mühüm səbəblərindən biri uzun illər çinlilərlə aparılmış müharibələr olmuşdur. Qədim Çin mənbələrinin özündə belə qorunub saxlanılmış «Köç» dastanı da bu tarixi faktı – türklərin böyük köçünü təsdiqləyir.

Qədim türklərin azadlıq sevdasını M.Ə.Rəsulzadə tarixin məntiqinə uyğun olaraq çox düzgün şərh etmişdir. M.Ə.Rəsulzadə «Qurtuluş» məqaləsində yazır: «Qurtuluş, qurtulmaq kimi sözlər, heç şübhə yoxdur ki, «qurd» sözündən yaranmışdır». M.Ə.Rəsulzadə Ankarada yaşadığı illərdə «Azərbaycan» dərgisində (12 mart 1954) Novruzla bağlı dərc olunmuş məqaləsində bir daha qeyd

edirdi: «...Türkçülük və milliyyətçilik yoluna girən Azərbaycanda Novruz bayramı Cəmşid və şiə səfəvi gələnəklərinə deyil, Ərgənəkon əfsanəsinə bağlanıyor və adına da Qurtuluş bayramı deyilirdi».

Türklərin mənşəyi ilə bağlı yaradılmış əfsanələrin bir çoxunda onların Boz Qurddan törədikləri söylənilir. Həmin əfsanələrin birində deyilir ki. qədim hunlardan törəmiş Göytürklər Aşina adlı bir nəslin övladları imiş. Onları Lin deyilən bir ölkə qırmış, yalnız on yaşında bir uşaq qalmışdır. Düşmənlər on yaşlı uşağı zəif olduğuna görə öldürməmiş, qıçlarını kəsib, özünü isə bataqlığa atdılar. Həmin uşağı bir dişi qurd ətlə bəsləyib böyütmüş, sonra onunla yaşamışdır. Uşağın yaşadığını eşidən düşmənlər onu öldürmüşdür. Qurd isə qaçıb dağlarda yaşamışdır. Uca dağlara sığınmış qurd mağarada on oğlan uşağı doğmuşdur. Oğlanlar böyüdükdən sonra mağaradan kənara çıxıb evlənmişdilər. Hər birindən bir soy törəmişdi. Aşina da həmin soylardan biridir. Artıb çoxaldıqdan sonra mağaradan çıxıb Altay dağlarının ətəklərində məskunlaşmışdılar. Göründüyü kimi, bu əfsanədə də qədim türkün xilaskarı kimi Boz Qurd verilmişdir. Ergenekonda olduğu kimi, burada da artıb çoxalmış türklər yaşadıqları məkanı tərk etməli olmuşlar.

Novruz fəlsəfəsində qədim türklərin ümumi dünyagörüşü, həyat gerçəkliklərinə münasibəti, qam-şam təfəkkürü, kosmoqonik və planetar düşüncələri, inam və inancları, həyat tərzi, məişət və təsərrüfatı idarəetmə bacarıqları və s. kompleks şəkildə öz əksini tapmışdır.

Novruz dəyərləri qanunların yaranmadığı dövrlərdə formalaşmışdır. Yazının olmadığı dövrdə yaranmış, inkişaf etmiş və fəaliyyət göstərmiş Novruz fəlsəfəsi insanların yaddaşında «kanonlaşmışdı». O, heç bir inzibati göstəriş, administrativ məcburiyyət olmadan insanların beynində-yaddaşında əsrlər boyu yaşamış və zaman-zaman inkişaf etmişdir. Novruz sağlam, təmiz və təbii qanunlara əsaslandığından tarixin müxtəlif məqamlarında ağalıq etmiş siyasi-ideoloji sistemlər həm ehtiyatlanaraq ona qadağalar qoymuş, həm də ciddi ehtiyac duyulanda onun qutsallığından (22 mart gününün müqəddəsliyindən) məharətlə faydalanmışlar.

Kitabda Novruz fəlsəfəsinin dialektikasının əsasları araşdırılmışdır. Novruz fəlsəfəsinin dialektikasının əsasında əksliklərin vəhdəti (isti-soyuq-yaz-qış;işıq-qaranlıq-gecə-gündüz;ölüb-dirilmə-qış-yaz münasibətləri; kainat-planet-yer-göy bağlılığı və s.) dayanır. Novruzun əsl mahiyyətini ətraf aləmi, təbiəti və cəmiyyəti, ümumən, həyatıdərk qanunları təşkil edir.

Müəllif Novruz fəlsəfəsini mifoloji, genesioloji və aksioloji cəhətdən tədqiq etmişdir.

Monoqrafiyanın uğurlarından biri də budur ki, Novruz mövzusu yalnız etnoqrafiya və folklorşünaslığın sahəsi kimi götürülməmiş, araşdırma predmeti ümumən Azərbaycanşünaslığın sahəsi kimi tədqiqata cəlb olunmuşdur. Bu səbəbdən Novruz fəlsəfəsi ilk dəfə fundamental şəkildə araşdırılmış bu kitabı Azərbaycanşünaslıq üçün dəyərli bir töhfə adlandıra bilərik.

GİRİŞ

Novruzun tarixi çox qədim, inkişaf yolu mürəkkəb olmuşdur. Əsrlər boyu indi Novruz dediyimiz törənlər sistemi zaman-zaman müxtəlif adlarla ifadə edilmişdir. Tarixin ayrı-ayrı dönəmlərində Novruz sistemini ifadə etmiş adlar müxtəlif semantik və fonetik dəyişikliklərə məruz qalmışdır. Bu dəyişikliklər yalnız ad dəyişikliyi ilə qurtarmamışdır. Əsrlər boyu mövcud olmuş Novruz sistemini əyani ifadə forması olan adət-ənənələr və mərasimlər də dəyişikliyə uğramışdır. Bu, əsaslı və ciddi dəyişikliklər məzmun yeniliyinə gətirib çıxarmışdır.

Ancaq min illərin inzibati və ideoloji sınağından həmişə mükəmməlcəsinə çıxmış Novruz sisteminin əsl mahiyyətini, nüvəsini dəyişmək mümkün olmamışdır. Bunun səbəbi Novruz sisteminin əzəli və əbədi, ahəngdar kainat qanunları üzərində qurulmasıdır. Başqa sözlə, Novruz sisteminin bazisi heç bir vaxt dəyişilməyən təbiət qanunlarıdır. Kainat və planet qanunlarını dəyişmək insan övladına müyəssər olan bir şey deyildir. Çünki kainat (kosmos) və planet (yer) qanunları insanların güc və qüdrəti fövqündədir. Məlumdur ki, sonradan süni surətdə insanlar tərəfindən yaradılmış bir çox cəmiyyət qanunlarından fərqli olaraq, kainat və təbiət qanunları sabitdir, dəyişilməzdir. Elə bu ciddi səbəbdəndir ki, Novruz bir sistem kimi yaşamış və dövrümüzə qədər gəlib çıxmışdır. Novruz sistemi sırf kainat və planet qanunlarına əsaslandığından onun tarixi insanların bu məsələlərlə maraqlandığı dövrdən başlanır. Elə bu qədimliyə görə də Novruz sisteminin yaranma tarixini konkretləşdirmək mümkün deyildir. Ancaq yazılı mənbələrin Nov-

ruz haqqında özündə qoruyub saxladığı ilkin məlumat miladdan 1725 il əvvələ aiddir.

Ancaq məlum həqiqət budur ki, Novruz sistemi Orta Asiya və Altay tayfalarının, ümumən türklərin təfəkküründün məhsuludur. Türkoğlu işıqlı dünyaya gəldiyi gündən ruhən və cismən dərk etmişdir ki, onun yaşayışı, əməli fəaliyyəti birbaşa ətraf aləmlə – kainat və planetlə bağlıdır. Turanlılar həssaslıqla duymuşlar ki, bəşəri həqiqət qədər uca və ali məqsədə qovuşmağın yolu yalnız təbiətlə təmasdan keçir. Bu günün özündə – elm və texnikanın dinamik, intensiv və sürətli inkişafı dövründə, kosmosun hərtərəfli tədqiq edildiyi bir vaxtda yenə insan həyatı kainat (kosmos) və planetdən (yer) asılıdır. İnsan və təbiət münasibətlərinin analogiyası yoxdur və bundan sonra da, yəqin ki, olmayacaqdır. Novruz bir sistem kimi türklərin kəşf etdiyi ilkin kosmoqonok nailiyyətlərdəndir. Türklərin özlərini və Allahı dərk etmələri təbiəti dərkdən başlayır.

Türklər Tanrıçılığa-Tanrını dərkə təbiəti dərkdən sonra gəlib çıxmışlar. Elə buradaca Novruzla bağlı bir mühüm məsələyə münasibət bildirmək istərdik. Bir çox tədqiqatçılar Novruz sisteminin məna və mahiyyət tutumunu həddindən artıq primitivləşdirir, əhatə dairəsini daraldır, onu yalnız əkin-biçin və təsərrüfat işləri ilə bağlayırlar. Əslində isə, əkin-biçin və təsərrüfatın özü də təbiətin bir komponentidir.

Novruz mövzusu daim aktuallığını və həmişəyaşarlığını qoruyub saxlayacaqdır, çünki Novruz sistemi bazis xarakterli dəyərlər tipinə mənsubdur. Novruz kainat və təbiət qanunu olduğu qədər də cəmiyyət qanunudur.

Novruz əbədi mövzu olsa da, Azərbaycanşünaslıqda indiyədək bu və ya digər səbəblərdən fundamental, geniş və hərtərəfli şəkildə tədqiqata cəlb olunmamışdır. Novruzun elmi tədqiqata geniş şəkildə cəlb edilməməsinin əsas səbəbini XX əsrdə Azərbaycanda mövcud olmuş ictimai-siyasi ideologiyada axtarmaq lazımdır.

Sovetlər dönəmində Novruza repressiv bir münasibət bəslənilmişdir. Digər yasaq edilmiş milli-mənəvi dəyərlərdən fərqli ola-

raq, Novruz insanların şüuraltına daxil olduğundan, qanına-canına işlədiyindən onu tamamilə qadağan edə, bir dəyər kimi sıradan çıxara bilmədilər.

Etiraf edək ki, indiyə qədər Novruz etnoqrafiya və folklor materialları əsasında yalnız cari və mövsümi mövzu kimi tədqiqat predmeti olmuşdur.Elə bu bir qədər yad tendensiyanın təsirindən bir çox tədqiqatçılar Novruzun məna və mahiyyətini həddindən artiq primitivləşdirmiş, onu yalnız əkin-biçin və təsərrüfat işləri ilə məhdudlaşdırmışlar. Bu səbəbdən Novruz barədə elmi araşdırmalar bayram ərəfəsində dərc olunmuş qəzet məqalələrindən uzağa getməmişdir.Etnoqrafik araşdırmalarda sırf məişət-təsərrüfat, folklorşünasların tədqiqatlarında isə daha çox mifoloji yönümdən tədqiq olunmuşdur. Düzdür, Novruz sisteminin ümumi mündəricəsində məişət-təsərrüfat məsələləri də özünə yer almış, onun ilkin yaranışında mifik təfəkkür də müəyyən səviyyədə iştirak etmişdir. Ancaq özündə ciddi maddi-mənəvi dəyərləri cəmləmiş Novruz sistemini yalnız məişət-təsərrüfat məsələləri ilə bağlamaq və gerçəkliklə bir o qədər də səsləşməyən mifoloji qaynaqlarla əlaqələndirmək onun əhatə dairəsini daraldır və mənəvi nüfuzunu azaldır.

Bu məqamda mifik düşüncə ilə bağlı bir məsələni də qeyd etməliyik.Novruz xalqın milli-mənəvi dəyərlər toplusunda əsas yer tutduğundan onun mifoloji qatlarının həyati gerçəkliyinə təsirini tam şəffaf şəkildə araşdırıb ortaya çıxarmaq mümkün deyildir. Novruzla əlaqədar yaranmış miflərin əksəri onun mahiyyətini işıqlandırır. O da maraqlıdır ki, həmin miflərin böyük bir qismi kosmik və antropoqonik səciyyə daşıyır.

Novruz sistemi haqqında qədim və orta əsrlərdən üzü bəri aparılmış tədqiqatlardan birmənalı şəkildə aydın olur ki,onun nə əfsanəvi və tarixi, nə də dini (zərdüştlik, islam) şəxsiyyətlərlə heç bir bağlılığı yoxdur.

Kainat və planet qanunları əsasında yaradıldığından Novruz təqviminin (Günəş təqvimi) dəqiqliyi, dürüstlüyü BMT və onun elm və təhsil üzrə qurumu olan YUNESKO tərəfindən etiraf olun-

muşdur. BMT-nin qərarı ilə 21 mart Yer günü elan edilmişdir. Hər il martın 31-də BMT-nin mənzil-qərargahının qarşısında 3 dəfə zəng çalınır. Bütün bəşəriyyətə həmin günün Yer günü olduğu bildirilir, bununla da yer kürəsində yaşayan insanları üzərində yaşadıqları planeti qorumağa səsləyirlər. Kitabda ilk dəfə olaraq Novruz bir sistem kimi araşdırılmış, Azərbaycan və bəzi məqamlarda dünya folklorşünaslığının elmi-nəzəri və təcrübi bazasına istinad edilmişdir. Tədqiqat işində türk mifoloji qaynaqlarına, «Avesta» məlumatlarına və orta əsrlərdə yaşayıb-yaratmış Biruni, Xəyyam və b. araşdırmalarına əsas mənbə kimi yanaşılıbdır. XX əsr Azərbaycan folklorşünaslığının tanınmış tədqiqatçılarından olan M.Təhmasib, M.Seyidov, A.Nəbiyev, E.Əlibəyzadə, M.Qasımlı, K.AlIahyarov, E.Aslan, B.Abdulla və başqalarının elmi araşdırmaları da tədqiqat işinin istinad mənbələrindəndir.

Novruz dəyərləri bütün zamanlar üçün aktual olaraq qalacaqdır. İnsan övladı yaşadığı və mənsub olduğu cəmiyyətdən asılı olmayaraq həmişə ilkinliyə can atıb, özündən əvvəlki sivilizasiyaların maddi-mənəvi dəyərlərini öyrənməyə ciddi maraq göstərmişdir.

Çağdaş insanı bugünkü sivilizasıyanın modern texnoloji və kosmik inkişafından daha çox, təbiilik, ilkinlik özünə çəkir.

I FƏSİL

NOVRUZUN GENEZİSİ VƏ TARİXİ MİFOLOJİ QAYNAQLARI

1.1. Turan Novruzun ilkin vətəni kimi

«Tarix Şumerdə başlayır» – bu ifadə görkəmli Amerika şumerşünası S.N.Kramerə məxsusdur. Bu məşhur ifadə tanınmış şumerşünasın kitabının adıdır. Zaman-zaman danılmış, gizlədilmiş, tarixin müxtəlif qatlarında məqsədli şəkildə üstü örtülüb-basdırılmış həqiqətin mərdi-mərdanə etirafıdır. Gecikmiş bu etirafın okeanın o tayından gəlməsi tarıxin bir çox qaranlıq səhifələrinin üzərinə işıq saldı, bəzi həqiqətləri gerçəkcəsinə təsdiqlədi. Artıq şumerlərin bəşər mədəniyyətinin ilkin yaradıcılarından olmaları dünya tarixində birmənalı öz təsdiqini tapıbdır. Tarixin qürurduyulası bu sivilizasiyasına sahib durmaq istəyənlər çox olubdur. Dünya mədəniyyətinin tarixini ədalətlə araşdıran bir çox alimlər şumerlərin türklərin ulu babaları olduqlarını təsdiqləyirlər. Q.Vinkler yazırdı: «Bizə gəlib çatmış şumer mətnlərinin çoxunun dil xüsusiyyətlərini hələlik izah edə bilməsək də, dünyada ən qədim mədəni dil olan şumer dilinin ümumi xarakteri barədə kifayət qədər bizdə təsəvvür yaranıb. Bu dil əsas əlamətlərinə görə türk dillərinə uyğun iltisaqi quruluşlu dildir və semit dillərinin quruluşundan tamamilə fərqlənir».

Mərhum alimimiz Aydın Məmmədov da tədqiqatlarında onlarla belə fakta istinad etmişdir. Şumerlər barədə tutarlı dəlillərlə zəngin olan sanballı əsərin müəllifi Voolley şumerlərin morfoloji cəhətdən «əski türkcəyə bənzər» bir dildə danışdığını qəbul edir.

Bəşəriyyətin ilk fenomenləri olan şumerlər bir çox maddi-mənəvi dəyərlərin yaradıcısı olduğu kimi, bu gün Novruz deyilən mənəvi dəyərlər kompleksinin də ilkin və şəriksiz yaradıcılarıdırlar. Bəşəriyyətin ilkin maddi-mənəvi abidələrini Babilistanda yaratmış

şumerlər semitlərlə vuruşdan sonra Orta Asiyaya iki çay arasına – Amu-Dərya və Sır-Dərya ətrafına qədim yurd-yuvalarına – E1 Obeydə (el-obalarına) və Sibirə – yenə iki çay arasına – Orxon-Yeniseyə qayıtmışlar. Qədim əcdadlarımızın bu tarixi hərəkət trayektoriyası təsadüfi deyildir. Bu dönüşü tarixin və zamanın obyektivliyi diktə etmişdir. Müdrik babalarımız təsadüfi yerə «harada su var, orada həyat var» deməmişlər. Elə buradaca xatırladım ki, Novruzun əsas komponentlərindən biri sudur. Şumerlər torpağa və suya həyat mənbəyi kimi baxdıqlarından onları ilahiləşdirmişlər. Dünyanı qədərincə dərk edən şumerlər Dəclə-Fərat çayları arasında araya-ərsəyə gətirdikləri bəşəri mədəniyyəti Orxon-Yenisey coğrafi məkanında yaratmışdılar. Bütün dünyanı heyrətə gətirmiş Orxon-Yenisey abidəIəri bu yüksək sivilizasiyanın əyani təsdiqidir. İkiçayarası mədəniyyətlərdən söz düşmüşkən, tarixə şahidlik edən və bizim üçün şərəf sayılan, əfsuslar ki, bu günə kimi hələ də kifayət qədər tədqiq olunmamış bir Kür-Araz mədəniyyəti də mövcuddur. Bu qədim və zəngin mədəniyyətin sirləri hələ də öz geniş tədqiqini gözləyir. Bu keçidi təsadüfi etmədim. Burada məqsəd iki çay arasına – Dəclə-Fərat çayları arasından Orta Asiyaya və Orxon-Yeniseyə dönüşü və «Bilqamıs»dan «Ergenekon»a gələn mənəvi bağlılığı xatırlatmaqdır. S.N.Kramerin tədqiqatları nəticəsində bir daha sübut olundu ki, eramızdan 3 min il əvvəl şumerlər güclü maddi-mənəvi məktəblər sistemi yaratmışdılar. «Bilqamıs» belə bir güclü tarixi mədəniyyətin yadigarıdır. Tarixə yoldaşlıq edən bu qədim mədəniyyət abidəsi e.ə. IV-II əsrlərdə meydana gəlmişdir.

Bilqamıs tarixi şəxsiyyətdir. Onun haqqında dastanda gerçəkdən danışılır. Bilqamıs miladdan əvvəl 2800-2700-cü illərdə yaşayıb. Şumerin Uruk şəhərinin baş kahini və hərbi rəhbəri olub. Uruk şəhərinin bünövrəsinin onun tərəfindən qoyulduğu söylənilir. Bu adı da ona təsadüfi qoymamışlar. Bilqamıs sözü sırf türk mənşəlidir. Bilqamıs (bilik, bilgi + qamı – hamısı) xalis türk sözü olduğundan mübahisə açmağa ehtiyac duyulmur. Bilqamıs adının

etimologiyası bu günə qədər mübahisəyə səbəb olmayıbdır. Bilqamıs – hər şeyi bilən və dünyanın hər üzünü görmüş adamdır. «O, insandır, yarıdan çoxu tanrıdır ancaq» şumerlərin insanı tanrımisallı görməsi insan böyüklüyünə olan inamdan irəli gəlir. Onların bütün əməllərinin mayasında onun nəslinin davamı, həyatın əbədiliyi dayanıb. Uruk şumerlərin dövlət şəhəridir. Bu şəhəri Bilqamıs öz əlləri ilə salıb. Uruk adını Bilqamıs təsadüfən seçməyib. Uruk yurd-yuva, nəsil-kök mənalarını daşıyır. Uruk sozü bu gün də dilimizdə işlək haldadır. Bu gün xalqımızın gündəlik leksikonunda «Uruğun üzülsün!», «Uruk-turuğun kəsilsin», «Uruk -turuğun lənətə gəlsin!» kimi qarğışları işlədilir.

Dərin inam və böyük cəsarətlə demək olar ki, şumerlər dünyanın əzəli və əbədi qanunlarını – kainat (kosmos) və planet (yer) qanunlarını kifayət qədər incəliklə duymuş və onlara lazımınca əməl etmişlər. Daha doğrusu, bu qanunlara əməl etməyə özlərini, bir növ, məcbur etmişlər. Başa düşmüşlər ki, təbiətdə kainat və planet qanunlarına əməl etmədən yaşamaq və nəsil artırmaq heç cür mümkün deyildir.Qədim yunan alimi Pifaqor sonralar kainat (kosmos) və planetə (yer) bu cür baxışı «ezoterika» adlandırmışdır. Bu termini ilk dəfə elmə Pifaqor gətirmişdir. Ezoterika sözünün mənası gizli, sirli deməkdir. Yerlə göyün – mikrokosmosla makrokosmosun vahidliyi və bunların gizli, daxili əlaqəsi ezoterika adlandırılır.

Qədim şumerlər yaxşı dərk etmişlər kı, təbiətlə baş-başa, kəllə-kəlləyə gəlib yaşamaq olmaz, təbiətlə yalnız baş-başa verib həyatı davam etdirmək mümkündür. Şumerlər bu qənaətə uzun illərin dərin və hərtərəfli müşahidələrindən sonra gəlmişlər. «Bilqamıs» dastanı 12 lövhədən ibarətdir. Bu 12 lövhəyə də təsadüfi bir rəqəm kimi baxmaq olmaz. Çox maraqlıdır ki, 12 sayı «Bilqamıs»ın mənəvi varisi olan «Dədə-Qorqud» dastanında da davam etdirilmişdir. «Kitabi-Dədə Qorqud» dastanı da 12 boydan ibarətdir. Böyük ehtimalla demək olar ki, bu 12 rəqəmi ilin aylarına işarədir. Ancaq onu birmənalı demək olar ki, kosmik zaman dəyişilməzdir.

Qədim şumerlər zamanı nominallaşdırmışdılar. «Bilqamıs» dastanının Babil versiyasının 3-cü lövhəsi «Yel lövhəsi» adlanır. Şumerlər indi Novruz adlandırdığımız dünyanıdərk sisteminin ilkin qanunauyğunluqlarını yaratmışlar. Kainatın harmoniyasını yaradanın Anu (Göy Tanrısı), Planetin qurucusu Enlil (külək və yer Tanrısı) olduqlarını qəbul etmişlər. Şumerlər dialektikcəsinə qəbul ediblər ki, bu harmoniya həyatın, cəmiyyətin inkişafını tənzimləyir. Əksinə, disharmoniya fəlakətlərə səbəb ola bilərdi. «Bilqamıs» dastanında həyat ağacının yaşamağı və əbədi olmasının düsturu göstərilib. Bu da dualizmin yaratdığı əbədi və əzəli mübarizədir. İnsan həyatı yalnız ondan – hərəkətdən, mübarizədən asılıdır. Şumerlər insanın bioloji və əbədi yaşayışının kodlarını özləri üçün müəyyənləşdirmişdilər. Dastanda bu belə açıqlanır: «Çörəkdən ye, Enkidu, bu, həyat nemətidir, sikera içkinən sən, o, dünya qismətidir. Enkidu doyanacan, o ki var, çörək yedi. Üstündən yeddi küyüm sikera gillətdi. Onun ruhu oynadı, beyni tamam açıldı, qəlbinə sevinc doldu, çöhrəsini nur aldı». Şumerlər həyatlarının torpaqdan, sudan asılı olduğunu, həyatlarında əksliklərin vəhdətini, Günəş, Ay və Ulduzların ömür-günlərinə birbaşa təsir etdiklərini incəliklə duyublar. Onlar həyatlarında əksliklərin vəhdətini əyani şəkildə hiss etdiklərindən, təkamülə təkan verəcək dualizmə meyilli olublar. Bilqamıs dostu Enkidu ilə birlikdə Sidr meşəsində məskunlaşmış, ağzından alov çıxan, nəfəsi qan qoxuyan Humbabanı məhv edirlər. Humbabanın ölümünə bais olmuş Enkidu da Tanrılar tərəfindən ölümə məhkum edilir. Enkidu dostu Bilqamısın gözləri önündə işıqlı dünya ilə vidalaşır. Bilqamısın gözləri qaralır, gen dünya başına dar olur. Bilqamıs insan ölümünü qəbul etmək istəmir:

«Ölüm məni qorxudur, qoymur dayanım rahat,
Tapa bilərəmmi mən, görən, əbədi həyat?

Bilqamıs ölümə qalib gəlmək, insanları onun məşum əlindən qurtarmaq üçün çətin və məşəqqətli bir səfərə çıxır. Həyatın çıxılmazlıqlarına baş vurur, əzab-əziyyətlərə düçar olur. Ancaq min bir əzab-əziyyətdən sonra əldə etdiyi dirilik çiçəyi ona nəsib olmur. Ömür-gününü mübarizələrdə keçirmiş Bilqamıs həyatın əbədi omadığını dərk edir.

«Bilqamıs» dastanının ideya-mənəvi qaynaqlarını Novruz dəyərləri təşkil edir. E.ə. IV-III əsrlərdə şumerlər kosmoloji müşahidələr əsasında belə qənaətə gəlmişlər ki, səmada bürclərin harmonik hərəkətləri nəticəsində Planetdə (Yerdə) ciddi dəyişikliklər baş verir, fəsillər yaranır. Şumerlər dəqiqləşdirmişdilər ki, yeddi qardaş bürcü (şumerlər bu bürcə keçi bürcü deyirdilər), Şir bürcü (şumercə Çar bürcü) və Dolça bürcü (şumerlər Keçi bürcü deyirdilər) səmada yerlərini dəyişməklə fəsillər bir-birini əvəzləyir. Fevral ayının 10-da Şir bürcü Zenitdə olan vaxt Öküz bürcü göy üzündən çəkilir. Və 40 gün səmada görünmür. Göy üzündə bürclərin əsaslı formada yerlərini dəyişmələri Şirlə Öküzün «vuruşması», Şirin Öküzü didib-yeməsi» kimi qiymətləndirilir (60).

Bu astronomik kəşf, yenilik şumerlərin ən böyük kəşfi sayılmalıdır**.** Şumer təfəkküründün məhsulu olan bu kosmoloji kəşfin sayəsində Yaxın Şərqdə ilk dəfə baharın gəlişi, təbiətin dirçəlişi bayram edilmişdir. Şumer astronomları fəsillərlə bağlı təqvimlər tərtib etmiş, ulduzlarda baş verən yeniliklərə diqqət yetirmiş, kainat və təbiət proseslərində bunlardan şüurlu şəkildə istifadə etmişlər. Onlar əyani şəkildə müəyyən etmişdilər ki**,** yaz girən gündə (martın 22-də) səmada Şir deyilən ulduzlar topası göy üzünün ən uca nöqtəsində yerləşir. Şumerlərin bu astral elmi düşüncəsi bir çox tarixi mənbələrdə simvolik motivlər ilə rəsmlərdə təsvir edilmiş formada qorunub saxlanılıbdır. Həmin vaxt Yaxın Şərqdə Şirin (sonralar qanadlı şirin – qrifonun) Öküz və ya Maral üzərində qələbəsi təsvir edilmişdir. Azərbaycan ərazisində şir və maralla bağlı kompazisiyalı təsvirləri özündə qoruyub saxlamış xeyli sayda maddi mədəniyyət abidələri tapılmışdır. Qax rayonunun Qarabulaq

kəndi yaxınlığında tapılmış, 3-cü əsrə aid edilən gümüş qabda Novruz bayramının simvolik süjet-kompozisiyası – maralı parçalayan qanadlı şir (qrifon) təsvir olunubdur.

Hazırda Azərbaycan Tarixi Muzeyində saxlanılan, e.ə. birinci minilliyə aid edilən ikibaşlı tunc maral fiquru və Mingəçevirdə tapılmış, yenə həmin tarixi dövrə aid olan keramik riton (su qabı) və ona bitişik maral başı da Novruzla bağlı maddi mədəniyyət nümunələridir (61).

Qədim şumerlərdə yazın gəlməsi təzə məhsul ilinin başlanması və təbiətin dirçəlməsi ilə əlaqədar yaranmış İnanna-İştar ilahəsi və bitki tanrısı Tammuza (Dumuzu) barədə əsatirlər mövcuddur. Mifdə göstərilir ki, Ay tanrısı Sinin qızı məhsuldarlıq, artım ilahəsi, göy hakimi İnanna-İştar, bitki tanrısı Tammuzaya aşiq olmuşdur. Qızmar və bürkülü yay Tammuzaya əzab-əziyyət verir. Hər il yayın istisinə dözə bilməyən Tammuza ölür. Ölmüş Tammuza müharibə və ölüm tanrısı Nerqalanın yeraltı dünyasına gedir. Heç kəs, hətta tanrılar belə yeraltı dünyaya risk edib girə bilmir. Oraya yolu düşənlərin heç biri geri dönməyib. İlk dəfə bu qadağanı məhsuldarlıq ilahəsi olan İnanna-İştar pozur. O, yeraltı dünyaya təşrif buyurur. Ancaq o, məşəqqətlərə düçar olur. Erişqalın əmri ilə onu qaranlıq zindana atırlar. Ölüm tanrısı onu 60 cür xəstəliklə məhv etmək istəyir. İnanna-İştar zindanda olduğu müddətdə təbiət qış yuxusunda olur, həyatdan, inkişafdan əsər-əlamət hiss olunmur. Tanrılar çıxış yolu arayıb-axtarırlar. Onlar Eaya üz tuturlar. Tanrıların təkidli müraciətindən sonra Ereşqal İnanna-İştarı və Tammuzanı azad edirlər. Tammuza dirilir və sevgilisinə qovuşur. Təbiət dirçəlir, canlılara can bəxş edilir. Mif, dirilmiş bitki və su tanrısı Tammuzanın şərəfinə bayram şənliklərinə çağrışla tamamlanır (62, 34).

Qədim şumerlər yeni il bayramını mart ayında l-11 nisanda (aprel) keçirirdilər. Həmin vaxt artıq qış ömrünü başa vurmuş olur. Bayram mərasimləri Marduk-Esagil məbədi və Etemananki qalasında baş tuturdu. Hər ilin sonunda keçirilən bayram tədbirləri

şumerlərdə artıq ənənə halını almışdır. Bayram mərasimlərində Mardukun heykəlinə daha çox diqqət yetirilirdi. Heykəl dəbdəbəli və bahalı paltarlarla bəzədilirdi. Mərasimlərin ikinci günü baş kahin diqqətçəkən uzun çıxışı ilə tanrılara müraciət edirdi. Onun ardınca digər kahinlər çıxış edərək, Marduka nəzir kimi yemək gətirirdilər. Bu mərasim 3 nisanda (apreldə) davam etdirilirdi.

Allahların ağacdan heykəlləri qoyulur, qırmızı paltarlar geyindirilir, qızıl və digər qiymətli daş-qaşlarla bəzədilirdi. Bayramın dördüncü günü dualar oxunur, Marduka və arvadı Tsarpanitə qurbanlar verilirdi. Baş kahin ulduzlara diqqət etməli və müşahidələr aparmalı, onların yerdəyişmələrini müəyyənləşdirməli və məxsusi ovsunlar oxumalı idi. Axşam Mardukun heykəli qarşısında dünyanın yaranması barədə miflər oxunur, bu mövzuda süjetli səhnələr nümayiş etdirilir. Bayramın beşinci günü ovsunçu kahin müqəddəslərin təmizlənməsi mərasimini icra edirdi. Qoyun kəsilir, ovsunçu kahin həmin heyvanın qanından məbədin divarlarına səpirdi. Belə bir inam hakim idi ki, bütün günahlar və təmiz olmayan nə varsa heyvana keçirdi. Bundan sonra həmin heyvanı günahların bağışlanması qurbanı kimi çaya atırdılar. Bayramın sonrakı mərasimlərində aparıcı rol hökmdara məxsus idi. Hökmdarı məbədə gətirirdilər. Hökmdar Allahın heykəli qarşısında bütün hakimiyyət nişanlarını qoyurdu. Bundan sonra padşah keçmiş ildə gördüyü işlər barədə hesabat verir, yol verdiyi səhvləri səmimi etiraf edirdi. O, səhv və günahlarını sadaladıqca baş kahin padşahın üzünə vurur, qulağını çəkir və dini qayda və göstərişlərə əməl etməsini xatırladırdı. Bu proseduradan sonra padşah hakimiyyət rəmzlərini yenidən taxmaq səlahiyyəti qazanırdı. Elə həmin axşam padşah və baş kahin birlikdə məbədin həyətində qurban vermək naminə ağ öküz gətirirdilər. Yeni ilin 10-cu günü daha təntənəli keçirilirdi. Bu gün daha çox kütləviliyi ilə seçilirdi. Padşah Mardukun əlinə toxunub, ondan ayağa qalxmasına icazə istəməklə**,** öz taxt-tacına yenidən yiyələnir**.** Camaat Marduku ətrafı ilə birlikdə

gəmilərə əyləşdirib, Fərat çayı ilə üzüyuxarı aparıb, şəhərdən kənara çıxarırdılar. Əhali Babil şəhərindən kənarda, Yeni il bayramı evində bayram mərasimini davam etdirirdi. Yeni il bayramı evində müxtəlif süjetli miflər səhnələşdirilir, dramatik tamaşalar oynanılırdı. Marduk özü baş rolu ifa edirdi. Süjetə uyğun olaraq, hər il Allahı bir cinayətkarla dağlara aparır və orada cinayətkarı öldürürdülər. Marduku orada sual yağışına tutur və döyürdülər. Bu ərəfədə Allahın yoxa çıxması barədə şəhərdə yeni bir səhnə oynanılırdı. Allahın yoxa çıxması səbəbindən Ay və Günəş də yox olurdular. Sonradan Ay və Günəş də Allahın qayıtması ilə geri dönürdülər. Allahın arvadı ərini axtarıb tapdıqdan sonra qayıdardı (27, 74-75).

Qədim şumerlərdə padşahın il ərzində gördüyü işlər barədə Allaha hesabat verməsi və hakimiyyətindən imtina etməsi çox-çox sonralar türk və İran xalqlarında bu və ya digər formada bir ənənə kimi davam etdirilmişdir. Fikrimizcə, Azərbaycan xalqının Novruz mərasimlərində qeyd etdikləri «Xan bəzəmə» törəni elə şumerlərin yuxarıda söhbət açdığımız mifindən qaynaqlanmışdır.

Şumerlərin ümumi dünyabaxışı, o cümlədən kosmoloji dünyagörüşləri ilə türk xalqlarının təfəkkür tərzi arasında ciddi eynilik və paralellər mövcuddur. Şumerlərin inamına görə, dünyanın yaranmasının ilkin və əsas ünsürləri torpaq və səma (yer və göy) idi. Elə bu dünyagörüşün nəticəsidir ki, şumerlər kainatı An-Ki (yer-göy) adlandırırdılar. Şumerlərin inamına görə, yer yastı disk, göy isə boş məkan olmaqla, aşağıdan və yuxarıdan möhkəm səthə söykənmişdir. Yerlə göy arasında üçüncü material – lil, külək, hava və ruh yerləşirdi, Onlar bununla atmosferi nəzərdə tuturmuşlar. Ay, Günəş, planet və ulduzlar atmosferin yaratdıqlarıdır – göy-yer aşağıdan, yuxarıdan, hər iki tərəfdən intəhasız okeanlarla əhatə olunmuşdur. Şumerlərin kosmoloji bilikləri kifayət qədər zəngin olmuşdur. Onların düşüncələrinə görə, birinci okean yaranmışdır. İlkin hərəkətverici okean olmuşdur. Sonra atmosfer yaramışdır ki,

ondan da işıq mənbəyi olan Günəş, Ay, planet və ulduzlar yaranıblar. Göyün yerdən ayrılması ilə bitkilər, heyvanlar və insanlar yaranmışlar (27, 89).

Şumerlərin hansı xalqın əcdadları olması bəzi tarixi mübahisəyə səbəb olsa da, ancaq bəşəriyyətin ilkin övladları, özü də ağıllı, təfəkkürlü olmaları bütün dünya tədqiqatçıları tərəfindən mübahisəsiz qəbul edilibdir. Şumerlər harmonik, biçimlənmiş, gerçək və dinamik təfəkkür sahibi olublar. Sivilizasiyanın bugünkü kosmik inkişafı prizmasından da baxsaq görərik ki, şumerlər arxaik və primitiv təfəkkür tərzinə malik olmayıblar. Onların tarixi hərəkət trayektoriyası da zamanın qaçılmaz gerçəkliyidir. Şumerşünasların əksəriyyəti onların Babilistana Mərkəzi Asiyadan gəldiklərini, akkad və semitlərlə vuruşdan sonra doğma yurdlarına – Mərkəzi Asiyaya və Orxon-Yeniseyə qayıtdıqlarını təsdiqləyirlər (13).

«Zəngin mədəniyyətə, dil və ədəbiyyata, elmə və sənətə malik olan şumerlər Babilistandan «silinib», o torpaqdan çıxsalar da, yer üzündən silinə, tarix səhnəsindən çıxa bilməzdilər. Şumerlər məğlubiyyətdən sonra semitlərlə barışa, Dəclə-Fərat çayları arasına sığınıb qala bilməmişlər» (13, 18).

Qədim Yunanıstanın filosof tarixçisi Aristotel və ondan sonra gələnlər şumerlərin dünya mədəniyyətinin ilkin yaradıcıları olduqlarını qəbul etmişlər. Tarixi həqiqəti olduğu kimi qəbul etmiş bir çox tarixçilər şumerlərin qədim türklərin əcdadı olduqlarını birmənalı təsdiqləmişlər. E.Əlibəyzadə «Azərbaycan xalqının mənəvi mədəniyyət tarixi» əsərində 1861-ci ildə Sankt-Peterburqda nəşr edilmiş «Çetıre stati iz Zendavesta» kitabından belə bir nümunə gətirir: «Maqlar mənşə və soykökü etibarı ilə şumerlərlə qohum idilər» (12, 214).

İngilis alimləri S.Leoyd və Q.Çayld bu qənaətə gəlmişdirlər: «Turanlılar təxminən 10-12 min il bundan əvvəl səfalı, bəhrəli Dəclə və Fərat çayları hövzəsində məskən salıb, ətraflarında yaşayan saysız-hesabsız vəhşi qəbilələrin heyrətli nəzərləri altında dünya

sivilizasiyasının səhərini açdılar. Dünyada ulu bir mədəniyyətin məşəli alışdı (12, 62).

Fransız alimi E.Rekli də bu fikirdədir ki, şumerlərin dilində İran və semit dillərinə xas olan cizgilər yoxdur, əksinə Turan və Ural-Altay dilləri ilə birbaşa qohumluq vardır (12, 63).

Türk alimi Ahmet Cavat isə birmənalı şəkildə yazır: «Şumer dilinin turani dillərə bənzədiyi artıq qəbul edilmişdir. Şumerlər haqqında ən yeni və mötəbər əsər nəşr etdirən Vooley şumerlərin morfoloji cəhətdən «əski türkcəyə bənzər» bir dildə danışdığını qəbul edir. «Şumerlər türkdür, şumerlərin türk olduğu məsələsinin çoxlu sübutları var. Bizi bu qənaətə gətirən iki ən güclü sübut vardır:

1) dil sübutu, 2) geoloji və arxeoloji sübut» (12, 63-64).

Tanınmış şumerşünasların bir çoxu şumerlərin iskit-türk mənşəli xalq olduğunu təsdiqləyirlər. Məşhur şumerşünas alimlər M.Belitski, D.Reder, E.Reklü, F.Qommel, Vooley və b. şumerlərin türklərlə genetik qohum olduqlarını qeyd ediblər.

Dmitri Reder yazır: «Şumerlərin dili ayrıca bir dildir. Bizə məlum dil ailələri ilə onu bağlamaq, hələlik əsaslı və mübahisəsiz nəticələr verməmişdir. Yalnız onu qəti demək olar ki, o, iltisaqi dillər ailəsinə daxildir və öz quruluşuna görə ən çox türk dilləri ilə müqayisə edilə bilər» (73, 15). Polyak alimi Marian Belitskiyə görə, Babilistana gələn şumerlər özləri ilə yüksək mədəniyyət gətirmişlər. Onlar soykökü, dil və mədəniyyətinə görə semit tayfalarına yaddırlar (72, 48). E.Əlibəyzadə «Qədim dünyanın ulu kitabı» monoqrafiyasında tanınmış şumerşünas Elize Reklüdən maraqlı bir iqtibas gətirir: «Qədim yazıların şəhadətinə görə, Babil sivilizasiyasını inkişaf etdirənlər Hind – Avropa dillərində danışıb, özlərini dil və mənşəcə Avropanın həqiqi və yalançı ari xalqlarının qohumu sayan qəbilələr olmamışlar. Arilərin bütün sahələrdə tam üstünlüyünün təsiri altında olan assirioloqlar özlərinin bu kəşfindən xeyli heyrətə gəldilər, onlar heyrət içində gördülər ki, ən qədim

oxşəkilli yazıların dilində İran və semit dillərinə xas olan cizgilər qətiyyən yoxdur. Əksinə, Turan və Ural-Altay dilləri ilə birbaşa qohumluq var. Bu ilkin yazılı işarələrin ifadə etdiyi dil iltisaqi dillər tipinə aiddir və öz xarakterinə, özünəməxsus daxili fleksiyasına görə tamamilə başqa bir dildir, Babilistanın digər müxtəlif sakinlərinin danışığına heç cür uyğun gəlmir» (13, 19).

Bu səpkili nümunələr onlarcadır. Şumerşünasların bir çoxu şumer abidələrində işlənmiş sözlərin bu gün də dəyişilmədən türk dillərində işlənildiyini qeyd edirlər. Məşhur şumerşünas S.N.Kramer «Tarix şumerdə başlayır» (Moskva, 1965) kitabında «Əkinçinin təqvimi» adlı şumer mətninin tərcüməsində torpaq ölçü vahidi olan qaruş-qarış sözünü olduğu kimi saxlamış, tərcümə etməmişdir. S.N.Kramer yazır: «Əkinçiyə hər qaruş torpağı, səkkiz şırım etmək məsləhətdir. O, elə etməlidir ki, toxumlar torpağa «iki barmaq» dərinliyində düşsün» (71, 80).

Məlumdur ki, qaruş=qarış sözü bu günün özündə əski mənasını qoruyub saxlamaqdadır. Bu günün özündə belə dilimizdə «bir qarış torpaq» ifadəsi işlənir. Müasir Azərbaycan türkcəsində şumerlərə aid olan bir sıra sözlər mövcuddur. Məsələn, arpa, saman, su, qanun, un, gülab, min, əl, tanrı və s. (62,59). Ümumən, türk dillərində qədim şumer dilinə xas olan yüzlərlə söz vardır. Bəzi təqiqatçıların şumerləri eyniləşdirdikləri semit dillərində belə nümunələrə rast gəlmək mümkün deyildir. Bu dəyişilməmiş dil faktları da bir daha şumerlərin türklərin sələfləri olduğunu təsdiqləyir.

Türk etnosunun zəngin həyat tərzi, mükəmməl bir mədəniyyət sisteminin yaradıcısı olması, dünya sivilizasiyasında əlahiddə payı olduğu artıq dünya etnokulturologiyası tərəfindən etiraf olunmuşdur. Etnosun adını ifadə edən türk sözünün özünün etimoloji açımı «törətmək», «yaratmaq», «qayda-qanun yaradan», «güclü, qüvvətli» mənalarını verir.

Qədim türklər bu gün dünyanın siyasi xəritəsinin böyük bir hissəsini tutan Türküstan adlanan ərazinin sakinləri və sahibləri

olmuşlar. Şimalda Köqmən (Sayan) dağlarına, Sibir meşələrinə, Cənubda Tibetə, Şərqdə Sakit okeana, Sarı dənizə, Qərbdə isə Aral gölünə, Xəzər dənizinə, sonralardan isə Qərbi Avropaya uzanmış böyük ərazini əhatə etmişlər. Bu danılmaz faktı tarixin özü təsdiqləyir. Dəfələrlə aparılmış arxeoloji araşdırmalar nəticəsində də sübut edilmişdir ki, qədim Turan (Türküstan) adlanan coğrafi məkanda türklərdən əvvəl hansısa bir etnosun yaşadığını təsdiqləyəcək heç bir maddi mədəniyyət nişanəsi yoxdur. Bu danılmaz faktdan cəsarət və inamla çıxış etmək olar ki**,** tarixin qədim və ulu xalqlarından olan türklər tarixə yoldaşlıq etmişlər. Turan Avrasiyanın mərkəzində yerləşdiyindən Şərqlə Qərb arasında ciddi maddi-mənəvi-siyasi balans və inteqrasiya yaratmışdır.

Qədim türklər bənzərsiz və dəyərli həyat tərzi yaşamışlar. Türklər köçəri həyat tərzinə üstünlük vermişlər. Türklər heyvan sürülərini Böyük Çölün-Turanın dörd tərəfində otarırdılar. Həmin dövrü özündə qoruyub-saxlayan Çin mənbələrində yazılıb: «Həmişə durduqları yer yoxdur, amma hər kəsin özünün torpaq sahəsi var». Çin mənbələrinin məlumatı da təsdiqləyir ki, türklərin hərəkəti, köçü öz torpaqlarının sərhədləri daxilində olub. Yayın istisində dağlara üz tutmuş türklər dağlara qar düşəndə öz sürülərini aşağılara-düzənliyə qaytarırdı. Qədim türklər Turan adlanan öz Böyük Vətənlərinin şərqindən qərbinə, şimalından cənubuna, yaylaqdan arana, istidən soyuğa və əksinə, könüllü köç edirdilər (44, 7). Dünya sivilizasiyasının inkişafında türklərin mədəni yeniliklərinin böyük rolu olmuşdur. Qədim türklər bəşər tarixində ilk dəfə olaraq atı əhilləşdirmiş, döyüş paltarı və bir çox silah-sursatın yaradıcılarıdır. Türklər heyvandarlıq məhsullarından özləri üçün zəruri olan geyim, məişət və qida ehtiyaclarını ödəyirdilər. Həyat və məişətini öz əlləri ilə quran türklər yemək, geyim, ümumən, həyat və məişətdə istifadə edilən predmet üçün qonşularına möhtac olmayıblar.

Mənbələrdə göstərilir ki, Çindən gələn Yuye adlı xacənin hökmdar, Laoşan Şanyuya (Metenin oğlu) verdiyi məsləhət məsə-

lənin əsl mahiyyətini birbaşa açıqlayır: «Sayca hunlar Çinin bir vilayətinin əhalisi ilə müqayisə oluna bilməz, ancaq onlar (hunlar) ona görə güclüdür ki, çinlilərdən fərqli geyimləri və yeməkləri vardır. Bu məsələdə Çindən asılı deyildirlər (44, 8).

Qədim türklərin ilk inamlarından biri şamançılıq olmuşdur. Şamanizm Sibir türkləri arasında xristianlıq təşəkkül tapmayana qədər (XVI-XVIII əsrlərə qədər) geniş yayılmışdır. Şamançılıq da digər inam, inanc formaları kimi, insanların dünyadərkinə, həyat və taleyinin mükəmməl yardımçısı olubdur. Şamanizmin mayasında təbiəti duymaq, onu hiss etmək, onunla birlikdə olmaq, bir sözlə, təbiətə qovuşmaq dururdu. İnsanoğlu həyatının bilavasitə təbiətdən asılı olduğunu ilkin dövrlərdən açıq-aydın dərk etmişdir. Olumunun və ölümünün yalnız təbiətlə bağlı olduğunu intuisiyası ilə duyan insan onunla birlikdə olmaqdan ötrü təbiətin mübhəmliklərinə əl aparmışdır. Qədim türklər səhv etməmişdir. Dünyanıdərk, elə təbiəti duymaqdan başlayıbdır. Bir daha vurğulayırıq ki, bugünkü təfəkkürə əsaslanıb şamanizmi tədqiq edəndə qədim türklərin dünyaya ilkin baxışının heç də primitiv olmadığını görürük. Əksinə, bəşərin ibtidai inkişaf dövrü üçün şamanizm son dərəcə yüksək dünyagörüşü özündə cəmləyir. İlkin dövrlərdən türklər dünyanın inkişafını əksiliklərin vəhdətində axtarmış, dualist baxışa yiyələnmişlər. Elə bu dualist baxışın əyani nəticəsidir ki, hər şeyə əksliklərin vəhdətində baxan qədim türklər şamanları da iki qrupa bölmüşlər: ağ və qara şamanlar. Əski türk soyu yerüstü tanrısı Ülgenin rəngini «ağ» qəbul etmişdir (15). Türk xalqları olan buryatlarda, yakut və altaylarda ağ və qara şamanlıq geniş yayılmışdır. Qara şamanlıq adi idi. Ağ şamanlıq birbaşa xeyirxah ilahələrə xidmət edirdi. Ağ şamanlığın mahiyyətində birbaşa xeyrə, işığa qovuşmaq dururdu (45, 95). Buryat və yakutlarda dəmirçi ilə şamanı eyni mövqedə təsəvvür edirdilər. Onlarda belə bir düşüncə hakim idi ki, dəmirçi şamana bərabərdir və hətta ondan güclüdür. Elə bu inamın nəticəsi idi ki, yakutlar deyirdilər: «Dəmirçi ilə şaman bir yuvadandır». Buryatların inamınca isə, dəmirçi şamanı

qeyri-adi şəkildə öldürə bilər, şaman isə dəmirçini öldürə bilməz. Buryatlar şamanları oldugu kimi, dəmirçiləri də ağ və qara adı ilə iki yerə bölürdülər. Onlar qara dəmirçilərdən qorxardılar. Belə bir inam var idi ki, qara dəmirçilər insan ruhunu yeyə bilərdilər (45, 96).

Türk təfəkküründə dualizmin yaranması da birbaşa təbiətin diktəsidir. Qədim insan dünyaya ilkin göz açanda ətrafında təbiəti görüb, təbiətin qoynunda yaşayıb, onun isti-soyuğunu «dərisində» duyub, qarını-şaxtasını canında, qanında hiss edibdir. İnsanın əyani şəkildə görüb-duyduğu, müşahidə etdiyi, canlı şahidi olduğu dəyişilməz və təkrarlanan təbiət hadisələri dualizmi yaratmışdır. Bu gün Novruz kimi tanıdığımız dünyanıdərk sisteminin özülündə əsasən dualizm dayanıbdır. Novruz adlandırdığımız dünyagörüşünün ən vacib məramı təbiəti duymaq, onu dərk etmək və ona qovuşmaqdır. Novruzun bir çox komponentlərinə, atributlarına şamanzimdə açıq-aydın rast gəlirik. Qədim türklər qəbilə və soyda xüsusi biliyi, fərasət və hərəkətləri ilə seçilənlərə kam-qam (şaman) demişlər. Şamanlar-qamlar xüsusi paltarlar geyir, dəf çalır, nəğmə oxuyur, rəqslər və digər mütəhərrik hərəkətlər etməklə özlərini ekstaz vəziyyətinə gətirirdilər. Qeyri-adi hala çatmış qam-şamanlar adi durumdan çıxdıqdan sonra ruhlarla əlaqəyə girirdilər. Yakutların oyun tanğası adlandırdıqları qam paltarı maral və ağ qoyun dərisindən olurdu, papağı qırmızı parçadan hazırlanırdı və çevrəsinə üç dənə düymə tikilirdi, müxtəlif onqan heykəlləri asılırdı (15, 30). Diqqəti cəlb edən paltarlar geyinmək, nəğmə oxumaq, rəqs etmək, dəf çalmaq kimi komponentlər Novruzun da əsas ünsürlərindəndir. Şamanlar göyü və yeri müqəddəs bilmişlər. Gələcəkdə şaman olacaq şəxsin birinci sınağı su kənarında üzüüstə torpağa yıxılmasıdır. Buna təsadüfi baxmaq olmaz. Bu inanc su və torpaq inancının başlanğıcıdır (15, 23). Yer türklərdə ana (qadın), göy kişi (ər) rəmzində qəbul olunub. Göylərin yağışı yerləri mayalandırıb – ot bitib, taxıl yetişib. Bu dünyagörüş – yerlə göyün vəhdəti şamançılıqdan çox-çox əvvəl türklər arasında geniş yayılmışdır.

Qədim türk düşüncəsinə görə, yuxarıda göy, aşağıda yer yarandıqdan sonra onların arasında insan övladı əmələ gəlmişdir. Göy üzündəki Günəş türklər arasında əlahiddə ilahi məna daşımışdır. Türk xaqanının çadırı həmişə üzü Şərqə-gündoğan tərəfə qurularmış. Günəş müqəddəsliyinin mayasında təbiətin bir çox komponentləri durur. Günəş qurd, aslan bəlgəsi olmaqla yanaşı, təbiətin əsas yaradıcı ünsürlərindən olan odun da gerçək simvolu və özü idi. Odun insan tərəfindən əldə edilməsi bütövlükdə bəşəriyyətin həyatında əsaslı dönüşə səbəb olmuşdur. Təbiətin ən vacib olan dörd ünsürü (od, su, torpaq, hava) barədə qabaqda danışacağımızdan burada söhbət açmağı lüzum bilmirik. Ona görə ki, qədim türklər şamançılıqdan sonra dünyanıdərkin ali məqamı sayılan Tanrıçılıq məqamına yüksəlmişlər. Tanrıçılığa gələn yol şamançılıqdan keçir. Şamançılığın özündə də Tanrıya-ruha qovuşma mərkəzi yer tuturdu. Qədim türklər qəlbən, mənən Tanrıya bağlı olublar. Həyatlarının yalnız Tanrıdan asılı olacağını, gələcək günlərinin təminatını da Tanrıda görüblər. Tanrıçılıq inancı eradan əvvəl Sayan, Altay, Orta və Mərkəzi Asiyada, Qıpçaq düzlərində, Oafqazın şimal və cənubunda geniş yayılmışdı. Qədim türklərdə Allah-Tenqrı, Tenqri xan adlandırılırdı. Məşhur fransız türkoloqu və dinşünası Yan Pol Runun düşüncəsinə görə, e.ə. türklərdə «İnsan – Göy», «İnsan – Günəş» Tenqri (Tanrı) sitayiş obyekti olmuşdur. Çin tarixçiləri də Tenqri Allahının meydana gəlməsini e.ə. 5-ci əsrə aid etmişlər (45, 100). Bu gün bizim Tanrı kimi qəbul etdiyimiz Allaha buryatlar Tenqri, monqollar Tenqer, Çuvaşlar Tura desələr də, məna-məzmun eynidir. Tanrı – işıq, ruh, şəxsləndirilmiş kişi ilahi başlanğıcı məzmununu daşımışdır (45, 100). Burada onu da qeyd etmək yerinə düşərdi. Bir çox şumer ədəbiyyatında şumerlərin Tanrıya (Allaha) dinqir dedikləri göstərilir (72, 500). Ümumiyyətlə, Tanrı sözünü işlədən xalqlar onu göy üzü, səma ilə bağlamışlar. M.Seyidovun gəldiyi qənaət belədir: tenqri əski türklərə aiddir (15, 52). Tenqri, Tanrı kosmik miqyasda, kainat parametrində düşünülmüşdür. Göyün-kainatın, yerin-planetin, ümumən, canlı-cansız

aləmin taleyini Tanrının müəyyənləşdirdiyini qəbul etmişlər. Başqa xalqlardan fərqli olaraq, türklərdə Allah tək idi. Yuxarıda göstərdik ki, Tanrıya şəxsləndirilmiş kişi bəlgəsi kimi də inanmışlar. Doğum ilahəsi olan Umay Tanrının xanımı imiş. Umay gözəllik və artım ilahəsi imiş. Umay adına Orxon-Yenisey abidələrində də rast gəlirik. Qədim türk mənbələri göstərir ki, xaqan, onun ordusu Tanrı ilə Umaya, adətən, birlikdə ibadət edər, döyüşlərdən zəfərlə qayıtmaq niyyəti ilə onlardan yardım diləyərmişlər (33, 14). Bu dövr Tanrının mifikləşdirildiyi dövr idi. Uzun illərin təfəkkür dəyişikliyindən sonra Tanrı mif dövrünü başa vurur, birdəfəlik göylərə yüksəlir. Dünyaya meydan oxuyan türk xaqanının özü Tanrıya sığınır. Tanrıçılıq dininin formalaşması və yayılmasında türk xaqanları xüsusi rol oynamışlar. Türklər göyü doqquz qata bölmüşlər. Hər bir qatda dixotomiyanı (ikiyə bölünmə) təsəvvür edirdilər: işıqlı və qaranlıq**,** xeyir və şər və s. Yakutlarda xeyir Allahı-Ayn-Toyon (və ya Aar Toyon), yeraltı şər qocası Allara Ohonyor (və ya Arsan Duolay) adlandırılımışdır. Altay türklərində işıq allahı Ulgen, şər ilahəsi Erlik sayılırdı (45, 103). Tam əminliklə demək olar ki, «Avesta», sırf türklərin dünyagörüşünün məhsulu olan Tanrıçılıqdan gen-bol bəhrələnmişdir. Bu dualizm ilkin olaraq türk təfəkküründə yaranmış, sonrakı tarixi mərhələlərdə də özünü həyatın inkişaf qanunu kimi doğrultduğundan əbədi həyat qanunu statusu qazanmışdır. Dualizm-təbiət və cəmiyyətin qanunauyğunluğudur. Bu əzəli-əbədi qanun təbiət və cəmiyyətin simmetriyasıdır. Kainat və planetin, təbiət və cəmiyyətin gözlə görünməz harrmoniyasını dualizm tənzimləyir. Dualizm, ən başlıcası, həyatın dinamikasıdır. Elə bu məqamda onu da vurğulamaq istərdik ki, Novruz sisteminin də mərkəzində dualizm durur. Bundan başqa, bütün dünya dinlərinin nüvəsində Novruz sisteminin komponentləri dayanır. Novruz sistemi həyatın inkişaf qanunlarının məcmusudur. Tanrıçılıq dininin də bazasında Novruz təfəkküründən süzülüb gələn ideyalar durur. Monqollar göydə müəyyən ulduzlar və ulduz bürclərinin yaranması ilə əlaqədar Tenqri xana müxtəlif ləqəblər

vermişdilər. İlin müxtəlif vaxtlarında Göy-Tanrının başqa-başqa adı olurdu. Ona görə ki, göydə, ümumən, həyat və təbiətdə olduğu kimi, vaxtlı-vaxtında dəyişikliklər baş verirdi (45, 101).

Bu gün Novruz kimi qəbul etdiyimiz sistemin mərkəzində dünyanıdərk, kainat və təbiətin kod və koordinatlarını ələ keçirmək dururdu. Tam məsuliyyətlə deyə bilərik ki, buna da ilk dəfə qədim türklər nail olmuşlar. Ayağının altındakı yerin başının üstündəki Göy-Tanrıdan asılı olduğunu əcdadlarımız həssaslıqla müəyyən etmişdilər. İbn Fədlanın yazdığına görə, haqsızlığa rast gələn, ədalətsizliyə düçar olan oğuzlar başlarını göyə qaldırıb deyərdilər: «Bir Tenqri!» (11, 83). Göy-Tanrının varlığını türklər, peyğəmbərlər və onların müqəddəs kitabları ilə deyil, birbaşa Göy-Tanrının türklərə bəxş etdiyi kodlar vasitəsi ilə dərk etmişlər. Bir çox xalqlardan fərqli olaraq, türklər dünyanıdərkə Tanrını (tək Allahı) dərk etməklə başlamışlar. Digər xalqlar türklərdən çox-çox sonralar təkallahlılığa gəlib çıxmışlar. Bu dərketməni müxtəlif fonetik dəyişmələrlə şumerlərin Dingir (tanrı) deyimindən başlamış Tengeri (Altay), Tanrı (Azərbaycan və Türkiyə), Teniri (qazax), Tenre (başqırd), Tenri (uyğur), Tangrı (özbək), Tenir (qaraqalpaq), Tura və ya Tora (çuvaş), Tenir (qırğız) və b. türk xalqlarının təfəkküründə uzun bir proses keçdiyinin şahidi oluruq. Tanrının türk xalqlarında indi Allah dediyimiz (biz bu gün də daha çox Tanrı deyirik) və göy üzü-səma mənasında işlənildiyi artıq bütün dünya tədqiqatçıları təsdiqləyirlər. Bəşəriyyətin sonrakı mədəni inkişafı bir daha əyani formada türklərin dünyanıdərk təfəkküründün böyüklüyünü təsdiqlədi. Türklərin Göy-Tanrı inamından çox-çox sonralar meydana gəlmiş monoteist dinlər, o cümlədən ən mütərəqqi və sonuncu din sayılan islam dininin təməl dəyərlərindən çıxış edərək deyə bilərik ki, türklər Tanrının kimliyini kifayət qədər dərk etmişlər. İslam dininin buyurduğu: la ilahə illəllah (Allahdan başqa Allah yoxdur) dünyagörüşünə türklər e.ə. gəlib çıxmışdılar.

Maraqlı tədqiqatlar müəllifi olan alman alimi Q.Dörfer Tenqri barədə qədim məlumatlar əldə etmiş, Tenqri anlayışının erkən, hələ şamanlardan başlamış, onu dini inkişafın ən ali pilləsinədək təşəkkülünü ardıcıl izləmişdir. Tədqiqatçının fikirincə, Tanrıçılıq bəşəriyyətin ilk monoteist dinlərindəndir (45, 101). Bu məsələdə türkoloqlarla həmfikir olan dünyanın tanınmış teoloqları da türklərin hələ eradan çox-çox əvvəl bütpərəstlikdən uzaqlaşdıqlarını dönə-dönə qeyd etmişlər.

Əski türklər kainat (kosmos) və planetin (yerin) başlanğıcının bir olan Tanrı olduğuna şəksiz-şübhəsiz inanmışlar. D.Banzarovun təbirincə desək, göy üzü hər zaman yerdəki düzənin, ədalətin, qanunun qoruyucusu missiyasını öz üzərində daşımışdır. Türk mifik düşüncəsinə görə, göy üzü bütün canlılara həyat, yer isə forma, şəkil verir (11, 86).

Novruz sisteminin bazisində Tanrıçılıq durur. Novruzdakı Tanrı-Göy (Kosmos) – Planet (Yer) harmoniyası, işıq-zülmət, xeyir-şər qarşılıqlı (dualizm) və s. anlayışlar Tanrıçılıqdan qidalanır. Bu günün özündə də Tanrı inamı və inancı yaşayır. Hər şeyi Tanrının umuduna buraxmaq bu günün özündə hələ də şüuraltında qalmaqdadır. Bu gün də deyirik: «Hər şeyin yaxşısını Tanrı bilir», «Tanrı bilsin», «Qoy Tanrı özü cəzasını versin» və s.

Qədim türklər Tanrının yeganə güc mərkəzi olduğunu, onun ədalətsizlik edənləri, günah işlədənləri – Göy-Yer, Kainat-Planet qayda-qanunlarının əleyhinə gedənləri cəzalandırdığını yaxşı dərk etmişdilər. Türk mifoloji düşüncəsinə görə, dünyanı on yeddi ilahə idarə edir. Bunlar aşağıdakılardır:

Göy-Tanrı, Yer-Sub, Humay, Erlik, Yer, Su, Od, Günəş, Ay, Ulduz, Hava, Bulud, Külək, Qasırğa, Şimşək və İldırım, Yağış, Göy qurşağı. Monqollar isə dünyanı 99 İlahənin idarə etdiyinə inanırdılar. Göy-Tanrı baş Tanrı olduğundan 17 ilahəni xəlq edəndir. Bu mifikləşdirilmiş 17 Tanrı Novruz sisteminin ən əsas komponentləridir. Bu ünsürlərsiz kainat və planet, təbiət və cəmiy-

yət, bütövlükdə bəşəriyyət yoxdur. Yer-Sub türklər üçün gözlə görünən bütün aləm demək idi. Türklər, üzərində yaşadıqları vətəni – torpağı Yer-Sub anlayışında qəbul edirdilər. Onlar vətənə Tanrı haqqı kimi baxırdılar. Elə bu təfəkkürün nəticəsi idi ki, türklər vətənə xəyanətdən qorxardılar. Onların düşüncəsinə görə, Yer-Subun halallığı olmadan insan yer üzərində xoşbəxt ola bilməzdi. İkinci ilahə Humaydır. Onun adına ilk dəfə Gültəkin abidəsində rast gəlinibdir: «Umay təq öq im katun kutınqa inim Kültiqin ərat boltı» (On yaşda olanda Humay tək anam Xatunun şərəflnə kiçik qardaşım Kültigin igid adı qazandı) (33, 261).

Tonyuquq abidəsində də Umay adına rast gəlinir. Humay-Umay Göy-Tanrının zövcəsidir. Humay-Umayın Göydə yaşadığına inanılır. O, insanlara işıq, şüa salır. Belə bir inam hasil idi ki, bu şüa-işıq insanların bədəninə daxil olur və ömrünün axırına qədər qalır.

Bu, ilahi (kosmik) enerjidir. Qədim türklər Yer ilahəsini də Göy-Tanrının tərəf-müqabili – qadını simvolunda qəbul etmişlər. Türklərin düşüncəsinə görə, Göy-Tanrı yerləri mayalayır. Yağış yağır, yer canlanır, ot-ələf bitir, canlılar onlardan qidalanır. Qədim türklər dağı, torpağı yaradıcı saymışlar. Türk tayfalarının bir çoxu əcdadlarının dağda, mağarada yaranmasına inanmışlar. Əcdadlarımız olan türk tayfalarının bəziləri insanın torpaqdan yarandığını qəbul etmişlər. Fikrimizcə, türklər digər həyat ünsürləri kimi, yeri-torpağı da canlı qəbul etmişlər. Bu, səhv düşüncə olmamışdır. «torpağın ana olması inamı daha bir görüşlə səsləşir. Bir çox əski xalqların, eləcə də türk xalqlarının ulu babaları inanırmışlar ki, Günəş hər nəsnənin yaradıcısıdır. Deyəsən, əski türk insanı inanmış ki, Günəşdən torpağa gələn yaruq – şüa onun da yaranmasında ata rolunu oynamışdır» (15, 87). Türklər bu düşüncələrində də ağıllı və haqlı idilər. Günəş şüası olmadan yer üzərində canlı aləmin mövcud olması mümkün deyildir. Ümumən, türklər bu düşüncə də idilər ki, yer ana kimi insanları doyurur. Bu işıqlı dünya ilə vida-

laşanda da yer ona əbədilik yiyə durur. Yer (torpaq) türk düşüncəsində əzəli-əbədi müqəddəs tutulubdur.

Qədim türklərə görə, Su Yerin bacısı idi. Kosmoqonik düşüncəyə əsasən, əvvəlcə təkcə su varmış. Suya baş vurmuş səma ördəyi dəryadan torpaq götürmüşdür. Səma ördəyinin götürdüyü torpaqdan Yer yaranmışdır. Əfsanəyə görə, Tanrı torpaqdan kişi, kişinin qabırğasından da qadını yaratmışdır. Çox maraqlıdır ki, insanın yaradılışı elə bu şəkildə islam dinində də qəbul olunubdur. İslam dininə görə də, Tanrı insan övladı Adəmi torpaqdan, Həvvanı isə onun qabırğasından yaratmışdır. Qədim türklərin suya müqəddəs baxmalarının kökündə suyun həyat elementi olması dururdu. Su həyatdır. Onsuz həyatın inkişafı, intişarı yoxdur. Turanlılar odu Tanrının nəfəsi, günəşin oğlu hesab edirdilər. Türklər o düşüncə də idilər ki, od tanrısı yerdə yaşasa da, öləndən sonra tüstü şəklində göylərə qalxmasını ata-babaya qovuşması düşüncəsində idilər. Türklər yazın tez gəlməsi üçün Günəşə üz tutub odu, istini diləyiblər. «Odun, istinin bəlgəsi çırağı-odu yandırırlar və bununla inanırdılar ki, od çevrəni, torpağı qızdıracaq, onu əkinə hazırlayacaq, otu bitirəcəkdir» (17, 13). İnsanlar suya dirilik-əbədilik mənbəyi kimi baxmışlar. Suya olan bu münasibət onu digər ünsürlərdən tamamilə üstün tutulduğunu göstərir. Belə deyirlər ki, Xızırla İlyas eşidirlər ki, İskəndər abi-həyat axtarır. Onun yanına gedirlər. İskəndərin qaranlığı işıqlandıran iki daşı varmış. Onun birini Xızırla İlyasa verir. Hərəsi üz tutub dünyanın bir tərəfinə su dalınca gedirlər. Qaranlıq dünyada Xızırla İlyas acırlar, balıq yeməyə hazırlaşırlar. Xızır əlini yuyub yeməyə başlamaq istəyəndə əlindən bir damla su balığın üstünə düşür. Balıq dirilərək suya atılır. Xızırla İlyas axtardıqları dirilik suyunu tapdıqlarını güman edib, bu sudan içirlər. Ancaq qeybdən gələn səs deyir ki, bu barədə İskəndərə xəbər verilməsin. Onlar belə də edirlər. Qayıdıb İskəndərə dirilik suyunu tapa bilmədiklərini söyləyirlər. Həmin vaxtdan sonra hər il Xızırla İlyas görüşürlər ki, o günə də Xızır İlyas deyilir.

Günəş-Tanrının Yerdən olan oğludur. Türklər Günəşi yaradıcı kimi qəbul ediblər. «Günəşin yaradıcı olması onu ilk yaz bayramı ilə ilişgiləndirmişdir. Bayram deyildiyi kimi, Günəş və Ay bayramı adlandırılmışdır. Deyəsən, bu bayramın adındakı Ay, aydan daha çox, inamla bağlıdır. Bir çox türk xalqlarında Ayın yaradıcı, insan yaradan, Tanrı anlamı var. Deməli, Günəş-Ay bayramı deyərkən, yaradıcı Günəş, Tanrı Günəş təsəvvür edilmişdir. Belə izahat ağlabatandır. Yaz da yaradıcıdır, Günəş də» (17, 15).

M.Seyidov «Qam-Şaman və onun qaynaqlarına ümumi baxış» kitabında Günəş tanrısı ilə bağlı Çin mənbələrində özünə yer almış diqqətçəkən bir mifdən danışır. Novruzun əsas komponentlərindən olan Günəşlə bağlı olduğundan həmin mifin məğzinə nüfuz edək. V yüzilliyin 40-cı illərində Co qəbiləsindən ayrılmış Tuqyular cənubi Altayda yaşayırdılar. Yetmiş qardaş olmuş Tuqyuların böyük qardaşı Nişidunun anası qurd olmuşdur. Nişidu istədiyi vaxt külək əsdirə, yağış yağdıra bilərmiş. Nişidunun anası qurd-Günəşlə ilişgəli olduğundan onda mifik keyfiyyətlər var idi. Nişidu Yayın və Qışın qızları ilə evlənmişdi... Bizcə, Nişidunun Yayın və Qışın qızları ilə evlənməsi də Günəş mifi və dual təşkilat qanunları, əksliklər görüşü ilə bağlıdır. Əksliklərin qarşı-qarşıya duran uclarında yerləşən yay və qış fəsilləri bir kökdəndirlər Günəşlə ilişgəlidirlər» (15, 120-122). Günəşə türklərin qutsal, müqəddəs inamı olubdur. Günəşin doğmasını türklər mərasimlərlə qeyd ediblər. Bu ayin haqqında bir qədər sonra danışacağıq. Qədim türklər dualarını, diləklərini üzü göylərə ediblər. Hunlar da çadırlarını üzü gündoğana tərəf tikiblər.

Ay, Göy-Tanrının Yerdən olan qızı sayılırdı. Türk mifində Aya ikili münasibət bəslənilib. Bu münasibət günümüzə qədər dəyişməmiş, eləcə qalmışdır. Aya həm qadın, həm də kişi simvolu kimi baxılmışdır.

«Ulu Toyon» mifində qadın, «Oğuz kağan»da isə kişi obrazında canlandırılıbdır. Oğuz Kağanın oğlanlarından birinin adı Ay (xan) idi.

«Yetim qız» əfsanəsində deyilir ki, Ay çalılar arasında Su aparan yetim qıza acımış, çalıya qızın göyə gətirilməsini əmr etmişdir. Çalı ata dönərək qızı Ayın yanına – göyə aparmışdır. Ay ona aşiq olmuşdur. Şəkildən-şəklə düşməsinin səbəbi də bu sevgidir» (32, 67).

Tanrının azman gücünü duyan türklər kainat-planet, təbiət-cəmiyyət vəhdətini qorumaq naminə Tanrı qarşısında özlərini borclu saydıqlarından ona sitayiş məqsədi ilə müxtəlif mərasim-rituallar keçirirdilər. Bu mərasim-rituallar Göy-Tanrı ilə birbaşa əlaqədar olan kosmik təfəkkürlə bağlıdır. Çin mənbələrinə görə, hunlar və göy türklər ildə üç dəfə qurban verib, bayram keçirirdilər. Qurbankəsmə mərasim və bayram törənləri ilin birinci, beşinci və doqquzuncu aylarında – 22 martda (yaz), 22 iyunda (yay) və 24 sentyabrda (payız) qeyd olunurdu. İyunun 20 və 22-nə təsadüf edən qurbanvermə mərasimi müqəddəs dağda, Ötüken dağında Tanrıya qurbankəsmə və bayram törənləri şəklində həyata keçirilirdi (11, 87).

Bu mərasimlər son dərəcə təntənə ilə qeyd edilibdir. Tanrının şərəfinə qurban mərasimi açıq havada keçirilirdi. Əcdad kultu ilə bağlı olan törənlər mağaralarda gerçəkləşdirilirdi (11, 88). Bu mərasimlər adi qada-bala qurbanları deyildi. Təntənəli qeyd edilən günlərə bir daha diqqət yetirək: 22 mart, 22 iyun və 24 sentyabr. Hər üç təqvim günü Novruz sisteminin tərkib hissələridir. Bəllidir ki, 22 mart ilin başlanğıcı – yazın gəlməsi, 22 iyun yayın gəlişi, 24 sentyabr isə payızın ilkin günüdür. Bu təqvim günləri barədə bir qədər sonra ətraflı danışacağıq.

Tək Tanrıyla bağlı ayinlər haqqında ilkin məlumatlar Çin qaynaqlarında qorunub saxlanılmışdır. Çin təqviminə görə, beşinci ayın üçüncü on günündə Tukyular Tanrıya qoyun və at qurban kəsərdilər. Bu tarix indiki təqvimlə iyunun 5-10 arasına təsadüf edir. Digər mənbələrdə bu tarix 30 iyun göstərilir. Əslində, bu qızmar yayın gəlməsi ilə bağlı keçirilən mərasim olduğundan, çox güman ki, iyunun 20-22-də reallaşdırılıbdır. Mənbələrdəki bu

fərqin səbəbini yalnız subyektivlikdə görmək doğru olardı. Böyük ehtimalla demək olar ki, bu yanlışlıq Çin mənbələrindən irəli gəlir. Bu ayinlərin təntənəli keçirilməsində qədim türklər Göy-Tanrıdan ruzi-bərəkət, bolluq, soy və tayfalarının, nəsillərinin davam etməsini, dövlətlərinin sülh və əmin-amanlıqla yaşamasını diləmək idi. Məqamı gəlmişkən, Göy türklərin qurbankəsmə mərasimi barədə qədim Çin mənbələrinin verdiyi məlumatlara toxunmaq istərdik. Mənbələrdə göstərilir ki, əski türklər Tanrının şərəfinə çay kənarında qurban kəsirdilər. Qurbanvermə mərasiminin çay-su kənarında keçirilməsi təsadüfi deyildir. Su Novruz sisteminə daxil olan dörd əsas ünsürdən biridir. Bu tipli mərasimlər qutsal guşə sayılan uca dağlarda keçirilmişdir.

Ötükenin qərbində yerləşən Budun İlli vardı ki, bunun da anlamı elin, dövlətin mühafizəçisi, qoruyanı deməkdir (11, 90). Türk dünyagörüşünə görə, kainat və planetdə boş, mənasız heç nə yoxdur. Bütün yaranış təbiət və cəmiyyətdə müəyyən məqsəd üçün, nəyinsə naminə yaradılıb, yaradılmışın hər biri nəyəsə gərəkdir. Fikrimizcə, türklər Tanrıya qutsal, müqəddəs, saf və pak bir məkanda, uca dağlarda qurban verməklə, bir daha Tanrı ucalığını, Tanrı müqəddəsliyini qorumuşlar. Bu uca dağlar qoynunun digər simvolik mənası dağ ucalığında, dağ yüksəkliyində Tanrıya qovuşmaq niyyətinin güdülməsidir. Qurbanvermə ritualında elə ən böyük məram Tanrıya ruhən, mənən qovuşmaq idi. Tanrıya qurbankəsmə mərasimində dualar oxunur, niyyət edilir, dilək dilənirdi. Qurbankəsmə ayini də göstərir ki, Göy-Tanrı inamının da nüvəsində Novruz sisteminin komponentləri dayanır. Bir daha vurğulayaq ki, dünyada mövcud olan dinlərin hamısı Novruz sistemindən əsaslı şəkildə faydalanıblar. Bunun başlıca səbəbi Novruz sisteminin hərtərəfli və kamil olmasıdır. Novruz sistemində təbiət və cəmiyyətin dialektikası üçün icrası vacib olan inkaredilməz dəyərlər (qanunlar) özünə yer almışdır. Qədim türklər dünyanın yaranması, dünya-insan, göy-yer, yaradan və yaradılan münasibətləri barədə mifik olduğu qədər də, gerçək təsəvvürə malik olublar. Türklər

dünyanın yaradılmasında Tanrı Qara xanın güc və qüvvətinə inanırdılar. Türk inamına görə, Yerin yaranması Tanrı Qara xanla bağlıdır. Dünyanın yaranması haqqında türk inamının təfərrüatına varaq: «Bir zamanlar yalnız Tanrı Qara xan və su vardır. Qara xandan başqa görən, sudan başqa görünən yox idi. Ağ Ana göründü. O, Qara xana «yarat» deyib yenidən suya qayıtdı. Bunu eşidən Qara xan bir kişi yaratdı. Qara xanla kişi intəhasız suyun üstü ilə iki qara qaz kimi uçurdular. Lakin halından məmnun olmayan kişi, Qara xandan daha yüksəkdə uçmaq istəyirdi. Onun istəyini bilən Qara xan kişidən uçmaq qabiliyyətini aldı. Kişi dibsiz suya yuvarlandı. Boğulurdu. Elədiyinə peşman olub, Tanrı Qara xandan bağışlanmasını xahiş etdi.

Tanrı Qara xanın göstərişi ilə sudan bir ulduz çıxdı. Kişi həmin ulduzun üstünə çıxıb xilas oldusa da, Qara xan onun bir daha uça bilməyəciyini nəzərə alıb, dünyanı yaratmaq qərarına gəldi. Kişiyə buyurdu ki, suyun dibinə dalaraq torpaq çıxarsın. Şər düşüncədən əl çəkməmiş kişi torpaq gətirərkən fikirləşdi ki, özü üçün gizli bir dünya da yaratsın. Ona görə də torpağın bir hissəsini ağzında saxladı. Elə ki, ovcundakı torpağı su üzərinə səpdi, Tanrı Qara xan torpağa «böyü» deyə buyurdu. Torpaq böyüyüb dünya oldu. Lakin kişinin ağzında saxladığı torpaq da böyüyüb onu boğmağa başladı, Qara xan ona «Tüpür!» deməsəydi, boğulub öləcəkdi.

Tanrı Qara xan dümdüz bir dünya yaratmışdı, lakin kişi tüpürəndə ağzından axan torpaq bataqlıqlar, təpələr əmələ gətirdi. Hirslənən Qara xan itaətsiz kişiyə «Erlik» (şeytan) adını verib, özünün işıqlı dünyasından qovdu. Sonra yerdə doqquz budaqlı bir ağac bitirdi, hər budağın altında bir adam yaratdı ki, bunlar doqquz insan irqinin ataları oldular. Erlik insanların gözəlliyini, xoş həyatını görüb, Tanrı Qara xandan xahiş etdi ki, həmin insanları onun ixtiyarına versin. Qara xan vermədi. Lakin Erlik istədiyindən dönmədi, insanları öz tərəfinə çəkməyə başladı. Qara xan insanların azğınlığını, Erliyə aldanmalarını görəndə acıqlandı. Onları öz ümidlərinə buraxdı. Erliyi isə yer altındakı qaranlıq dünyanın

üçüncü qatına qovdu. Özü isə göyün on yeddinci qatını yaradıb, oraya çəkildi. Mələklərindən birini insanları qorumaq üçün yer üzünə göndərdi.

Erlik, Tanrı xanın qərar tutduğu gözəl göyü görüb, ondan icazə istədi ki, özü üçün bir göy yaratsın, icazə alıb yaratdı və aldatdığı şər ruhları öz göyündə yerləşdirdi. Lakin Qara xan görəndə ki, Erliyin təbəəsi onunkundan daha yaxşı yaşayır, mələklərdən birini göndərib həmin göyü dağıtdırdı. Göy yıxılıb dünyaya düşdü, dağlar, dərələr, ormanlar meydana gəldi. Acıqlanmış Tanrı Qara xan Erliyi yenidən yerin ən aşağı qatına göndərdi. Buyurdu ki, günəşsiz, aysız, ulduzsuz yerdə dünyanın sonuna qədər qalsın. Tanrı Qara xan göyün on yeddinci qatında oturub kainatı idarə etməkdədir. Ondan bir qat aşağıda Bay Ölgün Altun dağda qızıl bir taxt üstündə oturub. Göyün yeddinci qatında Gün Ana, altıncı qatında Ay Ata oturmuşlar» (33, 30-31).

Bu mifdə Novruz sisteminin əsas elementlərinin –dünyanın Tanrı tərəfindən yaradıldığının, ona tabe olmayan şər qüvvələrin simvolu olan şeytanın şər əməllərinin, kainatın işıq mənbələri olan Günəş və Ayın yerləşmə məkanı haqqında məlumat verilir. Türklər Tanrını cümlə-cahanın və özlərinin Yaradanı kimi qəbul etmişlər. «Oğuz Kağan» dastanında deyilir: «...Oğuz bir gün Tanrıya yalvararkən göydən bir işıq düşdü. Yüyürüb gördü ki, işığın ortasında gözəl bir qız oturub. Qızı sevib aldı. Qızın Oğuzdan üç oğlu oldu. Oğlanlara Gün, Ay və Ulduz adlarını qoydular» (33, 34).

Mifikləşmiş düşüncədə həyat gerçəklikləri daşlaşmışdır. Türklər yaxşı dərk etmişlər ki, üzərində yaşadıqları yerin enerjisi birbaşa Göy-Tanrı, Günəş, Ay və ulduzlarla bağlıdır. Bu əlaqə olmasa, yerdə həyatın davamı mümkün deyildir.

Ümumən, türk təfəkküründə törənişlərin mənbəyi təbiətə bağlanılır. Qədim türklər duymuş, müşahidə etmişlər ki. kosmik güc, enerji Göylə, bioenerji isə Yerlə-Təbiətlə bağlıdır. Türklərin inamlarına görə, boz qurd onların əcdadı və himayəçisi olubdur. Qurdun türkün əcdadı və mühafizəçisi olması haqqında məzmunca

yaxın, formaca müxtəlif olan bir neçə mif mövcuddur. Bu miflərdən araşdırdığımız mövzu ilə daha çox səsləşəninə diqqət yetirək: «Göy türklər Hun ölkəsinin şimalındakı Sou diyarından çıxmışlar. Onların başında Apanqpu dururdu. Onun on yeddi qardaşı vardı.

Qardaşları düşmən hücumunun nəticəsində öldürüldü. Yalnız qurddan doğulmuş, yağışa, küləyə hökm edən İçi Nisu Tu qaldı. Onun biri Yaz, digəri Qış tanrısının qızları olan iki arvadı vardı. Bunlardan dörd uşağı oldu. Uşaqlardan biri ağ leyləyə çevrildi. İkincisi Çiqu, üçüncüsü Çücin ilə – hərəsi bir məskən tutub yaşamağa başladılar. Ən böyükləri olan dördüncüsü Na Tuliu isə ulu babası Apanqpunun törəmələrinin məskunlaşdığı Şin dağlarına çəkildi. Burada məskunlaşmış xalq soyuqdan çox əziyyət çəkirdi. Na Tuliun od tapıb onların canını qurtardı. İnsanlar rahat yaşamağa başladılar. Bunu görən qardaşları onu başçı seçib, adını Türk qoydular. Na-Tuliun-Türkün on arvadı vardı, Onun oğlanları soyadlarını analarından alırdılar.

Türk öləndən sonra oğlanları bir böyük ağacın altına toplandılar. Ən yüksəyə hoppananı özlərinə başçı seçmək qərarına gəldilər. Türkün ən cavan arvadı Aşinanın oğlu ən gənc olsa da, ən yüksəyə hoppandığına görə başçı seçildi. «Aşina soyu buradan törədi» (33, 32-33). Mifdə Novruzun komponentləri olan Yaz və Qış və onların rəmzləri olan soyuq və od qarşılaşdırılıbdır. Mifdə 4 uşağın olması açıq şəkildə 4 fəslə işarədir. Bir çox miflərdə türklərin Aşina adlı qurddan törədiklərindən danışılır. Buradakı ağac da türklərin Dünya Ağacıdır. Qədim türklərin Novruz mərasimlərini e.ə. I minillikdə Ərgənəkonda təntənəli qeyd etdiklərini mənbələr təsdiqləyir. «Ərgənəkon» («Hündür dağ yamacı») dastanını XIV əsrin yazarı F.Rəşidəddin və XVII əsrin müəllifi Əbül Qazı Xan qələmə almışlar. Türklər Ərgənəkondan çıxdıqları günü bayram etmişlər. «Ərgənəkon» dastanı birbaşa yaz bayramı, Novruz adlandırılan sistemin ilkin diferensiasiyası kimi tarixin yaddaşındadır. «Ərgənəkon» dastanı Novruzun ilkin inkişaf tarixini

özündə yaşatdığından bir qədər geniş şəkildə onun təfərrüatına varaq:

Moğol elinə Oğuz xan soyundan olan İ1 xan başçılıq edirdi. İ1 xan tatarların hökmdarı Sevinc xanla vuruşur. Bu vuruşlarda həmişə İ1 xan qalib gəlirdə. Sevinc xan qırğız xanını öz tərəfinə çəkməkdən ötrü ona hədiyyələr göndərirdi. Moğallar güclü olduqlarından ətrafda yaşayan digər türk boylarının onlarda qisası vardı. Elə buna görə də Sevinc xanla birləşib moğolların üstünə getdilər. Moğollar güclü idilər. Bunu görən Sevinc hiyləyə əl atdı. Xan və bəylərə bildirdi ki, lazımsız malları buraxıb, geri çəkilməliyik. Belə də etdilər. Moğollar belə fikirləşdilər ki, düşmən məğlub olub qaçır. Tatarlar möhkəmləndikləri ordugahlardan çıxıb vuruşdular. Moğolların böyüklərini qırdılar, kiçiklərini əsir götürdülər. Əsir düşənlərə yiyələrinin adını verdilər. Moğollar qırılıb çatıldı, onlardan əsər-əlamət qalmadı. Moğol hökm|darı İ1 xanın oğlu Qıyan və qardaşıoğlu Nüküz də əsir düşmüşdülər. Hər ikisi təzəcə evlənmişdilər. Fürsətdən faydalanıb ailələri ilə birlikdə əsirlikdən qaçıb, yurdlarına döndülər.

Döyüşdən on gün keçmişdi. Onlar yurdlarında düşməndən qaçmış heyvanları da gördülər. Rastlaşdıqları heyvanları da götürüb dağ yolları ilə əlçatmaz, ünyetməz bir yerə gəlib çıxdılar. Bu yer olduqca gözəl idi. Gəlib çıxdıqları bu yer üçün Tanrıya şükürlər etdilər. Bu gözəl və varlı torpaqda yurd saldılar. Qışda malların ətini yeyir, dərisini geyir, yazda südünü içirdilər. Bu yerin adını Ərgənəkon qoydular. Ərgənəkon hündür dağ yamacı anlamındadır. Qiyanla Nüküzün övladları oldu, mal-heyvanları düz-dünyanı ağzına aldı. Böyük bir xalq əmələ gəldi. O qədər artıb -çoxalmışdılar ki, Ərgənəkon onlara darlıq edirdi.

Uca dağlar arasında uzun illər yaşayıb-yaratmış türklər artıb-çoxalmış, dağlar arasına sığışmamışlar. Türklərin ulularının Ərgənəkona gəlməsindən 400 il keçmişdir. «Bir gün yığışıb söhbət elədilər. Babalarımız deyərdi ki: Ərgənəkondan kənarda gözəl,

geniş bir ölkə var, xalqımızı tatar qırmış, ölkəmizi yağmalamış deyə söylədilər.

İndi gərək dədə-baba yurdumuza qayıdaq. Ancaq dədə-babalarının buraya qaçıb gəldikləri dar cığırı heç kim xatırlamırdı. Ona görə də Ərgənəkondan çıxış üçün yol aradılar. Lakin tapmadılar. Bir dəmirçi gəlib dedi ki, burada bir dəmir mədəni var, onu əritsək, yol açılar». Belə də etdilər. Camaat odun, kömür gətirib, od-ocaq qalayıb, yolu açdılar. «Ərgənəkondan çıxdıqları həmin günü moğollar həmişə bayram etdilər. Bir dəmiri qızana qədər odda saxlar, sonra onu çəkiclə döyərlər. Bu gün «zindandan çıxıb baba yurdumuza gəldiyiniz gündür» deyərlər» (33, 44). «Türklərdə Ərgənəkondan çıxmaq yazın gəlişi ilə əlaqələndirilmiş, bu tarixi hadisə ilə bağlı möhtəşəm mərasim yaranmışdır. Həmin mərasimdə dəmir döymək, yəni dəmirçiliyin **müqəddəs** (xilasedici) bir sənət olduğunu nümayiş etdirmək adəti zəmanəmizə qədər gəlib çıxmışdır» (33, 29). Böyük ehtimalla demək olar ki, türklərin dağlar arasından çıxıb ata-baba yurdlarına qayıtmaları, doğma yurd-yuvalarını zəbt etmiş əski düşmənlərini məğlub etdikləri həmin gün Novruz ərəfəsinə və yaxud elə Novruza düşdüyündən hər il bayram ediblər.

Çin və digər mənbələrdə qədim türklərin yazın gəlişi münasibəti ilə keçirdiyi bayramlardan birinin də Ayzıt olduğu qeyd edilibdir. Bu törən altaylıların gözəllik Tanrısı Ayzıtın şərəfinə keçirilmişdir. Törən yazın başlanğıcında meşələrdə təşkil olunurmuş. Qadınların bu bayramda iştirakı arzuedilməz sayılardı. Qışda evdə keçirilən bayram mərasimlərində qadınlar da iştirak edirdilər. Bayram törənlərini qara şamanlar aparırdılar. (Qara rəngdə paltar geyindikləri üçün şamanlara belə ad vermişdilər.) Bayram günləri evlər təmizlənir, bəzədilir, dadlı və ləzzətli yeməklər bişirilir, təmiz və təzə paltar geyilirdi. Şaman 9 qız və 9 oğlan seçir, onları sağ və sol tərəfdə düzürdü. Sonra həmin oğlan və qızları Ayzıtın sarayına aparırdı. Ayzıtın özü də həmin vaxt dəbdəbəli geyinərdi. «Başında

ağ göydən ağ bir başlıq, çılpaq çiyinlərində ag göydən bir atqı (şərf), ayaqlarında baldırına qədər qara çəkmə olardı. Bu şəkildə qayaya söykənərək uyuyur, ya da meşədə dolaşır» (32, 56). Bu törən də özündə yaz bayramının komponentlərini qoruyub saxlayıbdır. Törənin təfərrüatından göründüyü kimi, Ayzıt bayramı ildə iki dəfə keçirilmişdir: qısda və yazda. Məlumdur ki, türklər ili iki fəslə: yaz və qışa bölüblər. Ayzıt bayramı yazda dağda, meşədə, qışda isə evdə keçirilibdir. Görünür, türklər yazın gəlişini dağda, qışın çıxmasını isə evdə bayram etmişlər. Buradan da belə qənaətə gəlmək olar ki, qədim türklər, zamanı bir sistem kimi dərk və qəbul etmişdilər. Qədim türklər kainat və onun təsirində olan planetdə mütləq və nisbi zamanın mövcudluğunu müəyyənləşdirmiş və zamanın diktəsinə uyğun hərəkət etmişdilər. M.Seyidov «Yaz bayramı» kitabında yazır: «Əski azərbaycanlılar təqvimlə bağlı vaxt anlayışını hərdən animistləşdirmişlər: hərdən insan kimi gözə çarpdırmış, hərdən isə zoomorfik aləmlə bağlamışlar. Alman bilicisi əski oğuz atalar sözlərini XIX yüzilliyin lap əvvəllərində çap etdirmişdir. Buradakı bir atalar sözü diqqətimizi cəlb etmişdir. İndi biz onu təqvimlə bağlı yad etmək istəyirik. Atalar sözündə deyilir «Oğuz (dan) 366 alp qopdu, 24 xas bəy, 32 səksən Sultan Salur Qazan oqçisi Quzan peklisi Qormuş oğlundan Qorqut». Burada deyilir ki, Oğuzdan 366 alp qopdu. Bizcə, burada alpdan-igiddən söhbət getmir. Ola bilsin, Oğuz danın sökülməsini xəbər verən danın özüdür. Başqa sözlə, Oğuz günəşin çıxdığını, gündüzün gəldiyini xəbər verir. Oğuzdan-dandan gündüz doğur, ola bilsin, onun doğulduğunu bildirir. İldə 366 gün olduğundan əski oğuzlar təqvimlə bağlı bu astronomik hadisəni insan şəklində atalar sözünə salmış və hər günü bir alp saymışlar. «24 xas bəy» deməklə, günün 24 saatdan ibarət olduğu başa düşülmüşdür. Bu örnəkdən görünür ki, oğuzlar ili, günü canlı təsəvvür etmişlər» (17, 6-7). Çox doğru yerə, H.Zərdabi xalq təqvimini xalqın müdrik müşahidəsi ilə bağlamışdır. Fikrimizcə, əski insanlar təbiətlə daha sıx bağlı

olmuşlar. Qədim insan təbiətə qarşı heç vaxt əks addım atmayıb, əksinə onunla birlikdə olmağa can atıbdır. İnsan həmişə ümidini Göy-Tanrıya, onun ədalət və rəhminə, nemət və sərvətinə bağlayıbdır. Tanrıya inanmaqla, başının üstündəki göy üzündə ulduzların, Ay və Günəşin hərəkətini izləməklə, onların vəziyyəti ilə gecə-gündüzün, ayın-ilin vədəsini müəyyən etmişdilər. «Qədim türklərin təbiətlə, xüsusilə yazın gəlişi ilə bağlı hissləri, duyğuları, əsasən, ilin bu çağında keçirdikləri müxtəlif mərasimlər dövrün poeziyasında kifayət qədər geniş əks olunmuşdur» (33, 58). Yaz türkülərində, qışla yazın deyişməsində bu poetik təsvirləri əyani şəkildə görürük.

Yay baruban erküzi,
Aqdı aqın munduzi,
Toğdı yaruq yıldızı,
Tınqa sözüm külqüsüz.
Ağdı bulut kükrəyü,
Yağmur tolu səkriyü.
Kalık anı ükriyü,
Kança barur belqüsız.

Azərbaycan versiyası:

Yaz gəldi, qar suları,
Axdı dəlicə sellərlə.
Dan ulduzu doğdu,
Dinlə sözümü zarafatsız.
Bulud kükrəyib qalxdı,
Yağış, dolu səpələnir,
Külək onu (buludu) sürüb,
Hara aparır bilinmir (33, 89-90).

Antik türk poeziyasında qışla yay şəxsləndirilərək qarşı-qarşıya qoyulur:

Qış yay ilə toqquşdu,
Qonur gözlə baxışdı.
Tutuşaraq yaxışdı,
Bir-biriylə gücləşir.

və ya

Yay qış ilə qarışdı,
Ər ox kimi quruşdu,
Qoşun tutub vuruşdu,
Ox çəkibən hazırlaşır (12, 401-402).

Qışla yazın yox, yayın qarşılaşdırılması da türk düşüncəsi ilə bağlıdır. Qədim türklər dualist düşüncəyə sahib olduqlarından şiddətli soyuğun qışla, yüksək istilərin yayla əlaqədar olduğunu bildiklərindən mübarizənin də, əsasən, bu iki fəsil arasında getdiyini bilirdilər.

1.2. Turanlıların Tura bayramı

Qədim türklər dünyanın böyük bir hissəsini əhatə edən uzaq Altaydan tutmuş Mərkəzi Avropaya kimı böyük bir ərazidə yaşamış və bəşər mədəniyyətinin inkişafında xüsusi rol oynamışlar. Dünya mədəniyyətinin tərəqqisində türklərin rolu danılmazdır. Turanın Novruz sisteminin yaradıldığı məkanlardan olması mübahisəyə səbəb ola bilməz. Novruz astronomik hadisənin bilavasitə əyani təsdiqlədiyi bir sistemdir. Novruz sistemini özündə qoruyub saxlayan, hələlik ilk yazılı mənbə olan «Avesta»nın Turan mühitində yaradıldığı fikrinin tərəfdarları daha çoxdur.

Tədqiqatçı Ə.Nicat M.Müllerin «Turanskie elementı v Avesta» monoqrafiyasına istinadən yazır: «Avesta»nın əldə olan nüsxəsi qədim türk dilindəki orijinaldan tərcümədir. Bunu sübut üçün

«Avesta»dakı saysız-hesabsız Turan elementləri kifayətdir. «Avesta» öküz dərilərinə yazılıb qat-qat yığıldığından və hər qat müəyyən səhifə rolunu oynadığından həmin «qat» sözü indi də pəhləvi tərcüməsində qalmışdır» (10, 50).

«Avesta»nın qədim Midiyada yaradıldığı məntiqi də Novruzun Turan dünyasının məhsulu olduğunu təsdiqləyir. Belə ki, Midiyanın ən fəal sakinlərinin də türklər olduğu məlumdur. «Avesta»nın Midiyada meydana gəlməsi fikrinin tərəfdarlarının sayı daha çoxdur. «Avesta»nın əsl yaradıcısı olan Zərdüştün də milliyyətcə türk olması indiyi kimi şübhə doğurmayıb, mübahisəyə səbəb olmayıbdır. Midiya tədqiqatçılarının əksəriyyəti də bu dövlətin qurucularının türklər olduğunu təkzibedilməz fakt və sübutlarla təsdiq ediblər. Midiya hökmdarı Astiyaqla İran taxtının sahibi Kir arasındakı müharibələr tarixin pozulmaz yaddaşına həkk olunubdur. Genetik kodları türklərdən uzaq olan bir müəllifdən gətirilmiş sitatla bu məsələyə indiki məqamda nöqtə qoymaq istərdik. Bu sitat yenə Ə.Nicatın yuxarıda qeyd etdiyimiz kitabındakı «Gözəl Midiya» tarixi oçerkindən iqtibasdır. «Yazılı abidələri kifayət dərəcədə çox olan və ən vacib əlamətləri Veystard, De Şolsi və Noriss tərəfindən müəyyən olunan Midiya dili qəti şəkildə, demək olar ki, türk dilidir». Bu sözlərin əsl sahibi Fransua Lenormanndır. İnsanın yaranışı tarixlə bağlı olduğundan şüur və dünyagörüşü də zaman və ictimai mühitin məhsuludur. Türk ictimai şüuru bütün tarixi dövrlərdə yaradıb, inkişaf etdirib və yaratdıqlarını qoruyub saxlayıbdır. Tədqiqatçılar bu fikirdədirlər ki, oğuzlar yaradanlar, qıpçaqlar inkişaf etdirənlər, hun və uyğurlar qoruyanlar olublar. Qədim türklərin dünyanın yaranması, onun inkişafı haqqında özəl baxışları mövcud olmuşdur. Türkün bütün mənəvi fikir tarixinə nəzər yetirdikdə aydın olur ki, digər xalqlardan fərqli olaraq, türklər «uşaqlıq dövrlərində» belə Göy-Tanrıya inam gətiriblər. Bu gün özünü arilər adlandıranlar hələ də cansız-ruhsuz bütə inanırlar. Tarixin heç bir dönəmində türklər bütə sitayiş etməyiblər. Türklər

sevib-əzizlədikləri canlılara -qurda, ata və s. məhəbbət bəsləsələr də, onlara tapınmayıblar. Qədim türklərin ilkin inancı ilə bugünkü inamlan arasında elə də ciddi mahiyyət fərqi yoxdur. Onlar intuisiya, yaxud bioenerji vasitəsilə dünyaya bağlandıqları gündən göy üzünə inam gətirmişlər. Onlar bu inamın ilkin mərhələsindən göylə yerin əlaqəsini duymuşdular. Türklər göylərlə sıx təmasda olanda dağların, dənizlərin, orman və bulaqların möcüzəyə, ilahi gücə, ruha malik olduqlarına inanmışlar.

Onların inancına görə, günəş, su, göy üzü, göyün guruldaması, şimşək çaxması – ruhlarının olması ilə əlaqəlidir. Ruhu olan yer və su qüvvələrinə «Yer-su»lar (Göy türklər Yer-Su, uyğurlar Yer-Suv)» deyirdilər. Türkün mənşəyinin dağ, dəniz, qurd olması da goy üzünə, Tanrıya (kosmosa) olan aydın və zəruri inancından irəli gəlirdi.

Göy(hava), Torpaq, Su və Günəş (od) – bu dördlük türkün dünya baxışının nüvəsini təşkil edir. Bu dörd ünsür birbaşa Göy-Tanrı ilə bağlıdır. Türk inamına görə, bütün fəza sistemi Tanrının fəaliyyətindən asılıdır. Onların düşüncəsinə əsasən, bütün səma cisimləri əvvəl bir yerdə olmuş, birlikdə kosmik hərəkət etmiş, sonra Tanrı (Tenqri) tərəfindən bir-birindən aralandırılmışdır.

Həyatın ilkin yaradılışı barədə də türklər inandırıcı düşüncə daşımışlar. Türk inamına görə, canlı aləm sudan törəyibdir. Türk təfəkkürü ilkin çağlardan kainat və planetlə, onun ən kiçik zərrəsi ilə belə əlaqədə olmuşdur. O, kainat və təbiətin müəmmalarına birbaşa özü müdaxilə etmiş, onun açılmamış sirlərinə baş vurmuşdur.

Qədim türklərin ilkin çağlarda köçəri həyat yaşamaları onların kainat və təbiət qanunauyğunluqlarına daha yaxından bələd olmalarına səbəb olmuşdur, gündoğandan günbatana at belində yol qət edən türklər üz tutduqları göy üzündə Günəşin və Ayın hərəkətini, ulduzların və digər fəza cisimlərinin harmonik yerdəyişməsini müntəzəm müşahidə etmiş, zaman anlayışını müəyyənləşdirmişlər. Zaman anlayışı türk təfəkküründə mühüm yer tutmuş, bir çox vacib

amillər zaman məfhumu üzərində qurulmuş, onun vasitəsilə tənzimlənmişdir. Zaman bir çox mənəvi məsələlərin həllinə impuls vermiş, ümumən, türk dünyagörüşünü formalaşdırmışdır. Türklərin sistem halına gətirib çıxardıqları Novruzun hansı tarixi mərhələ keçdiyi tam şəffaf və bəlli deyildir. Ancaq Novruz sisteminin ilk yazılı mənbə kimi özündə qoruyub saxlamış «Avesta» Turan mənəvi dəyərlərindən qaynaqlanaraq araya-ərsəyə gəlmişdir. Bu mənəvi qaynaqlarda Novruzun bir çox qədim dəyərləri yaşamaqdadır. Məlumdur ki, Zərdüşt yaratdığı dini doğma yurdu Turanda yaya bilmədiyindən cəlayi-vətən olmuşdur. O, məcburiyyət qarşısında Parfiyaya (indiki Türkmənistan və Əfqanıstan ərazisi) üz tutmuşdur. Onun dini, məskunlaşdığı Parfiya və ona qonşu olan İranda yayılmağa başlamışdır. Ancaq Zərdüşt təlimini doğma yurdu Turanda yaymaq inadından əl çəkmədi. Turanlılar isə Zərdüştün dininə heç bir inam gətirmirdilər. Əksinə, Zərdüştə qarşı onlarda patoloji bir nifrət yaranmışdır. Elə bu patoloji nifrət sayəsində turanlılar Zərdüştü qətlə yetirmək qərarını vermişlər. Turanlılar beyinlərini daim narahat edən bu qərarı icraya yönəltdilər. Zərdüştü qətlə yetirmək üçün Bratarvahşa adlı bir şəxsi Parfiyaya göndərdilər. Bratarvahşa Zərdüştü ibadət vaxtı xəncərlə qətlə yetirdi. Bu qətldən son dərəcə qəzəblənmiş iranlılar peyğəmbərlərini qətlə yetirən turanlıları «şaka» (it) adlandırdılar. Turanlılara verilən bu adı yunanlar sonralar «skif» (iskit) formasına salmışdılar. Turanlıların həyat və məişət tərzinə yaxşı bələd olan yunanlar bu sözü «köçəri» anlamında işlədirdilər (26). Yunanların turanlılara skif deməkləri təsadüfi deyildir. Skiflərlə (turanlılarla) qonşu olan yunanlar onları yaxından tanıyırdılar. Skiflərin türklərlə eyni genetik kodun daşıyıcısı olmaları birmənalı öz təsdiqini tapıbdır. Rafiq Turabxanoğlu «Türkçülük Turanın ideologiyasıdır» kitabında akademik E.İ.Eyxvalddan belə bir maraqlı sitata müraciət edir: «Skiflərin türk tayfalarına aid olması dəfələrlə göstərilib. Odur ki, bu gün əlimizdə isbat etməyə çoxlu əsaslar var ki, söyləyək skiflər türk olmuşlar» (46, 18).

«Tarixin atası» sayılan Herodotun «Tarix» kitabında yazdıqları da skiflərin türk etnosu olduğunu təsdiqləyir.

R.Turabxanoğlu Herodota əsaslanıb yazır ki, turroqetlər və türklər Dnestrin yuxarılarına qədər məskunlaşmış və elə bu gün də Dnestrə turklər Tur deyirlər. Bir çox tədqiqatçılar (Eyxvald, Aristov, Lizlov və b.) türklərlə skiflərin eyni genetik kod daşıyıcıları olduqları qənaətindədirlər (46, 18).

Herodot əminliklə yazır ki, şaka etnonimi skif anlamındadır, fərq ondadır ki, bu etnosu ellinlər skif, farslar isə şaka deyə çağırırlar. Herodot skiflərin məskunlaşdıqları Araz və Qara dənizin şimal tərəfinə (bu ərazini yunan mənbələri Pontiya adlandırır) Orta Asiyadan köçdüklərini yazır.

Tanınmış skifşünas R.Qrosse Herodotun yazdıqlarını öz tədqiqatları ilə təsdiqləyir. O, arxeoloji faktlarla skiflərin Türküstan və Qərbi Sibirdə yaşamış olduqlarını qeyd edir. Qədim yunan tarixçilərinin skiflərlə bağlı yazdıqları digər faktlar da inandırıcı görünür. O, skiflərin bir hissəsinin kimmerlərlə döyüşdüyünü və Midiyaya girdiyini göstərir. Herodot İran şahı Daranın Tarqıtayın ölkəsinə (skiflərin) hücum etdiyini də kitabında qeyd edibdir.

Herodotun «Tarix» kitabından qaynaqlanan yuxarıda qeyd etdiyim faktların hamısı skiflərin türk etnosu olduğunu birmənalı təsdiqləyir.

İlk skif adlarından olan Tarqıtay adı da türkmənşəlidir. Bu söz Aşina türk qəbiləsinin başçılığı altında əmələ gəlmiş, tarixi mənbələrdə ən çox türküt kimi tanınan türk tayfa birliyinin adıdır. Çin mənbələrində bu tayfa birliyi tu-kyu adlandırılır. Qeyd etdiyimiz bu faktlar Zaur Həsənovun «Çar skiflər» (43, 23-59-162-205) kitabına istinadən yazılıbdır. Herodotun yazdıqları skiflərin türk etnosu olduğunu təsdiqlədiyi halda, subyektiv hisslərin əsiri olan bəzi tədqiqatçılar ciddi dəlillərə istinad etmədən skifləri arilərlə bağlayırlar. Skiflərin, yunanların və digər ari adlandırılan xalqların əcdadı olduğu versiyasının özünü də elə Herodot alt-üst

etmişdir. Herodot skiflərin yunanlarla yaxın bir ərazidə yaşadığını və bu xalqlar arasında əlaqənin «Tarix» kitabı yazılmamışdan çox-çox əvvəl yarandığını göstərir. Skiflərin dili, dini, kosmik və dünya modeli barədə baxışları qədim türk etnosu ilə eynilik təşkil edir.

Bir qədər əvvəl qeyd etdik ki, Zərdüşt dini-mənəvi təlimini yaradarkən Turan dünyasının bir çox gerçəkliklərinə söykənmişdir. Məlumdur ki, türklərdə qədimlərdən ata əcdad kultu güclü olubdur. Digər xalqlardan fərqli olaraq, türklərdə ata xətti dominantlıq təşkil etmişdir. Bu da türklərin həyata baxışının nəticəsi idi. Zərdüşt, turanlılar arasında möhkəmlənmək üçün türklərin əcdad kultunu nümayiş etdirərək, Tura bayramının nüfuzundan, şöhrətindən faydalanmışdır. Bu məqamda bir məsələni də qeyd etmək ədalətli olardı. Tura bayramı haqqında filoloji ədəbiyyatda, demək olar ki, ətraflı məlumata rast gəlmirik. K.Allahyarovun «Novruzun ən qədim qaynaqları» məqaləsində Tura bayramının bəzi detalları ilə tanış oluruq. Adıçəkilən məqalədə Novruzun ilkin adlarından olmuş Tura bayramı haqqında qaneedici məlumat verilir. Zərdüşt hələ Turanda öz dinini təbliğ etməyə başlayarkən həmvətənlərini bu dinə inandırmaq üçün bildirmişdi ki, peyğəmbərlik ona məhz turanlıların ən sevimli bayramı olan Tura (əcdad) bayramı mərasimində iştirak etdiyi zaman verilmişdir. Sübh zamanı xaoma hazırlamaq üçün 30 yaşlı Zərdüşt su dalınca çaya getmiş, orada suya girib çayın ortasından su götürən zaman Vohu-Mana yaxınlaşıb onu Ahuraməzdanın yanına aparmış və orada Zərdüştə peyğəmbərlik verilmişdir» (26). Bu sitatda diqqəti iki mühüm məqam çəkir. Birincisi, türklərin Tura (əcdad) bayramının yaradıcısı olmaları. İkincisi, Zərdüştün çaydan su gətirməsi məsələsi. Novruzda bulaq və çaydan dan üzü ağarmamış su gətirmək inancının olması bu gün də yaşadılır. Zərdüştün Tura bayramında çaydan su götürməsi Novruz sisteminin komponentidir. Onda, belə demək olar ki, Tura bayramı da Novruzun tərkib hissəsidir. Tura (əcdad) bayramının indi Novruz adlandırdığımız sistemin ən qədim tərkib

hissəsi olduğunu bu gün də qeyd edilən ata-baba ruhu günü əyani şəkildə təsdiqləyir. Məlumdur ki, Novruza bir neçə gün qalmış, daha doğrusu, ilaxır çərşənbədən əvvəlki cümə axşamı qəbirüstə gedilir, hər kəs dünyasını dəyişmiş yaxınlarını yad edir, ehsanlar verilir. Əminliklə demək olar ki, Novruz sisteminin bir çox komponentlərini özündə ifadə edən Tura bayramı Novruzun ilkin formalarından biridir.

Turanlılar təqvimlərində ilin ilk ayını öz əcdadları Turun şərəfinə adlandırmışlar. Bu dəyərli faktı «Avesta» da təsdiqləyir. Turanlıların əzəmətli ruh-əcdadı Tur hesab olunurdu. Bununla yanaşı, hər bir tayfanın özünün də ruh-əcdadı var idi. Çox vaxt ayrı-ayrı tayfaya mənsub olanları elə həmin ruh-əcdadın adı ilə çağırırdılar. Mifik inama görə, Turun Pəşənəq və («Avesta»da Pəşənədir) Maqnidən başqa, Siv ilahəsi olan rəsmi arvadından Madi (Cəsur) adlı oğlu da var idi. Pəşənəq peçeneqlərin əcdadı sayılırsa, onda Maqnini maq tayfasının, Madini madaların ulu əcdadları hesab etmək olar. Böyük ehtimalla deyə bilərik ki, Çin məxəzlərində Mode (bütün türk dünyası onu Mete deyə tanıyır) kimi məşhur olan böyük Hun sərkərdəsinin də ləqəbi elə bununla bağlıdır. Məlumdur ki, m.ö. 2-ci minilliyin sonlarında hunlar Altay türkləri ilə birləşmişdilər. Elə bu birləşmə nəticəsində tarixə səs salmış hunlar meydana gəlmişlər. Altay türklərinin yaratdıqları «Maday-Kara» (Maday – əcdad allahı) dastanı da uzaq tarixdən nərəsi indi də eşidilən Modeyə (Meteyə) həsr olunubdur (11, 63).

Tura ayı martın ortalarından aprelin ortalarınadək olan bir dövri əhatə etmişdir. Turanlıların bu dövrü – yazın gəlişini Tura adlandırmaları təsadüfi deyildir. Birincisi, bu türklərdə ata kultunun müqəddəsliyindən irəli gəlirdi. İkincisi, əcdad gününün də yazın-təbiətin gəlişi – havanın istiləşməsi, təbiətin canlanması ərəfəsinə salınmasında incə bir inam olubdur. İnsanlar bu inamda olublar ki, hər şeyin dirçəldiyi, canlandığı bir vaxtda ruhlar da canlanar, oyana bilər. Bir qədər irəlidə qeyd etdik ki, qədim türk təqvimində il iki

fəsildən – qış və yaydan ibarət idi. Tura ayının l-dən – martda gecə ilə gündüzün bərabərləşdiyi gündən payız bərabərliyinədək olan müddət yay sayılırdı.

Tura bayramı qədim Turan təqviminə görə, qeyd olunduğu kimi, yay mövsümünün əvvəlində keçirilirdi.

Tura bayramının adını və antik mahiyyətini qədim türklərin süvar qolunun bugünkü varisləri olan çuvaşlar hələ də qoruyub saxlayırlar. Mifik Turan düşüncəsinə görə, Süvar adı Turun qanuni Siv ilahəsinin adı ilə bağlıdır. Sivər sözü Siv adamları «Siv nəsli» anlamındadır. Tura bayramının adının və mahiyyətinin çuvaşlarda hələ də qorunub saxlanılması onların bütpərəst olmaları ilə bağlıdır. Çuvaşlar XVIII əsrdə xristian dinini qəbul etdiklərindən qədim türk inamını da qoruyub saxlayıblar. Çox maraqlıdır ki, çuvaşlar əski çağlardan Tanrıya Tura deyirlər. Çuvaşlar Tura bayramını indi| də dəbdəbəli qeyd edirlər. A.A.Volkova «Ural və Volqaətrafı xalqlarının etnoqrafiyası» kitabında çuvaşların milli bayramları arasında günəşə, Tura allahına və əcdadlara qurbanvermə mərasiminin xüsusi yer tutduğunu yazır. Müəllif bayramın martda keçirildiyini və bir neçə gün davam etdiyini də qeyd edibdir. Tədqiqatçı adıçəkilən kitabında çuvaşların odu, suyu, günəşi, yeri müqəddəs tutduqlarını, baş allah Silt Tura başda olmaqla, xeyirxah qüvvələrə və ruhlara inandıqlarını göstərir. «Avesta»da Tura-Novruz bayramı barədəki yazılanlara istinadən demək olar ki, Tura bayramı «Avesta» yaranana qədər mövcud olmuşdur. Tura bayramının «Avesta»dan çox əvvəl qeyd olunduğundan xəbər verən mənbələr mövcuddur. Miladdan öncə 1-ci minilliyin əvvəllərində Turan etnosu Baykal (Vorukaşa) gölündən Qara dənizə (Turan dənizinə) qədərki böyük bir ərazidə məskunlaşmışdır. Turanın mərkəzi hissəsi sayılan Kənq əyaləti isə Baykalın qərbində – indiki Turan çayı ilə Kən çayı arasındakı Kən çölündə yerləşirdi. Turan tayfalarından nisbətən uzaq qərbdə yerləşən kimmer və mada tayfaları idi. Kimmerlərin rəhbərlərindən biri Tuqdamme, başqa biri Tenşpa,

skiflərin əcdadı isə Tarqıtay olmuşdur. Bu adlar da fonetik cəhətdən «tokar» və «tur» adlarına çox yaxındır. Aydınlıq naminə deyək ki, bu adlar da digərləri kimi, ayrı-ayrı türk xalqlarının tələffüz versiyasında yazıya köçürülərkən təhrif olunmuşdur (11, 63). İlk dövrlərdə kimmer və madalar eyni qan qrupundan olduqları turlarla (skiflərlə) strateji müttəfiq idilər. E.ə. VIII əsrin sonlarında skiflərlə kimmerlər arasında müharibə olmuşdur. Kimmerlərin «Turanın oğlanlarının aqibəti» dastanında skiflərlə kimmerlərin müharibəsi təfərrüatı ilə verilir. Skiflərlə kimmerlər arasındakı qan düşmənçiliyinə səbəb Turanın kiçik oğlu Briyanın («Avesta»da bu «Friyan» formasmda verilib) kimmerlərin sərkərdəsi Kiyanı öldürməsidir. Bu fakt və hadisələr «Avesta»da da yazılıbdır. Qədim türk mifologiyasında kimmerlər qaniçən, xəyanətkar obrazında təsvir olunur. E.ə. VIII əsrin sonlarında skiflər (turlar) kimmerləri birgə yaşadıqları Qara dəniz ətrafından çıxardırlar. Bu toqquş-madan sonra kimmerlər Qərbi Avropaya üz tutdular. Avropada indiki Fransa, İtaliya və İspaniya ərazisində məskunlaşdılar. Bu məskunlaşma kimmerləri kelt tayfaları ilə qaynadıb-qovuşdurdu. Aradan keçən bir neçə əsrdən sonra kiınmerlərlə bərabər, kelt tayfaların böyük bir hissəsi roman və german tayfaların assimilya-siyasına məruz qaldılar. Ancaq X əsrədək bir çox Avropa mənbə-lərində kimmerlərin adı «kimr» kimi yazılırdı. Kimmerlərin izləri Qərbi Avropada, az da olsa, özünü qoruyub saxlamaqdadır. Fransada Tur və Kən şəhərləri, Turan adlı tarixi əyalət, İtaliyada Turin şəhəri, İspaniyada Turiya çayı türk etnoslarının «daşlaşmış» nişanələridir. Bu tarixi faktları vurğulamaqda əsas məqsədimiz zərdüştlikdən çox-çox əvvəl (m. ö. VIII əsrdə) Turandan ayrılmış kimmer tayfasının Tura bayramı və digər qədim türk adət-ənənə-lərinə bağlılıqlarını göstərməkdir.

«Kelt mifologiyası ensiklopediyasın»da ingilis araşdırıcıları m.ö. keltlərlə birləşmiş kimmerlərin türk dünyagörüşündən bəhs edirlər. Onlar yazırlar ki, qədim kimmerlərdə il iki mövsümə – yay

və qış mövsümlərinə bölünürdü. Yazdakı gecə-gündüz bərabərliyi yayın, payız bərabərliyi isə qışın başlanğıcı idi. Birinci bayram Belteyn (yay), ikinci isə Sameyn (qış) adlanırdı. Belə inam var idi ki, yaz bərabərliyi dövründə keçirilən Belteyn bayramı zamanı şər qüvvələri iqtidardan düşür, güc-qüvvətləri azalır, işıq və xeyir qüvvələrin onlara qalib gəlməsi asanlaşır, canlıların inkişafının düşməni şər qüvvə rəmzi olan qış yerini həyat simvolu olan yaza verir. Belteyn bayramı ərəfəsində gözəgəlimli uca yerlərdə nəhəng tonqallar alovlandırılırdı. Yuxarıda adını çəkdiyimiz mifoloji ensiklopediyada da bayramın keçirilməsi bir qədər təfərrüatı ilə qeyd edilibdir. Uca yerlərdə çatılmış tonqalların üzərindən kişilər, alov bir qədər zəifləyəndə qadınlar, alov öləziyəndə isə mal-qara keçməli idi. Onlarda belə bir inam var idi ki, bayramda (Belteyn) ata-babalarının ruhları doğma ev-eşiklərinə dönür. Belteyn günü əcdadlarının ruhları üçün ərzaq tədarük olunur, mal-heyvan kəsilirdi. Bayramda kütləvi gəzintilər, məclis və şənliklər təşkil edilirdi. Kimmerlərdə Turan ənənələri və atəşpərəstlikdən qalmış oda sitayiş uzun əsrlər özünü qoruyub saxlamışdır. Zərdüştlikdən xeyli əvvəl Turan dünyasından qopmuş kimmerlərin mifik təfəkküründə dualist dünyagörüş hakim idi. Onların mifik baxışlarında «işıq oğulları ilə zülmət dünyasının əcinnələri» arasında aramsız müharibələr», şər qüvvələrin Tanrıları ilə xeyir Allahı arasında gedən sonsuz mübarizə» bir daha əyani surətdə göstərir ki., zərdüştliyin özülünü təşkil edən dualizm «Avesta» fəlsəfəsindən çox qabaq Turan dünyagörüşündə əsaslı şəkildə formalaşmışdır**.** Bir çox araşdırıcılar da əminliklə bildirirlər ki, Zərdüşt Turan təfəkküründən kifayət qədər faydalanıbdır. Genetik kodları ilə bütövlükdə türk etnosuna mənsub olan Zərdüşt təəssübkeşliklə Turan mənəvi dünyasını mövcud olan qüsurlardan təmizləmək istəyirdi. Zərdüştün yaşadığı dövrdə Turan xalqlarının bəziləri ilin ilk ayını Tura, digərləri Turan ayı adlandırırdılar. Qədim Turan coğrafi məkanında məskunlaşmış Sibir türkləri olan eveneklər, şorslar və b. milli təqvimlərində mart ayının ortalarından aprelin ortalarına

qədər olan müddətə bu gün də Turan ayı deyirlər. Zərdüştdən çox sonra Əhəməni hakimiyyəti dövründə hazırlanan zərdüştlik təqvimində ilin ilk ayı fravaşiv (əcdad ayı) adlandırılmışdır. «Çox güman ki, bu dəyişiklik Turun və yaxud Turanın zərdüştlik dininin düşməni sayılan turanlıların əcdadı olması ilə bağlı olmuş və deməli, siyasi-ideoloji səciyyə daşımışdır» (26). Bu dəqiq, qısa və məntiqi şərhə nə isə əlavə etməyə ehtiyac duyulmur. Böyük ehtimalla demək olar ki, Zərdüşt, Turanın Tura təqvimi, bayram və digər mənəvi-ideoloji dəyərlərindən məharətlə istifadə etmiş, özünün əzəmətli mənəvi -ideoloji sistemini yaratmışdır. Zərdüştdən sonra bu siyasi-ideoloji sistemə yiyələnmiş hakim sinif Turan dünyasına olan kin-küdurət və digər neqativ hisslərdən türk təfəkküründən gələn mənəvi izləri itirməyə və silməyə çalışdılar. Ancaq çox çalışsalar da, buna nail ola bilmədilər

Bu gün Yaxın və Orta Şərqdə Novruz kimi qloballaşmış mənəvi dəyərlər toplusu ilkin qaynağını Turan dünyasından götürmüşdür. Onu da əminliklə demək olar ki, bu gün Novruz kimi möhtəşəmləşmiş bu sistemin mənşəyi Tura və Turandan başlanır. Hələlik əldə edilmiş mənbələrdəki fakt və sübutlar belə deməyə əsas verir. Bu məntiqdən çıxış edib tam əminliklə deyə bilərik ki, bugünkü Novruz Tura və Turandan yol alıb gəlir. Bu gün Novruz kimi qəbul etdiyimiz dəyərlər toplusu tarixin ayrı-ayrı dövrlərində bu və digər səbəblərdən müxtəlif cür adlandırılsa da, mahiyyət və məna tutumunu dəyişməmiş, bütün proqressiv mənəvi dəyərlərini özündə qoruyub saxlamışdır.

II FƏSİL

NOVRUZ QƏDİM DÖVR VƏ ORTA ƏSR MƏNBƏLƏRİNDƏ

2.1. «Avesta»da Novruz dəyərləri

Bəşəriyyətin işıqlı və ulu kitablarından biri də «Avesta»dır. Qədim dövrlərdə bütövlükdə Şərq dünyasında mayak rolu oynamış bu müqəddəs kitab mədəni, ictimai-siyasi mühiti formalaşdırmış, uzun illər mənəvi-ideoloji dominantlığını qoruyub saxlamışdır. «Avesta» bütövlükdə Yaxın Şərq, o cümlədən Azərbaycan mədəniyyətinə güclü təsir göstərmişdir. «Avesta» kainat və planet qanunlarını özündə cəmləyən, mənəvi-əxlaqi dəyərləri bəşəriyyətə diktə etmiş həyat kitabıdır. «Avesta»nın ilkin qaynaqlarından biri ona qədər mükəmməlləşmiş Novruz sistemi olubdur. Ədalət naminə onu da deyək ki, Novruzun inkişaf mərhələlərini, tarixi təkamül prosesini öyrənmək üçün «Avesta» analoqu olmayan bir məxəzdir. «Avesta»nın yaradıcısı olan Zərdüşt Novruz sistemini əsaslı şəkildə mənimsəmiş, kitabının özülünü Novruz dəyərləri üzərində ucaltmış, bunlarla bərabər Novruz sistemini də yaşatmış və gələcək sivilizasiyaya ötürmüşdür. Novruz sistemi qədim turanlıların, o cümlədən Azərbaycan türklərinin həyat müşahidəsinin məhsuludur. «Artıq bəllidir ki, «Avesta» qədim Azərbaycanın əsatir və əfsanələri, adət və ənənələri, etiqad və əqidələri əsasında yaranmış fəlsəfi, dini, ədəbi bir əsərdir» (1, 8-10). Bir çox tədqiqatçılar, o cümlədən xarici araşdırıcılar da Zərdüştün vətəninin Turan olduğunu təsdiqləyirlər. Mövcud tədqiqatlarda «Avesta»nın yaranma məkanından danışılarkən, ən çox iki yer üzərində dayanılır: Araz vadisi və Midiya şəhəri olan Raqa (11, 23). Bu fikrin tərəfdarları bu inamdadırlar ki, zərdüştlik ilk dəfə Midiyada yaşayan maq tayfaları tərəfindən qəbul edilmişdir. Bu fikrin əleyhinə olan

araşdırıcılar isə yalnız maq sözünün «Avesta»da olmadığına əsaslanırlar. «Avesta»nın özündə verilmiş coğrafi adlardan çıxış edən tədqiqatçılar isə bu fikri vurğulayırlar: «Sonralar yaranmış İran ənənəsinə görə, peyğəmbərin mənşəyi Raqla (Reylə) və ya Aturpatkanla (Azərbaycanla) bağlı olmuşdur. Ancaq kiçik «Avesta»nın coğrafi üfüqünə və «Avesta» dialektinə nəzər salsaq, zərdüştliyin vətəni İranın şimal-qərbində, Əfqanıstanın və Orta Asiyanın qonşu əyalətlərində axtarmaq lazım gələcəkdir. Müxtəlif tədqiqatçılar onu Siyistanda, Margianda və ya Areyada, Parfiya-Xorasanda, Xarəzmdə, Sır-Dərya çayının aşağı axarında və hətta daha şimalda -Volqadan şərqdəki çöllərdə – Baktriyada yerləşdirirlər» Bu fikirləri K. Allahyarov «Qədim Turan: mifdən tarixə doğru» elmi araşdırmasında 1999-cu ildə Moskvada nəşr olunmuş «Şərq tarixi» kitabından iqtibas etmişdir (11, 23). Böyük alman filosofu Hegel «Avesta»ya xüsusi maraq göstərmiş, məqam düşdükcə öz əsərlərində ona istinad etmiş, onunla bağlı maraqlı və orijinal tədqiqatlar aparmışdır. Hegel bütövlükdə Şərq təfəkküründən bəhs edən «Tarix fəlsəfəsi» kitabında yazır ki, zərdüştlik Midiya və İranda hakim din olmuşdur. Zərdüşt özü bu ölkəni xalis Ariyena adlandırırdı. Bu ada Herodotda da rast gəlinir. Tarixin atası sayılan Herodot yazır ki, midiyalılar əvvəllər arilər adlanırdı.

Oks çayından cənuba doğru Baktriya adlı dağlıq ölkə və yayla gəlir. Burada midiyalılar, parfiyalılar, girkanilər yaşayırdılar. Oksun yuxarı hissəsində Baktra şəhəri (yəqin, sonralar Bəlx), onun cənubunda isə Kabil və Kəşmir yerləşir. Hegel adıçəkilən əsərində turanlılardan söhbət açır (37, 13-14).

Yuxarıda qeyd etdik ki, Zərdüştün vətəni Turan olubdur. Tarixi mənbə kimi götürdüyümüz «Avesta»nın özündə Zərdüştün doğulduğu və təlimini hazırladığı məkan Aryanan Vayce (Arilər aləmi) adlanır. (IX Yəşt, 29). Peyğəmbərlik aləmində özünə əbədilik yer almış «öz vətənində peyğəmbər» olmur fikrinin əksinə getmək mümkün deyildir. Zərdüştün də oxşar taleyi yaşadığını böyük ehti-

malla söyləmək olar. Zərdüştü də öz el-obasında əmisi oğlundan başqa heç kəs qəbul etmədiyindən cəlayi-vətən olmuşdur. On ilə yaxın payi-piyada müxtəlif ölkələri gəzib-dolaşan Zərdüşt, nəhayət, Viştaspanın ölkəsində qərar tutmuşdur. Viştaspanın ölkəsi «Avesta»da Aryoşayana, yəni arilər ölkəsi adlandırılır. Zərdüştliyi qəbul etmiş ölkələrin, o cümlədən Suqdanın (Sağdiyanın), Marqunun (Mərvin), Baxdşnin (Bədaxşan), Baxdinin (Baktriyanın), Xvarizmanın (Xarəzmin), Raqanın (Reyn) və b. yerlərin adı çəkilir. Bir çox tarixi mənbələrdə Arayanam-Vayca ən çox Xarəzm və Sistanın şimalındakı Ariana, Pamir-Hindikuş yaylası və Araz vadisi ilə eyniləşdirilir.

«Avesta» da göstərilir ki, Aryanam-Vaycada on ay qış, iki ay yay olur. Bu iqlim şəraiti yuxarıda adıçəkilən yerlərdən heç birinə uyğun gəlmir. Müəllif, araşdırmaları ilə əsaslandırır ki, Zərdüştün vətəni qədim Turan olubdur. «Avesta» da adıçəkilən Vorukaşa dənizinin coğrafi mövqeyi, müəllifin fikrincə, Baykal gölünə daha çox uyğun gəlir. Vorukaşa sözü «çoxlu çıxıntılara malik», «çoxlu körfəzlərə malik» mənasını verir. Bu coğrafi durum da Baykal üçün səciyyəvidir. «Avesta»da adları keçən Berezayti dağının adı Baykal ətrafındakı Bərquzin dağının, Ranqa çayının adı isə Anqara çayının adı ilə uyğun gəlir. Anqara sözünün son hecasındakı «Ra» səs birləşməsi türklərin etnogenezisinə daxil olmuş skiflərin dilində çay deməkdir. «Avesta»da «Ra» sözü əvvələ keçirilib Ranqa (Anqa çayı) kimi işlədilibdir. Skiflər Volqa çayına da Ra deyiblər. D.Y.Yeremeyev və M.S.Meyer bu qənaətdədirlər ki, «Avesta»dakı turlar fars mənbələrində «sak», qədim yunan mənbələrində isə «skif» adlandırılıblar (11, 24-25). K.Allahyarov «Avesta»dakı Aryanam-Vaycada qış on ay, yay isə cəmi iki ay olurdu» fikrindən çıxış edərək göstərir ki, belə kəskin iqlim Orta Asiyaya yox, Baykal gölünün ətrafına xasdır. Məlumdur ki, cənubi Sibir və ona yaxın regionlarda qış son dərəcə sərt keçir. Qədim türklərin məskəni olmuş Altay-Sayan dağlarında da qış həddindən artıq soyuq və şaxtalı keçir.

«Kiçik Avesta»dakı digər coğrafi anlayışlar da Zərdüştün Turan dünyasında doğulduğunu və əməli fəaliyyət göstərdiyini təsdiqləyir. «Kiçik Avesta»da Zərdüştün vətəni Aryanam-Vayca Datiya çayının arxasında, Dareca çayı ətrafında yerləşir. K.Allahyarovun fikrincə, birinci çayı Aşağı Anqara**,** ikinci isə Yuxarı Lena və yaxud Kirenqa (Böyük Ranqa mənasını verir) çayı ilə eyniləşdirmək olar. Bir çox tədqiqatçılar da Datiya çayını Amu-Dərya, Ranqa çayını isə Sır-Dərya ilə eyniləşdirirlər. Bu faktlara əsasən, demək olar ki, Zərdüştün vətəni olmuş Aryanam-Vaycanın coğrafi ərazisi Baykal gölünün ətrafına, indiki Yenisey-Kan çöllərinə, Altay-Sayan vadilərinə uyğun gəlir.

«Avesta»nın özünə və Ə.Firdövsinin «Şahnamə»sinə istinadən belə hesab edilir ki, Amu-Dərya çayı əzəldən zərdüştliyi qəbul etmiş Orta Asiya ilə Turan arasında sərhəd olmuşdur. Turanın ərazisi Sır-Dəryadan şimal-şərqdə yerləşmişdir. «Avesta»da Turanın mərkəzi Kənqa, «Şahnamə»də isə Kənq göstərilir. Çin mənbələrinin verdiyi məlumata görə, turların başçılıq etdiyi ümumi tayfa birliyi parçalandıqdan sonra qədim Turan məkanında e.ə. II əsrdən başlayaraq, «Kənqyuy» adlandırılan nəhəng bir dövlət yaranmışdır. Bu dövlət beş böyük əyaləti əhatə edirdi. «Avesta»dakı Turlar ölkəsi, «Şahnamə»də isə paytaxtı Kənq olan Turan haqqında yazılanlar danışdığımız ərazini əhatə etmişdir. Qədim və orta əsr mənbələri də Turan və Kənqyuyun sərhədlərinin üst-üstə düşdüyünü təsdiqləyir (11, 26-27). «Qatalar»da yazılır ki, Zərdüşt 21 yaşında insanlardan baş götürüb qaçıb, guşənişin həyat sürmüş, 30 yaşında Datiya çayı sahilində özünün peyğəmbər olduğunu elan etmişdir. Ahuramazdanın ona təkallahlığı təbliğ etməyi tapşırdığını bildirmişdir. Özünün dediyinə görə, müqəddəs düşüncə friştəsi (mələk) onu Ahuramazdanın hüzuruna aparmışdır. Bundan sonra Zərdüşt öz dini baxışlarını turanlılar və saqalar arasında yaymağa başlamışdır. Niyə məhz turanlılar arasında öz dinini yaymalı idi? Bu fakt da Zərdüştün turanlılarla bağlılığını təsdiqləyir.

«Avesta» və onun yaradıcısı olan Zərdüştün məkanı, dili və milli mənsubiyyəti üzərində uzun illər aparılmış tədqiqatların əksəriyyətində «Avesta» və Zərdüşt Turan dünyası ilə əlaqələndirilmişdir. Əksər araşdırmaçılar zərdüştliyin ümumən Azərbaycan-Kaspi, İran, Orta və Kiçik Asiya ölkələrinin əhatə dairəsində götürmüşlər. Bir neçə əsr adıçəkilən ölkələrin əhalisi zərdüştliyə tapınmış, bu dinə inam gətirmişlər. İngilis alimi Meri Boys «Avesta»nın yayılma və nüfuz dairəsinin coğrafi hüdudlarını müəyyənləşdirmiş, bununla bağlı konkret xəritə də tərtib etmişdir. Tədqiqatçıların bir çoxu «Avesta»nın vətəninin Azərbaycan olduğu iddiasındadırlar. Onlar bu inamdadırlar ki, orijinal «Avesta» fars dilində olmayıb, tarixin hansı bir dönəmindəsə bizə tam bəlli olmayan səbəblərdən fars dilinə tərcümə edilibdir. Bu kontekstdən polyak alimi K.Kossoviçin fikirləri daha inandırıcı görünür: «Zənd dili qədim farsların dili idimi? Onun ilk vətəni hara idi? Bu adı o haradan alıb?» Araşdırıcının özü də bu diqqəti cəlb edən suallara cavab verməyə çalışır: «Zənd Avesta» kitabı fars tayfalarının hələ müəyyən olmadığı bir vaxta aiddir və ola bilər ki, onların bir qismi Hindistanda fəth edilib, xüsusi vətəndaşlığı və mədəniyyətinin əsası qoyulmuş olan Himalaydan gəlmiş, digər qismi isə cənub-qərbi Asiyada qalmışdır» (14, 17). Digər tədqiqatçılar da farsdilli tayfaların İran torpağına gəlmə olmalarını vurğulamışlar. Qayıdaq polyak alimi K.Kossoviçin araşdırmalarına. O yazır: «Zənd-Avesta» adı ilə məşhur olan müqəddəs kitabın dili, sözün həqiqi mənasında, qədim farsların dili deyildir. İran hökmdarlarının adı olan «Pars» sözünün özünə belə qədim fars kitabələrində heç yerdə rast gəlinməyibdir. «Zənd-Avesta»nın dili Himalay arilərinə qədərki ümumi dildə deyildir. Müasir alimlərin ədalətlə adlandırdığı qədim fars dili ilə kitabənin dilinin müqayisəsi aşkar edir ki, bu dil yenə qədim İran həyatının çox dövrlərini səciyyələndirə bilmir» (14, 17).

Fransız araşdırıcısı Elize Reklü də «Avesta» barədə orijinal tədqiqatlar müəllifidir. Fransız alimi yazır: «Zərdüşt dininin əsas

ocağı həmişə «böyük kahin ölkəsi» – Atropatena olmuşdur. Bu ölkə baş ruhaninin, başqa çoxlu kahinlərin əhatəsində olduğu və eyni ehtiramla İran hökmdarlarının da faydalandığı iqamətgah olmuşdur (14, l8). «Avesta»nın özündə yazılır: «Su ilə odun qarışığından müqəddəs bir maye yaranır, onun mənbəyi Xəzər dənizinin dibidir. Bu maye alışıb yanır». Aydındır ki, söhbət neftdən gedir. Ümumən, «Avesta»da Xəzər (Kaspi) dənizi ilə bağlı məlumatlar çoxdur.

Böyük özbək mütəfəkkiri Əbureyhan Biruni (973-1048) yazmışdır ki, Zərdüşt Azərbaycandan idi. Bir çox tədqiqatçılar Biruni kimi, Zərdüştün Azərbaycanda doğulduğunu təsdiqləyirlər. Həmin tədqiqatçıların fikrincə, Zərdüşt Azərbaycanda, o zaman Gəzən, sonralar Təxti-Süleyman, ərəb mənbələrində isə Şiz adlandırılan yerdə doğulmuşdur. Gəzən yaxınlığındakı Urmiya gölü müqəddəs sayılmış, Gəzəndəki «Azrəxş», ya «Dirəxş» və ya «Azərgəşəsp» adlanan atəşgəda ziyarətgah olmuşdur.

Y.Həməvi də Zərdüştün Azərbaycan mühitində doğulduğunu təsdiqləyibdir. Ona görə də yazırdı ki, Gəzən Marağa ilə Zəncan arasında və Şəhrzar ilə Dinəvərə yaxın bir mahaldır.

Y.Həməvinin yazdığına görə, o, özü hicrətin VII əsrində söhbət gedən məkanda olmuş və atəşgədəni görmüşdür. Onu da qeyd edir ki, atəşgədənin günbəzinə gümüşdən düzəldilmiş hilal qoyulmuşdur (30, 8). Bir çox tarixçilər və coğrafiyaçılar bu yeri «Cəzən» və ya «Cəzənəq» adlandırmışlar. «Avesta»nın beşinci Yəştinin 44-cü bölməsində «Cəzən» sözü «Calçasta» kimi yazılıbdır.

Tədqiqatçılar arasında Zərdüstün vətəninin Azərbaycan olması,onun Azərbaycanda doğulması heç bir mübahisə doğurmamış, əksinə bu məsələdə həmfikir olmuşlar.Zərdüştün yaradıcısı olduğu din İranda Sasanilər sülaləsinin banisi sayılan Ərdəşirin dövründə (224-242) qəbul edilsə də, əsas atəşgah Atropatenin paytaxtında yerləşirdi (28, 29). Bu tarixi fakt da bir daha təsdiqləyir ki, Zərdüştün vətəni Azərbaycandır və o,təlimini doğulduğu məkanda yaratmışdır.

Bütün İran və ərəb tarixçiləri, o cümlədən İbn Xordadbeh, Balazuri, İbn Fəqih, Məsudi, Həmzə İsfahani, Yaqut Həməvi, Əbül Fəda və b. Zərdüştün Azərbaycanda-Urmiyada doğulduğunu yazıblar. Bir qisim tədqiqatçılar da var ki, onlar Zərdüştün kənardan Azərbaycana gəlib, burada fəaliyyət göstərdiyini qeyd edirlər. Ə.Təbəri, İbn Ə1-Əsir, Mirxond və b. Zərdüştün Azərbaycana gəldiyini yazırlar. Zərdüşt haqqında saysız-hesabsız rəvayət, əfsanə və dastanlar yaranıb və sonradan kitablara salınıbdır. «Zərdüştnamə»də yazılır ki, Zərdüşt azərbaycanlıdır. Dünyanı Əhrimən bərbad hala saldığından Tanrı insanlara bir peyğəmbər göndərmişdir. Firudin nəslindən olan Pürşəsbin bir oğlu olmuş, münəccimin məsləhəti ilə adını Zərdüşt qoymuşlar. Zərdüşt sözünün mənası haqqında da tədqiqatçılar yekdil fikirdə deyillər. Tədqiqatçılar Zərdüşt sözünü daha çox «ulduz oğlu», «qızılı» sözləri ilə əlaqələndirmişlər. Bəzi araşdırıcılar isə bu adı Zər – qızıl, düşt – teşt kimi izah etmişlər. Şər allahı Əhrimənə xidmət göstərənlər onu oğurlayıb oda atmışlar. Lakin od onu yandırmamış, aparıb malqaranın yol saldığı dar keçiddə qoymuşlar. Burada bir qüvvətli öküz uşağı ayaqları arasına alıb qorumuşdur. Etdikləri pisliklərlə kifayətlənməyən Əhrimən tərəfdarları yenidən onu dar bir keçiddə ilxı ayağı altına atmışlar. Onu burada da Tanrı hifz etmiş – bir madyan qorumuşdur. Sonra uşağı qurda atmışlar. Qurd uşağı yemək istədikdə ağzı bağlanmışdır. Beləliklə, Əhrimən Zərdüştü məhv etdirə bilməmişdir (31, 23-24). Bu əfsanədə Zərdüştün bir daha türk təfəkkürünə bağlılığı açıq-aydın sezilir. Onu Tanrı hifz etdiyi üçün «od yandırmır», buğa qoruyur, madyan xilas edir, qurdun ağzı bağlanır. Buğanın, qurdun türklərin totemləri olduqları mübahisəsiz məsələdir. Zərdüştü qoruyan qüvvələrin fars təfəkkürü ilə heç bir bağlılığı yoxdur. Onu hifz edən qüvvələr birbaşa türk düşüncəsi ilə bağlıdır. Professor E.Əlibəyzadə «Azərbaycan xalqının mənəvi mədəniyyət tarixi» kitabında yazır: «Qədim şumer-türk inamı, mənəvi dünyası ilə səsləşən «oda» inam, öküz (buğa),

«qurd totemi», «atın vəfası» rəvayətdə ön plana çəkilib. Tanrı Zərdüştü bu qüvvələrin əli ilə qoruyub, şər Əhrimən və tərəfdarlarına qarşı mübarizə üçün yaradıb, himayə edib, bu səbəbdən də onu məhv etmək mümkün olmayıb» (12, 172).

Zərdüştün doğulduğu, yaşadığı və fəaliyyət göstərdiyi coğrafi məkan haqqında aparılmış tədqiqatlarda ümumi bir fikir hakimdir. Tədqiqatçıların əksəriyyəti Zərdüştün doğulduğu və əməli fəaliyyətlə məşğul olduğu məkan barədə yekdil fikirdədirlər: Zərdüşt Turan dünyasının yetirməsidir. Zərdüştün və həmin dövrün həyat kitabı olan «Avesta»nın yaranma məkanı haqqında bir qədər geniş söhbət açmaqda əsas məramımız onun Turan mühitində araya-ərsəyə gəlməsini vurğulamaqdır. «Avesta»nın mənəvi-ideoloji qaynaqları da Turan mühitindən qidalanır. Onun nüvəsini təşkil edən dualist dünyagörüş, tanrılara inam, tanrılara qurbanvermə, təbiətin insan həyatındakı rolu və **s.** bu kimi dəyərlər Turan məkanının yaratdıqları maddi-mənəvi mədəniyyətin əsas komponentləridir. Dualist fəlsəfə, kainat və planet qanunlarının harmoniyası, bu harmoniyanın təbiətə və onda yaşayan insan həyatına təsiri, bütün bu vahid sistemin mütləq yaradıcısına – Tanrıya inam bütövlükdə Novruz sisteminin əsasını təşkil edir. «Avesta» heçlikdən, boşluqdan yaranmayıbdır. Alman tədqiqatçısı və tərcüməçisi H.Humbax Zərdüşt haqqındakı monoqrafiyasında yazır: «Zərdüşt Ahura dinini keçmişlərdən almış, görünür ki, onu dəyişmiş, Ahuraməzda sözünü də o düzəltmişdir. Zərdüşt bütün allahlıq xüsusiyyətlərini Ahuraməzdada birləşdirmişdir. Demək olar ki, dualizm ondan əvvəlki din rəhbərləri vasitəsilə yaranmışdır». «Avesta» araya-ərsəyə gələnə, vahid bir sistem halını alana qədər Turan dünyası özünün bitkin, püxtələşmiş Novruz sisteminin koordinat və parametrləri ilə yaşayırdı. «Avesta» mənəvi qaynaqlarını şumerlərin «Bilqamıs» dastanından və qədim türklərin şəriksiz yaratdıqları Tanrıçılıq dinindən götürmüşdür. Nümunə üçün «Kainatın və insanların yaranması» haqqında şumer rəvayətinə ötəri də olsa diqqət kəsilək: «Başlanğıcda kainatın bütün

varlığı böyük okeanın dolu suyundan ibarət olmuş. Onun nə əvvəli, nə də sonu varmış. Heç kim yaratmamış, o, əbədi mövcud olmuş və ondan başqa çox min-min illər heç nə olmamış. An və Kinin nikahından Enlil tanrı doğuldu. Yeddi böyük tanrı və ilahənin ən ağıllısı və ən qüvvətlisi Enlil tanrı doğuldu. Yeddi böyük tanrı və ilahənin ən ağıllısı və ən qüvvətlisi bütün kainatı və insanları idarə etməyə başladılar. Tanrı və ilahələr böyüdü, evləndilər, övlad dünyaya gətirdilər. Onlar üçün ən yaxşı dərk edilən göylər atası An və torpaq anası Ki oldu. Onlar genişliyə çıxdılar. Böyük qardaşları Enlildən kömək istədilər ki, hər gün yox, hər saat böyüsünlər. Güclü və yenilməz olsunlar. Enlil böyük iş gördü. Mis bıçaqla o, göy qübbəsini çərtdi. Göy tanrısı An inilti ilə arvadı ilahə Yer Kidən ayrıldı. Böyük dünyanın dağları gurultu ilə parçalandı. İlahə Yerin yatdığı yastı dairə onun ətrafını yuyan ilk yaranmış okeandan yuxarıda qaldı, dünyanın örtüyü nəhəng qalaylı yarımkürə isə havadan asılı qaldı.

İlk qoşa ər-arvad belə ayrıldı. Ulu baba Göy və Yer bir-birindən əbədi olaraq aralandı. Ulu An yuxarıda göy qübbəsində yaşadı. O, heç vaxt aşağı öz arvadının yanına enmədi. Yerin sahibi Enlil oldu. Enlilin azad etdiyi Yerin canı rahat oldu. Orda-burda hündür dağlar ucaldı. Enlilin müdrik qardaşı Enki isə dağları, ormanları, çayları və dənizləri öz hüdudsuz yaradıcılığı ilə yoluna qoydu. Bu mifdə də suyun başlanğıc olduğu vurğulanır. Su-ilkinlikdir, başlanğıc nöqtəsidir. Bunun ardınca elə həmin mifdə göy və yer vəhdəti gəlir. Göy və yerdə həyat ünsürlərinin hamısı cəmlənibdir. Göy özündə havanı və günəşi, yer torpağı qoruyub saxlayıbdır. Göy özündə işığı, istiliyi, yer suyu cəmləyibdir. Bu harmoniyanı dərk etmiş qədim türklər Göyə-Ata (An, Anu), Yerə-Ana (Ki) demişlər. Şumerlər bu vəhdətə – Ata Göylə Ana Yerin bu əbədi sevgisinə, məhəbbətinə Tenqri, Denqri (Tanrı), Tanrının qüdrəti, doğuluşu, yaranışı demişlər. Qədim şumerlər və türklər odu, günəşi və havanı da müqəddəs bilmişlər. Onları Tanrı səviyyəsinə qaldırmışdılar. Şumerlərdə Nuski, Kişar Od, Enlü,

Ninlil Hava, Utu, Şamaş Günəş Tanrısı sayılırdı. Od, Su, Hava Torpaq və Günəşin kainat və təbiətdə, onların qoynunda yaşayan insanoğlunun həyatındakı əhəmiyyəti heç nə ilə müqayisəyə gələn deyil. Bu dördlüyün vəhdəti külli-kainatı idarə edir, təbii prosesləri nizamlayır. Bu inam və düşüncə tərzinin digər iki çay arasında təşəkkül tapmış Orxon-Yenisey abidələrində davam etdirildiyinin şahidi oluruq. Böyük kitabə müdrik bir fikirlə başlanır: «Üstdə Göy Tanrı aşağıda yerlə qovuşduqda ikisinin arasında insan doğulmuş» (12, 331).

Türklər göylə yerin harmoniyasını dəqiq dərk etdiyindən bütün işlərin müvəffəqiyyətinin səbəbini elə bu vəhdətdə görüblər. Nəhəng güc-qüdrətin yalnız Tanrıya məxsus olduğunu və bütün işlərin baisi və səbəbkarının Tanrı olduğunu duyan və bilən Bilgə Kağan öz xalqına ritorik suallarla müraciət edir: «Türk oğuz bəyləri, xalqı eşidin! Yuxarıdakı Tanrı basmasa, aşağıda yer dəlinməsə, türk xalqı, sənin elini, törəməni kim məğlub edə bilər?» (12, 340). Qədim kainat və planet fəlsəfəsi qloballaşan dünyamız üçün bu gün də dəyərlidir. Ekoloji tarazlığın qorunub saxlanması, təmiz kainat və saf planetin varlığı bəşərin həyatı və sağlamlığı deməkdir. İnsan göy və yer övladı – Ata Göyün və Ana Yerin oğlu olması barədə qədim türklərin təfəkküründün məhsulu olan onlarla nümunə gətirə bilərik. Çin mənbələri vasitəsilə bizə gəlib çatmış «Şiyenpi» türk dastanının da motivini Göy səma ilə Yerin vəhdəti təşkil edir. Dastanın mahiyyətinə varmadan əvvəl bir məsələyə toxunmaq gərəkdir. Çin və İran mənbələrində qorunub saxlanılmış əski türk düşüncəsinin məhsulu olan mif və dastanlar, nəinki məna, məzmun, hətta obraz və qəhrəmanların adları belə dəyişikliyə məruz qalıblar (N.Cəfərov). Haqqında söhbət açdığımız «Siyenpi» dastanı da məzmun və qəhrəmanlarının adlarının dəyişikliyinə məruz qalıbdır. Dastanın qısa məzmununa diqqət yetirək. Mo-lo-heu adında bir Siyenpi cənub hunlarının ordusunda üç il əsgərlik edir. O, əsgərlikdə olduğu müddətdə arvadı dünyaya bir uşaq gətirir. Uşağın adını Tanşe Hoau qoyur. Mo-lo-heu əsgərlikdən

qayıdıb uşağı gördükdə qeyzlənir. Arvadını və uşağı öldürmək qərarına gəlir. Arvadı and-aman edir ki, bir gün göy bərk gurul-dayanda göyə baxdım, bu vaxt ağzıma göydən bir dolu dənəsi düşdü. Göydən gələn hə

a

T 0 1 T f 0 . 0 0 0 5 T 2 . 2 1 - 1 .

hisslərin təsirindən bir çox Qərb avestaşünasları məqsədli şəkildə Zərdüştün İsadan sonra yaşadığını yazırlar. Tarixin hökmü başqadır. E.Əlibəyzədə Diogenə istinadən qeyd edir ki, Aristotel fəlsəfə haqqındakı birinci kitabında belə yazır: «Maqlar misirlilərdən daha qədimdir. Bununla Hermipp («Maqlar haqqında» 1-ci kitabında), Yevdoks («Yer ətrafından keçmə» əsərində), Feopomp («Filippin tarixi»nin 8-ci kitabında) və b. bu fikirlə razılaşır» (12, 169). Maqların və onların peyğəmbərlərinin bəşəriyyətin ən qədim sakinlərindən olan misirlilərdən əvvəl yaşadıqları bir çox tarixçilər tərəfindən birmənalı təsdiqlənirsə, İsa peyğəmbərin təvəllüd tarixini Zərdüştdən irəli aparmaq heç cür mümkün deyildir. Məsudi İskəndərlə Zərdüşt arasında 280 il, Ə.Biruni isə 258 il fasilə olduğunu qeyd edir (30, 12-13-14). Bu ehtimallara əsaslananda Zərdüştün e.ə. VI əsrdə yaşadığını söyləmək olur. Zərdüştün özü tərəfindən yaradılmış olan «Qatlar»a söykənən araşdırıcılar fərqli tarix ortaya qoyurlar. Onlar Zərdüştün e.ə. VI əsrdən bir qədər əvvəl yaşadığını vurğulayırlar. Bu fikrin tərəfdarlarının istinad nöqtəsi «Avesta»nın yaranma dövrü və onun dilidir. İ.M.Qranski «İran filologiyasına giriş» kitabında bununla bağlı yazır ki, «Avesta» dili şərtidir, çünki «Avesta» tərkibinə görə müxtəlifdir. Belə ki, «Avesta»nın ayrı-ayrı hissələri müxtəlif dövrlərdə, başqa-başqa ərazilərdə yaranmışdır. «Avesta»nın ən qədim hissələri hələ e.ə. II minillikdə ortaya çıxmışdır (11, 30).

Avestaşünaslar bu fikirdədirlər ki, «Qatlar»ın dili e.ə. VI əsrdə I Dara tərəfindən yazdırılmış Bistun kitabələrindən daha qədimdir. Belə olduqda, Zərdüştün çox-çox əvvəl yaşadığına şübhə yeri qalmır. Ancaq tarixi mənbələrdə bu fikri inkar edən tutarlı bir faktla üz-üzə qalırıq. Əhəməni dövründə Zərdüşt dini qəbul edilmişdir. Zərdüştün yaratdığı din I Dara dövründə Əhəmənilər dövlətində rəsmi din kimi qəbul edilmişdir. I Dara hakimiyyətə gəldikdən sonra Part (Xorasan) və Gorgan ölkələrində nizam-intizam və əmin-amanlıq yaratmaq üçün atası Gəştasbı oraya hakim təyin etmişdir. Zərdüşt həmin Gəştasbın yanına gəlmiş və o,

Zərdüştün dinini qəbul etmişdir. Bunu eşidən qonşu Turan ölkəsinin şahı Gəştasbla müharibəyə başlamışdır. Zərdüşt də elə bu müharibədə öldürülmüşdür. Daranın atası da e.ə. VI əsrdə yaşamışdır. Qeyd olunan tarixi hadisələrə istinadən demək olar ki, Zərdüşt də 6-cı əsrdə yaşamışdır. Tarixı mənbələr Əhəmənilərin Zərdüşt təqvimini və ilin yazdan başlanmasını qəbul olunmasının I Dara dövrünə (e.ə. 505-ci ildə) təsadüf etdiyini təsdiqləyir (31,96). Təqvimlərin qəbulu xalq kütlələrindən daha çox, taxt-tac sahiblərinə, rəsmi hakimiyyətə lazım idi. Ən azı ondan ötrü ki, xalq kütlələrindən vergilərin yığılması, rüsumların toplanması və digər rəsmi dövlət tədbirlərin keçirilməsi üçün təqvim qəbul edilməli idi. «Avesta» təqviminə qədər xalqın yaddaş və həyatında təqvimdən bu və digər formada istifadə edilmişdir. Təqvimlər xalqın empirik müşahidələrindən, uzun illər möhtəşəm formada qeyd etdikləri müxtəlif bayram və mərasimlərdən sonra gerçəkləşib. Kainat və planetlə sıx ünsiyyətdə olan qədim insanı müşahidələri aldatmamışdır. İnsanoğlu, çox doğru yerə, günün, həftənin**,** ay və ilin hesablanmasını planetlərin, göy cisimlərinin hərəkəti, göy cisimlərinin təsirindən yerdəki dəyişikliklərə uyğun olaraq müəyyən etmişlər. Qədim insanın düşüncə və müşahidəsinə görə, planetdəki (yer) hadisələrin əsas səbəbkarı göy hadisələri və kainatda (kosmos) baş verən proseslər hesab edilirdi. Qədim türklərin yazın gəlməsini bayram etməsi kainat dəyişikliyinin planetə təsiri nəticəsində yaranmış zaman-il, gün yeniliyi ilə birbaşa bağlıdır. İlk vaxtlar empirik formada yaddaşlarda «daşlaşmışdır». İlk rəsmi təqvimlər isə sonradan Misir və Babilistanda yaranmışdır. «Avesta»ya görə, e.ə. V əsrə aid edilən «Məzdə-yəsna» Zərdüşt təqvimi Misir və Babilistan təqvimi qaydasında tərtib edilmişdir (31, 91).

Təqvimdən söhbət düşmüşkən, qeyd edək ki, bu günə kimi bəşəriyyət 3 təqvim tipindən – Günəş (şəms), Ay (qəmər) və Ay-Günəş (şəmsi-qəməri) təqvimindən istifadə etmişdir. Bu təqvimlərin ən mükəmməli günəşin hərəkət xəttinə əsaslanan Günəş təqvimidir. Bu təqvim tipində dəqiqlik gözlənilir. Təqvimdə il

bütöv əhatə olunur. Sabitlik qorunur. İlin başlanğıcı həmişə eyni vaxta düşür. Yerin Günəş ətrafında tam bir dövrə vurması 365 gündə tamamlanır. Hər dəfə ayın yarımdairə (hilal) halında görünməsi ilə yeni ay başlanır. Ayın hərəkətinə əsasən yaradılan təqvimdə isə sabitlik gözlənilmir. Sabitlik qorunmadığından ilin başlanması başqa fəslə düşür. Qəməri təqvimdə ay 28-29 gündən, il isə 354 gündən ibarət olur. Günəşin tam dövrəsi tamamlanmadığından 11 gün çatmır. Hər iki təqvimin qarışığından yaradılmış təqvim Ay-Günəş (şəmsi-qəməri) adlanır. Qədim «Avesta» təqvimi şəmsi aylarla hesablanan şəmsi-qəməri il əsasında yaranmışdır. «Avesta» təqvimi tarixən müxtəlif zamanlara aid olan iki təqvimdən ibarətdir. Birincisi qədim, digəri yeni «Avesta» təqvimi adlanır. Birinci təqvimdə ildə kəsir günlər olmuşdur. Qədim «Avesta» təqvimi Midiya dövründə mövcud olmuşdur. Böyük ehtimalla demək mümkündür ki, təqvimdəki bu qüsurların ucbatından e.ə. 505-ci ildə I Daranın hakimiyyəti dövründə yeni bütöv təqvim qəbul olunmuşdur. Tarixi mənbələrdə qədim «Avesta» təqvimində il 360 gündən ibarət imiş. Hər ay 30 gün müəyyən edilibmiş. Uzun illərin müşahidə və əməli fəaliyyəti nəticəsində «Avesta» təqvimində il 365 gün götürüldüyündən hər 4 ildə bir gün, hər 120 ildə isə 1 ay yaz bayramı gec qarşılanırdı. Ə.Biruninin yazdığına görə, kəsir qalan günlər ilin sonuna əlavə edilirdi (31, 92-93). Əslində, Zərdüşt bu çatışmazlığı aradan qaldırmış, təqvimi sistemə salmışdır. Ancaq sonradan müxtəlif səbəblərdən bu sistemə düzgün riayət edilməməsi səbəbindən «Avesta» təqvim sistemi tədricən pozulub, dəqiqlik əldən verilmişdir. Tarixi xronologiyaya əsasən deyə bilərik ki, bu təqvimdəki qüsurlar Məlik şah Səlcuq (1073-1093) tərəfindən Novruz bayramının vaxtını dəqiqləşdirilməklə aradan qaldırılmışdır. Onun təşəbbüsü ilə kamil bir təqvim yaradılmışdır. «Avesta» təqvimi Günəşin hərəkət xəttinə uyğun olduğundan yarandığı gündən elmi əsaslara söykənib. Bu təqvim fərvərdindən başlanır. Ümumən, mənbələrə əsasən demək olar ki, Azərbaycan xalqının qədim və orta əsrlərdə istifadə etdiyi təq-

vimlər yazdan başlanmışdır. Qədim və orta əsrlərdə istifadə edilmiş təqvimlərdə yaz müxtəlif aylara düşmüşdür. Ancaq il həmişə yazdan başlanıbdır.

«Avesta» təqvimi üzrə ilin 8-ci ayı aban ilin səyyar olması səbəbindən yazın başlanğıcına düşdükdə yenə bu ilin əvvəli Bahar cəşi (yaz bayramı) adlanırdı. Onu da qeyd edək ki, Yaxın və Orta Şərq xalqlarının bir çoxu tərtib etdikləri təqvimlərdə «Avesta» təqviminə istinad ediblər. Ə.Biruni «Asar əl-Baqiyyə» əsərində yazır: «Çox qədimlərdən il fərvərdin ayının Hörmüz günündən başlanır». Məşhur ensiklopedistin bu fikri «Avesta»nın birbaşa özündən qaynaqlanır. «Avesta»ya görə, Novruz insanoğlunun yarandığı gündür. «Avesta» inamınca, həmin gün (Novruz) Zərdüştün anadan olduğu gündür. Zərdüştün «Avesta»nı Ahuraməzdanın (Hörmüz) yanından gətirdiyi günü də Novruzla bağlayırlar. Yaz bayramını zərdüştilər Ahuraməzdanın Əhrimən üzərində qələbə çalması ilə də əlaqələndiriblər. Günün (Novruz) müqəddəsliyi, uğuru, düşərliliyi uzun illər, əsrlər genetik yaddaşda yaşadılmışdır. Günün uğuru birbaşa Tanrıyla (kosmosla) bağlı olduğundan insanlar, xüsusən rəyasət sahibləri (xaqanlar, şahlar, padşahlar) özlərinin əbədiliyini qorumaq üçün adlarını və fəaliyyətlərini müqəddəs və uğurlu günlə – Novruzla əlaqələndirmişlər. İnsafən də deyək ki, bu istəklərinə də zaman-zaman nail olmuşlar. Zərdüşt də bu günün uğurundan müvəffəqiyyətlə faydalanmışdır. Bu günün xoşbəxt taleyi Göylərdə yazılmışdır. Qədim insan da günün Göylərdə yazılmış taleyini həssaslıqla «oxumuşdur». Gündüzün uzanması, Günəşin hərarətinin artması, təbiətin canlanması, qışın yaza məğlub olması, işığın güclənməsi bu günü ötən günlərdən açıq-aydın fərqləndirmişdir. Avestaşünasların əksəriyyəti Novruzun geniş əhatəli bir kainat, planet qanunauyğunluqlarını özündə cəmləşdirən bir sistem olduğundan yox, əksinə, onu yalnız dar bir çərçivədə saxlayıb, yalnız əkinçilik və təsərrüfatla əlaqələndirirlər. Çox qəribədir ki, Novruza qarşı bu tendensiya uzun illərdir davam

etdirilir. Novruz əsla əkin-biçin bayramı deyil. Novruz sisteminin tərkibində digər mühüm komponentlərlə birgə, əkin-biçin, təsərrüfat həyatının özəllikləri də vardır. Novruz sistemi bütövlükdə Allahıdərk prosesi məcmusudur. Bu mürəkkəb prosesin içərisində külli-kainatın dərki, göy və göy cisimlərinin hərəkəti, planetin (yerin) spesifik qanunauyğunluqları cəmlənibdir. «Avesta» özündən çox-çox əvvəllər formalaşmış təbii Novruz qanunlarından kifayət qədər məharətlə faydalanmışdır. «Avesta» Novruz qanunauyğunluqlarını özündə qoruyub saxlamış, bu günümüzə qədər gətirib çıxarmışdır. Kainat və planetin 4 əsas istinad elementi, ünsürü mövcuddur. Ümumən, kainat və planetdə dəyişilməz bir 4-lük sistemi vardır. Mövcud olan 4-lük sisteminə diqqət yetirək: 4 ünsür – od, su, torpaq, hava; 4 fəsil – yaz, yay, payız, qış; 4 keyfiyyət – isti, soyuq, quraqlıq, yağmurluq; maddənin 4 halı: bərk, maye, qaz və plazma; 4 coğrafi tərəf – şərq, qərb, şimal, cənub, 4 məzac var – qan, öd, qara öd, selik və s. Bu tip dördlük nümunələrini bir qədər də artırmaq mümkündür. Dördlük fəlsəfəsi Quranda da mükəmməlcəsinə davam etdirilibdir. Sonuncu Səma kitabının «Fussilət» surəsində kosmosun, materiyanın halları, hissələri, o cümlədən yaşadığımız dünyanın 4 təbəqə və halı, 4 gündə yaranması, 4 ölçülü məkan-zaman kontiniumunda var olması barədə söhbət açılıbdır. Bu dördlük kainat və planetin, onların ayrı-ayrı komponentlərinin arasında olan gözə görünən və zahirən hiss olunmayan harmoniyadır. Bu dördlüklərin hər birinin arasında mövcud olan dualizm inkişafın stimullarıdır. Hər dördlük (məs: od, su, torpaq, hava) birbiri ilə vəhdətdədir, həm də bir-birinə qarşıdırlar. Bu əkslik də elə vəhdətdir. «Avesta» məntiqi də elə bu dualizm və onun yaratdığı vəhdət üzərində qurulmuşdur. Zərdüşt şumerlərin yaratdığı mənəvi xəzinədən ağıl və zəka ilə bəhrələnmişdir. Dualist təfəkkürün də izlərinə «Avesta»dan əvvəl şumer mədəniyyətində rast gəlirik. Tədqiqatçılar qədim şumerlərin «İlk qızıl dövrü», «Qızıl əsri», «Sirli əsr və onun puça çıxması»ndan geniş danışılır, xeyirlə şərin

yaranma səbəbləri və onların mifoloji qaynaqları barədə ətraflı yazmışdırlar. S.Kramer yazır ki, «klassik mifologiyada» qızıl əsr «dinclik, səadət əsri kimi təsvir olunur, o vaxt insanlar əzab - əziyyətin, qayğının nə olduğunu bilmirmişlər» İnsan-Tanrı bu xoş və firavan həyata dözə bilmədi, qəlbində həsəd, paxıllıq hissi baş qaldırdı. Müdrik tanrı Enki ağlından azdı, insanlara nəzər saldı, onların artıb-törəmələrindən vahimələndi. Tanrıların müdriki qorxuya düşdü. Enlilə dedi: «Qorun, mənim qardaşım. Sənin itaətində olan insanların sayı artır, onlar çox fədakar olur və fəallaşır, şəhərlər salır və qalalar ucaldır. Bax, hər halda, onlar bizimlə tən gəlməsin». Qüdrətli Enki qorxuya düşdü və Enlildən soruşdu: «İnsan nəslini məhv etmək yaxşı olmazmı, insanları yenidən sənin onları hazırladığın gilə çevirəkmi?»

- Yox, belə etmək yaramaz, – deyə Enki cavab verdi – İnsanlar bizə öz qurban hədiyyələri ilə məbədlərimizi qaldırmaq üçün lazımdır. Amma onların sayını azaltmalı, cəsarətli niyyətlərinə mane olmalı, yoxsulluğa çəkməli, onları qorxuzmalı, çünki onlar özlərini tanrılara tay tutmasınlar. Bunu necə etməli? – deyə Enlil soruşdu. Enki cavab verdi: «Vəhşi heyvanlar yaradaq ki, insanları məhv etsin və onların sayını azaltsın. Yerə bərk isti və acgöz çəyirtkə göndərək ki, aclıq düşsün və yerdə olanların sayı azalsın. Qəddar İrrani insan əleyhinə silahlandıraq, qoy o insanlığa 60 cür xəstəlik yoluxdursun, onda insanlar azalacaq və onlarla hesablaşmaq asan olacaq. İnsanları biri-birinə salışdırmaq ilə qoy qardaş qardaşla, qonşu qonşu ilə vuruşsun, qoy tayfa tayfa əleyhinə qalxsın və onda insanlar azalacaq, onlar ram ediləcək və bizim qarşımızda titrəyəcəkdir (14, 12-13). «Avesta»nın baş allahları da kainat və planetdəki əksliklərini təmsil edirlər: Ahuraməzda (Hörmüz) və Anqramanyu (Əhrimən). Ahuraməzda işıq, xeyirxahlıq, firavanlıq, Anqramanyu qaranlıq, şər, bədbəxtlik daşıyıcılarıdır. Ahuraməzda kainat, planet, ümumən, insan və insanlığın yaşayışı, inkişafı üçün mütərəqqi və müsbət enerjinin yaradıcısı, daşıyıcısı və tərəfdarıdır.

Bunun əksinin tərəfdarı isə Anqramanyudur. «Avesta»nın təməl prinsipi sayılan dualizm haqqında tədqiqatçılar çox yazmış, fərqli fikirlər söyləmişlər, Ancaq «Avesta» dualizminin əsl mahiyyətinə vara bilməmişdilər. Söylənilən fikirlər olsa-olsa zahirən görünənlərdir. Bu ehtimallar Kainat və Planetin intensiv inkişafını təmin edən dualizm fəlsəfəsinin yanında olduqca naqis və primitiv görünür. Bir qrup tədqiqatçı belə ehtimalda bulunurlar ki, «Avesta» dualizmində İran təbiətinin təzadları əks olunub, barlı-bərəkətli torpaqlar və daşqınlar, zəlzələlər, qum qasırğaları. Digər qrup alimlərin mülahizələrinə görə, Əhriman-Hörmüz qarşıdurmasının kökündə arxaik dualist mifologiya dayanır.

İkinci qrup tədqiqatçıların inamına görə, bu dualizmdə əkinçi tayfalarla köçəri maldarlar arasında ehtimal olunan düşmənçilik dayanır. Bu ehtimalların hər birinin ayrı-ayrılıqda tərəfdarı olsa da, hələ də ehtimal olaraq qalır.

Od. Oda inam, onu qorumaq Azərbaycanda zərdüştlikdən çox-çox əvvələ gedib çıxır. Od insan həyatını dəyişdiribdir. İnsan odu uzun axtarışdan sonra, böyük bir məşəqqətlə əldə etdiyindən onun gecə-gündüz keşiyini çəkmişdir. Azərbaycanda oda inamın zərdüştlikdən əvvəllər meydana gəldiyini əyani şəkildə sübut edən faktlar mövcuddur. Həmin faktlar bu gün də qalmaqdadır. Azərbaycanda ilaxır çərşənbədə və Novruz bayramında çatılmış tonqalların üzərindən tullanılır. «Avesta»da oda tamam özgə bir münasibət bəslənilir. Zərdüştlikdə isə, odun üstündən tullanmaq yasaq sayılırdı. «Avesta»da oda Allah misalında baxılıbdır. Od – işığın, istinin daşıyıcısıdır. Bunlar da Ahuraməzdanın təsir dairəsindədir. Zərdüşt də oda adicə od, ocaq kimi baxmayıbdır. «Avesta»da oda münasibəti belə qruplaşdıra bilərik:

1) Od – işıq, mənəvi təmizlənmə vasitəsidir. İnsan odun, işığın köməkliyi ilə bədənindən, ruhundan şər qüvvələri, xəstəlikləri qovur. Od – maddi və mənəvi təmizlənmə missiyasının daşıyıcısı olubdur. Qədim insan fiziki cəhətdən möhkəm və sağlam, mənəvi baxımdan saf olmaq niyyəti ilə «od»un sınağından keçirilib. Bioloji cəhətdən xəstəliklərə yoluxmamaq üçün insan öz bədənini od-alovdan keçiribdir. Məlumdur ki, müəyyən temperaturda virus və bakteriyalar yaşaya bilmirlər. Zərdüştün yaşadığı dövr üçün odla müalicə ən faydalı bir üsul sayılmışdır. Od mənəvi sağlamlıq funksiyasını da yerinə yetiribdir. Hər kəsin içərisində yatmış bir od, bir işıq var. İnsanı insan edən, onu başqalarından fərqləndirən elə od və işıqdır. «Avesta»da bu işıq, mənəvi saflıq, təmizlik və kamillik missiyasının daşıyıcısı kimi öyünülür.

2) Od – nəsil ağacının qorunması və davamıdır. «Avesta»da evə, ocağa çox böyük əhəmiyyət verilir. «Avesta»da Hörmüzün köməkçisinin – od, işıq ruhu olan Arta daha çox tərif edilir. «Ardvisur-yaşt» (Aban-Yaşt) hissəsində Arta «ev-mülk arxası», «mal-mülk arxası», «ölkə arxası» kimi öyülür. Burada od, işıq və günəşin çıxması Anahitin çağırışı ilə əlaqələndirilir (14, 57).

3) Od işıq və günəşin planetdəki (yerdəki) gözgörəsi, əldəyiləsi rəmzidir. Günəşin bütün kainatın işıq, istilik mənbəyi olduğunu bilən insan onun yerdəki analoquna (oda) inam, inanc yeri kimi baxmış, ondan maddi (məişət) və mənəvi həyatında istifadə etmişdir. Bu anlayışdan çıxış edib deyə bilərik ki, günəşə inamdan çox-çox əvvəl oda inam olubdur. Oda, istiliyə inam sonradan böyük Günəşə inama gətirib çıxarmışdır.

Zərdüştliyin əsas inam obyekti od olmuşdur. «Avesta»da oda inamdan geniş danışılsa da, odun saxlanıldığı və sitayiş edildiyi hansı səbəbdənsə atəşgədələrin adı belə çəkilmir. Lakin pəhləvi mənbələrində, o cümlədən ərəb, fars və türk mənbələrində atəşgədələr haqqında geniş məlumat verilmişdir.

Bu məqamda onu da qeyd edək ki, zərdüştliyin meydana gəldiyi yerin, «Avesta»nın yazıldığı əlifbanın və dilin Azərbaycanla daha çox bağlı olduğunu göstərən dəlillərdən biri də məhz elə böyük və məşhur atəşgədələrin Azərbaycan ərazisində yerləşməsidir. Tarixi məxəzlərdə zərdüştliyin ən qədim atəşgədələrindən üçünün daha çox adı çəkilir**.** Bunlar Azərğəşəsb, Azər Frənbağ və Azərbərzin atəşgədələridir. Adıçəkilən bu üç atəşgədənin içərisində ən mötəbər və müqəddəsi Azərgəşəsb atəşgədəsi sayılmışdır (31, 33). «Bundəheş»in 17-ci fəslində yazılıb: «Cəmşid zamanında üç sinfi qorumaq üçün göydən üç od, üç ibadətgaha düşmüşdür:

1. Azərbaycanda Azərgəşəsb adlanan atəşgədənin odu;
2. Fars əyalətində Azər Frənbağ adlanan atəşgədənin odu;
3. Xorasanda Bərzin Meh adlanan atəşgədənin odu.

Azərgəşəsb odu hökmdar və qoşununu, Azər Frənbağ odu kahinləri, Bərzin Meh atəşgədənin odu isə torpaqda çalışan zəhmət adamlarını qoruyurdu (30, 34-35).

Atəşgədələrdə oda sitayiş e.ə. birinci minilliyin əvvəllərindən başlanmışdır. Ancaq insanların oda inamı çox-çox əvvəllərə gedib çıxır. İnsanoğlu odu əldə etdiyi gündən ona müqəddəs bir varlıq kimi baxmışdır. Bu da təsadüfi deyildir. Od bəşəriyyətin həyatında əsaslı bir dönüş yaratmışdır. Bu ciddi təkamülü həyatında duyan

insanoğlu da oda inanmış, gecə-gündüz onun keşiyini çəkmişdir. Çətinliklə əldə etdiyi odun nazı ilə oynamış, onu gözdən qoymamış, onun sönməyinə imkan verməmişdir. Həmin inamın izləri bu gündə Azərbaycanda qorunmaqdadır. Bu günün özündə də yanan ocağın üstünə su atmırıq. Yanar ocağı, od-ocaq yerini natəmizlikdən qoruyuruq. Hətta müqəddəs and yerlərimizdən biri də ocaqdır. İndi də dilimizdə «And olsun bu ocağa» «Bu ocaq haqqı», «Bu ocağa and olsun» kimi müqəddəs andlarımız vardır, Novruzdan qaynaqlanan zərdüştliyin odu müqəddəs tutması odun həyat, təkamül mənbəyi olması ilə bağlıdır. Od insanı təbiətdən cəmiyyətə doğru inkişaf elətdirmiş və sivil cəmiyyətin qurulmasına təkan vermişdir. Od həyat gerçəkliyidir. Od həyat incilərindən biridir. Həyatın, təbiətin nəinki bitkin inkişafı, bütövlükdə var olması, bu ünsürün hər birinin varlığından bu və ya digər formada asılıdır. Kainatın və planetin əsaslı inkişaf qanunlarını dərindən bilən Zərdüşt həyati gerçəkliyin inkişafına təkan verən odu müqəddəs bilmiş, ona sitayiş etməyi vacib saymışdır. Zərdüşt inancının baş allahı olan Ahuraməzda odun təmsilçisidir. «Avesta»da beş növ oddan danışılır. Birincisi Berezi Səvengah-Bəhram odu – atəşgədələr odu, ikinci Vəhvə Freynə odu – canlıların bədənində olan hərarət, üçüncü Urvazişta – bitkilərə xas olan hərarət, dördüncüsü Vedyaşt buludlar odu – ildırım, beşincisi Speniştə od – Ahuraməzdanın yanında saxlanılan ən müqəddəs oddur. Buna behişt odu da deyirlər (31, 43-44).

Zərdüştliyin vətəninin Azərbaycan olduğunu təsdiq edən faktlardan biri də Azərbaycan və Atropaten adları ilə bağlıdır. Bir çox tarixi mənbələrdə Azərbaycan toponimi «Odlar ölkəsi» kimi qeyd olunur. Atropatenə gəldikdə isə, zərdüştliyi özünün rəsmi dövlət dini qəbul etmiş Sasanilərin dövründə bel +â ðÏ % RF

etdikdən sonra dövlətin paytaxtından bu məbədə piyada ziyarətə getməli idilər (28, 29).

«Şahnamə»də odun ilkin yaradıcısının Kəyumərs olduğu yazılır. Belə deyilir ki, o, ovladığı vəhşi heyvanların ətini bişirmək üçün odu əldə etmişdir (9, 25).

Norvuz sistemində olduğu kimi, «Avesta» təlimində də həyat ünsürlərindən biri də sudur. «Avesta»da bu həyat ünsürlərini, çox doğru yerə, «ölməz müqəddəslər» adlandırırlar. Dünyanın yaradılışı haqqında məşhur pəhləvi kitabı «Bundəheş» də («Əsas yaradılma») yazılıb ki, Hörmüzlə Əhrimən arasında müqavilə bağlandıqdan sonra Amah raspandları («Avesta»dakı Ameşa-Spentanın) ölməz müqəddəsləri yaradır. Həmin «ölməz müqəddəslərin» altısını əvvəl yaratdı. Maddi aləmdə yaratdıqları birinci səma, ikinci su, üçüncü torpaq, dördüncü bitkilər, beşinci mal-qara, altıncı insan, yeddinci Hörmüz özü idi (28, 59). Zərdüştlikdə od kimi, su da müqəddəs sayılmışdır. Bu məqəddəslik də zərdüştliyə qədər özünə həyati status qazanmışdır. Od kimi, suya da həyati gerçəklik, həyati intişar mənbəyi kimi baxmışlar. Herodot və Strabonun yazdığına əsasən demək olar ki, Azərbaycan ərazisində yaşayanlar çox qədimdən suya inanmış, onu hər cəhətdən qorumuşlar. Suya həyat mənbəyi kimi, təmizlik, paklıq ünsürü kimı baxmaqda insanoğlu səhv etməmişdir. Zərdüşt dininin davamçılarının da suya sitayiş etməsinin kökündə elə bu gerçəklik dururdu. Mifik su tanrısı Anahitin baş allahlardan biri olması təsadüfi deyildir. «Avesta»nın 5-ci Yaştı «Abənyəşt» Ardvi-Sur (Ardvi-nəm, rütubət, Sura – güclü deməkdir) Anahitə həsr olunub. Orada göstərilir ki, Anahit müqəddəs suların allahıdır. Onun yeri ulduzlar arasındadır. O, çox güclü və qorxmazdır. Ahuraməzda ona xüsusi hörmət və ehtiram bəsləyir. Bütün allahlar Anahitin hüzuruna gəlir. Anahitdən allahlar əzəmət, var-dövlət diləyirlər. Anahit təbiət və canlıların məhsuldarlığını təmin edir. Anahitin siması da diqqət cəlb edəndir, boy-buxunlu və gözəldir. Bir çox mənbələrdə Anahit sözü bir qədər sadələşdirilmiş, Hahid formasında işlədilmişdir. Nahid adı daha

çox populyarlaşmışdır. Onun şərəfinə Midiyada Əhəməni və Arşagidlər dövründə bir çox şəhərlərdə məbədlər tikilmişdir. M.M.Dyakanov yazır ki, belə mötəbər məbədlərdən biri də Şizdə (Midiya – Atropatendə) tikilmişdir (74, 118). Nahid üçün məbədlər su mənbələrinə yaxın yerlərdə tikilirdi. Onun şərəfinə qurbanlar verilirdi. Verilən qurbanlar da su kənarında olurdu. Gölün, bulağın yaxınlığında, torpaqda çala qazır, kəsilən heyvanın qanı ora axıdılır, sonra üstünü torpaqla örtürdülər. Qurban ətini yaşıl yarpaqlar üstünə qoyub, nazik çubuqla vura-vura ovsunlayırdılar. Mərasim başa çatandan sonra dindarlar ətdən bir parça götürüb gedərdilər. Allahlara ətdən saxlamazdılar. Onlar güman edirdilər ki, allahlara ət yox, qurbanın ruhu lazımdır (31, 50). «Avesta»da su ilahəsi Nahidlə bağlı gerçəkləşdirilən xüsusi bayram Sasanilər dövründə payızın orta ayında Su bayramı adı ilə keçirilmişdir. Mərasimdə qadınların iştirakı üstünlük təşkil edirdi. Qadınların çoxluq təşkil etməsinin səbəbini su ilahəsinin qadın surətində təsvir olunmasında axtarmaq lazımdır.

«Avesta» inamına görə, su yalnız məişət mərasimlərində deyil, dövlət əhəmiyyətli işlərdə də müqəddəs sayılmışdır. Müharibəyə yola düşməzdən əvvəl dövlət bayrağına su çilənər, ilk atılacaq ox da müqəddəs su ilə yuyulardı.

«Avesta» təlimində torpaq da müqəddəs sayılmışdır. İnsanoğlu torpağa xeyir, bərəkət mənbəyi kimi baxmışdır. Zərdüştdən çox-çox əvvəllər yaşamış qədim türklər torpağın müqəddəsliyini duymuş, ona səcdə etmişlər. Türklər torpağa insanın yaradıcısı kimi baxmışlar. Yaradıcısı türklər olan bir əfsanədə deyilir ki, Qara xanın oğlu Ülgən insanları torpaqdan yaratmışdır. «Bilqamıs» dastanında göstərilir ki, tanrı Aruru Bilqamıs torpaqdan yaratmışdır.

Dünyanın sonuncu və mütərəqqi dini olan islamda da bu fikri təsdiqlənir. Novruz birbaşa təbiət qanunlarına istinad etdiyindən torpağı müqəddəs ünsür kimi qiymətləndirmişdir. Novruz sistemindən bol-bol qaynaqlanmış «Avesta»da təbiətin bu 4 müqəddəs ünsürü lazımınca qiymətləndirilmişdir. «Avesta»da od və su kimi,

torpağın da təmiz saxlanılması məsləhət bilinir. Yer, torpaq ayrıca mələkəyə həvalə edilmişdir. Həmin torpaq mələkəsi Zəmyəştin adı ilə bağlı ayrıca «Zəmyəşt» fəsli vardır**.** Bu fəsildə torpağı təmiz saxlamaq, onu əkib-becərmək, abadlaşdırmaq müqəddəs bir vəzifə kimi insanlara tapşırılır. Zərdüşt t

- Ey, məni sol əli ilə və sağı ilə, sağ əli və və solu ilə becərən insan, mən, həqiqətən, hər cür yemək-içməklə və bol məhsul yetirəcəyəm, Ey Spitamid Zərdüşt, bu torpağı sol əli və sağı ilə, sağ əli ilə və solu ilə kim becərmirsə, torpaq ona belə deyir: «Ey sən, məni becərməyən adam, sən, həqiqətən, ömrün boyu boynunu əyib özgə qapılarında, daim ona-buna əl açanların arasında qalacaqsan, həqiqətət, dadlı nemətləri daim sənin yanından keçirib aparacaqlar ki, orada var-dövlət onsuz da boldur. Taxıl səpən doğruluq səpir (14, 89). Zərdüştün torpağa münasibəti min illərdən bəri özünü doğrultmaqdadır. Bu həyati fəlsəfə – «torpaq onu əkib-becərənin və qoruyanın», « torpaq deyib öldür məni, dirildim səni» – bu gün də özünü doğruldur.

Cəsarətlə deyə bilərik ki, Novruz təlimini «Avesta» ilkin yazılı mənbə kimi özündə qoruyub saxlayıb. «Avesta» Novruz sisteminə əsaslandığından onun prinsiplərini əxz etmişdir. Novruz sistemində ilin 365 (+1) günü öz əksini tapıb. İlin bütün günləri Novruz sistemində əhatə olunubdur. «Avesta»da ilin 2 fəsildən ibarət olduğu göstərilir:

1) 7 aydan ibarət olan yaz;

2) 5 aydan ibarət olan qış.

Türklər də ili 2 hissəyə bölürdülər. Birinci hissə Xızr, ikinci hissə Qasım adlanırdı. Hər iki hissə 6 aydan ibarət idi. İlin Xızr deyilən dövrü 28 apreldən, Qasım hissəsi 26 oktyabrdan başlanırdı.

Yuxarıda qeyd etdik ki, «Avesta» təqvimi Novruza əsaslandığı üçün ilin bütün günləri, ayları əhatə olunurdu. «Avesta»da ilin müxtəlif vaxtlarında 6 mövsüm bayramının keçirildiyi qeyd olunur.

1. Məydyu-zərəmi adlanan bayram yazın ikinci ayının əvvəlindən başlayaraq beş ay davam edirmiş. İnama görə, bu bayram göyün yarandığı gün hesab edilirmiş.

2. Məydyu-şəm deyilən ikinci bayram yayın başlanğıcında keçirilirmiş. Həmin gün suların yaradıldığı gün hesab edilirmiş.

3. Yayın axır ayında keçirilən bayram Pəyti-nəym adlandırılmışdır. Həmin gün insanlar yerin yaradıldığını qeyd edirmişlər.

4. Payızın ilk ayında keçirilən əya-sərəm bayramında heyvanların yaradıldığı gün qeyd olunurmuş.

5. Bitkilərin yaradıldığı gündə keçirilən bayram məydyu-arəm adlanırmış.

6. Qışın sonunda yazın gəlişi ilə bağlı qeyd edilən bayram həməspət-məydi adlanırmış. İnsanın yaradıldığı bu günü insanlar xüsusi təntənə ilə keçirirmişlər.

Zərdüşt dininə inanlarda belə bir inam var idi ki, Ahuraməzda dünyanı altı mərhələdə yaradıbdır. Elə bu inama görə də onlar ilin 6 ayrı-ayrı dövründə müxtəlif günlərdə bayramlar keçirirmişlər. «Avesta»da adları qeyd olunan bu bayramların təsərrüfatla bağlı olduğu göstərilir. Məsələn, payızın başlanması ilə bağlı keçirilən əya-səri bayramında dağdan qayıdan sürüyə qoç buraxılır. Görünür, bu bayram sürünün dağdan enməsi və quzulama ilə əlaqədar olmuşdur. Yazın ikinci ayı, yəni aprel 20-22-də keçirilən məydyu-zərəmi bayramı maldarların ilin əvvəlində maldarlıqla əlaqədar keçirdikləri şənlik idi. İlin bu vaxtları mal-qaranı çölə-örüşə çıxarmaq üçün əlverişli şərait yaranır. Sıra ilə qeyd etdiyimiz ikinci və üçüncü bayramlar da sırf əkin-biçin ilə bağlı idi.

Həməspət-məydi bayramı isə qışın çıxması və yazın gəlməsi ilə bağlı olan, sonralar Novruz bayramı kimi tanınmış yeni ilin başlanğıc bayramı idi (31, 58-59).

«Avesta» təqviminə görə, yazın birinci ayı fərvərdin adlanır. Bir sıra tarixi mənbələrdə Novruz bayramı fərvərdin bayramı kimi qeyd edilir. Bəzi tədqiqatçılar fərvərdin sözünü ata-baba ruhu mərasimi ilə bağlayaraq, bununla ilk dəfə Novruza dini nəfəs gətirmək istəmişlər.Bir daha qeyd edirik ki, bütün sonrakı dinlər kimi, zərdüştlik də Novruzdan yetərincə faydalanmışdır. Çox maraqlıdır ki, Novruzdan qaynaqlanan, onun maddi-mənəvi dayaqlarına söykənən zərdüştlikdə fərvərdikan adlanan ata-baba ruhunu xatırlama ayini Novruz bayramına bir neçə gün qalanda keçirilirdi.

Fikrimcə, zərdüştliyin ata-baba ruhlarının Novruz ərəfəsində xatırlamaları yazın gəlişi, təbiətin dirçəlişi ilə əlaqədar idi. Onların etiqadına görə, ruhlar həmin dövrdə ata-baba ocağına dönür, ev-eşiyə baş çəkir. (Fərvərdin sözü qədim «Avesta» sözlərindəndir. Midiya hökmdarı Diyokun atası, eləcə də varisi – oğlu Fərvərti adlanırdı. Sözün mənası qoruyan və pənah yeri anlamını verir).

Elə bu vaxt yaxınlığına görə Novruz bayramı ilə fərvərdikanı eyniləşdirirlər. Əslində, bu mərasim Novruza qədər keçirilib və günümüzə qədər gəlib çıxıbdır. Ə.Biruni də «Asar əl-Baqiyyə» əsərində yazır ki, soğdilər ilin axırlarında ata-baba ruhu gününü qeyd edirlər. Bu günlər ağlaşır, ata-baba ruhu üçün ehsanlar verirlər.

2.2. Orta əsr müəllifləri (Ə.Biruni, Ö.Xəyyam, Q.Təbrizi, N.Gəncəvi) Novruz haqqında

Novruz semantikası ilə populyarlaşmış bu bayramın ilkin yaradıcıları şumerlər və onların genetik davamçıları sayılan qədim türklər olsa da, bu sistemin dəyərlərini Yaxın və Orta Şərqdə yaşayan digər xalqlar da mənimsəmişlər. Dünyanın birmənalı qəbul etdiyi Dəclə-Fərat, Kür-Araz, Orxon-Yenisey-ikiçayarası mədəniyyətinin məhsulu olan Novruz sistemi digər xalqların da maddi-mənəvi dəyərlərinin tərkib hissəsinə çevrilmişdir. Novruzun insan həyatında özəlliklərini görən mütəfəkkirlər zaman-zaman onun haqqında fikirlər söyləmiş, araşdırmalarının nəticələrini qeyd etmişlər.

X əsrin mötəbər mənbələrindən olan «Zeyn əl-Əxbar» adlı əsərdə bir çox xalq bayramları barədə məlumatlara rast gəlinir. Adıçəkilən əsərdə «Moğolların bayram və şənlikləri» fəslində maraqlı bir cədvəl verilmişdir. Bu cədvəldə zərdüştilərin (orta əsrlərdə moğollar dedikdə zərdüştilər nəzərdə tutulurdu) bayramının adı

çəkilir (31, 87). Adıçəkilən əsərdə adları sadalanan bayramların bir çoxuna Ə.Biruni, Zəkəriyyə Qəzvini və başqa müəlliflərin də əsərlərində rast gəlinir. Orta əsr müəllifləri bu bayramın yaranmasını mifik şahların – Cəmşid və Kəyumərsin adı ilə əlaqələndirirlər. Tədqiqatçıların gəldiyi yekdil qənaət budur ki, Kəyumərs «Avesta»dakı Qayamartdır. Kəyumərsin ilk insan olduğunu bir çox mənbələr təsdiqləyir. A.Şükürovun «Mifologiya» kitabında belə bir diqqətçəkən qeyd var: «Zərdüştlük haqqında müsəlmançılıq dövründə yazılan əsərlərin birində deyilir: «Mənim nəslim və mənşəyim Qayamartdan başlanır (28, 50). Ə.Firdövsinin «Şahnamə»sində də Kəyumərsin ilk padşah olduğu vurğulanır. Bunları ona görə qeyd edirəm ki, ilk insan sayılan Kəyumərsin Novruzun yaradıcısı olduğu inandırıcı görünür. O, ilk insan və ilk şahdır. Kəyumərs insanlara maddi-mədəni nemətlər gətirən, xeyir və fayda verən bir şəxsdir. Zərdüştilərin dini kitabı olan «Avesta»da Kəyumərsin adı Qaymərdan, yəni «ölümə məhkum canlı», başqa cür desək, «insan» deməkdir. Sonralar bu söz Qoyomərd, nəhayət, Kəyumərs formasına düşmüşdür. Buna görə də belə iddiada bulunmaq olar ki, Novruzun tarixini Kəyumərslə əlaqələndirən əfsanənin tarixi daha qədimdir (70, 14). Adları sadalanan bayramların bir çoxuna Ə.Biruni, Zəkəriyyə Qəzvini və başqa müəlliflərin əsərlərində də rast gəlinir. Orta əsr Şərq fəlsəfəsinın və təbiətşünaslığının inkişafında müstəsna xidmətləri olmuş böyük ensiklopedist alim Ə.Biruni (973-1048) Novruz və onun komponentləri haqqında geniş və dəyərli araşdırmalar müəllifidir. Bu məqamda qeyd etmək yerinə düşər ki, Novruz haqqında sanballı və orijinal informasiyaların müəllifləri Ə.Biruni və Ö.Xəyyamdır. Ə.Biruninin əsaslandığı və geniş tədqiq etdiyi ilkin mənbə «Avesta» olmuşdur. Ə.Biruninin «Asar əl-Baqiyyə» əsəri Novruz və onun tarixindən bəhs edir. Onun «Keçmiş nəsillərdən qalan izlər» («Xronologiya») əsəri isə Yaxın Şərq və Orta Asiya xalqlarının ümumi müqayisəli tarixi xronologiyasına həsr olunmuşdur. Görkəmli alim bu əsərində

ərəb, yunan, fars və digər xalqlarda gecə-gündüzün başlanğıc vaxtının təyini, şəms və qəməri illəri, həmçinin bir çox xalqların bayramları və dinləri barədə ətraflı məlumatlar vermişdir. Mənşəcə özbək türkü olan məşhur Orta Asiya mütəfəkkiri Ə.Biruni «Asari-əl-Baqiyyə» əsərində yazmışdır ki, Zərdüşt Azərbaycandan idi. Müəllif «Avesta» düşüncəsini və onun yaranmasını Kaspi (Xəzər) dənizi regionu və azərbaycanlıların yaşadıqları məkanla əlaqələndirmişdir.

Orta əsr müəlliflərinin əksəriyyəti Novruzun mənşəyini əfsanəvi İran şahı Cəmşidlə əlaqələndirmişlər. Bir çox mənbələr Novruz sözünün mənşəyini Cəmşidin taxta çıxması ilə bağlayırlar. Araşdırıcıların bu inamı birbaşa «Avesta»dan qaynaqlanır. «Avesta»nın ən qədim fəsillərindən olan «Qatlar»da Cəmşidin fəaliyyətindən söhbət açılır. Orta əsrlərin bədii düşüncəsində də (Q.Təbrizi, Xaqani, Nizami və b.) Cəmşid yaradıcı bir hökmdar kimi alqışlanır. Əfsanəviləşmiş Cəmşidə Azərbaycanda xüsusi məhəbbətin olması vaxtilə onun Azərbaycana bəsləmiş olduğu əlahiddə sevginin qarşılığı idi. Bu sevginin özülündə Cəmşidin Günəşli Azərbaycana taxt-tac üstündə gəlməsi dayanır. Ə.Biruni «Avesta» məntiqindən çıxış edib yazırdı ki, Cəmşid şah dünyanın hər tərəfini gəzib-dolandıqdan sonra Azərbaycana yetişdi. Ləl-cəvahirə bələnmiş padşahlıq libasına bürünüb, altun taxtda üzü gündoğana sarı əyləşdi. Günəş şəfəqlərini onun taxtına saldı. Onun taxt-tacı bərq vurub parladı. Bu işıq, bu hal onun hüzurunda duranları sevindirdi. Deyirlər, dünyanın hər tərəfini gəzib-dolaşmış Cəmşid Azərbaycana valeh olmuşdur. Günəşin məşriqdən (şərq) tülü etdiyini görməklə, bir dəxi qərbdən tülü eləmiş kimi hesab elədilər. Həmin günə Novruz (təzə gün) dedilər. Cəmşidin adı Cəm idi. Cəm – padşah, sultan deməkdir. O gündən ona şid ləqəbi verdilər. Şid fars dilində şüa, işıq anlamındadır. Əfsanəvi padşah da həmin gün xalqa üz tutub demişdir ki, Novruzu möhtərəm bir gün hesab etsinlər. Cəmşid həmin gün xalqın dərd-sərinə əlac elədi, camaatdan mərhəmətini əsirgəmədi. Zindanların qapısının açılmasını əmr etdi.

Əfsanəyə bələnmiş bu fikrə bu günün məntiqi ilə nəzər yetirək. Cəmşid günəşin parlaq şəfəqlərinə məhz Azərbaycanda rast gəlir. Günün, ayın dəyişdiyinin məhz Azərbaycanda əyani şahidi olur. Həmin günün bayram edilməsini məsləhət bilir. Bu əfsanədəki məntiqdən çıxış edib deyə bilərik ki, Cəmşid gələnə qədər Azərbaycanda ilin, günün təzələnməsi bayram səviyyəsində qeyd olunurmuş**.** İlin təzələnməsi şərəfinə hökmdarlar xalq içərisinə gedib, xalqın dərd-səri ilə əyani tanış olub, həmin gün bütün gördüyü, eşitdiyi müşkül məsələlərin həll olunmasına göstəriş veribdir.

Ə**.**Biruni bu qəbildən olan bir neçə rəvayəti «Keçmiş nəsillərdən qalan izlər**»** kitabında qeyd etmişdir. Ə.Biruni Azərbaycan, İran və b. coğrafi məkanların bayramları haqqında danışır. Böyük mütəfəkkir bayramları məzmun və motivinə görə iki qrupa ayırır: «Bayramlar arasında elələri var ki, yaranma səbəbləri dünyəvi işlərlə, elələri də vardır ki, dini işlərlə bağlıdır». Bəşəri mündəricə daşıyan bayramlar haqqındakı qədim əfsanələri öz zəmanəsinin dünyagörüşünə və təfəkkürünə uyğun şəkildə izah edən Ə.Biruni yazır: «Dünyəvi, qeyri-dini bayramlara və əlamətdar tarixi günlərə gəldikdə, şahlar və əyanlar elə adətlər qoymuşlar ki, xalqın könlü şad olsun, ruhu dincəlsin. Bunlar yoxsulların həyatını yüngülləşdirmək, ümidlilərin qəlbində ümid qığılcımlarını sönməyə qoymamaq, ölümə yaxın olanları təhlükədən və bəladan qurtarmaq üsullarından biridir».

Bu fikirlər Ə.Biruninin «Keçmiş nəsillərdən qalan izlər» əsərindən iqtibas olunubdur (70, 14). Bu fikirlərin müəllifi inanır ki, ədalətli şahlar rəiyyətlərinin ruhi, mənəvi rahatlığının qayğısına qalır, insanların gələcəyinə təminat vermək üçün bayramlardan və müxtəlif şənliklərdən faydalanmışlar. Şahlar və din xadimləri min illərlə yaradılmış və insanların həyatına əsaslı şəkildə daxil olmuş xalq adət-ənənələrini hər cür dəstəkləyirdilər. Onlar əhali arasında nüfuzlarını möhkəmləndirmək üçün xalqdan qidalanan bayramlardan, adət-ənənələrdən əvəzsiz bir vasitə kimi istifadə edirdilər. Ə.Biruninin dünyəvi bayramları dini bayramlardan fərqləndirməsi

çox əhəmiyyətli idi. O, çox doğru yerə, yazırdı ki, dini bayramları «ruhani rəhbərləri sırasından olan qanunvericilər» bu gün yox, «gələcək həyat»da xoşbəxtliyə qovuşmaq məqsədi ilə yaratmışlar. Biruni, çox böyük müdrikliklə dünyəvi bayramlar içərisində məhz Novruzu bahar bayramı adlandırmışdır (70, 14).

Novruz kainat (kosmos) və planet (yer) qanunlarını özündə cəmləyən mükəmməl bir sistemdir. Bu sistem uzun sürən bir prosesin bəhrəsidir. Belə bir mürəkkəb sistemi bir nəfərin adı ilə bağlamaq, onun yalnız bir nəfər tərəfindən, özü də bircə gün içərisində yaradılmasına inanmaq ən azı sadəlövhlükdür. Tarixi məxəzlərdə adları Novruzla əlaqəli çəkilən Kəyumərs və Cəmşid Novruz möhtəşəmliyindən ustalıqla yararlanmaqla adlarını şərəfləndirib, özlərinin əbədiliyinə öz əlləri ilə imza atmışlar. Novruz sistemi bir gündən ibarət deyil. Yalnız ilin yeniləşməsi, gecə-gündüz bərabərliyinin yaranması bir günə, konkret bir vaxta (21-22 mart keçidi) düşür. Həmin gün-martın 21-22-si Novruzun əlahiddə bir günüdür. Novruz tədqiqatçılarının bu əfsanələrlə bağlı daha bir maraqlı mülahizələri ilə razılaşmamaq olmur. Araşdırıcıların əksəriyyətinin gəldiyi nəticə budur ki, Novruzu İran şahları Kəyumərs və Cəmşidin adı ilə bağlayan farsların məqsədi bu möhtəşəm bayrama sahib çıxmaqdır. İ.S.Braginskinin qənaətinə görə, Novruz bayramını sonralar Cəmşid adlı mifik şahın adı ilə bağlamağa başlamışlar (70, 14). Fars müəllifləri kök etibarı ilə onlara dəxli olmayan Novruz bayramını mənimsəmək, özlərinin milli bayramı kimi tanıtmaq üçün bu əfsanələrdən ustalıqla istifadə etmişlər (68, 19). Məqamı çatmışkən, İran və fars xalqının əlaqəsinə ötəri də olsa diqqət yetirək. Əfsuslar olsun ki, uzun zaman bir çox tarixi mənbələrdə İran və fars dövləti məfhumu eyni mənada işlədilmişdir. Bunun ən birinci səbəbi bəzilərinin təəssübkeşliyindən irəli gəlir. Bu tendensiyanın kor-koranə davamçıları isə bilərəkdən başqa cür düşünmək istəməyiblər. Məlumdur ki, İran coğrafi məkandır. Bu coğrafi məkanda çoxsaylı xalqlar yaşayıb-yaratmışlar. Bu qədim coğrafi məkanda sonralar qurulmuş millətçi rejimlər zəngin İran

mədəniyyətinin yaranmasında digər xalqların halal paylarını insafsızcasına danmışlar. Əksər vicdanlı müəlliflər isə Zərdüşt dünyagörüşünün yaradıcılarının türkmənşəli midiyalılar olduğunu yazırlar. Artıq İranın bir çox xalqların vətəni olduğu elmdə birmənalı şəkildə təsdiqlənibdir. Bu çoxsaylı xalqların İran sivilizasiyasının formalaşmasında inkaredilməz rolu da danılmazdır. Ədalət naminə deyək ki, İran mədəniyyətinin formalaşmasında Azərbaycan türklərinin xüsusi payı vardır.

Novruzun genezisi barədə orta əsr müəlliflərinin, o cümlədən Ə.Biruninin tendensiyası sonrakı dövrlərdə məsələyə praqmatik, açıq-aydın və vicdanlı münasibət bəsləyən əksər araşdırıcılar tərəfindən davam etdirilmişdi. Novruzun ən görkəmli araşdırıcılarından olan Y.V.Çəmənzəminli də iranlı müəlliflərin Novruzu Cəmşidə aid etmələrini tarixi həqiqətdən uzaq olduğunu vurğulayırdı.

İnsafən deyək ki, Ə.Biruni Novruz sistemi haqqında geniş və mükəmməl məlumatlar vermişdir. Ə.Biruni Novruzla bağlı yalnız «Avesta» məlumatları ilə kifayətlənməmişdir. O, yaşadığı dövrdə xalqın yaddaşında «oturuşmuş» əfsanələrə də yer vermişdir. Belə deyirlər ki, Davud peyğəmbərin oğlu Süleyman üzüyünü itirib, hakimiyyətdən uzaqlaşandan 40 gün sonra üzüyünü yenidən özünə qaytarırlar. Üzük qaytarılandan sonra yenidən taxt-taca sahib olmuş Süleymanın hüzuruna yer üzünün hökmdarları təşrif buyururlar, quşlar da onların başının üstünə yığışır. Bu qələbəliyi görən farslar deyirlər: «Novruz amәd», yəni «Yeni gün gəldi». Süleyman küləklərə əmr etdi ki, onu götürüb aparsınlar. Süleyman peyğəmbərin qarşısına çıxan qaranquş dedi: «Ey hökmdar, yuvamda yumurtalarım var, yana çəkil, onları əzmə». Süleyman yana çəkildi. O, yerə enəndə qaranquş dimdiyində gətirdiyi suyu Süleymanın qarşısında yerə çilədi, ona bir çəyirtkə budu bağışladı. Elə bu səbəbdən də Novruz bayramında yerə su çiləyir və hədiyyələr verirlər.

Ə.Biruni Mehrikan bayramı haqqında da söhbət açmışdır. Mehr sözünə «Avesta»da da rast gəlinir. «Avesta» ədəbiyyatında mehr sözü mitra, mitr kimi yazılıb. «Avesta»dan sonrakı mənbə-

lərdə mehr sözü ülfət, ünsiyyət, mehribanlıq mənalarında işlədilib. Bir çox mənbələrdə Mehrikan adlı bayramın məhsul bayramı kimi qeyd olunduğu göstərilir. İlkin mənbələrdə Mehrikan daha çox mehr kimi işlədilmişdir. Ə.Biruni «Asar əl-Baqiyyə» əsərində Mehrikan barədə yazır: «Deyilənə görə, mehr günəşin adıdır. O, bu gündə aşkar olunub-görünüb, ona görə də bu gün mehrə mənsub olur və deyilənə görə, bu gün Firudin Zöhhaka qalib gəlmişdir və bu gün də mələkələr Firudinin köməyinə gəlmişdilər».

Ə.Biruni bu fikirləri «Avesta»dan əxz etmişdir. «Avesta» təqvimində ilin 7-ci ayının 16-cı günü mehr adlanır. Bu gün Zöhhakın zülmündən cana gəlmiş adamlar Gavəyi-Ahəngərin (Dəmirçi Gavə) rəhbərliyi ilə onun taxt-tacını devirmişlər.

Ö.Xəyyam da Mehrikan bayramını bu yarımtarixi rəvayətlə əlaqələndirmişdir. Mehrikan-Mitra bayramını bir çox fars müəllifləri mit tələffüzündə Cəmşit, Cəmşitlə bağlamışlar (68,20).

Göründüyü kimi, zaman və tarixi şərait müxtəlif olsa da, meyil və təmayül dəyişməmiş, hökmdarlar öz həyat və əməllərini yenə xalq təfəkkürünün məhsulu olan bayramla əlaqələndirmişlər. «Avesta»da mələklərdən (yəzəd) birinin adının Mehr olduğu da göstərilir. O da vurğulanır ki, bu yəzəd (mələk) yerdə qalan mələklərdən çox hörmətlidir. Ahuraməzda qədər nüfuzludur. «Avesta»da deyılir: «Mən Ahuraməzda, Mehri özüm qədər sitayişəlayiq yaratdım». Bir çox mənbələrdə Mehrin günəş olması elə buradan qaynaqlanır. «Avesta»nın «Mehryəşt» adlanan fəslində göstərilir ki, Mehr günəşdən qabaq dağ üstünə gəlir. Elə «Avesta»nın özündə bu məntiqi başqa bir fikir də təsdiqləyir: «Günəş batdıqdan sonra Mehr yerlə göy arasına nəzər salır».

Tədqiqatçılar Mehrikanın da Novruz kimi qədim və əzəmətli bir bayram olduğunu göstərirlər. Araşdırıcılar bu iki bayramın təntənə və əzəmətini onunla izah edirlər ki, qədim zamanlarda hökmdarlar ildə iki dəfə Novruz və Mehrikanda xalq kütlələrinin şikayətlərini dinləyər və onların dərd-sərlərinə əlac edilərdi. Novruz yaz, mehrikan isə payız başlandıqda keçirilirdi (31, 120). Bəzi

İran tədqiqatçıları (H. Tağızadə və b.) Mehrikanın farsların Novruz bayramı olduğu mülahizəsini irəli sürürlər. Bu fikirlə heç cür razılaşmaq mümkün deyildir. Midiya və Azərbaycan ərazisində 2500 il əvvəl Mehrikan qeyd edilmişdir. Belə bir fakt da məlumdur ki, Midiyada Mehrikan bayramı zərdüştlüklə bağlı olmuşdur. Mənbələrdə o da qeyd olunur ki, Dara öz tərəfdarları ilə birlikdə Midiyada hakimiyyəti ələ almaq üçün əlverişli gün kimi məhz Mehrikan bayramı gününü seçmişdir. Həmin gün Mehrikan bay-l.f0 Tc 0

almışdır. Firdövsinin yazdığına görə, Zöhhakın çiyinlərindəki ilanları sakitləşdirmək üçün onlara hər gün iki gəncin beynini yedizdirirmişlər. Bu zülmə qarşı ilk dəfə dəmirçi Gavə üsyan qaldırmış, sonradan isə Firudun xalqın və atasının (Onun atasının da beyni Zöhhakın çiynindəki ilanlara yedirdilmişdir) qisasını Zöhhakı Dəmavənd dağında mağarada asaraq almışdır.

Bir neçə dəfə Novruzun bir sistem olduğunu vurğulamışıq. Yuxarıda göstərildi ki, Novruz yaz, Mehrikan isə payız bayramıdır. Bununla razılaşmamaq olmur. Novruz bir sistem olduğundan o ilin 365 gününü əhatə edir. Mehrikanın payızda keçirilən məhsul bayramı olmasına heç bir şübhə qalmır. «Avesta» təqviminə görə, ilin birinci ayı yazın gəlişi (Novruz) bayram edilir. Torpaq şumlamış, məhsul yetişdirmiş insan, onun bəhrəsini də toplayıb bayram etməlidir. Bu yaz-payız məntiqi sonluğudur.

Orta əsr müəllifləri (Ə.Biruni, Qəzvini, Ə.Səmərqəndi) Mehrikanın payızın başlandığı gün kimi qeyd etmişlər. Bir qədər də dəqiq desək, orta əsr müəllifləri Mehrikanın mehr ayının 16-da keçirildiyini yazırlar. Orta əsr tədqiqatçılarının hamısı Mehrikanın keçirilmə günü ilə həmrəydirlər. Bayramın keçirilmə günü ilə həmrəy olan orta əsr müəllifləri bayram günlərinin neçə gün olmasında fərqli düşünürlər. Qeyd olunduğu kimi, Ə.Biruni Mehrikanın mehr ayının 16-dan 30-a kimi keçirildiyini və bu bayram günlərinin cəmiyyətin müxtəlif təbəqələri arasında bölündüyünü yazır. Cəmiyyətin müxtəlif təbəqələrinə mənsub olan insanlar (saray adamları, hərbçilər, əkinçilər və b.) elan olunmuş müəyyən günlərdə bayramı keçirirdilər. Bir çox orta əsr müəllifləri isə Mehrikan bayramının altı gün keçirildiyini yazırlar (31, 125). Bir məsələyə bu məqamda münasibət bildirmək vacibdir. Novruz kimi, Mehrikan da iki ad və 2 müxtəlif vaxtda – 16 mehrdə mehrikane-amme və 21 mehrdə mehrikane-xasse kimi qeyd olunubdur. Mehrikanın 21 mehrdə qeyd olunduğu barədəki informasiya daha inandırıcı görünür. Ə.Biruni bu barədə «Avesta»ya əsaslanıb yazır ki, «Avesta»

təqvimində hər ayın 2l-ci gününün bayram adlanmasına baxmayaraq, həmin gün tarixən Mehrikan kimi daha çox tanınmışdır. Həmin gün Mehrikan həftəsinin son günü kimi böyük təntənə ilə qeyd olunmuşdur. Belə deyirlər ki, Zərdüşt buyurub: «Mehrikan bayramının başladığı və qurtardığı günləri təntənəli qarşılayın və yola salın» (31, 126). Mehrikan bayramının mehr ayının 21-də qeyd edildiyi məntiqə daha çox uyğundur. Aydındır ki, hər ayın 21-22-si ay tamamlanır, yeni ay başlanır. Mehrikanın da məhsul bayramı olduğunu nəzərə alsaq, indiki təqvimlə oktyabr ayında məhsulun yetişib, yığılıb başa çatdığı və məhsul bolluğunun bayram əhval-ruhiyyəsi yaratdığına şübhə yeri qalmır. Mehrikan bayramının Novruz qədər təntənəli və əzəmətli bir formada qeyd edilməsi onun Novruz sisteminin tərkib hissəsi olması fikrimizi bir daha təsdiq edir. Mehrikanın Novruz kimi yüksək dəbdəbə **və** təntənə ilə keçirilməsini orta əsr müəllifləri də təsdiqləyirlər. Ə.Biruni də bu faktı qeyd etmişdir: «Mehrikan bayramı da Novruz bayramı kimi geniş qeyd edilir» (31, 126). Novruzda olduğu kimi, Mehrikan bayramında da hər evdə zəngin bayram süfrəsi açılır, qohum-qardaş, qonşular bir-birinin evinə gedib noğul-nabat, meyvə-şirniyyatla bir-birlərinin bayramlarını təbrik edirmişlər. Əgər Novruzda əhali ayazlı-şaxtalı qışdan qurtulduqlarını bayram edirdilərsə, Mehrikanda zəhmətlərinin bəhrəsini, məhsul bolluğunu təntənə ilə qeyd edirdilər.

Orta əsr müəllifləri içərisində Novruzun mənşəyi və elmi-astronomik əsasları haqqında daha geniş məlumata Ö.Xəyyamın yaradıcılığında rast gəlirik. O, kainat və planet hadisəsinə xüsusi bir əsər həsr etmişdir. Ö.Xəyyamın «Novruznamə»ni 1075-78-ci illər arasında yazdığı ehtimal olunur.

Ö.Xəyyam «Novruznamə» əsərində Novruzun yaranma səbəblərini rəvayətlərlə yox, dövrün maddi-texniki texnologiyalarının verdiyi imkan vasitəsi ilə astronomik faktlara əsaslanan elmi dəlillərlə sübut etmişdir. Ö.Xəyyam İsfahan astronomiya rəsəd-

xanasına on səkkiz il başçılıq etmişdir. Tarixi mənbələrin verdiyi məlumata görə, Səlcuq hökmdarı Məlik şah Səlcuqi (1072-1092) ulduzları müşahidə etmək üçün lazımi astronomiya cihazlarının alınmasını və həmin rəsədxanaya rəhbərliyi Ö.Xəyyama tapşırıbmış. Mənbələrdə o da göstərilir ki, Ö.Xəyyamın başçılığı altında dövrünün bir çox məşhur alimlərinin cəmləşdiyi bu elmi mərkəz – rəsədxana bütövlükdə Yaxın Şərqdə müdrik insan kimi tanınmış Nizam əl-Mülkün təşəbbüs və səyi nəticəsində yaradılmışdır. Astronomiya rəsədxanasının yaranması tarixi zərurətlə bağlı idi. Müdrik və uzaqgörən insan olan Nizam əl-Mülk «Səlcuqilərin ulduzunun daha parlaq şölə saçması» (39, 119) və mövcud ərəb (hicri) təqviminin özünü doğrultmadığı üçün yeni təqvimə ehtiyac duydu. 1075-ci ildə Ömər Xəyyamın başçılığı altında bir neçə alim yeni təqvimin bərpası üçün işə başlamışlar. 1078-ci ildə düz üç ilin gərgin axtarışlarından sonra yeni təqvim hazır olmuşdur. Bərpa olunmuş bu təqvim «Cəlali tarixi» kimi tanınmışdır. «Məlik ilinin hesablanması» adıyla məşhurlaşan təqvim islahatı Xəyyamın başçılıq etdiyi rəsədxananın ən mühüm nailiyyətlərindən biridir. Həmin dövrdə Səlcuqilər dövlətində mövcud olan hər 2 təqvimdən – Günəş və Ay təqvimindən istifadə olunurdu. Günəş təqvimi Yerin Günəş ətrafında hərəkətinə əsaslanır. Yerin Günəşin ətrafında bir dövretmə müddəti 365, 2422 gündür. Bu təqvimə görə, bir il 365 gün 5 saat 48 dəqiqə 46 saniyədir.

Ay təqvimində isə Ayın Yer ətrafında dövretmə müddəti durur. Ay təqvimində bir ay 29 gün 12 saat 44 dəqiqə 3 saniyədən ibarətdir. Bir Ay ili isə 354 gün 8 saat 48 dəqiqə 36 saniyəyə bərabərdir. İran və Midiya ərazisində lap qədim dövrlərdən Günəş təqvimindən istifadə edirdilər. Ə.Biruni «Keçmiş nəsillərdən qalan izlər» adlı məşhur əsərində bu təqvim haqqında yazmışdır: «Onlar (zərdüştilər) öz illərini 365 gündən hesab edirdilər və sonuncu rəqəmə o vaxta qədər məhəl qoymurdular ki, günün dörddə bir hissəsi 120 il müddətində bütöv ayı təşkil etsin. Bu vaxt onlar ilə bütöv bir il əlavə edirdilər». Ö.Xəyyamın «Avesta» təqvimi

əsasında bərpa etdiyi «Cəlali salnaməsi»ndə başlıca məsələ ilin kəsirinin qaydaya salınması və bir sıra mövsüm bayramlarının vaxtını dəqiqləşdirməkdən ibarət olmuşdur. Ən vacib məsələ Novruz bayramının yazın ilk günündə keçirilməsini birdəfəlik sabitləşdirmək, bayramla bağlı bir çox işləri nizama salmaq idi. Əslində, «Novruznamə» yazılana qədər Novruz bir sistem kimi mükəmməlləşmiş, sabitləşmiş və hər il müntəzəm olaraq eyni vaxtda martın 9-da (martın 21-də) keçirilmişdir.

«Novruznamə» əsərinin ən mühüm elmi əhəmiyyəti ondadır ki, Novruzun yaranmasının səbəbləri kainat qanunlarında axtarılır. Əsərdə Novruzun tarixindən danışan müəllif onun yaranmasının elmi izahını verir: «Novruzun yaranmasının birinci səbəbi odur ki, həmin gündə Günəş dövrə vurub 365 gün altı saatdan sonra öz yerinə (hərəkət etdiyi bürcdən yenə əvvəlki yerinə) qayıdır». Digər orta əsr müəllifləri kimi, Ö.Xəyyam da Novruz sözünü mifik padşah Cəmşidlə bağlamışdır. Ö.Xəyyam və digər orta əsr müəlliflərinin Cəmşidlə əlaqədar fikirləri ilə qismən razılaşmaq olar. Əfsanəvi padşah Cəmşidin Novruzun yaradıcısı olduğu inandırıcı deyildir. Həmin günə Novruz (yeni gün) adının Cəmşid tərəfindən verilməsi və o günü şəxsən Cəmşidin özünün bayram etməsi ağlabatmazdır. Bu bayram Cəmşid şahın yaşadığı dövrə kimi mövcud olmuş, min illər boyu ayrı ad altında qeyd olunmuş və insanların səyi nəticəsində qorunub saxlanılmışdır. Çox böyük ehtimalla demək olar ki, Cəmşid öz səlahiyyət və nüfuzundan istifadə edərək bu möhtəşəm bayrama Novruz adını vermişdir. Cəmşidin həmin gün taxta yiyələnməsi də, rəvan üstündə Azərbaycana təşrif buyurması inandırıcıdır. Cəmşidin Azərbaycana gəlməsi böyük ehtimalla birbaşa Günəşi əyani surətdə qarşılaması ilə bağlı olubdur. Ö.Xəyyam «Novruznamə»də zərdüştliyin yaranmasından öz dövrünə qədər olan təqvim islahatlarının tarixini ayrıca təsvir etmişdir: Hüştəspin (I Dara – e.ə. 552-486) şahlıq etdiyi vaxtdan 30 il keçdikdən sonra Zərdüşt gəlmiş və sehrbazların dinini gətirmişdir. Hüştəsp onun dinini qəbul eləmiş və tətbiq etmişdir.

Firudin (İranın əfsanəvi şahı) zamanından həmin dövrədək 940 il keçmış və günəş əqrəb bürcünə daxil olmuşdu. Hüştəsp uzun il yaratmağı əmr elədi. O, Xərçəng bürcünün ilk günündən etibarən fərvərdini Günəşdən başladı və bayram təşkil etdi. Dedi ki, bü günə riayət eləmək və Novruzu keçirmək lazımdır, çünki Xərçəng bürcü – işləmək üçün xoşbəxt ulduzdur, kəndlilərə bu dövrdə vergini vermək hüququ verilməlidir. Bu, onlar üçün asan ola bilər. Sonra o əmr elədi ki, illəri dəyişməmək və insanlar həm isti, həm də şaxtalı havalarda öz vaxtlarını bilmək üçün hər 120 ildən bir uzun il keçirilsin. İnsanlar uzun ili keçirməyi Sasanilər sülaləsinin əsasını qoymuş Ərdəşirin dövrünə qədər davam etdirdilər. Ö.Xəyyam yazır ki, Novruz bayramını insanlar ədalətli Nuşirəvanın dövrünə qədər qeyd etmişdilər. Nuşirəvan uzun ilin qeyd edilməsini qadağan etdi. Bildirdi ki, Günəş öz dövretməsinin axırında Xərçəng bürcünün birinci gününə çatana qədər insanlar bu bayramı keçirməyi dayandırmalıdırlar. Ö.Xəyyam yazır ki, həmin dövrdə Məmunun (Abbasi xəlifəsi 813-833) astronomiya cədvəli tərtib olundu, bizim dövrə qədər təqvimi bu cədvəllərin köməyi ilə hazırlayırlar (39, l22-123). Müxtəlif dövrlərdə tez-tez dəyişdirilən təqvim cədvəllərinin nəticəsi idi ki, ayrı-ayrı zaman kəsiyində Novruz martın 9-da (21-22-də) yox, Xərçəng bürcündə qeyd olunmuşdur. Qəti və birmənalı şəkildə demək olar ki, Novruzun Xərçəng bürcündə (22 iyun –22 iyul) qeyd edilməsi yalnız təqvimdən gələn xəta ilə bağlıdır. N.Tusi də «Zic Elxani» əsərində Ö.Xəyyamın təqvim islahatı barədə dəyərli məlumat vermişdir. N.Tusi yazır ki, həmin il təqvim Sultan Cəlaləddin Məlik Şah ibn Alp Arslan Səlcuq tərəfindən yaradılıbdır. Müəyyən edilmişdir ki, həmin ilin başlanması üçün günəşin Qoç bürcünə daxil olduğu dövr, yəni əsl baharın başlandığı vaxt götürülür. Hər ayın əvvəlində günəş zodiakın elə bürclərinə daxil olur ki, o, həmin aya uyğun gəlir. Mükəmməl təqvim də elə Günəş əsasında hesablanılır. Astronomlar günləri hesablamağın asan olması və digər təqvimlərdən fərqlənməməsi üçün ayların müddətini 30 gün müəyyən etmişlər. Kəsir qalan

günlərin məsələsində də N.Tusi özündən əvvəlki orta əsr müəlliflərinin yazdıqlarını təsdiqləyir. Axırıncı beş gün ilin sonunda (isfənd ayının) hər 4 ildən bir ilin üstünə bir gün əlavə olunur. Bununla da, il bütövləşir, 365 gündən ibarət olur.

Məşhur özbək astronomu Uluqbəy özünün bütün dünyada diqqəti cəlb etmiş «Gürkanın yeni astronomiya cədvəli» əsərində orta əsrlər müəlliflərinin marağına səbəb olmuş bu təqvim islahatı barədə yazmağı unutmamışdır. Uluqbəy yazır ki, Cəlaləddin Məlik Şahın dövrü Günəşin Qoç bürcünə daxil olduğu günün yarısına uyğun gəlir, bu dövrün ayları da, həmçinin Günəşin zodiakın ayrı-ayrı bürclərindən keçməsindən asılıdır. Bu səbəbdən bu dövrün ayları və illəri günəşli olmalıdır. Ancaq efemerid təqviminin düzgün olması üçün aylar dəqiq müəyyən edilmiş 30 gündən hesablanır (39, l24). Buradan bir daha görürük ki, əksər orta əsr müəllifləri Novruz təqvimi barədə yekdil fikirdə olmuş və Xəyyamın bərpa etdiyi təqvimi təqdir etmişlər. Bu alqışlama, təqvimin dəqiqliyinə söykənir. Ö.Xəyyamın təqvimində uzun il əvvəlki uzun ildən 4 il deyil, 5 il fasilə ilə ayrılır. Həmişə 8-ci hesab olunur, nəticədə 33 il dövrlü son dərəcə sadə bir təqvim olduğunu görərik. Burada ilin 4, 8, 12, 16, 20, 24, 28 və 33-cü illəri uzun hesab olunur. Bu halda, ilin orta müddəti 365,2224 günə bərabərdir, yəni həqiqi Günəş ilindən sapmalar 0, 0002 günə bərabərdir. Deməli, 5000 il ərzində bir daha əyani şəkildə təqvimin son dərəcə dəqiq və mükəmməl olduğunu bir daha təsdiqləyir. Bu gün inkişaf etmiş dünyanın istifadə etdikləri müasir təqvimdə ilin orta müddəti 365,2425 günə bərabərdir, yəni həqiqi ildən sapmalar 0,0003 günə bərabərdir. 3333 il ərzində 1 gün səhv olunması mümkündür. Bu analogiya da həmin təqvimin bir daha mükəmməlliyini göstərir. Yüksək inkişaf mərhələsini yaşayan bəşəriyyətin istifadə etdikləri müasir astronomik təqvim «Avesta» təqvimindən faydalanır. Novruz bayramı Məlik şah Səlcuqinin dövründə yenidən bərpa olunmuş təqvim əsasında yazın ilk günündən rəsmən bayram kimi də qanuniləşdi.

Ö.Xəyyam «Novruznamə» əsərində bir məsələyə də aydınlıq gətirmişdir. Bir çox tədqiqatçılar fərvərdin sözünü feruherlər-ata-baba ruhu kimi qəbul edirdilər. Düzdür, Novruz sisteminin tərkibinə ata-baba ruhu günü, əcdad günü də daxildir. Ancaq fərvərdin Günəş ilinin başlanğıc ayı, Novruzun təntənəii qeyd olunduğu aydır. Xəyyam göstərir ki, fərvərdin Günəşin həməl (quzu) bürcündə olduğu və bitkilərin cücərdiyi aydır (31, 104). Tam əminliklə deyə bilərik ki, XI əsrdə Ö.Xəyyam tərəfindən «Avesta» təqviminə əsasən yaradılmış yeni təqvimdə Novruz sabitləşdi. Həmin tarixdən Novruz bayramının yeni erası başlandı. Demək olar ki, «Novruznamə»də Novruz kompleks halında tədqiq olunmuşdur. Xəyyam, Novruz bayramının keçirilmə prosedurunu və özəlliklərini də lazımınca tədqiqata cəlb etmişdir. «Novruz-namə»də göstərilir ki, il təhvil olarkən, birinci olaraq baş kahin hökmdarın yanına gəlir. O, özü ilə hökmdara meyvə dolu qızıl cam, üzük, qızıl sikkələr, yaşıl budaq, qılınc, ox və kaman, mürəkkəb-qabı, qələm, at və başqa şeylər gətirirdi. İslama qədərki Novruz bayramı təntənəsini özündə cəmləyən bəzi mənbələrdə qeyd olunurdu ki, Novruz bayramı başlayan günü səhər tezdən hökmdar təzə paltarla təkbaşına saraya gələrdi. Axşamdan sarayın qabağında gecələyən xeyirxah, gülərüz, şirinsöhbət ağsaqqal kişi icazəsiz hökmdarın yanına gələrdi. Onu görən hökmdar soruşardı ki, kimsən, haradan gəlirsən, adın nədir və gətirdiyin nədir?

«Mən qabiliyyət və zəfər qüvvəsiyəm, Allah tərəfindən gəli-rəm. Adım Xoşyumidir. Gətirdiyim zəfər və yardımdır. Mənimlə gələn yeni ildir. Yol yoldaşım səlamətlik və şahlıqdır» – deyən Xoşyumi bayram süfrəsində otururdu. Süfrədə gümüş qabda buğda, arpa, darı, qarğıdalı, noxud, mərci, düyü, lobya və s. hazırlanmış balaca fətirlər və üzərlik dəstəsi olurdu (31, 114). «Novruznamə»də bayram süfrəsində təqdim edilən şeylər haqqında belə bir orijinal təsvir vardır. Qızıl qiymətli metalların əşrəfidir. İl təhvilində ona baxanın gözü işıqlı olar. Ona baxan sevinər və hünərli olar.

Xəyyam bayram süfrəsini də ətraflı təsvir etmişdir**.** Kainat və yerin ünsürlərinin vəhdətindən yaranmış bitkilər haqqında xüsusi söhbət açmışdır. Bayram süfrəsində arpa göyünün olmasını ən yaxşı bir adət kimi dəyərləndirir. Arpa ilə bağlı dini rəvayətlərə də yer ayrılmışdır. Xəyyam yazır ki, əfsanəyə görə, Adəm peyğəmbər buğda yediyindən behiştdən qovulmuşdur. Allah buğdanı onun azuqəsi etmişdir, lakin Adəm nə qədər buğda yeyirdisə, doymurdu. Buna görə də Allaha yalvarıb şikayətlənmişdir. Allah rəhm edib ona arpa göndərmişdir. Adəm arpa çörəyini yedikdən sonra doymuşdur. Ə.Biruninin yazdığına görə, ilin məhsuldar, yaxşı olub-olmamasını arpa ilə müəyyənləşdirmək olurdu. Xəyyam bu inancı qeyd etmişdir. Arpa göyü şax və yaxşı göyərmiş olarsa, həmin il məhsulun bol olacağı ehtimal edilirdi. Əgər arpa göyü zəif, ölgün olarsa, qıtlıq gözlənilirdi. Xəyyama qədər də Novruz bayramında yeddi növ dənli bitki göyərdirdilər. Bayrama beş gün qalmış hökmdarların sarayında, həyətlərində kərpicdən on iki sütun düzəldirdilər.

Hər sütunda bir növ dənli bitki göyərdilirdi. Bayramın altıncı günü həmin əkilən bitkilərə diqqət yetirilirdi. Bu xüsusi diqqəti yetirməkdə əsas məqsəd arpanın necə göyərməsini yoxlamaq idi. Yoxlamadan sonra musiqi və nəğmə sədaları altında göyərtilər toplanardı. Ə.Biruni bu sütün və göyərdilən bitkilərin sayının yeddi olduğunu göstərir (31, 115). Arpa bitkisinin faydalı olması, digər dənli bitkilərə nisbətən az zəhmət tələb etməsi və erkən yetişməsini insanlar bilirdilər. «Avesta»nın «Vəndidad» hissəsində arpanın sehrli qüdrətindən, onun Əhrimənin düşməni olmasından danışılır. Deyirlər ki, taxıl zəmisində arpa göyərdikcə Əhrimən bağırır. Arpa döyülüb başa gəlib xırmandan aparıldıqda Əhrimən ağlayır. Onu dəyirmana apardıqda Əhrimən nalə çəkir, un əmələ gəldikdə Əhrimən kədərin gücündən ölür. (31,116) Xəyyamın yazdığına görə, ari tayfaları xırmandan-xırmana bir il hesab etmiş və ilin başlanğıcını arpa biçinindən qəbul etmişlər. Xəyyam arpa bitkisinin tibbi müalicəvi əhəmiyyətini də qeyd etmişdir. O, xalq təbabətində

arpadan hazırlanan dərmanlar vasitəsilə 24 növ xəstəliyin müalicə olunduğunu yazmışdır.

Ö.Xəyyam «Novruznamə» əsərində Mehrikan və Sədə bayramları haqqında da gərəkli məlumatlar vermişdir. «Novruznamə»də mehr ayının özəlliklərindən söhbət açılır. Göstərilir ki, bu ay adamların mehribanlıq simvolu kimi mehr adlandırılmışdır. Bu ayda hər kəs əldə etdiyi, qazandığı məhsullardan qohum-qonşuya pay verir. Bir çox müəlliflər kimi, Xəyyam da mehr sözünü mehribanlıq, ülfət, ünsiyyət çalarlarında işlənməsi ilə razılaşmışdır. Bu sözün və bayramın mahiyyətində deyilən müsbət keyfiyyətlər vardır.

Ö.Xəyyam, Azər və Sədə bayramları haqqında da söhbət açmışdır. Novruz təqviminin mükəmməl yaradıcısı, «Novruznamə» kimi sanballı əsərin müəllifinin Mehrikan, Sədə və Azər bayramları barədə eyni bir əsərdə ardıcıllıqla məlumat verməsi təsadüfi deyildir. Bu bayramlar və təbii ünsürlər Novruz sisteminin tərkib hissəsi olduğunu ruhən duymuş Xəyyam bunların hamısını bir araşdırmanın mövzusuna çevirmişdir. Sədə-od bayramıdır. Azər də od bayramı olubdur. Azər bayramı Novruz təqviminin 9-cu ayı olan Azər ayının 9-da qeyd edilirmiş. Azər və Sədə (od) bayramları da mənşəcə Zərdüşt inancı ilə əlaqələndirilir. Azər sözünün kökündə od, alov mənasının dayandığı vurğulanır. Azər zərdüştlikdə yəzdələrdən birinin adıdır. Azər Ahuraməzdanın oğlu kimi də tanınmışdır.

Ö.Xəyyam da Azər sözünün mənşəyində od mənasının durduğunu yazır. Havalar soyuyur, oda-ocağa ciddi ehtiyac duyulur. Elə bu zərurətdən həmin aya Azər (od) ayı deyilib. Şəmsi-qəməri təqvimində ilin 9-cu ayı Azər adlandırılır. Soyuq və şaxtalı qışı qarşılamaq üçün od yandırılmış və şənliklər keçirilmişdir. Ə.Biruni də Azər bayramının qışın əvvəlində keçirildiyini həmin gün evlərdə tonqal qalandığını yazır. Mənbələrdə göstərilir ki, Azər qış, Sədə Novruz ərəfəsində (1-ci çərşənbədə) bayram edilmişdir. Bu

bayramlardan birincisi qışı qarşılamağa hazırlıq, digəri qışın yola salınmasının təntənəsi idi. Ə.Birunin yazdığına görə, Sədə bayramı şəmsi-qəməri təqviminin 10-cu ayı olan bəhmən ayının 10-da keçirilmişdir. Ə.Biruninin digər məlumatı Novruz sisteminin dəqiqliyini bir daha təsdiqləyir. Onun yazdığına görə, Sədə bayramı kiçik çillənin girməsi ilə əlaqədar olmuşdur. Novruz sistemini özündə qoruyub saxlamış «Avesta» təqvimində də beş aylıq qış fəslindən sonra Sədə bayramı qeyd edilmişdir. Azər bayramının birinci, Sədə bayramının ikinci od bayramı olduğuna heç kəsdə şübhə yeri qalmır. Insanların ildə iki dəfə od bayramı keçirmələri də odun insan və təbiətin inkişafına verdiyi əvəzsiz stimuldan irəli gəlirdi. Soyuq qışdan qurtulmaq üçün də, əkin-biçin, məhsul yetişdirməkdən ötrü də od (günəş) enerji mənbəyidir.

Xalqın milli mənlik şüurunun formalaşmasında mühüm və dominant bir rol oynayan Novruz bədii ədəbiyyatın da əsas mövzusu olmuşdur. Novruz ədəbi-bədii mövzu kimi qədim olsa da, bütün zamanlar üçün yeni və aktual qəbul edilibdir.

Qətran Təbrizi (1012-1088) «Divan»ın «Əbülhica Mənuçehr İbn Əmir Əsəll Əbumənsur Vəhsudanın mədhi» hissəsində yazın gəlişini və Novruzu təsvir edibdir:

«Elə ki, günəş yüksəldi, günlər uzandı.
(Yəni qış çıxdı, bahar gəldi),
Aşiqlərin gözəllərə məhəbbəti daha da artdı.
Külək hər zaman yerdən havaya müşk saçır.
Bulud hər saat göydən yerə dürr yağdırır....
Bəhmənin köç etməsi ilə yaşıllıqlar onun əlindən xilas oldu.
Badamın gülləri bağı qiymətli dürlərlə doldurdu.
...Hər yer bahar buludundan
Rum zərxarası kimi rəngarəng oldu.
Göl səba yelindən Çin zirehi kimi dalğalandı....
Göl bənövşədən göy bez kimi oldu,

Hər zaman ona (bənövşəyə) göy bezdən (səmadan) su yağır.
Novruz yelinin bənövşələr üzərinə saçdığı şükufələr,
Göy ipək üzərinə səpilmiş qiymətli dürr dənələrinə bənzəyir»
(7, 39).

«Divanda» bir çox mədhiyyələr baharın gəlişinin təsviri ilə başlanır. Bu təsvirlər zaman və mövsümlə bağlı olmaqla yanaşı, birbaşa yazıçı ovqatı və mədh edilən şəxsə olan hörmət, ehtiramla da əlaqədardır. «Divan»ın «Əbunəşr Səd ibn Mehdinin mədhi»ndə deyilir:

«Günəş həməl bürcündə çıraq yandıran kimi,
(Qış ötüb, yaz gəldi)
Bağı və çəməni lalə şamla və çıraqla doldurdu.
Qara qarğa sanki div, bülbül isə dua oxuyandır,
Onun səsi gələn kimi qara qarğa bağı qoyub qaçdı.
Qarğa gülzarı tamam qoyub qaçdı....
Bağdan keçdikdə çiçəyin rəngindən və ətrindən,
Gözlər işıqlanır, beyinlər ətirlənir» (7, 174).

Q.Təbrizi qara qarğa dedikdə qışı, bülbül dedikdə yazı nəzərdə tutmuşdur.

Q.Təbrizi «Divan»ında planet və ulduzların hərəkətindən, bürclərdən məqamı düşdükcə dəfələrlə söhbət açmışdır.

«Əbülxəlil Cəfərin mədhi»ndə yazır: «Ölkəyə bir həftədə iki yaz birdən gəldi. Əslində hər ikisi fərəhli, şən və qələbəlidir. Biri günəşin həməl (quzu) bürcünə girməsidir. (Baharın birinci ayında günəş həməl bürcünə gəlib çıxır) Biri də şahın ölkəyə qayıdıb gəlməsidir» (7. 194).

Q.Təbrizi bütün «Divan» boyu fərvərdin ayını (Novruzu) təbiət hadisəsi kimi alqışlamışdır:

«Fərvərdin ayının təntənəsindən dünya behişt bağı kimi oldu.
...Bu ömrü artıran Novruzda qırmızı badə içib şənlən,
Həmişə günün mübarək, bayramın şirin olsun!
...Günəş həməl (quzu) bürcünə gələndə,
Yer üzü gülər, zəmanə sevinər.
Ölkədə o günəşdən sevinc törənər,
Nisanda (apreldə) o günəşdən lalə baş qaldırar»
(7, 240-241-243).

Nizami Gəncəvinin yaradıcılığında Novruz sistemi xüsusi bir yer tutur. Mütəfəkkir şair Novruza adi bayram mərasimi kimi yanaşmamış, əksinə Novruz maddi-mənəvi dəyərlər toplusu kimi qiymətləndirilibdir. N.Gəncəvi Novruza kainat və cəmiyyət qanunlarının əyani ifadə forması kimi baxmışdır. Dahi mütəfəkkirin düşüncəsinə görə, bütün aləmin-kainat və planetin yaradıcısı və ifadəçisi bir olan Allahdır. «Günəşli və aylı bir aləmi verən, Bu yeri, bu göyü odur saxlayan», – deyən Nizami, Novruz qayda-qanunlarının da yaradıcısının Allah olduğunu dönə-dönə «Xəmsə»də vurğulamışdır:

Altı yaxa açdı tərəflərə o,
Dörd gövhər bəxş etdi qara yerə o (5, 23).

Şairin qeyd etdiyi altı və dörd rəqəmləri sadəcə rəqəmlər deyildir. Altı yaxa-altı cəhətə-ön, arxa, sağ, sol, aşağı, yuxarı, dörd gövhər-dörd ünsürə – od, su, torpaq və havaya işarədir. Nizamiyə görə, altı cəhəti olan bu dünyanı Allah dörd ünsürdən yaradıbdır.

Nizami dərin və zəngin biliyə, geniş müşahidəyə malik mütəfəkkir bir şəxsiyyət olubdur. «Xəmsə»yə nəzər yetirdikdə dediklərimizin əyani şahidi oluruq. «Xəmsə»yə daxil olan əsərlərdən aydın görünür ki, Nizami nücum elminə, onun əhatə etdiyi sahəyə, öyrəndiyi səma cisimlərinə kifayət qədər bələd olmuş, onların hal-

hərəkətləri barədə mükəmməl biliyə yiyələnmişdir. Nizaminin «Xəmsə»sində fəza cisimləri olan ulduzlar, bürclər və planetlər haqqında son dərəcə dəqiq və geniş məlumatlar verilmişdir:

Bu səfərdə göylərdən töhfə aldı, bac aldı,
Cövzadan kəmər aldı**,** Xərçəngdənsə tac aldı.
Sünbül döndü ətirli, təravətli sünbülə.
Əsədin pəncəsinə qolazlandı Sünbülə
Gecənin siqlətini ölçməkdimi qərəzi?
Zöhrə onu çəkirdi əllərində Tərəzi,
Çəkməyə daşı yoxdur, neçə çəkəydi Mizan?!
Siqlətinə mat qalıb, ona baş əydi Mizan.
Zanbaqtək quyruğuna zəhər dolub Əqrəbin,
Süsənbər zəhərini kəsən olub Əqrəbin.
Kamanın oxu süzüb yayındı başqa yana,
Dönmədi otlağında Oğlağın bağrı qana.
Günəş camallı Yusif Dol içində oturdu,
Qəlbi Yunis qəlbitək Balıq qarnında vurdu.
Həməlin sinəsində qurdu Sürəyya taxtı,
Gül-çiçəyin ordusu düzə axdı, nə axdı.
Yüksək cəlallı bağın gülü hər yanı sardı,
Yer üzü çiçəkləri sayrışan ilk bahardı (4, 30).

Gətirdiyimiz bu nümunə «Xəmsə»nin ilk poeması olan «Sirlər xəzinəsi»ndən «Peyğəmbərin meracı» fəslindəndir. Cövza (klassik astronomiyada əkiz adam surətində təsvir olunan bürc) bürcündə yerləşən göy cisimləri kəmərə, Xərçəng bürcündəki ulduzların (13 ulduz) düzümü isə taca bənzəyir.

Sünbülə bürcü Şir bürcündən sonra gəlir. Zöhrə planeti Mizan (Tərəzi) bürcündə yerləşdiyindən ona Tərəzi deyilmişdir.

Həməl (quzu) bürcü yaz ayları olan mart və aprelə müvafiq gəlir. Görkəmli mütəfəkkir müdrik peyğəmbəri uca göylərlə-

bürclərlə müqayisədə vermişdir. Gətirdiyimiz nümunənin sonuncu beytlərindən aydın olur ki, Həzrəti Məhəmməd öz cah-calalını qurandan sonra Həməl səhra və düzəngahlarına bahar gəldi, bomboz səhralar gülüstana çevrildi.

Nizaminin yaradıcılığına əsasən tam əminliklə deyə bilərik ki, o, kainatın sirlərinə dərindən bələd olubdur. Kllassik nücum elminin incəliklərinə qədər məlumatı olan mütəfəkkir şair yazır:

Fələklər zicini cədvəl və cədvəl,
Fikrin üctürlabı eyləmişdi həll.
(5, 331).

Aydınlıq üçün bildirək ki, zic ulduzların və planetlərin sayını, hərəkətini və xarakterik xüsusiyyətlərini özündə cəmləyən cədvəl, üstürlab isə həmin cədvəli tərtib etmək üçün xüsusi alətdir.

Şair «Sirlər xəzinəsi»ndə ulduzların hərəkəti əsasında təzə təqvimin hazırlandığından yazır:

Kim ki, dalar gözüylə ulduzların seyrinə,
Ona köhnə təqvimin köməyi nə, xeyri nə?!
(4, 129).

Kainatın sirlərinə əl aparan Nizami səmanın təbəqələrdən ibarət olduğunu «Xəmsə»də dəfələrlə qeyd etmişdir. Dahi mütəfəkkir əsərlərində göyün yeddinci qatı haqqında tez-tez söhbət açıbdır:

Yeddinci əflakə çapdığı zaman,
Dışarı atıldı dördkünc daxmadan (6, 25).

və yaxud

Çatdı hər dənizə yeddi ülkərdə,
Yeddi yol yuyundu o dənizlərdə (6, 25).

Sair burada yazdığı «Yeddinci əflak'» və «yeddi ülkər» göyün qatlarıdır. Orta əsr alim və münəccimləri, çox doğru yerə, belə bir qənaətdə idilər ki, göylə yer pozulmaz qarşılıqlı əlaqədədirlər. Onların bu harmonik əlaqəsi nəticəsində göylə yer idarə olunur. Elə bu əyaniliyin nəticəsində orta əsr müəllif və münəccimlərində belə bir düşüncə hakim idi ki, kainatda baş verən proseslər yerə, o cümlədən insan həyatına təsir göstərir. Orta əsrlərdə yaşamış münəccimlər ulduzların hərəkəti ilə insan həyatında baş verəcək prosesləri əvvəlcədən müəyyənləşdirirdilər. Onların qənaətinə görə, yer üzərində yaxşılıq və pisliklərin, xoşbəxtlik və bədbəxtliklərin baş verməsi ulduzların hansı bürcdə olması ilə bağlıdır. Bu təcrübəyə istinadən Nizami yazırdı:

O, hər bir nəqşəyə vermiş bir camal,
Ulduzlar onlardan götürmüşdür fal (5, 26).

Dahi şair dünyanın – göylə yerin qarşılıqlı, harmonik əlaqəsinin daimi və əbədi olduğuna birmənalı şəkildə inanırdı. Elə bu inamla da yazırdı:

Rüzgar ona görə dəyişir hər an,
Törəyib dörd ana, yeddi atadan (6, 446).

Nizami burada «dörd ana» dedikdə, maddi dünyanın əsasım təşkil edən 4 ünsürü (su, od, hava və torpaq), yeddi ata dedikdə isə göyün yeddi qatını nəzərdə tuturdu.

Kainat, planet və onların vəhdətində yaşayan insanın həyatı ona görə daim dəyişir ki, kainat və planet bir-birinə təzad təşkil edən müxtəlif maddə və qüvvələrdən yaranıblar.

Orta əsr nücüm elminin yaradıcılarının qənaətinə görə, hər bir planetin, hər bir ulduzun məxsusi «evi» vardır. Bu ciddi astronomik informasiyanı dəqiq mənimsəmiş Nizami yazırdı:

Günəş yaxınlaşdı o gün Həmələ,
Gedirdi elmdən çatsın əmələ.
Ütarid və Cövza qonmuş bir yerə,
Sovrda məskən etmiş Ay ilə Zöhrə
Qövsi də Müştəri bəzəmiş gözəl,
Mizanın bürcündə oynardı Lühəl.

Nizaminin bu astronomik elmi izahından aydın olur ki, Ütarid ulduzu Cövza bürcündə, Ay və Zöhrə Buğa bürcündə, Mizan isə öz evi sayılan altıncı evdə idi. Nizami bu kainat hadisəsini məqsədli şəkildə təsvir edibdir. Tale ulduzlarının bu düzülüşü xoşbəxtlikdən xəbər verir. Belə bir xoşbəxt vaxtda İskəndər dünyaya gəlir.

«Hər gün Novruz olmaz» – deyən Nizami «Xəmsə»də müxtəlif məqamlarda Novruzdan söhbət açır. Nizaminin yazdığına görə, Novruz xalqın həyatında, mənəviyyatında özəl bir yer tutduğundan ona məxsusi bir münasibət bəslənmişdir. Nizaminin yazdıqlarına əsasən deyə bilərik ki, xalq Novruza olan münasibətini musiqinin dili ilə də ifadə etmişdir. «Xosrov və Şirin» poemasında Şirinin dilindən Nikisanın nəğmə oxuması hissəsində deyilir:

Novruz gülü kimi açıldı əvvəl,
Novruz pərdəsində oxudu qəzəl (5, 296).

Sair bu fikri «Çalğıçı Barbəndin tərifi» hissəsində daha açıq şəkildə ifadə etmişdir:

«Sazi Novruz»unu çalanda tamam,
Tale də edərdi o günü bayram (5, 168).

N.Gəncəvi «İskəndərnamə» poemasında «İskəndərin İran atəşgədələrini dağıtması» hissəsində İskəndərin atəşgədələri yerlə yeksan etməsindən söhbət açmaqla bərabər, Novruz şənliklərindən danışır:

Novruz ilə Sədə bayramlarında,
Ayinlər yenidən olurdu bərpa.

Demək, hər il qeyd olunan Novruzda adət və ənənələr yenidən bərpa olunurmuş. Buradan bir daha o qənaətə gəlmək olur ki, Sədə bayramı da ümumi Novruz sisteminin tərkib hissəsinə daxil imiş. Məlumdur ki, Novruza 50 (əlli) gün qalmış bu od bayramı qeyd edilirmiş. Belə bir inam mövcud olmuşdur ki, guya od insanlar tərəfindən həmin gün tapılıbmış. Nizami Gəncəvinin yaradıcılığından da aydın olur ki, od bayramı orta çağlarda dəbdəbə ilə qeyd edilirmiş. Mehrikan bayramı haqqında da «Xəmsə»də söhbət açılmışdır. Nizaminin yazdığına əsasən deyə bilərik ki, xalq Novruz kimi, Mehrikana da musiqi ömrü bəxş etmişdir.

«Həvayi-Mehrikan «çalanda o dəm,
Huş başdan çıxırdı, gülürdü aləm (5, 168).

Böyük mütəfəkkir «İskəndərnamə»də Mehrikanla əlaqədar yazır:

Nəğməyə başladı pəriüzlülər,
Günəş Mehrikanda daha xoş gələr (6, 221).

Bildiyimiz kimi, Mehrikan «Avesta» təqviminə görə payızın birinci ayıdır. Mehrikan həmin ayın 16-cı günü keçirilibdir. Həmin gün payız gecə-gündüz bərabərliyi olubdur. Elə bu kainat hadisəsinə görə həmin gün Mehrikan bayramı qeyd olunubdur.

Novruz mövzusu Nizamidən sonra da bədii ədəbiyyatda davam etdirilmişdir. Belə demək mümkünsə, Novruz hər bir yaradıcı şəxs üçün ilham mənbəyi olmuşdur. Kainat və planetdə baş verən dəyişikliklərin özü yaradıcı insanlara bu və ya digər formada təsir göstərir, onlarda xoş bir əhval-ruhiyyə yaradır.

III FƏSİL

NOVRUZ MƏRASİMLƏRİ

3.1. Novruz mərasimləri

Novruz sistemi bütövlükdə 365 günü əhatə edib, dörd çərşənbəni başa vurduqdan sonra tamamlanır. Novruz sisteminin bir ildə dörd bərabərlik məqamı vardır.

1) Yaz bərabərliyi 21-22 mart,
2) Yay gündönümü 21-22 iyun,
3) Payız gecə-gündüz bərabərliyi 21-22 sentyabr,
4) Qış gündönümü 21-22 dekabr.

Günün uzunluğu coğrafi enlikdən və ilin fəslindən asılıdır. Ekvatorda gündüz həmişə gecəyə bərabər olur. Şimal yarımkürəsində ən uzun gündüz yay bərabərliyində (21-22 iyunda), ən qısa gündüz qış bərabərliyində (21-22 dekabrda) olur. Yaz və payız bərabərliyində gündüzün uzunluğu gecəyə bərabərdir. Gecə-gündüz bərabərliyi ildə iki dəfə (21-22 mart və 21-22 sentyabr) olur. Novruz sistemi dünya modeli 4-lük və əksliklər üzərində qurulubdur. Dünyanın əmələ gəlməsi 4 ilkin ünsürdə (od, su, külək, torpaq) əlaqəlidir. Qədim şumerlərdən üzü bəri göy (səma), su, hava və işıq (od) həyatın yaradılış mənbəyi sayılıb.

İnsanoğlu bütün müşkülləri və çətinlikləri onu əhatə edən kainatda və qoynunda yaşadığı təbiətdə qazandığı üçün elə bu çıxılmazlıqların əlacını da kainat və təbiətin özündə arayıb-axtarıbdır. Bu özəl səbəblə

coğrafi məkanda günəş, hava, torpaq və onun təkindəki su və başqa komponentlər onlara və digər canlılara ciddi təsir edir. Qədim düşüncə sahibləri müdrikcəsinə duymuşlar ki, kainat və planetin səliqə-sahmanına, mizan-tərəzisinə, dəst -xətinə əsla toxunmaq, əl gəzdirmək qeyri-mümkündür. Yaxşı biliblər ki, kainat və planet ardıcıl, fasiləsiz və spiralvari şəkildə tənzimlənən qanunauyğunluğa əsaslanır. Qədim türklər müdrikcəsinə biliblər ki, Göy-Tanrı zamanın və bütün canlı aləmin yaradıcısıdır.

İnsan zamanı, vaxtı mükəmməlcəsinə müəyyənləşdirə bilib. İnsanoğlu əyani şəkildə kainat və planetdə hər il baş verən yenilənməni gördüyündən, özünün də saflaşmasına, təmizlənməsinə ehtiyac duyubdur. Kainatla və planetin qovuşuğunda məskunlaşmış insan yerdən əvvəl kainatda (göy üzü) baş verən dəyişiklikləri görübdür. Bu dəyişikliyi duyan və gözü ilə görən qədim və orta əsr insanı kainat və təbiətə heç vaxt stabil yanaşmayıb. Əksinə, kainat və təbiətə həmişə dinamik bir münasibət bəsləyib. Əcdadlarımız yaxşı dərk ediblər ki, kainat və təbiətdə heç vaxt durğunluq ola bilməz, ən azından, durğunluq külli-kainatın məhvi demək olardı. Novruz sistemi kainat və təbiət qanunauyğunluqları toplusu, onların özünüidarəsinin nümayişidir. Qədim insan kainat və təbiət hadisələrinin sadəcə seyrçisi olmayıbdır. Kainat və təbiətdə baş verən proseslərin diktəsi ilə dual görüşlərə yiyələnib. Ətrafında baş verənlərin əksliklərin vəhdətindən yarandığını görən insan özü də işlərini dual prinsiplər əsasında qurubdur. Novruz sistemi və onun prinsiplərindən faydalanan ayin və mərasimlər kainat və təbiət qanunauyğunluqlarına əsaslandığından min illərdi fəaliyyətdədir.

Novruz üstqurum xarakterli bayram deyidir. O, kainat və təbiət qanunlarına əsaslandığından bazis xarakterli bir sistemə malikdir.

Novruz mərasim və ayinlərinin adları və icra formaları transformasiyaya uğrasa da, əsrlərlə bu və ya digər ad və formalarda yaşadılmışdır. Bu ad və forma dəyişikliyi Novruzun əsl mahiyyətini – nüvəsini dağıda bilməmişdir. Novruz sistemi həyatın

və cəmiyyətin harmonik inkişafını fasiləsiz tənzimlədiyindən ona toxunmaq, onu başqa bir təbii qanunlar sistemi ilə əvəz etmək qeyri-mümkündür.

Novruz ayin və mərasimləri kainat və təbiət qanunlarını özündə ehtiva edən mənəvi dəyərlər məcmusudur. İlboyu Novruz dəyərləri yüksək qiymətləndirilir. Qışda dirilik suyu, yazda yel (hava), yayda od (günəş) və payızda torpaq müqəddəs tutulubdur. Elə bu 4 həyat ünsürü Novruzun atributları sayılır. Novruzda suyun yerə çilənməsi, Tanrıdan yağış umulması bitkilərin, o cümlədən taxılın göyərdilməsinin və həyatın davam etməsinin simvoludur. Həyatın davamı və bitkilərin boy atıb göyərməsi, məhsul verməsi su ilə bərabər günəşlə də (odla) bağlıdır. Külli-kainata və təbiətə ruhu yel (hava) bəxş edir. Planet (torpaq) bütün canlı və cansız aləmin yaradıcısıdır. Canlı aləmin atası Göy üzü –Səma, anası isə Yer kürəsidir.

Novruz sisteminin kulminasiyası sayılan Novruz bayramı (21-22 mart) ayin və mərasimlərin zənginliyi ilə seçilir.

Bir çox tədqiqatçılar Novruzun məna və məzmununu, əhatə dairəsini daraldırlar. Tədqiqatçıların əksəriyyəti Novruzu əkinçilik və məhsuldarlıqla bağlayıb, onu darçərçivəli məişət törəni kimi xarakterizə edirlər. Düzdür, Novruzun əhatə dairəsində əkinçilikdə mövcuddur. Çox qəribədir ki, bu tendensiyanın tərəfdarları sovet dövrünün tədqiqatçılarıdır. Orta əsr araşdırıcılarında belə bir motiv olmayıb. Əksinə, orta əsr tədqiqatçıları Novruza daha qlobal yanaşmışlar. Böyük ehtimalla deyə bilərik ki, sovet dövrünün tədqiqatçıları məqsədli şəkildə ideoloji kursun repressiv rakursundan çıxış edərək, Novruzu ən çox iş, əmək və əkinçiliklə əlaqələndirmişlər ki, onu mənəvi repressiyadan qoruya bilsinlər.

İnsanlar Novruz təntənəsinə gəlib çıxana kimi ilboyu müxtəlif çətinliklərdən və müəyyən mərhələlərdən keçməli olurlar.

Zaman anlayışını mükəmməl hesablamış insan keçdiyi hər bir mərhələni ayrıca qeyd etmişdir. Bəzi mənbələrdə Novruzun son

təntənəli gününə qırx gün qalmışdan hazırlığa başlanıldığı göstərilir. Bəli, böyük və kiçik çillənin soyuq və şaxtasını görmüş insanın qarşıdan gələn Novruza hazırlaşması təbiidir. Təkrar da olsa, yenə vurğulayırıq ki, Novruz bir sistem kimi 365 günü əhatə edir. Azərbaycan xalqının zəngin mənəvi sərvəti sayılan Novruzla bağlı folklor nümunələri də Novruzun sistem halında 365 günü əhatə etdiyini təsdiqləyir. Əzəl çərşənbə sayılan su çərşənbəsinə on gün qalana qədər ev-eşikdə, həyət-bacada təmizlik işlərinə başlanılır. Sayaçılar dölün başlanmasına az qalmış qohum-qonşuya təşrif buyurub pay alırlar. Əkinçilərdə əzəl (su) çərşənbəyə qədər işlərini sahmana salır, yaz şumuna hazırlaşırdılar. Əkin-biçin adamları öküzləri nallayır, qaşovlayır, ust-başlarını təmizləyirdilər. Kimin nə çatışmamazlığı olurdusa, tapıb düzəldirdilər. Öküzü olmayan öküz tapıb alır, cütü çatışmayan cüt almalı olur. İnanca görə, səpin üçün saxlanılmış buğda, arpa saxlancları, əzəl çərşənbə günü açılardı. Digər bir inanca görə, açılmış taxıl quyularından, məhsul bol olsun deyə, azuqəsi tükənənlərə pay verilərdi. Açılmış buğda quyularının üstünə səməni qoyular, hədik bişirmək üçün imkansızlara taxıl bağışlanardı.

Novruzun təntənəsinə kimi el-obada yaz şumunun başa çatması, qoyun-quzunun yaza salamat çıxması üçün müxtəlif ayinlər keçirilir, nəğmələr söylənilirdi. Əkinçilər yaz şumunu yazın girməsinədək qurtarırdılar. Bu təsadüfi bir iş deyildir. Herağac (tez) əkilmiş taxıl zəmiləri yayın isti küləkləri başlayana qədər yetişdiyi üçün biçilirdi. Gecikmiş taxıl zəmilərini yayın isti külәkləri ütüb-yandırırdı.

Novruzla bağlı keçirilən ayinlər müxtəlif dövrlərdə formalaşmışdır. Bu ayin, mərasim və digər folklor nümunələrinin yaranması Azərbaycan türkünün kainat və planet qanunauyğunluqlarını dərk etməsi ilə eyni bir dövrə təsadüf edir. Bu nəğmə, ayin və mərasimlərin dəqiq tarixini söyləmək qeyri-mümkündür. Ancaq inamla deyə bilərik ki, birbaşa kainat prosesləri ilə əlaqədar olan

yel, yağış və günəşlə bağlı nəğmə və mərasimlər əski çağlarda yaranıbdır. Kainat və planetdə gedən təbii prosesləri həssaslıqla müşahidə edən insan yel, yağış və günəşin göy üzünün məhsulu olduğunu və yer üzünün (planetin) ona möhtac olduğunu bildiyi üçün zəruri məqamlarda onları (yel, yağış və günəş) diləyibdir. İlin-günün quraqlıq keçdiyindən əkib-becərdiyi məhsulun susuzluqdan yanıb-qovrulduğunu görən insanoğlu üzünü Göylərə tutub yağış diləyir:

Çax daşı,
Çaxmaq daşı,
Allah versin
Yağışı,
Su səpdim,
Suyu səpdim.
Arana suyu
Səpdim.
Dağda gələn
Seldi ho!..
Dərələrdə göldü ho,
Su səpdim,
Suyu səpdim,
Arana suyu səpdim.
Çay daşı, çaxmaq daşı,
Allah versin yağışı.

Nəğmənin yığcamlığından və ritmindən asanlıqla görünür ki, bu, kollektiv formada ifadə olunubdur. İnsanlar kollektiv halda bulaq başında, çay kənarında yığışıb bu ayini icra ediblər.

Günlərin aravermədən yağışlı keçdiyini müşahidə edən əski çağların insanları məhsulun çürüyəcəyini bildiyi üçün Tanrıdan günəş diləyib:

Gün çıx, gün çıx,
Kəhər atı min, çıx.

Oğlun qayadan uçdu,
Qızın təndirə düşdü,
Keçəl qızı evdə qoy,
Saçlı qızı götür çıx.
Gün getdi su içməyə,
Qırmızı don biçməyə,
Gün özünü yetirəcək,
Keçəl qızı aparacaq,
Saçlı qızı gətirəcək.

Günəşin qabağını fasiləsiz tutan, nəmişlik, rütubət gətirən duman da məhsul üçün arzuolunmaz sayılır.

Duman qaç, qaç, qaç,
Pərdəni aç, aç, aç.
Səni qayadan asarlar,
Buduna damğa basarlar.

və ya

Duman qaç, qaç,
Rübəndini aç, aç.
Kürəyini dağlaram,
Qaysağına
Yağ çəkərəm,
Yağlaram.
Yaralarını
Bağlaram,
Səni yoldan
Saxlaram .

Min bir əzab-əziyyətlə əkib-becərdiyi məhsulu biçib xırmana gətirmiş əməkçi insan taxılı döyür. Taxıl döyülən ərəfədə onu

küləşdən ayırmaqdan ötrü sovurmaq lazımdır. Taxılın küləşdən ayrılması üçün yel əsməlidir.

A Yel baba, Yel baba,
Qurban sənə, gəl, baba.
Taxılımız yerdə qaldı,
Yaxamız əldə qaldı.
A Yel baba, Yel baba,
Qurban sənə, gəl, baba.

Gətirdiyimiz nümunələr mükalimə formasındadır. Bunun səbəbi əski çağların insanın kainat və onun ünsürlərini (yağış, yel, günəş və s.) canlı saymasındadır. Qədim insan yellə, yağışla, dumanla, günəşlə «dilləşib və danışıbdır».

Kainat prosesləri ilə birbaşa əlaqəli olan «Qodu-qodu» mərasiminin yaranma tarixi də əski çağlarla bağlıdır. Bir qədər irəlidə qeyd etdik ki, «Qodu-qodu» mərasimi qoşaxarakterli bir ayin olubdur. Düzdür, «Qodu-qodu» mərasimini daha çox günəşi çağırmaqla əlaqədar keçirilən bir törən olubdur:

… Qoduya qoymaq gərək,
Qablara yığmaq gərək,
Qodu gün çıxarmasa,
Gözlərin oymaq gərək.
Qodu palçığa batmışdı,
Qamarladım çıxartdım.
Qızıl qaya dibindən
Qırmızı gün çıxardım.

«Qodu-qodu» mərasimi həm də yağış çağırmaq niyyəti ilə keçirilibdir. Çox güman ki, bu, xalqın inamından yaranıbdır. Keçirilən ayinlərdə xalq istədiyinə nail olduğu üçün bu mərasimlər (həm günəşi çıxarmaq, həm də yağışı yağdırmaq) ictimailəşdirilmişdir. Qodu mifik obrazdır. O, günəşin və yağışın təmsilçisi

olmaqla, həyatın, inkişafın rəmzidir. Əski çağ mənbələrində qodu (qodı) sözü nəsil, soy, güclü anlamında işlədilibdir. Xalqın inamına görə, günəş və onun təmsilçisi olan Qodu ikili xarakter və anlamla bağlıdır. Bu ikili anlam və dualizm elə günəşin özündədir (17, 24).

Novruz ərəfəsində və Novruzun özündə keçirilən mərasimlər kəmiyyətcə saysız-hesabsız, keyfiyyətcə dolğun və mənalıdır. Novruz günlərində oxunan nəğmələr nisbətən sonrakı dövrlərin yadigarıdır. Bu lirik-emosional nəğmələr insanların yaz sevincinin, baharın gətirdiyi hərarət və şuxluğun ifadəsidir:

Açdı çiçək,
Gəldi yaz.
Eylədi
Dağlar avaz.
Qar üzəri
Səm oldu.
Hər tərəf
Səm-səm oldu.
Dağda çiçək,
Səm-səmim,
Bəyaz gülüm,
Naz gülüm,
Dərdə dərman
Yaz gülüm.

və ya

Dağlarda çiçək,
A səm-səmim,
Özəyi kövrək,
A səm-səmim,
Ləçəyi göyçək,
A səm-səmim.
Dərdlər dərmanı,

Ellər loğmanı,
Bəyaz çiçəyim,
İlk yaz çiçəyim.

Burada söhbət «dərdlər dərmanı, ellər loğmanı» ilk yaz çiçəyi olan «Səm-səmdən» gedir. Bu dağlar çiçəyi səm-səm evlərdə becərilən Səməninin təbii analoqudur. «Novruz nəğmələrində erkən təsəvvürlər, təbiət varlıqlarını insan cildində təsəvvür etmək kimi animist baxışlar öz əksini tapmışdır» (19, 23).

Novruz mərasimlərinin mayasını yaz sevinci, soyuqlu-şaxtalı qışdan qurtulmuş insanın fiziki və mənəvi hərarətdən yaranmış ruh yüksəkliyi, şən və firavan həyat eşqi təşkil edir. Novruz nəğmə və mərasimlərinin əsas motivini qışla yazın mübarizəsi, qışın məğlub, yazın qalib gəlməsi təşkil edir.

«Qarı ilə martın deyişməsi» qışla yazın mübarizəsini çox şəffaf formada ifadə edir. Mart qışın xarakterik bir ayıdır. Qışın son ayı Boz ay adlandırılır. Üzücü qışın böyük bir hissəsini yola vermiş insanlar martın şıltaqlıqlarına əsəb gərginliyi ilə duruş gətirirlər. Martın gətirdiyi ağırlıqları görən insanlar daxili bir inamla deyiblər: «Mart çıxdı, dərd çıxdı. Hamı yaza mərd çıxdı» və yaxud «Mart çıxdı, mart çıxdı, yaman qart çıxdı, qart çıxdı».

Mart insanların gözündə keçilməz, aşırılmaz bir dağ kimi durubdur.

Ancaq qış nə qədər məşəqqətli olsa da, ömrünü yaza bağışlayır. Çünki martın üçüncü on günlüyündə yaz girir, qış təslim olur. «Qarı ilə Martın deyişməsi»nin motivini elə bu mübarizə təşkil edir. Qarı ilə Martın dramatik mühakiməsi barədə el ağzında belə bir əfsanə dolaşır. Qışın çıxmasından şadyanalıq edən Qarı sevincindən çalıb-oynayır. Qışa sanki yandıq verib oxuyur:

Mart gözünə barmağım,
Çıxdı yaza oğlağım.

Qarının hərəkətindən acıqlanan qış üç gün apreldən borc alıb yenidən dəhşətli soyuq və şaxta eləyib Qarının oğlaqlarını qırır. Ancaq Qarı qışın (Martın) qarşısında məğlub olmur. Əksinə, Qarı yazın gəlişinə sevinir, oğlaqlarının artacağına inanır:

Ay oğlağım, oğlağım,
Çıxdı yaza oğlağım.
Payız üstü beş oldu,
Yaz gəldi on beş oldu
Qılları şeş-şeş oldu.
Mart gözünə barmağım,
Çıxdı yaza oğlağım.

«Qarı ilə Martın deyişməsi» dramatik mükalimə şəklindədir. Qarı mənəvi-psixoloji durumca Martdan (qışdan) çox güclüdür. Qış ömrünün son günlərini yaşadığı üçün təslim olmaq istəmir. Nəyin bahasına olursa-olsun ömrünü uzatmaq istəyir. Son gücünü toplayıb özünü göstərir – qarının oğlaqlarını qırır. Ancaq Qarı qışın bu dəhşətli hərəkətindən özünü itirmir. Əksinə, bir az da mübarizləşir. Emosional və şən-şux hərəkətləri ilə qışı daha çox əsəbiləşdirir. Qış, Qarının mənəvi-psixoloji hərəkətləri qarşısında duruş gətirə bilməyib məğlub olur.

Qışla yazın əbədi mübarizəsini, yazın qələbəsini özündə cəmləyən ən qədim mərasim «Kosa-kosa» oyun-tamaşasıdır.

Tədqiqatçıların çoxu, nədənsə, «Kosa-kosa»ya adi bir uşaq oyunu kimi baxmışlar. İlk dəfə olaraq görkəmli tədqiqatçı M.H.Təhmasib onu yazın gəlişinə həsr olunmuş törən kimi araş-dırmağı lazım bilmişdir. Bəzi tədqiqatçılar isə «Kosa-kosa»dan yalnız xalq teatrının nümunəsi kimi danışmışlar. «Kosa-kosa»da xalq teatrının strukturu, dramatikliyi və digər xüsusiyyətləri cəmləşibdir. Ancaq «Kosa-kosa» törəninə adi bir uşaq oyunu kimi baxmaq primitiv yanaşmaqdan xəbər verir. «Kosa-kosa» mifik dünyagörüşün məhsuludur. O, yazla bağlı əski cağların düşüncəsini

əyaniləşdirir. «Kosa-kosa» yazla qışın münasibətlərini özündə cəmləyən həyati gerçəkliyin mifik obrazlarla ifadəsidir. Bu törənin tarixi əski insanın təbiətdəki əksilikləri və zaman məfhumunu dərk etdiyi çağlardan başlanır. «Kosa-kosa» oyun-tamaşasının məzmunu, nisbətən mürəkkəb strukturu və dramatikliyi onun insanın artıq təbiəti mükəmməl başa düşdüyü dövrlərdə yarandığını göstərir. Törən-təbiəti həssaslıqla dərk etmiş təfəkkürün gerçəkliyidir.

«Kosa-kosa» Novruzun ən geniş yayılmış bir mərasimidir. Digər nəğmə, ayin və mərasimlərdə məhəlləçilik və regionçuluq xarakteri olsa da, «Kosa-kosa» oyun-tamaşasını nəinki şimal yarımkürəsində məskunlaşmış xalqlar, ümumən, ilin bu və ya digər vaxtda təzələndiyini qeyd edən bütün dünya xalqları müxtəlif forma və məzmunda təntənəli keçirirlər. Azərbaycanda digər Novruz mərasimlərindən fərqli olaraq, «Kosa-kosa» oyun tamaşası bütün yaşayış məskənlərində böyük ruh yüksəkliyi və dəbdəbəli şəkildə qeyd olunur. «Kosa-kosa» mərasiminin geniş təhlilinə keçməzdən əvvəl onun məzmunu, hamı üçün bəlli olsa da, bu barədə danışmaq indiki məqamda yerinə düşərdi. İlaxır çərşənbə və Novruzda el-obada cavanlar bir yerə yığışar. Qoçaq, fərasətli, bazburutlu, baməzə bir şəxsi Kosa bəzəyirlər. Onu gülməli bir qiyafəyə salırlar. Kosa qoyun dərisindən tikilmiş kürk geyər, başına motal papaq qoyar, qarnına yastıq bağlayar, əlində isə qırmızı rəngdə bəzədilmiş çömçə tutub, qapı-qapı gəzdirilib pay toplayır. Kosanın ətrafında olan dəstə üzvləri xor halında oxuyurlar:

A Kosa-kosa gəlsənə,
Gəlib salam versənə.
Çömçəni doldursana,
Kosanı yola salsana.
Ay uyruğu-uyruğu,
Saqqalı it quyruğu,
Kosam bir oyun eylər,
Qurdları qoyun eylər,

Yığar bayram xonçasın,
Hər yerdə düyün eylər.
Novruz-novruz bahara,
Güllər-güllər nübara,
Bağçanızda gül olsun,
Bal olmasın, yağ olsun.
Evdəkilər sağ olsun.
Qurbanın olum yaşıl çuxalı,
Dərbəndlisən, yoxsa buralı?
Bağçanızda gül olsun,
Gül olsun, bülbül olsun,
Bal olmasın, yağ olsun,
Evdəkilər sağ olsun.
Xanım ayağa dursana.
Kosaya pay versənə.

Kollektiv ritmik oxunan mahnı qurtaran kimi Kosa «Kosa öldü» deyə yerə yıxılır. Yerdə uzanmış Kosaya suallar verilir və Kosa da sualları cavablandırır:

- Kosa, haradan gəlirsən?
- Dərbənddən.
- Nə gətirirsən?
- Alma.
- Almanı neylədin?
- Satdım.
- Pulunu neylədin?
- Öküz aldım.
- Öküzü neylədin?
- Vurdum öldü.

Kosanın sonuncu cavabından sonra onu müşayiət edən yoldaşları bir ağızdan oxuyurlar:

Başın sağ olsun, Kosa,
Canın sağ olsun, Kosa.

Ərşin uzun, bez qısa,
Kəfənsiz ölməz Kosa.

Oyun-tamaşanın bu yerində Kosa sual-cavab edilir və «Məlik Salmanı» və başqa rədifli mahnılar oxunur. Oxunan mahnılarda Kosaya ev sahiblərindən pay istənilir. Əgər ev yiyəsi Kosa və onun ətrafı ilə «söz güləşdirsə» və ya ev sahibəsi pay verməkdə tənbəllik etsə, bir ağızdan oxuyurlar:

A Kosa, gəlmisən,
Gəlmisən meydana sən.
Almayınca payını,
Çəkilmə bir yana sən.
Beş yumurta payındı,
Olmaya almayasan…

Bu mahnı davam edir. Mahnı oxunan müddətdə Kosaya pay verilir. Kosa və onu müşayiət edən dəstə bütün evləri gəzib pay yığdıqdan sonra əvvəlcədən hazırlıq gördükləri evə və ya meydana yığışır və böyük şənlik keçirirlər. Burada iki nəfər Kosa qiyafəsində bəzədilir. Onların qarınlarına yastıq qoyulur, əllərinə çomaq verilir. Keçi cildinə salınmış bir nəfəri meydana çıxarırlar. Keçini meydana bir nəfər gətirir. Kosalardan biri keçini gətirən adamı görən kimi tələsik soruşur:

- Qardaş, bu keçini satırsanmı?

- Bəli, satıram.

- Neçəyə verirsən?

- Yayda lopuğa, qışda topuğa.

- Yaxşı, razıyıq, yayda gəlib lopuğunu alarsan, qışda da topuğunu.

Kişi keçini kosalara verib gedir. Bundan sonra kosaların keçi üstündə mübahisəsi başlayır.

Kosalardan biri deyir:

- Keçi mənimdir.

O biri deyir:

- Yox, mənimdir.

Keçi üstündə dava düşür. Kosalar bir-birini ağacla vurmağa başlayırlar. Kosalar bir-birini vurub yerə yıxır. Onlar bir-biri ilə vuruşduğu vaxt keçi meydandan qaçır. Keçinin hara getdiyini kosalar görmürlər. Keçinin itdiyini görən kosalar camaatdan keçinin hara getdiyini soruşurlar. Camaat keçini görmədiyini bildirir. Əli boşa çıxmış kosalar üz-gözlərini əcaib və gülməli bir vəziyyətə salıb ağlaşırlar.

İndiyə qədər toplanmış folklor nümunələrini özündə cəmləyən kitablarda «Kosa-kosa» oyun-tamaşasının məzmunu bəzi dəyişiklikləri nəzərə almasaq, ümumən belədir.

Məzmununu yazdığımız «Kos-kosa» mərasim tamaşasında iki oyun-tamaşanın birləşdirildiyi acıq-aydın görünür. «Kosa-kosa» meydan-oyun tamaşasıdır. Yuxarıda fabulası yazılan tamaşada açıq-aydın görünür ki, iki süjet vardır. Məzmun və forma yaxınlığından birləşdirilən hər iki oyun-tamaşada motiv eynidir. «Kos-kosa» mərasim oyununda Kosanın qışın təmsilçisi olduğunu birmənalı şəkildə araşdırıcıların hamısı qəbul ediblər. Kosa ironik bir qiyafəyə salınıb. Onun bu imici-komik forması gülüş obyektinə çevrilir. Qışın obrazını daşıyan Kosanı ətrafındakılar aşağılayırlar:

Ay uyruğu-uyruğu,
Saqqalı it quyruğu.

Onun saqqalı qışın sırsırası və buzunun rəmzidir. Kosanı müşayiət edənlər onu yazın gəlməsinə sevinməyə məcbur edirlər.

Yığar bayram xonçasın,
Hər yerdə düyün eylər.

İnsanlar Kosanı (qış) yaşıl əbada görmək istəyirlər. Bu istəkdən oxuyurlar:

Qurbanın olum, yaşıl çuxalı.
Dərbəndlisən, yoxsa buralı?

Mərasim tamaşasının bu hissəsində Kosa qəflətən «öldüyünü» bildirir. Qış da uzun müddət ömür edir, qəflətən «canını tapşırır». «Kosa-kosa» mərasim tamaşasının digər bir versiyası bir qədər fərqli formadadır. Həmin variantda göstərilir ki, Kosa uzaq səfərə hazırlaşır. Mərasimdəkilər başa düşürlər ki, qış gedir, yaz gəlir. Kosa (qış) öz xoşu ilə çıxıb getmək istəmir, inadkarlıq edir. Bu inadkarlığı görən keçi (yaz) axırda Kosanı (qışı) vurub öldürür (17, 28).

Kosanın (qışın) ömrü artıq tamamlanıb, o getməlidir. Dualist düşüncəyə görə də, ölənin və ya məkanını tərk edib gedənin yerinə yenisi gəlməlidir. Ölən və mövqeyini tərk edib gedən Kosadır (qışdır). Onun yerinə gələn isə keçidir (Yazdir) Kosa qışın təmsilçisi olduğundan istehza hədəfinə çevrilir. Bu gün də nüfuzsuz, hörmətsiz adamlara el arasında və ümumən, ictimaiyyətdə Kosa deyilir. Qayıdaq Kosanın qışın obrazı olmasına. Dualist düşüncə sahibləri inkişafı ölüm-olum münasibətlərinin fasiləsiz bir-birini əvəz etməsində görüblər. Ölən qalanı, gedən gələni – qış yazı do-

Kosa qışın simvolu, onun antropomorfizmi (yunan sözü olub, antropos – insan, morfe – forma deməkdir), qışın şəxsləndirilmiş obrazı, keçi isə yazın zoomorfizmidir (yunan dilində zoo – heyvan deməkdir). Kosa qışdır, cansızdır, artmır, törəmir, keçi isə canlıdır, artır, törəyir.

«Kosa-kosa» mərasiminin əski çağlarla səsləşdiyi heç bir şübhə doğurmur. Tədqiqatçı E.Aslanov Kosa obrazının qam-şaman təfəkkürü ilə bağlı olduğunu yazır: «Qədim şaman-qam sənəti və əski çağların inamları ilə bağlı olub, qocalmış günəş tanrısının yer üzündəki əvəzini təmsil edən bu surət (kosa) sonralar, mərasim tamaşalarında köhnə il və qış fəslinin şikəst və çirkin bir obrazında təcəssüm olunurdu» (52, 110).

Keçinin yazın rəmzi olması bir çox dünya xalqlarının mifik mənbələrində vardır. Hind, yunan, yəhudi və digər xalqlarda keçi ilə bağlı mərasimlər mövcuddur. Qədim şumer abidələrində də tuncdan hazırlanmış iki keçi başı onun müqəddəsliyindən xəbər verir. Keçilərin buynuzu budaqcıqlardan, kirpiyi gümüşdən, bəbəyi isə balıqqulağındandır. Keçinin qulağının ağac budağından olması həyat rəmzi olan yaşıllığa işarədir. Buynuzların ağaca bənzədilməsi ümumi «Dünya ağacıyla» səsləşir (17, 35). Dünya xalqlarının mifik düşüncəsində keçi obrazını təbiət kultu birləşdirir. Obrazın mahiyyət və ifadə formasında fərqlər vardır. Yunan mifində keçi təbiətin ölməsini və sonradan dirilməsini ifadə edir. Türk düşüncəsində isə fərqlidir. Ölən (Kosa), dirilən isə keçidir (yazdır). Türk anlamında keçi işığın, günəşin atributudur. Əgər belə olmasaydı, «Kosa-kosa» mərasim tamaşasında insanlar keçinin qələbəsinə şərik olmazdılar, sevinməzdilər. Mərasim tamaşada insanların keçiyə hüsn-rəğbəti, simpatiyası açıq-aydın duyulur. İnsanlar keçinin (yazın) qələbəsini sidqi ürəkdən istəyirlər. Keçinin müqəddəs atribut səviyyəsinə qaldırılmasında keçinin özünün bioloji keyfiyyətlərinin mühüm əhəmiyyəti olmuşdur. Keçi bir heyvan kimi olduqca faydalıdır. O, bol süd verən, əti dərman sayılan, qəzilindən istifadə olunan, az xərc və zəhmət tələb edən bir heyvandır. Elə bu

faydasına görə də keçi əski çağlardan bolluq, məhsuldarlıq, yazın və günəşin atributu sayılıb.

Aydındır ki, məşəqqətli qışın çətinliklərini görən insan yazda bol məhsulun əsasını qoyur. Bəzi xalqlarda keçi daha bir mifik anlamın təmsilçisi olmuşdur. Yada (çada) daşının mifik keyfiyyəti onun yağış yağdırmasıdır. Əski türklərin inamına görə, yada daşının ən üstün gücə malik olanı qurdun qarnında olardı. Babilistan – Assuriya xalqlarında isə belə bir düşüncə hakim idi ki, şəfaverici həmin daş keçinin qarnında olarmış. Məlumdur ki, türklərdə qurd – günəşin rəmzi, yəhudi, yunan, Babilistan – Assuriya xalqlarında isə ən çox keçi (keçi həm də türklərdə bu missiyanı daşıyır) günəşin və məhsuldarlığın simvoludur. Türklərdə qurdun, digər xalqlarda isə keçinin qarnından şəfaverici gücə malik daşın çıxması hər iki adıçəkilən heyvanın zoomorfik onqon olmasından xəbər verir (17,45). «Kosa-kosa» oyunu əski çağların məhsulu olsa da, bütün zamanlarda Novruz şənliklərinin ən böyük və maraqlı mərasimlərindən olmuşdur. Yuxarıda qeyd etdiyimiz kimi, digər ayin və mərasimlərdən fərqli olaraq, «Kosa-kosa» oyun-tamaşası bu və digər formada keçirilmişdir. Azərbaycanın müxtəlif yaşayış məskənlərində «Kosa-kosa» mərasim tamaşası orijinal və rəngarəng bir formada keçirilir. «Kosa-kosa» oyununun bu geniş xalq sevgisini qazanmasının nəticəsidir ki, Azərbaycan ərazisində onun 15 versiyası (A.Nəbiyev) qeydə alınmışdır.

Novruz sisteminin atributlarından biri də səmənidir. Səməni Novruz ərəfəsində (böyük çillə) və Novruz təntənələrində hazırlanır. Novruz sistemində təsadüfi heç nə yoxdur. Səməni həyat simvolu, yaşıllıq kultudur. Təhlil və münasibətdən əvvəl səmənisinin becərilməsi və hazırlanmasına diqqət yetirməyimiz gərəkli olardı. İlkin olaraq buğda işığa qoyular, sonra sini, məcməyi və digər qaba barmaq qalınlığında tökülər və üzərinə su səpilər. Dörd-beş gündən sonra cücərən səmənini ağ rəngli rişəsini taxta üstündə döyüb suyunu çıxarar, ona bir az da su qatıb qaynadardılar. Səmənini

qədimdə böyük mis qazanlarda iki-üç gün qaynadırdılar. Səməni qaynadıqca rəngi qırmızı, mixəyi rəngə çalır. Hazır olan bu səmənidən halva da bişirirlər. Səməni halvası hazırlamaqdan ötrü teşt və saca birinci yağ tökülür, sonra istiot, sarıkök, mixək, hil, zəncəfil və başqa ədvalar əlavə olunur. Bundan sonra səməni şirəsində yoğrulmuş xəmir lavaşı əlavə edilərək tez-tez qarışdırılır. Xəmir ovulduqda ocaqdan götürülür, ona şirin şey (bal şərbəti, qənd və bəhməz) qarışdırılır. Soyuduqdan sonra ona qoz ləpəsi, fındıq və badam qatılır. Səməni bişirmə xüsusi törənlə müşayiət olunubdur. Səməni unu yeddi evdən alınardı. Qohum-qonşu xonça tutub səməni bişirilən evə gələr, «Allah mübarək eləsin» və ya «Allah qəbul eləsin» deyərdilər.

Qız-gəlinin gətirdiyi xonçaları evə qoymazdılar, elə həyətdə saxlayardılar. Həyətin dörd bir tərəfi xonça ilə örtülərdi. Həmin gecəni yatmazdılar. Sübhə kimi gözləyərdilər ki, kimin xonçası qəbul olunacaqdır. Səməni şirin çıxardısa, həmin xonça qəbul olunmuş sayılardı. Qız-gəlin çalıb-oxuyar, oynayardılar. Səməni haqqındakı ritmik nəğmələr səməni bişirmə mərasimi ilə bağlı yaranmış mahnı və rəqsdir. Səməni bişirmə mövsümü ilə bağlı çoxversiyalı nəğmələr mövcuddur. Bu nəğmələrdə səməninin «möcuzələri» gizlədilibdir. Səməni ilə bağlı yanarmış nəğmələrdə yalnız səməni vəsf olunmur.

Səməni, ay səməni,
Göyərdərəm mən səni.
Səndən mən can istərəm,
Damara qan istərəm.
Qanım təmiz gərək,
Dosta sanım gərək.
Cansız sanım olmaz,
Sənsiz qanım olmaz
İllətimin loğmanı,
Yamanlığın amanı,

Səməni, ay səməni,
Göyərdərəm mən səni (41, 38).

İlaxır çərşənbə və Novruz günlərində el-obanın bayram keçirən adamları kəndin hüzr düşmüş, bayram keçirə bilməyən adamlarının ocaqlarına gedər, onlara səməni xonçaları aparardılar. Xonçada göyərdilmiş səməni və bəzən də quru sünbül olardı.

Səmənini hər il qışın oğlan çağında, yaz ərəfəsində hazırlanması yalnız mövsüm mərasimi xatirinə olmayıb. Səməniyə səmimi və könül sevgisi ilə «səməni, saxla məni ildə göyərdərəm səni» deyilib. Ondan cansız cana can, qansız cana qan istənilib. İnsanlar təcrübədən keçirib biliblər ki, ən təmiz qanın yaradıcılarından biri səmənidir. Səməni çox doğru yerə, dərdlərin dərmanı sayılıbdır. Səməni bədənə enerji, cana qan gətirib. Əcdadlarımız müasir tibbin gəldiyi elmi nəticəni öz müşahidə və dəqiq təcrübələri əsasında e.ə. əldə etmişlər. Müasir tibb elmində son qənaət budur ki, buğda cücərtisinin tərkibində insan orqanizmi üçün vacib olan elementlər mövcuddur. Səməni orqanizmdə gedən maddələr mübadiləsini tənzimləyən «E» vitamini ilə də zəngindir. Səməni insan orqanizmində yaranan avitaminozu aradan qaldırmaq üçün asan və səmərəli vasitədir. Ulu babalarımızın milyon illər bundan əvvəl təbii şəkildə faydalandıqları səməni məhsullarından bu gün dünyanın inkişaf etmiş dövlətləri elmin son nailiyyətləri sayəsində modern üsullarla istifadə edir. Dünyanın iqtisadi-siyasi cəhətdən yüksək səviyyədə inkişaf etmiş nəhəng dövləti sayılan ABŞ-da dəyməmiş buğdanın şirəsi və cücərtisi müxtəlif xəstəliklərin müalicəsində müvəffəqiyyətlə tətbiq olunur.

Uzun illər bu sahədə tədqiqatlar aparmış alimlər belə bir qənaətə gəliblər ki, cücərdilmiş buğda, xüsusən də onun suyu daha çox sağlamlaşdırıcı təsirə malikdir. Yaşıl cücərtilərin tərkibi insan orqanizmi üçün vacib olan elementlərlə zəngindir. Cücərdilmiş buğdanın tərkibindəki vacib maddələrdən biri xlorofildir ki, onu günəş enerjisi adlandırırlar. Tibb mütəxəssisləri molekulyar qurulu-

şuna görə xlorofilin insan orqanizminə çox oxşadığını qeyd edirlər. İnsan orqanizmi xlorofildən hemoqlobin emal etmək xüsusiyyətinə malikdir. Hemoqlobin də orqanları, hüceyrələri və toxumaları oksigenlə təmin etmək üçün son dərəcə vacibdir. Səməninin bütün xəstəliklərə dərman sayılması heç də təsadüfi olmayıb. Tibbi baxımdan səməninin bir üstünlüyünü də qeyd etmək yerinə düşərdi. Səməninin tərkibində olan şəkər bu gün elmdə maltoza adlanır. Maltoza yalnız səməninin tərkibində olur. Ona səməni şəkəri də deyilir.

Səməninin bu özəlliklərini həssaslıqla duyan ulularımız deyirdi:

Başım, dişim ağrımasın,
Ağrılarım yarımasın,
Düşmənlərim qarımasın,
Cancığazım üzülməsin,
Gözlərimə süzülməsin.
Səməni, ay səməni,
Göyərdərəm mən səni.
Səməni, can səməni,
Gözlərimə işıq ver,
İşıq ver, yaraşıq ver,
Dizimə taqət gəlsin,
Qoluma qüvvət gəlsin (41, 39).

Qışın soyuq-sazağından, təbii qidasızlığından üzülmüş insan gözünə işıq, dizinə taqət, qoluna qüvvət gəlsin deyə səməni becərib, onun şirəsindən və halvasından faydalanıbdır.

Səməni qışın məşəqqətindən canından bezmiş insanların canına can, damağına dad gətirib. Səməni şirəsindən və halvasından hər kəs dadmalı, yeməli idi. Qışın çətinliklərindən canı üzülmüş insanların səməni məhsulundan daddıqdan sonra bədənlərinə hərarət, gözlərinə işıq, canlarına can, bədənlərinə təzə qan gəlir.

Göründüyü kimi, səməni, sadəcə, yaşıllıq rəmzi olmayıb. Bəzi tədqiqatçılar səmənini əkinçiliyin simvolu kimi dəyərləndiriblər. Səməni nəsil artırma və məhsuldarlıq simvolu da sayılıb. Uzun illərin müşahidə və təcrübəsinə yiyələnmiş xalqda belə bir inam var idi ki, uşağı olmayan qadınların səməninin köməkliyi ilə çilləsi kəsilərdi. Bu ayin zamanı qadının başına göyərdilmiş səməni qoyulur, bir qadın qaba su tökür, digər qadın isə qabdan yerə tökülən suyu qayçılayır və təkrarən deyirdi: «Ay bunu göyərdən, bu gəlini də göyərt». Biz səməninin yazın və əkinçiliyin rəmzi olduğunu inkar etmək fikrində deyilik. Ancaq bu fikirlə səməninin həyat və can şirəsi, sağlamlıq məhsulu olmasını kölgələndirmək də istəməzdik.

Xalq səmənini «Səm» və «Səm-səmim» kimi də əzizləmişdir:

Açdı çiçək,
Gəldi yaz.
Eylədi
Dağlar avaz.
Qar üzəri
Səm oldu.
Hər tərəf
Səm-səm oldu.
Dağda çiçək,
Səm-səmim.
Bağda çiçək,
Səm-səmim.
Bəyaz gülüm,
Naz gülüm,
Dərdə dərman
Yaz gülüm.

və ya

Dağlarda çiçək,
A səm-səmim.

Özəyi kövrək,
A səm-səmim,
Ləçəyi göyçək,
A səm-səmim,
Dərdlər dərmanı,
Ellər loğmanı,
Bəyaz çiçəyim.
İlk yaz çiçəyim (22, 45).

Burada əzizlənən «Səm-səmim» səmənidir. Bu məntiq sovet dönəmində nəşr olunmuş Azərbaycan ensiklopediyasında da (ASE) təsdiqlənib: «Qədim azərbaycanlılar səm çiçəyini yazın başlanması, təbiətin dirçəlməsi rəmzi saymış, onun ömür uzatmaq qabiliyyətinə malik olmasına etiqad etmişlər» (3, 378). Çox güman ki, səmənini əzizləyən, oxşayan xalq ona belə müraciət etmişdir. «Avesta»dakı Hauma (hum) içkisi «Səm-səmin» – səməninin ekvivalentidir. «Avesta»da göstərilir ki, Zari qauna (qızıl rəngdə) olan bitki dağda bitir. Onun şirəsi məstedicidir. Onda sağlamlığı qoruyan, ömrü uzadan, ölümü yaxın qoymayan xüsusiyyətlər mövcuddur. IX Yasnada, Vivaxvant, Atvya, Trita və Paruşaspın ilk dəfə Hauma bitkisinin şirəsini çıxarmasından danışılır. Bunun əvəzində onların hər birinə bir oğul mükafat verilir.

Zərdüşt elə Haumanın şirəsini çıxaran Paruşaspın oğludur. «Avesta»da həyat ağacının (dirilik ağacının) çiçəklərinin adı «Xaom-hum» idi.

«Avesta»da «Humyəşt» adlı ayrıca fəsil vardı. Onu da vurğulayaq ki, hum barədə digər fəsillərdə də geniş söhbət açılır. Bir çox yerdə Zərdüştə sitayişdən sonra huma sitayiş olunur. «Ramyəşt» fəslinin beşinci bölməsində bu sitayiş açıq – aydın görünür. «Salam olsun müqəddəs Zərdüştə», «Salam olsun Huma», çünki bütün şərabları qəzəb silahı müşayiət etdiyi halda, müqəddəs hum səadət və xoşbəxtlik gətirir». Elə həmin hissədə bir daha deyilir: «Sitayiş edirəm, Zərdüştü şad etmək üçün hum və pərahumu nəzir verirəm»

(31, 45). Bu çiçəklər yazda açırlar. Xaom çiçəyinin «Avesta»dan çox qabaq, həm də «som», «səm» olması barədə fikirlər mövcuddur.

M.Təhmasib də xaom çiçəyinin «Avesta»dan əvvəlki adının som, «səm» olduğunu qeyd edir (50). Bir çox mənbələrdə «səm» (səməni) «yasim» və «yasəm» kimi yazılıb.

Səməninin yaranma dövrü və məkanı barədə dəqiq və şəffaf məlumatlar olmasa da, ancaq diqqətiçəkən bilgilər vardır.

Qədim yunan tarixçisi Plutarx (e.ə. 42-126-cı illər) midiyalıların taxılı müqəddəs hesab etmələrini, ondan ilin başlanğıcında «Omami» adlı yemək hazırladıqlarını qeyd edir (64,61). Araşdırıcıların bəziləri «səməni» sözünün e.ə. birinci minillikdə sanskrit dilində sumani – buğda mənasını verdiyini yazırlar. Bu fikirin doğruluğuna şübhəmiz yoxdur. Ancaq şimali Hindistanda bu sözün işlənməsi həmin bölgəyə qədim Midiya və İran ərazilərindən miqrasiya etmiş atəşpərəstlərlə bağlı olduğu daha çox ağılabatandır.

Səməni mərasimi barədə yekun olaraq deyə bilərik ki, onun keçirilməsində iki məram güdülübdür. Birincisi, səməni yazın gəlməsi, yaşıllığın dirçəlişi rəmzi olaraq göyərdilir. İkincisi, səməni sağlamlıq mənbəyi sayılıb. Qışın məşəqqətlərindən üzülmüş insanların canının-qanının dirçəlişi üçün səməni suyu və halvası əvəzsiz bir nemət kimi dəyərləndirilib.

Novruz süfrəsinin keçirilən tədbirlər içərisində əlahiddə yeri vardır. Novruz süfrəsi, sadəcə, yeyib-içmək naminə, süfrə açmaq xatirinə keçirilmirdi. Düzdür, bu süfrədə Azərbaycanın milli mətbəxinin nümunələri əks etdirilirdi. Novruz süfrəsi rəngarəngliyi və zənginliyi ilə zaman-zaman seçilib. Novruz süfrəsini təşkil edən milli xörək və şirniyyatlar insanlarda fiziki dirçəliş yaradıb. Bioloji cəhətdən bərpa olunmuş insanda bayram əhval-ruhiyyəsi də yaradır. Orta əsr mənbələrinin verdiyi məlumata görə, süfrəyə 7 növ (löyün) xörək düzülərdi. Bu məhsulların hamısının «s» hərfi ilə başlandığı da qeyd olunur. Bu adı «s» hərfi ilə başlayan yeddi məhsul da adi məhsullar deyildir. Məsələn, süfrədə səməni,

sarımsaq, sumaq, sirkə və s. olardı ki, bunların hər birinin tərkibi yüksək kalori ilə zəngindir.

Bəzi tədqiqatçılar islama qədərki tarixdə bu məhsulların «s» hərfi yox, «ş» hərfi ilə başladığını yazırlar. «ş» səsi ilə başlayan sözlərin «s» ilə əvəz olunmasının səbəbini araşdırıcılar süfrədə «ş» səsi ilə başlayan şərabın olmasında görürlər. Məlumdur ki, islam dininə görə, şərab haramdır. Bu mülahizə də inandırıcı görünür. Belə ki, süfrədə şam, şərbət, şirni, hətta şərabın olması da ağlabatandır. Bu məhsulların da hər biri özlüyün də qüvvətləndirici, hərarətgətirici gücə malikdir. İnandırıcıdır ki, şərabı süfrədən uzaqlaşdırmaq üçün bütünlüklə süfrəyə «s» hərfi ilə başlanan məhsullar qoymaq məsləhət bilinibdir. Bu mülahizənin tərəfdarları Novruz süfrəsində lap qədimlərdən şərbət, şirni və şamın olduğunu israrla qeyd edirlər. «ş-s» səslərinin yerdəyişməsinin əleydarlarının fikrincə, bu fonetik dəyişikliklə bağlıdır. Onların mülahizəsinə görə, güney azərbaycanlılarının zaman-zaman şimala miqrasiyası nəticəsində ş-s əvəzlənməsi baş vermişdir. Bu fikrin tərəfdarları qeyd edirlər ki, şimalda yaşayan azərbaycanlıların «ş» kimi tələffüz etdiyi sözləri güneylilər «s» ilə tələffüz edirlər. Onların mülahizələrinə görə, bu fonetik dəyişiklik adıçəkilən ərazilərdə islam dini yayılmamışdan çox-çox əvvəl baş vermişdir (31, 112-113). Əslində, bu mülahizə heç cür inandırıcı görünmür. Bircə anlıq bu fonetik dəyişikliyə diqqət yetirsək, mülahizənin inandırıcı olmadığı ortaya çıxacaqdır. Onda şirni-sirni, şam-sam, şərbət-sərbət olmalı idi. Bu məsələ ilə bağlı gəldiyim qənaət belədir. Fars və tacik xalqları Novruz süfrəsinə qoyduqları ərzaq məhsulları «ş» səsi ilə başlayır. Məsələn, şir (süd), şərbət.

Novruzun inkişaf tarixini ilk yazıya alanlardan olan Ə.Biruni də yeddi ləvin məsələsinə diqqət yetirmişdir. O, qablara yeddi neməti necə düzməyi təsvir etmişdir. Ə.Biruninin yazdığına görə, bu yeddi nemət yeddi rəngin rəmzi olmalıymış (67).

Yeddi ləvinlə bağlı görkəmli şərqşünas alim Aidə İmanquliyeva da maraqlı tədqiqatlar müəllifidir. O, bu barədə yazır: «Bu

adətin (yeddi cür yemək nəzərdə tutulur) kökləri islamdan əvvəlki dövrlərə gedib çıxır və yeddi mələyin adı ilə bağlıdır» (67).

Yeddi ləvin məsələsi ilə bağlı Azərbaycanda mövcud olan bir özəlliyi də qeyd etmək yerinə düşərdi. Son çərşənbə axşamına Azərbaycanda «Yeddi ləvin gecəsi» (Əhliman Axundov) də deyilib. Türkiyənin İğdır vilayətin də 20 mart gecəsini yeddi ləvin gecəsi kimi tanıyıblar (69, 48).

Bu məqamda bir məsələni də qeyd etmək yerinə düşərdi. Novruz sistemində 7 rəqəminə özəl bir münasibət vardır. Novruz süfrəsində «s» hərfi ilə başlayan 7 növ ərzaq məhsulunun qoyulması, 7 şamın yandırılması, tonqalın üstündən 7 dəfə tullanmaq, 7 taxıl növünün (arpa, buğda, darı, qarğıdalı, noxud, mərci, lobya) göyərdilməsi, süfrəyə 7 dəstə üzərliyin qoyulması, orta əsrlərdə Novruz bayramının 7 gün qeyd olunması 7 rəqəminin bu sistemdəki xüsusi yeri olduğunun əyani təsdiqidir. Belə bir inam da mövcuddur ki, Novruz axşamı evdə olmayan 7 il sərgərdan düşər, doğma ocağında ola bilməz.

Praktik baxımdan deyək ki, «s» hərfi ilə başlanan ərzaq və insanın qida məhsullarını təşkil edən dənli bitkilər əsas qida məhsulu olmaqla bərabər, sağlamlıq və enerji mənbəyidir.

Mifik düşüncəyə görə, dünya 7 günə yaranıb. Artıq orta əsrlər təqvimində həftənin günləri də 7 müəyyən edilmişdir.

Novruz süfrəsində şəkərbura, paxlava, qovurğa, ləpə, püstə, badam, meyvə quruları, kişmiş və s. olur.

Aş təkcə azərbaycanlıların yox, bütövlükdə türk dünyasının xörəklərinin şahı olduğundan Novruz süfrəsinin də lideri sayılırdı. Xalqımız bu gözəl ənənəni indi də davam etdirir. Novruz süfrəsində aş ən nüfuzlu yemək sayılır. Aşın da Azərbaycanda müxtəlif növləri var. Hər region və hər bir ailə ənənə, zövq və özəl maraqlarına uyğun olan aş bişirər. Süfrənin mərkəzi hissəsinə səməni qoyular, şam yandırılar. Ailə üzvlərinin hamısı süfrə ətrafında oturardı.

Azərbaycanda Novruzun digər ayin və mərasimlərində olduğu kimi, bayram süfrəsində də hər bir regionun spesifik xüsusiyyətlərindən irəli gələn müxtəliflik, orijinallıq hökm sürür. Hər bir zonanın özünəməxsus çoxçeşidli xörəkləri, növbənöv şirniyyatları vardır. Xəzər sahilində yerləşən Lənkəranda bayram süfrəsinə ziyad balığının ləvəngisi, Ordubadda meyvə qurularının qoyulması dediklərimizə nümunədir.

Novruzda keçirilən dəbdəbəli mərasimlərindən biri «Xan bəzəmə»dir. Əvvəlcə bu mərasimin keçirilmə proseduruna diqqət yetirək. El-oba camaatı geniş bir meydana yığışır. Camaat zahirən gözəgəlimli, mənən müdrik olan bir şəxsi «Xan» seçir. Həmin şəxsi xan libasında geyindirirlər. Başına şahlıq tacı qoyurlar. Meydanın baş tərəfində şahalayiq bir taxt qururdular. Şahın sağ-solunda əsabələri, vəzir, vəkili, nökər-qulluqçuları olurdu.

Xanın sağ-solu səməni və xonçalarla bəzədilir. Xan taxt-tacında ciddi və rəsmi bir görkəm alaraq işə başlayır. Onun verdiyi «əmrlər» müzakirəsiz yerinə yetirilir. «Xan»ın əmri əsasında el-obanın məişət problemləri həll olunur, küsülülər barışdırılır, imkansız, köməksiz ailələrə bayram payları aparılır. Xan üç gün ərzində el-obanın «hakimi-mütləqi» sayılır. Həmin günlərdə bütün işlərin icrasına xan rəhbərlik edir. Xan kəndin yollarını, su arxlarını, dəyirmanlarını təmir elətdirir, uzun müddət əhalinin narahatlığına səbəb olan problemlərini aradan qaldırır. Sonuncu gün xan gördüyü işlər barədə camaata hesabat verir. Meydanda camaat hamılıqla şənlənir. Hər kəs nəyi bacarırsa, onu da edir, kimi çalıb oynayır, kimi güc nümayiş elətdirir, güləşir. Meydana yığışmış camaatı xanın təlxəyi də şənləndirir. Təlxək min bir hoqqadan çıxır ki, xanı güldürə bilsin. Gülmək isə xana yaraşan hal deyildir. «Xan» gülsə idi, onu suya basar, məsxərəyə qoyar və taxt-tacından uzaqlaşdırardılar. «Xan»ın əmrinə əsasən meydana bir qab qoyulardı. Xanın göstərişi ilə camaat ora «xələt» atardı. Bəzi yerlərdə «Xan» üc gün taxt-tacını qoruyub saxlaya bilərdisə, bu «xələt «ona çatardı. Bəzi bölgələrdə isə yığılan «xələt», pay-pülüş el-obanın

problemlərinə sərf olunardu. El-obada böyük nüfuz qazanmış «Xan bəzəmə» mərasiminin tarixi kökləri olduqca qədimdir. Böyük ehtimalla demək olar ki, bu mərasim öz qaynaqlarını sinifsiz cəmiyyətin mövcud olduğu dövrlərdən götürübdür. Xalq öz problemlərini həll etmək üçün Novruzun təntənəli günlərində «Xan» seçibdir. Həmin ərəfədə camaat toparlanır, bir-birinə qayğı və nəvazişlə yanaşır. Seçilmiş «Xan»ın da bir sözü iki ola bilməzdi.

Bu mərasimlə bağlı ikinci bir versiya da irəli sürə bilərik. Novruzun müqəddəsliyindən, onun xalq arasında mövcud olan gerçək nüfuzundan zamanında hakimiyyət sahibləri ustalıqla faydalanıblar. Bəzi mənbələrdə həmin ərəfədə səlahiyyət sahibləri məqsədli şəkildə hakimiyyətdən uzaqlaşır, xalqın dərd-sərini, maddi-mənəvi problemləri ilə əyani şəkildə tanış olmaq üçün, xalqla canlı, vasitəsiz ünsiyyətdə olmaqdan ötrü birbaşa özləri xalqın içərisinə təşrif buyurublar. «Xan bəzəmə» mərasiminin Azərbaycanda yarandığı daha çox inandırıcı görünür. Mənbələrdə ehtimal formasında yazılır ki, Cəmşidi camaat taxtında gəzdirib, Azərbaycana gətirib çıxarır. Həmin gün Cəmşid taxta oturub. Taxt-taca yiyələnmiş Cəmşidin şərəfinə camaat şadlıq edir, bayram keçirir. Cəmşidin özünün ildə bir dəfə, Novruz ərəfəsində şahlıqdan uzaqlaşıb camaatın içərisinə getdiyi, həmin gün onlarla canlı ünsiyyətdə olduğu, onların qayğı və problemlərini həll etdiyi də deyilir.

Novruz bayramı dövlət işlərinə və dövlət başçılarına yardımçı bir vasitə olubdur. XI əsrdə yaşamış məşhur və müdrik bir dövlət adamı olmuş Nizamülmülk «Siyasətnamə» əsərində hökmdarın xalqın içərisinə təşrif buyurmasından, həmin günlərdə şah sarayının qapılarının camaatın üzünə açıq olmasından da söhbət açılır. Görkəmli dövlət adamının məşhur «Siyasətnamə»sindən həmin məqamın təfərrüatına diqqət yetirək:

Belə deyirlər ki, Əcəm hökmdarlarının adəti bu imiş ki, Mehrikan və Novruz günlərində şah xalq üçün qəbul düzəldər və o gün heç kəsi həbs etdirməzmiş.

Bir neçə gün əvvəl münadi (carçı) car çəkib deyərdi: «Filan günə hazırlaşın!». Hər kəs o günə hazırlığını görərdi. O gün çatdıqda şah münadisi bazarın kənarında durub qışqırardı: «Bu gün ehtiyacını ödəməkdə kim-kimə mane olsa, şah onun qanını axıtdıracaqdır». Sonra şah xalqın ərizələrini oxumağa başlardı, onları bir-bir qabağına qoyub nəzərdən keçirərdi. Orada şahın özündən şikayət vardısa, şah durub taxtdan düşər, onların dilində qazilər qazisi demək olan möbidlər möbidinin (möbəd, möbid-zərdüştlikdə din xadimi, kahin) qarşısında iki dizi üstə oturar və deyərmiş: «Hər şeydən əvvəl bu kişi ilə mənim məsələmi ayırd elə, heç şeydən ehtiyat edib çəkinmə». Bu vaxt car çəkilərmiş: «Kimin şahdan şikayəti varsa, hamısı bir tərəfə yığılsınlar ki, ilk növbədə, onların a Sonra şah möbidə deyərmiş: «Allah-taala yanında şah günahından böyük günah ola bilməz. Çünki Allah-taalanın neməti sayəsində onların vəzifəsi rəiyyət saxlamaq, onların haqqını qorumaq, onlara qarşı uzadılan əli gödəltməkdən ibarətdir. Şah zalım olsa, qoşunu da bütünlükdə zalım olar və Allahı unudar, nemətə qarşı nankorluq edərlər; gec-tez onlar Allahın qəzəbinə və cəzasına düçar olub zərər çəkər, çox keçməz ki, dünya viran olar. Onların bu günahları üzündən hamı öldürülər; şahlıq o eldən köçürülər. Ey Allahını tanıyan möbid, bax, mənə üzgörənlik etmə. Allah məndən nə tələb etsə, mən də səndən tələb edəcək və hamısını sənin boynuna yıxacağam».

Sonra möbid işlərə baxmağa başlar, kimin şaha qarşı tələbi haqlı idisə, onun xeyrinə hökm çıxarar, kim şaha qarşı əsassız iş qaldırıb sübut gətirə bilməzdisə, ona ən ağır cəza kəsərdi, bilsinlər ki, ölkəyə və hökmdarına (yersiz) eyib tutmağa cəsarət etmiş adamın mükafatı bu olacaqdır.

Şahın mühakiməsi qurtardıqdan sonra o yenə taxta oturar, tacı başına qoyar, üzünü böyüklərə və yaxın adamlarına çevirib deyərmiş: «Mən ona görə özümdən başladım ki, siz başqalarına zülm etmək tamahına düşməyəsiniz, indi kimin sizdən narazılığı varsa, könlünü ələ alınız».

Cəmşiddən sonra bu humanist törənin qədim İran şahları tərəfindən bir ənənə kimi davam etdirildiyi tarixi mənbələrin çoxunda qeyd olunmuşdur. Tarixi mənbələrdə hakim sinfin nümayəndələrinin Novruz şənliklərindən şəxsi mənfəətləri naminə faydalandıqları da vurğulanır. «Xan bəzəmə» mərasimində bayramdan gəlir mənbəyi kimi də yararlanıblar. Orta əsrlərdə Novruzda pay-peşkəş vermək ənənəyə çevilibmiş. Bu pay-peşkəş çox aşağı və orta sinfin nümayəndələri tərəfindən hakim təbəqənin üzvlərinə verilərmiş. Səfəvilər dövlətində baş vəzir işləmiş Mirzə Hatəm bəy Ordubadinin Novruz bayramında şahına 2074 tüməni peşkəş verdiyini tarixi mənbələr qoruyub saxlamışdır. Novruz bayramında hökmdarlara qızıl əşyalar və digər qiymətli hədiyyələr verilərdi. Novruzla bağlı qədim bir mərasim də meydana çıxmışdır ki, bu mərasimdən də səlahiyyət sahibləri faydalanırdılar. Bu mərasim Mirnovruz və bəzən də Hacı Firuz adlandırılırdı (31, 117).

Bu mərasimin ilk vaxtlar konkret şəxsin adi ilə bağlı olduğunu ehtimal etmək olar.

Göründüyü kimi, bu mərasim də birbaşa «Xan bəzəmə» mərasimindən qaynaqlanıbdır.

E.Aslanov «Novruz: dünən, bu gün, sabah» məqaləsində yazır: «Əski qaynaqlardan aydın olur ki, bir zamanlar Misirdə Novruz büsatı ərəfəsində «Əmir əi-Novruz», qısaca desək, Mirnovruz adı daşıyan bir nəfər törən hakimi seçilir. Mirnovruz (bu ad altında mifik Cəmşid təsəvvür olunurdu) seçmək adət-ənənəsi orta çağlarda, xüsusən Səfəvilər dövründə də geniş yayılmışdı. Hər il bayramın iştirakçıları öz aralarında gözəl rəftarlı, xoşgörkəmli, hörmətli bir şəxsi Mirnovruz seçirmişlər. O, ağ at, yaxud dəvə üzərinə qalxır, əlində qızılquş bayram alayının önündə yeriyirmiş. Saraydakı rəsmi törən ziyafətlərini də Mirnovruz idarə edirdi» (56). Aydınlıq naminə deyək ki, «Əmiri – Novruz» Novruzun sahibi deməkdir.

Mirnovruz mərasimi İranda, Orta Asiyada və digər regionlarda da keçirilirmiş.

Yuxarıda deyildiyi kimi, Mirnovruz, əslində, qızılquş (Ö.Xəyyamın yazdığına görə də, qızılquş xoşbəxtlik və səadət gətirir), at və ya dəvənin üstündə oturub yola çıxardı. Onun arxasınca gələn dəstə oxuya-oxuya onu müşayiət edərdi. Mirnovruzun mindiyi at harada dayansaydı, ev və ya bazar-dükan sahibi onun üçün hazırladığı hədiyyəni hörmət və ehtiramla ona təqdim edərdi. Bu minvalla Mirnovruzun dəstəsi bayram sovqatını toplayardı.

Ümumən, hökmdarlar Novruzdan – yeni gündən maddi-mənəvi və siyasi baxımdan yararlanmışlar. Səlahiyyət sahibləri bu günün yalnız müqəddəsliyindən-düşərliliyindən faydalanmamışlar, həm də kosmik-astronomik cəhətdən tamamilə yeniləşmiş bu gündə gələcək talelərini müəyyənləşdirməyə və kodlaşdırmağa çalışmışdılar. Taxt-tac sahibləri həmin gün bər-bəzəkli, bərq vuran, gözqamaşdıran libaslarını geyər, başlarına da «novruzi» deyilən (E.Aslanov) ağ rəngli məxsusi bir papaq qoyardılar. Camaatın içinə çıxan hökmdar ilin ilk günlərindən xalqın diqqətini cəlb edir, özünü onların nəzərinə çatdırırdı.

«Xan bəzəmə» mərasimi də özlüyündə çoxqatlı və rəngarəng olmuşdur.

Orta əsr mənbələrində «Xan bəzəmə» mərasiminin zəngin keçirilməsi barədə də məlumatlar vardır. E.Aslanov yazır: «VIII-XI yüzilliklərin qaynaqlarında Yaxın Şərqdə Novruz günü şəhərlərin baş küçələri ilə və təntənəli şəkildə taxt-tac sahibi, yaxud şəhər rəisinin zəngin bayram süfrəsi – «Xan»ın gəzdirilməsindən xəbər verir. Həmin nəhəng süfrənin ortasında noğul, nabat və şəkərlənmiş meyvələrdən bir «portağal ağacı» quraşdırılır, onun budaq, yarpaq və meyvələrini şəkərdən hazırlayıb, üzərinə yenə şəkərdən minlərlə fiqur və təsvirlər sancılır, ətrafında qurulmuş «yeddi qəsr»in içi cürbəcür qoğal və şirniyyat ilə doldurulurdu. Qaydaya görə yoldan keçən hər kəs bu xariqüladə süfrəyə yanaşıb arzuladığı qoğal və şirni götürə bilərdi» (57).

Etiraf edək ki, hökmdarların Novruz şənliklərinə şəxsən qatılmaları əhalinin ciddi marağına səbəb olur, bayramın təntənəsini daha da artırırdı. Azərbaycanda xanlıqlar dövrü də daxil olmaqla, bütün dövrlərdə xanlar və hökmdarlar Novruz şənliklərinin fəal iştirakçısı olmuşlar. Nizami Gəncəvinin yaşadığı dövrdə Novruz günü eyvanda, xüsusi bir taxtda əyləşmiş hökmdarın qarşısından seçmə ağ atlar aparılır, qızıl-gümüşdən hazırlanmış qoşqu ləvazimatı nümayiş etdirilirdi.

Həmin dövrdən 600 il sonra Azərbaycanda, xanlıqlar çağı Qarabağda Novruz bayramını təsvir edən Y.V.Çəmənzəminlinin «Qan içində» romanında bayram yürüşündəki at üstə yeriyən bəylərin Şuşada Cıdır düzünə yollanmasından danışılır. İzdihamın önündə yalları xınaya boyanmış ağ atda, əyinində ağ çüğa, ağ arxalıq geyib, başına ağ dəri papaq qoymuş Qarabağ xanı irəliləyərdi. Qafilə Cıdır düzündəki təpədə qurulmuş çadırlara çatdıqda, hamı atlardan enib çadırlara keçirdi» (57).

«Xan bəzəmə» mərasiminin alt qatlarında xalqın müdrik düşüncəsi, arzu və istəkləri öz əksini tapıbdır. Bu mərasimi yalnız hakim sinfin varlanmaq ehtirası ilə bağlamaq ən azından insafsızlıqdır. Ehtimalla olsa da deyə bilərik ki, «Xan bəzəmə» meydan tamaşasında xalq ədalətli şah obrazı arzusunu gerçəkləşdiribdir. Novruzun müqəddəsliyindən, sayasından və nüfuzundan məharətlə yararlanmış rəyasət sahibləri, həm də Novruzun yaratdığı mənəvi təmizlənmə sayəsində saflaşmışlar. Həmin ərəfədə rəsmlər ədalətli, insaflı, xeyirxah, şən və nikbin olurdular.

Hökmdarların iştirak etdiyi bayram şənliklərində müxtəlif peşə və sənət sahiblərinin əl işləri, sənət nailiyyətləri nümayiş etdirilirdi. XIV ərsdə yaşamış bir türk tarıxçisinin verdiyi məlumata görə, Novruz törənində zərgər, dəmirçi, dərzi və b. (təsadüfi deyil ki, bu peşələr Cəmşidlə bağlıdır) peşə və sənət adamları bir il ərzində araya-ərsəyə gətirdikləri məhsullarını diqqəti cəlb edən bir formada nümayiş elətdirirdilər. Həmin sənət və peşə sahibləri məhsullarını

məxsusi bir dolabda və ya qurğuya yığıb çiyinlərində gəzdirər, meydan əhlinə nümayiş etdirərdilər. Çörəkçilər tamaşaçıların diqqətini özlərinə cəlb etmək üçün müxtəlif ölçülü çörəkləri qalaqlayıb hündür bir çörək köşkü düzəldirdilər. Həllaclar (pambıqatanlar) boyanmış pambıq və qamışdan böyük bir minarə düzəldir, onu tamamilə bəzədikdən sonra baş hissəsinə leylək fiquru keçirərdilər. Kəndirbazlar oyunları ilə bərabər, qurub-düzdükləri kəndirləri, həsirçilər qamışdan hazırladıqları predmetləri nümayiş elətdirirdilər. Kürkçülər pələng, bəbir dərilərinə bürünüb həmin heyvanlar kimi yeriyir, qəssablar bir-iki nəfərə qoyun-keçi dərisi geyindirir və həmin heyvanların səsini çıxartdırırdı. Bu deyilənləri İstanbulun Topqapı sarayının kitabxanasında saxlanılan əlyazma və miniatür rəsmlər özündə hifz edir. XVI-XVII əsrlərə aid olan «Surnamə» («Bayram kitabı») adlı əlyazmalar Türkiyədə mövcud olan bayram və törənlərin keçirilməsindən bəhs edir. Həmin əlyazmalarda olan 437 miniatürdə İstanbulun «At meydanı» adlanan yerində peşə və sənət adamlarının sultan qarşısında nümayiş elətdirdikləri qeyri-adi «həngamələr» təsvir olunubdur. Bu miniatürlərin hər biri özlüyündə maraqlıdır. Miniatürlərin birində gülçülərin apardığı qurğunun hər bir bucağında sərv ağacı, ortada fəvvarəli hovuz və çiçəkləmiş iki meyvə ağacından ibarət olan bağ (rövzə) təsvir olunubdur. Digər miniatürdə isə ağac və bitkilərlə örtülmüş təpə, onun qoynunda tütək çalan çoban fiquru, qoyun sürüsü və vəhşi heyvanlar (ayı, ceyran və s.) təsvir edilibdir. Bu qafiləni on iki nəfər çiynində aparır (56). Gətirdiyimiz nümunələrdə təbiət təsvirlərinin, peşə və sənət adamlarının əl işlərinin təsviri təsadüfi deyildir.

Fikrimizcə, bu qarışıq – təbiət və insan münasibətlərinin əzəli və əbədiliyi, bu münasibətlər nəticəsində «Dünya ağacı»nın daimi yaşıllığı və mövcudluğudur. İnsanın qurub-yaratdığı təsərrüfat sistemi (peşə, sənət alətləri) olmasa, təbiətin sistemli və faydalı inkişafı da qeyri-mümkündür. Elə bu zərif və həssas əlaqəyə görə,

Novruz həm də sənət-peşə bayramı kimi xarakterizə edilir. Bu tendensiya daha çox özünü Mehrikan və məhsul bayramı adı altında keçirilən mərasimlərdə özünü doğruldur.

Azərbaycanda Novruz mərasimləri keçirilmə vaxtına görə də fərqlidir. Azərbaycanın bir çox bölgələrində Novruz bayramı ilin axırıncı çərşənbəsində keçirilir. Bir çox ayin və mərasimlər də elə həmin günlərdə icra olunur. İlaxır çərşənbə axşamı ilə bağlı saysız ayinlər, inam, inanclar və s. mövcuddur. Həmin gün qulaq və su falına baxılır, müxtəlif əşyalar vasitəsilə bəxtə baxılır, niyyət edilir, çillə çıxarılır və s. Bunlardan bəzilərini təfərrüatı ilə yazmaq istərdik.

Axırıncı çərşənbədə «iynə süzdürüb», «çilə çıxarırlar».

Bayramda hamı şənlənir, deyib-gülür. Həmin axşam kim daha tez yatsa, onu yatdığı yerə tikirlər. Bundan sonra onun üstünə su töküb oyadırlar.

Axır çərşənbə lampanın altına qıfıl bağlayıb qoyurlar. Niyyət edib gözləyirlər. Qapını birinci kim açıb içəri girərsə, onun ilk dediyi sözü niyyətə görə yozardılar.

Axırıncı çərşənbədə qızlar həmin axşam gec yatırlar. Yatmazdan əvvəl duzlu kökə yeyir, ancaq su içmirlər. Gecə duzlu kökə yeyənə su verirlər. Su verən adamın qızın həyat qisməti olacağına inanırdılar.

Axır çərşənbə günü hərənin adına bir şam yandırılardı. Kimin şamı birinci yanıb qurtarardısa, həmin adamın ömrünün gödək olacağına inanardılar.

Axır çərşənbə gecəsi Novruz bayramının ən müqəddəs anları hesab olunur. Həmin gün, əslində, elə Novruz bayramının özüdür. Novruzun həmin əziz anları haqqında belə bir əfsanəvi inam bu gün də yaşamaqdadır.

Belə deyirlər ki, axır çərşənbə günü çaylar bir an dayanır, ağacların budaqları əyilib torpağa dəyir.

Axır çərşənbədə təbiətdə hər şeyin təzələndiyini deyirlər.

Xalqın Novruzla bağlı düşüncəsi, inamı, inancı və b. milli dəyərləri daha çox axır çərşənbə ilə əlaqəlidir. Elə bu səbəbdəndir ki, bir çox regionlarda çərşənbə bayramı daha təntənəli qeyd olunur. Bəzi bölgələrdə isə Novruz şənliklərinə axır çərşənbə günündən başlanır.

Axır çərşənbə günündə həyət-bacalarda və el-obada əhalinin toplaşdığı yerlərdə tonqallar çatılır. Köhnə ilin dərd-bəlasından, azar-bezarından, qada-balasından qurtarmaq niyyəti ilə uşaqdan-böyüyə – hamı tonqalın üstündən yeddi dəfə tullanardı. Bəzi yerlərdə hətta mal-heyvanı, qoyun-quzunu belə tonqal başına dolandırır, iki tonqalın arasından keçirərlər. Tonqalın üstündən tullanarkən müxtəlif nəğmələr oxunardı:

Ağırlığım-uğurluğum odlara,
Yazda mənlə hoppanmayan yadlara.
Ağırlığım od olsun,
Odda yanan yad olsun.

və ya

Ağrım-uğrum tökülsün,
Oda düşüb kül olsun.
Yansın, alov saçılsın,
Mənim bəxtim açılsın.

Subyektiv səbəblərdən bəzi araşdırıcılar tonqal yandırmaq mərasimini atəşpərəstliklə bağlayırlar. Əslində, yanlışlığa yol verirlər. «Bəllidir ki, atəşpərəstlər odu ilahiləşdirərək ona sitayiş edirdilər. Onlar oda, atəşə o dərəcədə müqəddəs bir şey kimi baxırdılar ki, hətta oda öz nəfəslərinin belə toxunmasını istəmirdilər. Zərdüştə görə, insanın nəfəsi təmiz deyildir və onun müqəddəs oda toxunması günahdır. …. Novruz mərasimində od, tonqal üstündən atılan mərasim iştirakçıları «ağrım-acım tökülsün bu odda yansın» mövqeyindən çıxış edir. öz çillələrini, ağırlıqlarını odun üstünə

töküb orada yandırmaq istəyirlər. Deməli, Novruz mərasimindəki od ünsürü «Avesta» – atəşpərəstliklə bağlı deyildir (59).

Bir çox regionlarda üzərlik yandırma ayini elə bu vaxt (tonqal yandırma) keçirilir. Qadınlar əvvəlcədən hazırladıqları üzərliyi tonqala atıb oxuyardılar:

Üzərliksən, havasan,
Hər bir dərdə davasan.
Hər yerdə sən olasan,
Qada-bala sovasan.

İnama görə, üzərlik qada-bala aparır, bədnəzərdən qoruyur. İnsanlar bu inamlarında da səhv etməmişlər. Sonralar elm də bu qənaətə gəldi ki, üzərliyin tibbi müalicəvi əhəmiyyəti vardır. Əhliman Axundovun yazdığına görə, Dərbənd və Quba bölgələrində «pülənbər» adlandırılan xüsusi üzərlik yandırılması adəti olubdur.

Son çərşənbə axşamında və Novruzda təntənə ilə keçirilən mərasimlərdən biri də vəsfi-hallardır. Hava qaralanda dəstə halında qızlar çeşməyə, bulağa su gətirməyə gedirlər. Bu vaxtı kəlmə belə kəsmək olmaz. Lal-dinməz səhənglərini su ilə doldurduqdan sonra evlərin birində cəm olarlar. Evin ortasına içi su ilə dolu olan bir badya və ya ləyən qoyulardı. İki nəfərin-qız və oğlanın adına ləyənə üzük, sırğa, iynə salınardı.

Bu mərasimin müxtəlif variantları mövcud olub. Əgər qaba üzük, sırğa, sancaq salınıbsa, qabın üzərinə yaylıq örtərdilər. Qabın yanında oturan adam əl atıb qabdan üzük və sırğa çıxarır. Çıxan əşyaya aid (üzük, sırğa, sancaq) bir bayatı söylərdi, qızlar da bir ağızdan oxuyardı. İynə ilə fala baxılan zaman şərt belə idi ki, əgər iynələr çalxalanmış suda bir-birinə yaxınlaşardısa, onda sevgililər qovuşacaqdılar. Su qabının yanında əyləşən qadın əlamətə, hal-əhvala uyğun olan bayatılar söyləyərdi:

Məscidin ocağında,
Şam yanar bucağında.
Allah muradın versin,
Ağ oğlan qucağında.

və ya

Sürmədanın milisən,
Can gülüm, can, can!
Dost bağının gülüsən,
Can gülüm, can, can!

Həm yaxın qonşususan,
Həm də sevgilisisən.
Can gülüm, can, can!
Can gülüm, can, can!

Vəsfi-hal, adından göründüyü kimi, halın tərifi və təsviridir. Həmin situasiyada sözə güclü bir inam yaranırdı. İnam hissinin insan həyatında hansı rolu oynadığı artıq hamıya bəllidir. Vəsfi-hala inananlar Tanrıya daha çox üz tuturlar. Arzu və niyyətlərinə çatmaq, diləklərinə qovuşmaqdan ötrü daxildən gələn güclü bir inamla Tanrıdan dilək diləyirdilər.

Göründüyü kimi, vəsfi-hallar ən çox su falı ilə bağlıdır. «Dünya ağacının» kökündə su kultunun da durduğu məlumdur. Ümumən, türklərdə, o cümlədən Azərbaycan türklərində su aydınlıq, saflıq, paklıq rəmzi sayılıb. Su insan həyatının rişələrindən olub. Elə bu özəl inamın nəticəsidir ki, falların ən müqəddəsi su ilə fala baxmadır. Mərasimin kökündə su dayandığındandır ki, bəzi tədqiqatçılar (E.Aslanov) bu ayinin həm də su çərşənbəsində icra edildiyini yazırlar.

Novruz özündə xalqın həyatını, məişətini, dünyagörüşünü, ümumən, maddi-mənəvi dəyərləri cəmləyən gerçək bir sistemdir. Bu sistem əhatə dairəsinə görə də son dərəcə zəngindir. Xalqın

dünyabaxışı, əxlaqı, mənəviyyatı, məişəti və digər dəyərləri hələ də bu sistemdə qorunub saxlanılıb. İlaxır çərşənbə və Novruzda qapılar, darvazalar açıq olar, heç kəs ev-eşiyinin qapılarını bağlamazdı. Həmin günlərdə hamı öz ev-eşiyində, od-ocağında olmalıdır. İlin əziz günlərində adamlar yalnız xoş sözlər danışardılar. Həmin günlərdə qız-gəlinlər qulaq falına çıxardılar. Bu ayinə «qapıpusma» da deyirlər.

Son çərşənbə və Novruz mərasimlərinin şad-xürrəm, təntənəli qeyd olunmasında cavanların və uşaqların fəal iştirakı ilə keçirilən oyun, tamaşa və mərasimlərin ayrıca yeri vardır. İlaxır çərşənbə və Novruz günlərində el-obanın cavanları və uşaqları gecələr dəstə halında evlərə baş vurarlar. Dəstə-dəstə olub evlərə torba atır, şal sallayırlar. Bu mərasim müxtəlif dönəmlərdə bəzəkli yun corabla, torba və şal ilə yerinə yetirilib. Ev sahibi atılan torbaya, corab və ya şala bayram payı qoyardı. Bu mərasim həm də özəl bir incə məqamı gerçəkləşdirmək niyyəti ilə də həyata keçirilibdir.

İstədiyi qızın evinə torba, ya şal atan cavan, arzu və niyyətini bildirmək üçün torba və ya şalın ucunu düyünləyirdi. Qızın valideynləri oğlanı ürəkdən bəyənərsə, bu işin gələcəyinə ümid edərlərsə, düyünü açıb qızın biləyinə bağlayarlar. Əgər razı olmasalar, bayram payı ilə şalı verərdilər.

Azərbaycanın bir çox regionlarında son çərşənbəyə, bəzi bölgələrdə isə Novruzdan əvvəlki günə «baca-baca» deyilir.

Türkiyənin İğdır bölgəsində həmin gün «uşaq bayramı günü» kimi daha çox tanınır (69, 53).

Qənaətimizə görə, son çərşənbənin müəyyən bir mərhələsinə «baca-baca» deyilir. Birinci «baca-baca» sözünə diqqət yetirək. Baca sırf türk mənşəli bir sözdür. Yaxın keçmişə kimi dam evlərində baca olurdu ki, qalanmış ocağın tüstüsü oradan çölə çıxardı. İlaxır çərşənbə və Novruz günlərində şənlik keçirən cavanlar və uşaqlar kəndi baca-baca gəzər, torba, şal və ya bəzəkli, təzə toxunmuş yun corablarını həmin bacadan sallayardılar.

Uşaqlar günün qulağı batandan ev-ev gəzməyə başlayardılar. Dəstə-dəstə evləri gəzib bayram payı toplamış uşaqlar evlərin birində bayram şənliyini keçirərdilər.

Uşaqların evbəev gəzmə mərasiminə el arasında «baca-baca» deyilib. Bu mərasimə böyüklər çox vaxt uşaq bayramı kimi münasibət bəsləyiblər.

O da doğrudur ki, son çərşənbə və Novruz günlərində uşaqlar daha fəal olurlar. Onlar böyüklərdən daha çox deyib-gülür, şadlanır, bayram keçirirlər.

İlaxır çərşənbə və Novruz günlərini cavanlar və uşaqlar böyük həvəs və maraqla keçirirdilər. Atçapma, güləşmə, miloynatma, oxatma yarışları, zorxana tamaşaları, çövkən, qəpəq oyunlarını əhali maraqla qarşılayırdı. İlaxır çərşənbə və Novruz günlərinin kütləviliyini də meydan tamaşaları və xalq oyunları təşkil edirdi.

Azərbaycan mərasim şənlikləri, zorxana və uşaq oyunları sayca müxtəlif, məzmunca zəngindir. Mərasim şənliklərinin sayı-hesabı bəlli deyildir. Mərasim şənlikləri birbaşa kainat və planet ünsürləri – od, su, hava, torpaq və başqa təbiət hadisələri ilə bağlıdır.

Təkcə zorxana oyunlarının doqquz növü vardır.

Musiqi ilə müşayiət olunan zorxana oyunları tamaşaçıda şən əhval, şux ovqat yaradıbdır. Qurşaqtutma komik, məzəli səhnələrlə diqqəti cəlb etmişdir.

Uşaq oyunları özündə milli adət-ənənələri, mənəvi-əxlaqi dəyərləri birləşdirir. Bu oyunlarda idman hərəkətləri cəldlik, çeviklik, mübarizlik və hünər aşılamışsa, söz, deyim, ritm, musiqi və oxuma mənəvi aləmin zənginliyinə xidmət etmişdir.

Cıdır, zorxana, kəməndatma, qılıncoynatma, kəndirbaz, qoç, buğa və dəvədöyüşdürmə kimi meydan tamaşaları bayram günlərinin ən maraqlı törənlərindən olmuşdur.

Cıdır tamaşalarının əsas iştirakçıları igidlər olurdu. Yaxşı at çapmaq hünər hesab edilirdi. Atçapma yarışlarında bütün el-oba yığışardı. Qalib gələnlərə el-oba arasında böyük ehtiram bəslənərdi. Novruz günlərində keçirilən cıdır tamaşalarında atları cıdıra

hazırlayan cavanlar, atları minib sürəcək cavanların yaxınları, hətta cıdırda atlanacaq cavanların nişanlıları belə müxtəlif nəğmələr oxuyardılar. Oxunan nəğmələrdə cıdırçı alqışlanar, ona uğurlar dilənərdi:

Çaparaq atım,
Çap, çap.
Cıdır atım,
Çap, çap.
Ötən gəlib
Yetişdi.
Tap, tap.
Çapar atım,
Çap, çap,
Çap, çap.

Novruzda keçiriləcək cıdır tamaşalarına hazırlıq kiçik çillədən başlanardı. El arasında belə bir inam var idi ki, kiçik çillənin ilk günü sübh tezdən suvarılan at cıdırda dala qalmaz, qalib gələrmiş (20, 61).

Novruz mərasim tamaşalarının ən geniş tamaşaçı marağı qazananlarından biri zorxana oyunlarıdır. Son çərşənbə və Novruz günlərində açıq havada göy otun üstündə keçirilirdi. Camaat meydanı dövrəyə alar, dairə çəkilərdi. Güləşçilərin ayağı cızıqdan çıxmamalı idi. Əgər güləşçinin ayağı cızıqdan çıxsaydı, oyun yenidən başlamalı idi. Zorxanada müxtəlif oyunlar nümayiş etdirilirdi. Bu oyunların ən geniş yayılanlarından biri milatma tamaşası idi. Oyunçular əlinə bir mil alıb başının üstünə qaldırardı. Dumbul və ya nağara çalınardı. Dumbul və nağaranın ahənginə uyğun mil oynadan milləri hərləyərdi. Oyunçular mili tək əli ilə yuxarı atıb, yenidən tutardı. Məşhur mil oynadanlar mili qıçının altından atıb havada tutardı. Axır çərşənbə və Novruz günlərində zorxanalar səməni, bayram xonçaları, qırmızı xonçalar və b. şeylərlə bəzədilərdi (20, 62).

Kəməndatma meydan tamaşası da tamaşaçı kütləsinin xüsusi rəğbətini qazanmışdır. Bu oyun xüsusi çeviklik tələb edirdi. Kəməndatma zamanı rəqibi at üstündə kəməndə salmaq xüsusi çeviklik və məharət tələb edirdi.

Cıdır tamaşalarında keçirilən kəməndatma camaat tərəfindən daha çox maraqla qarşılanardı. Kəməndə düşən igidlər güclü olardısa, kəməndi qırıb yenidən at belinə qalxardı. Kəmənddən çıxa bilməyənlər isə məğlub sayılardı. Kəməndəsalma, kəməndədüşmə ilə bağlı çoxlu nəğmələr yaranıb:

Mindim səməndə,
Düşdüm kəməndə.
Yağı insaf et,
Dərdliyəm mən də (20, 63).

Meydan tamaşaları içərisində kəndirbaz tamaşaları da əhali tərəfindən böyük maraqla qarşılanırdı. Bu tamaşalar Novruzda və payızda məhsul yığılıb qurtardıqdan sonra keçirilərdi. Tamaşada 6 nəfər – kəndirbaz, onu müşayiət edənlər – zurnaçı, balabançı, nağaraçı və gözətçi iştirak edərdi. Meydanda quraşdırılmış qurğuları kəndirbazın dəstəsində olan bütün üzvlər yoxladıqdan sonra kəndirbaz oyuna başlayardı. Musiqi sədaları altında kəndirbazın qeyri-adi hərəkətləri tamaşaçılar tərəfindən alqışlarla qarşılanardı. Zurnaçı ilə kəndirbaz daim bir-birini izləyərdilər. Zurnaçının kəndirbazın ritmini tutması onu ruhən coşdurur, hərəkətlərini tənzimləyirdi. Kəndirbaz tamaşasında camaatın sevinc və maraqla dinlədiyi təlxəyin komik hərəkət və məzəli danışığıdır. Təlxək kəndirbazın hərəkətlərinə uyğun zarafatlar edir, oyunlar göstərir. Təlxəyin oyunları kəndirbazın hərəkətlərini tamamlayır, tamaşaçıları şənləndirir (21, 102-103).

3.2. Novruz mərasimləri qədim və orta əsr mənbələrində

Novruz lap qədim zamanlardan xalqımızın təfəkküründü, mənəvi əxlaqi düşüncəsini, təbiət və cəmiyyətə münasibətini özündə cəmləyən dünyagörüşlər toplusudur. Novruz sistemi pozulmaz, dəyişilməz, əzəli-əbədi kainat (kosmos) və planet qanunları əsasında formalaşıbdır. Doğulduğu gündən təbiətin qoynunda yaşayıb-yaradan insanoğlu kainat və planetin harmoniyasının, mizan-tərəzisinin mövcud olduğu qənaətinə yüz illərin müşahidələri nəticəsində qazandığı empirik bilikləri sayəsində sahib olmuşdur. İnsanoğlu planetdə yaşadığından baş verən proseslərə diqqət kəsilmiş, təbiətin xarakterini mükəmməl öyrənmək üçün uzun illər müşahidələr aparmış, əldə etdiyi bilgilər və gəldiyi qənaət sayəsində təqvim yaratmışdı. Qədim insan kainat və planetdəki varlıqlara həssas yanaşmışdı. İnsan özünü əhatə edən mühitə və onun komponentlərinə canlı varlıq kimi yanaşmışdır. Çox haqlı yerə, qədim insan günəşə, aya, ulduzlara canlı varlıq kimi sevgi bəsləmişdir. Elə bu həssas yanaşmanın yaratdığı qənaət idi ki, qədim insan ilin hər bir gününün xarakterini belə müəyyənləşdirmişdi. Hər günün özəl xarakterini təyin etmiş qədim insan ilin martın 21-də dəyişildiyini, gecə ilə gündüzün bərabərləşdiyini dəqiq müəyyənləşdirmişdir. Bu dəqiq astronomok hadisə Novruz sisteminin istinad etdiyi ilkin kainat qanunudur.

Novruz sistemində ardıcıl, nizamlı və əlaqəli bir hərəkət vardır.

Novruz sistemdir – onun tərkib hissəsinə daxil olan komponentlər qarşılıqlı əlaqədədir. Novruz sistemi martın 21-dən gecə-gündüz bərabərliyindən başlayır. İlin bütün gününü özündə birləşdirir.

Novruz sisteminin kulminasiya nöqtəsi, ən yüksək zirvəsi martın 21-nə – Novruz bayramına təsadüf edir. Həmin təzələnmiş, yeniləşmiş gündən başlanan Novruz sistemi bütün ili əhatə edir.

Novruz sistemi zaman kateqoriyası üzərində qurulubdur. Böyük ehtimalla demək olar ki, ilkin zaman ölçüsü gecə-gündüz əvəzlənməsi əsasında müəyyənləşdirilmişdir. Bundan sonra 5 günlük kiçik həftə, sonra isə on günlük böyük həftə nominasiyası yaradılmışdır. 7 günlük həftə insanların təkmilləşmiş astronomik bilgilərə sahib olduqdan sonra formalaşmışdır. Orta əsr insanı əcdadlarından ötürülən minillik empirik biliklər və uzun illər ərzində qazanılmış bilgi və müşahidələr əsasında Yerin kainatın mərkəzi, Günəş, Ay və ulduzların onun ətrafında hərəkət etdiyi qənaətinə gəlmişdi. Bu, nəticə özünü doğrultmuşdu. Bu qənaət gün, həftə, ay və il bölgüsünü meydana gətirdi. Planetlərin hərəkəti nəticəsində meydana gəlmiş zaman hesablamaları orta əsrlərdən əvvəlki dövrlərə aid edilir. Belə ki, ay və ilin hesablanması planetlərin hərəkətindən götürülmüşdür. Novruz sistemini insanlar Günəş, Ay və qismən də ulduzların hərəkətinə istinadən yaradıblar. Zaman hesablanmasını insanlar Günəş və Ayın gərdişi üzərində qurmuşlar. Günəş martın 21-22-dən götürdüyü hərəkət xəttini 365 gündən sonra tamamlayır və ilkin durduğu nöqtəyə qayıdır. Qədim və orta əsr insanı vaxtın hesablanmasında Ayın hərəkətinə də əsaslanmışdır. Çox doğru yerə, insanlar ayın yarımdairə halında (hilal) görünməsini yeni ayın başlanğıcı kimi qəbul etmişlər. Ayın hərəkəti əsasında qəməri (Ay) təqvim yaradılmışdır. Çox-çox sonralar astronomik texnologiyalar vasitəsilə e.ə. III minilliyin bu empirik informasiyasının dəqiqliyi təsdiq olunmuşdur. Sübut olunmuşdur ki, Ay Yer ətrafına 1, 02 km/san. orta sürətlə dolanır və tam dövrünü 27, 32166 günə bitirir. Bu müddətə siderik ay (ulduz ayı) deyilir. Ayın eyni səfhəsinin (ərəb sözüdür, səfhə-üz, səth deməkdir) ardıcıl təkrarlandığı müddətə sinodik ay deyilir. Onun orta uzunluq müddəti 29, 5309 gündür. Bu müddətin yarısı gündüz, yarısı gecə olur (2, 189).

İnsanlar ulduzların hərəkətinə də əsaslanıb, vaxt, zaman bölgüsünü hesablayıblar. Ulduzların səmanın cənubunda ardıcıl, müntəzəm şəkildə görünməsini müşahidə etmiş qədim və orta əsr

insanı bu parametrdə də səhv etməmişdir. Göyün cənubundakı ulduzlar on iki aydan bir görünür. Hər ay yeniləşən ulduzların görünməsi əsasındakı hesablamada da il 365 gün olurdu. Novruz sistemi bütövlükdə ilin 365 günü əhatə edir. Qədim və orta əsr insanı hər bir günün xarakterini asanlıqla müəyyən edir və günün əhvalına uyğun da işlərini proqnozlaşdırırdı. Bu işdə insanlara əcdadlarından qalmış empirik biliklər, fenoloji müşahidələr və özlərinin əldə etdikləri praktik nəticələr kömək edirdi. Qədim və orta əsr insanını qənaət və müşahidələri heç vaxt aldatmamışdır. İnsanlar Ayın təzələnməsi zamanı onun vəziyyətinə görə havanın həmin ay quraq və yağıntılı keçəcəyini əvvəlcədən proqnozlaşdırırdılar. Müşahidələr göstərib ki, Ay təzə doğarkən nazik, qövsvari şəkildə olur. Həmin vaxt Ayın duruşu yerə baxırdısa, bu hal havaların yağışlı keçəcəyindən xəbər verirdi. Əgər Ayın duruşu üfüqə tərəf olardısa, həmin ay quraqlıq keçəcəyi gözlənilirdi.

Bədirlənmiş Ayın ətrafı sarımtıl rəngdə olardısa, həmin ay çox yağmurlu, ağ rəngdə olardısa quraqlıq olacağı proqnozlaşdırılırdı. İnsanlarda belə bir qənaət var idi ki, Ay on dörd günlük olanda zəlzələ, vulkan və s. təhlükəli təbiət hadisələri baş verirdi. Həmin ərəfədə havaların yağışlı keçəcəyi də gözlənilirdi. Ata-babalarımız üfüqün vəziyyəti əsasında günün necə keçəcəyini irəlicədən təyin edirdilər. Günəş sübh erkən doğarkən üfüq həddindən artıq qızarmış olardısa, həmin gün havanın dəyişəcəyi, külək əsəcəyi, bu əlamət qış fəslində müşahidə edilsəydi, yağış və qar yağacağı gözlənilirdi. Xalq bu empirik bilik və müşahidələrini yaddaşlarda yazılacaq bir formada cilalamışdır.

Səhərin qızartısı axşama vaydır,
Axşamın qızartısı səhərə yay.

və ya

Gecə yağar, gündüz açar –
İlin xoşluğundan

Gündüz yağar, gecə açar –
İlin boşluğundan.

İlin fəsillərində üfüqün rəngi-ruhu, gecə və gündüz zamanı havaların necə keçməsi ilin ümumi vəziyyəti barədə əvvəlcədən fikir söyləməyə imkan verirdi. Qış fəslində gecələr ayaz, gündüzlər dumanlı keçirsə, bu qışın sərt olacağının işarəsi idi. Qışda gündüzlərin ayaz, gecələrin buludlu keçməsi qışın xoş keçəcəyindən xəbər verir. Xalqın bu qənaəti poetikləşmiş formada indi də el-obada yaşamaqdadır:

Gecə ayaz, gündüz duman, ilin kürüdür kürü,
Gündüz ayaz, gecə duman, ilin gülüdür gülü.

Xalq meteorologiyasında duman, şeh məhsuldarlıq nişanəsi sayılıb. Yazağzı və payızda əkin-səpin vaxtı torpağa dumanın çökməsi, dənin tez cücərməsinə səbəb olardı. Bununla bağlı xalqın daşlaşmış bir ifadəsi də var: «Yaz dumanı bar gətirər, qış dumanı qar». Ululariımız dumanın istiqaməti, buludun rəngi ilə də havada nə kimi dəyişikliklərin baş verəcəyini qabaqcadan xəbər verirdilər. Əcdadlarımızın qənaətinə görə, qərb istiqamətindən qara buludun gəlməsi yaz-yay mövsümündə yağışın, qışda isə qarın yağacağının nişanəsidir.

Kainat (kosmos) və planetin (yer) sirlərinə əl aparmış insan, zamanı müəyyən etdikdən sonra, ümumən, təbiət qanunları ilə hesablaşdı. İnsanoğlu ömür-gününü kainat qanunlarına uyğun kodlaşdırdı.

Ağır, sərt qışı yola salan insan yazın gəlişinə, havaların istiləşməsinə, əkin-biçinə, ümumən, həyatın canlanacağına sevinir. Məşəqqətli qışı çətinliklə arxada qoymuş insan Novruz sistemi əsasında yazın ilk günündən həyat və məişətini qurur. Qeyd etdik ki, Novruz sistemdir, o, bütün ili əhatə edir. Bu fikri bir daha vurğulamağımız təsadüfi deyil. Məlumdur ki, Novruzun təntənəli

günləri kiçik və böyük çillə, onlardan sonra gələn Boz aydan sonra qeyd olunur. Boz ay da ilaxır çərşənbələri ilə daha çox yadda qalır. Novruz ardıcıl, fasiləsiz və spiralvari bir sistemə malikdir. Novruzun yaz təntənəsindən əvvəl qışın mərhələləri gəlir. Elə bu səbəbdən Novruz sisteminə böyük çillədən başlamaq məsləhətdir. Böyük çillə qışın birinci ayını – dekabrın 22-dən fevralın 1-dək olan müddəti əhatə edir.

İlkin olaraq çillə sözünə diqqət yetirək. Bu sözü farsların çehl sözü ilə bağlayırlar. İnandırıcı görünür. Çehl – qırx rəqəmi ilə əlaqəlidir. Günü bu gün də insanların işi nəhs gətirəndə, müşkülə düşəndə deyirlər ki, «işim qırxa düşüb». Qırx günün özü elə çillədir. İnsanlar çıxılmazlıqlardan, müşküllərdən xilas olmaq üçün «çillə kəsirlər». İnsanlar soyuğu, şaxtanı və qışın digər çətinliklərini elə bu səbəbdən «çillə» adlandırmışlar. Bu məşəqqətlərdən xilas olmağı çillədən çıxmaqla müqayisə edirdilər. Bu çətinliklərə insanlar irəlicədən hazırlaşırdılar. Böyük çillə adından göründüyü kimi, müddəti uzun olsa da, kiçik çillə ilə müqayisədə nisbətən mülayim keçir.

Kiçik çillənin ağrı-acısını, məşəqqətini əvvəlcədən duyan insanlar bu çətinliklərə irəlicədən maddi-mənəvi cəhətdən hazır olmağa çalışırlar. İnsanlar qışın şaxta və soyuğuna mənəvi-psixoloji cəhətdən hazır olduqlarını keçirdikləri ayin və mərasimlərdə əyaniləşdirmişlər. Qışın birinci dövrünü yaşayan insanlar qabaqcadan gələn çətinliklərə mənəvi və fiziki cəhətdən duruş gətirmək üçün səməni halvası bişirməyə hazırlıq görürdülər. Böyük çillə başlanan gündən səməni göyərdilir. Çillənin başlanğıcında təqribən bir santimetr hündürlüyündə göyərdilmiş səmənini taxta çanaq, yaxud tabaqda döyüb suyunu sıxırlar. Həmin suda yeddi evdən alınmış buğda unundan adi xəmirə nisbətən bir qədər sıyıq xəmir yoğrulur. Halva bişirməyə başlayarkən onu qarışdırmaq üçün uzun dəstəkli taxta ərsindən istifadə edilir ki, buna el arasında «palm» da deyilir. Halva bişənə yaxın onun içinə badam, bu olmadıqda isə fındıq salınır. Elə əsl mərasim də bu zamandan

başlanır. Qadınlar dəstə ilə səməni qazanının başına dolanıb yallı gedir və səs-səsə verib, bu nəğməni oxuyurlar:

Səməni, saxla məni,
İldə göyərdərəm səni.
Səməniyə saldım badam,
Qoymurlar bir barmaq dadam.
Səməni, bezana gəlmişəm,
Uzana-uzana gəlmişəm.

Səməni hasilə gəldikdən sonra daha çox bədənə istilik gətirən, bununla da, qışdan, soyuqdan qorxmamaq təsəvvürü yaradan, əsasən, aşağıda adları qeyd olunan döyülmüş ədviyyatları ələkdən keçirib ona qatırlar: qara istiot, darçın, mixək, razyana, ceviz, quluncan, badyan, qulsakəmər, zəncəfil, qoz ləpəsi, hil. Bundan sonra halvanı doşabda qarışdırır və qoğal, yaxud kündə formasından yumurlayıb evlərə paylayırlar. Çalışırlar ki, hər bir payda halvaya salınmış badamdan olsun. Çünki «xalq buna evə xeyir-bərəkət gətirən amil kimi baxır» (42, 83-84).

Səməni becərmək və ondan istifadə zahiri xarakterli ayin deyildir. Səməni halvasından qışın qurtardığı dövrdə Novruz bayramında da istifadə edirlər. Bu təsadüfi deyil. Səməninin tibbi-bioloji yardımları barədə bir qədər irəlidə söhbət açdığımızdan yuxarıdakı məlumatla kifayətlənmək qənaətindəyik.

Böyük çillənin ardınca kiçik çillə gəlir. Kiçik çillə qışın oğlan çağına təsadüf edir. Fevralın əvvəlindən başlayan, 20 gün davam edən kiçik çillə olduqca soyuq, şaxtalı və sərt keçir. Kiçik çillənin birinci on günlüyü Xıdır Nəbi adlanır. Xalq, çox haqlı yerə, deyib: «Xıdır girdi, qış girdi. Xıdır çıxdı, qış çıxdı». Həmin vaxt qış yarı olur. Elə qışın yarı olması münasibəti ilə Xıdır bayramı keçirilir. Fevral ayının birinci ongünlüyündə axşamüstü, qurd qarışan vaxtı el-obada, kəndlərdə uşaqlar, cavanlar bir yerə yığışıb, xor halında «Xıdır» havasını oxuyardılar.

Azərbaycanın bəzi regionlarında Xıdır Nəbi kiçik çillə çıxanda qeyd olunur. Akademik A.Nəbiyev «Mərasimlər, adətlər, alqışlar» kitabında yazır: «Xıdır Nəbi mərasimi kiçik çillənin çıxması münasibəti ilə keçirilən yaz mərasimlərindəndir. Qədim əkinçilik görüşləri ilə bağlı yaranıb. Üç gündən ibarət hesab edilən Xıdır Nəbi bayramının birinci günü torpaq tərif olunardı. Torpağın üstündə od qalanardı, ocaq yandırılardı ki, torpağın nəfəsi qızsın. Bağlar təmizlənər, çör-çöpü, xəzəli yığılıb yandırılardı. Bayramın ikinci günü hər öküzün adına üç duzsuz kömbə bişirib, öküzlərin qarnının altından diyirləyər və oxuyardılar:

Xıdır Nəbi, Xıdır İlyas,
Bitdi çiçək, oldu yaz.

Bayramın üçüncü günü cütçü və əkinçi şəxsində torpağı becərən, şum şumlayan, əkin əkən əməkçilər tərif olunardı. Boz atın üstündə gələcək Xıdır Nəbinin əlində od olacağı güman edilərdi. Onun torpağı isidən odla yanaşı, günəş və su, adamlara sağlamlıq gətirəcəyi güman olunurdu. Mərasimdə əkinçi, cütçü və saya nəğmələri oxunar. Xıdır Nəbiyə xalq söz qoşardı. Bayramın hər üç günündə cavanlar əkin yerlərindən keçib, Xıdır Nəbini axtarmağa gedərdi. Onlara «Xıdırçı» deyərmişlər. «Xıdırçılar» Xıdırın dalınca işıqlanmamışdan, əllərində şam gedərdilər (19, 17-18).

Yuxarıdakı qeydlərdə Novruz simvolları açıq-aydın görünür. Xıdır Nəbi birbaşa Novruz mərasimi deyil, ancaq o, Novruz sisteminin tərkib hissəsidir.

Xıdırın Novruz bayramı olmadığı aydındır. Amma mərasimlərdə çox yaxınlıq duyulur. Hər iki bayramın keçirilmə prosedurasında, oxunan nəğmələrin məna və məzmununda, musiqi və ritmində çox oxşarlıq vardır. Xıdırda oxunur:

Xanım, ayağa dursana,
Yük dibinə varsana,

Boş qabı doldursana,
Xıdırı yola salsana.

və ya

Çatma, çatma çatmaya,
Çatma yerə batmaya.
Xıdır payın kəsənin,
Ayağı yerə çatmaya,
Gecə evində yatmaya.

Novruz şənliklərində «Kosa-kosa» xalq tamaşasında da eyni motiv və melodiya qorunub saxlanılır:

A kos-kosa gəlsənə,
Gəlib salam versənə,
Çömçəni doldursana,
Kosanı yola salsana.

və ya

Verənə oğul versin,
Verməyənə qız versin,
Xanım dursun ayağa,
Kosanın payın versin.

Xızır, yazın gəlişi ilə bağlı mifoloji obrazdır (M.Seyidov). Bəzi tədqiqatçılar Xızır-Xıdırın ərəb mifologiyası ilə bağlı olduğuna inanırlar. Xıdır-Xızır sırf türk düşüncəsinin məhsuludur. Bu fikri təsdiqləyə

hazırlanmış unu, yaxud xəşili, halvanı evdə yükün altına qoyardılar. İnsanlarda belə bir inam var idi ki, gecə Xızır-Xıdır gəlib una əl vurub əfsunlayacaqdır.

Xıdır əlindən, nəfəsindən gələn il barlı-bərəkətli olarmış.

Xızır-Xıdır sözünün mənşəcə də türk sözü olması heç bir şübhə doğurmur. Xız (qız, qızmaq) türk dillərində atəş, od qızmaq, qızışmaq mənalarındadır.

Xızır saf, müqəddəs ilahi od, istilik anlamındadır (15, 106-107).

Xalqın Xızırı sevib əzizlədiyi mahnılarda bu anlam qorunub saxlanılıb:

Xızır, Xızır, xız gətir,
Var dərədən od gətir.

Xıdır bütün gücü, qüvvəti ilə çalışır ki, yaza qovuşsun. Çünki onun özü də qışın ağırlığını, sərtliyini görübdür. «Palçığa batdı gəldi, Xan Xıdır atdı gəldi». İnsanlar Xıdıra hay verirlər, pay verirlər ki, Xıdır xilas olsun. Elə bu inamla da insanlar Xıdıra (Xızıra) çıraq qoyurlar.

«İnsanlaşmış Xızır» (M.Seyidov) insan arzularının mifik obrazıdır. Qənaətimizcə, bu mifik obrazı yaradanlar iki ən mühüm məramda bulunublar. Qışın ömrünün gödəkliyinə, qarşıdan yazın gəlməsinə sevinmək və dirilik suyuna – əbədi ömrə yiyələnmək. Əfsanəyə görə, dirilik suyunun yerini yalnız Xızır bilir və müqəddəsliyə yalnız o sahibdir. Dirilik suyu da Novruz sistemində mövcuddur. Belə ki, gerçək dirilik suyu da təbiətdə, onun komponentləri olan bitkidə, suda və s. ünsürlərdədir. Mifik Xıdırda həyat ünsürləri – od, su güc, qüvvət – ümumən, yazla bağlı əlamətlər birləşib.

Kiçik çillə qurtaran kimi Boz ay başlanır. Boz ay düz bir ay, fevralın 20-dən martın 20-dək davam edir. Ayın, Boz ay adlanması bu ayda günlərin tutqun, buludlu, yağış və küləkli, ümumən,

havaların dəyişkən keçməsindən irəli gəlir. Xalq Boz ayın hal-hərəkətini, xislətini çox həssaslıqla duyub dəyərləndirmişdir. Xalq bu aya özəl münasibətini dəqiqliklə bildirmişdir: «Bozara-bozara girdiyi kimi, bozara-bozara da çıxacaq». Boz ay Novruza hazırlıq mərhələsidir. Bu ay 4 həftəyə – çillə beçəyə bölünür. Kainat və planetdə əsas dəyişikliklər və astronomik təzələnmə məhz bu 4 həftədə gedir və ciddi yeniləşmələr əyani formada hiss olunur. İnama əsasən, bu həftələrin – son dörd ilaxır və kiçik çillənin üç çərşənbəsində təbiət və cəmiyyətdə əsaslı canlanma, oyanma prosesi gedir. Bu yeddi çərşənbənin kiçik çillədəki üçünə el-obada «oğru üskü», Boz aydakı 4-lüyə «doğru üskü» deyilir. Kiçik çillədəki üç çərşənbədə də qışa məğlub olmamaq, yaza hazırlaşmaq motivi üstünlük təşkil edir. Kiçik çillədəki çərşənbələrdə (oğru üsküdə) adamlar od-ocaq çatır, onun üstündən hoppanır. İnsanlar hazırladıqları lopanı qaladıqları ocaqda alışdırıb əllərində tutaraq ev-eşiyi üç dəfə dövrə vururdular. Onlar bu inamda idilər ki, bununla ev-eşiyi ovsunlayır, şər qüvvələri qovurdular.

Kiçik çilləni yola salan insanlar xeyli rahatlaşmış olurlar.

Boz ay 4 çərşənbədən ibarətdir. Bu məqamda bir daha Novruzun 4-lük dəyərlərindən başqa bir səpkidə danışmaq gərəkli olardı. Bəzi dördlükləri sadalayaq:

Dörd fəsil var: yaz, yay, payız, qış.

Dörd ilaxır çərşənbə qeyd olunur. Bu ilaxır çərşənbələr 4 əsas həyat ünsürünü (od, su, yel və torpaq) təmsil edir.

Dörd mühit mövcuddur: isti, soyuqluq, quruluq və nəmlik.

Şərqdə yaşamış xalqlar eyni zaman kəsiyində eyni ünsürləri (od, dəmir, su, torpaq və ağac) müqəddəs bilmişlər. Uzaq Şərqdə məskunlaşmış, şamanizm əqidəsinə inam gətirmiş xalqlar beşliyi – od, dəmir, su, torpaq və ağacı həyatın ilkin yaradıcıları saymışlar. Onlarla qonşu olmuş Çin xalqları da eynilə şamanlar kimi beş ünsürü – su, od, ağac, metal və torpağı dünyanı yaratmış ünsürlər kimi qəbul etmişlər. A.Şükürov «Mifologiya» (5-ci kitab) kitabında

«Drevne kitayskaya filosofiya» (Moskva, 1994) monoqrafiyasına istinadən yazır: «Şu Tszin» kitabının «Xun fan» («Böyük plan») fəslində deyilir: «Birinci başlanğıc-su, ikinci-od, üçüncü-ağac, dördüncü metal və s. beşinci torpaqdır. (Daimi təbiət) su yaş olub, üzüaşağı axmalıdır; od yanmalı və yuxarı yüksəlməlidir; ağac əyilməli və düzəlməlidir; metal-xarici təsirə tabe olmalı və dəyişməlidir (təbiət); torpaq o vaxt özünü təzahür etdirir ki, əkilir və məhsul verir. Yaş olub, üzüaşağı axan duzu olanı yaradır; yanan və yuxarı qalxan acı olanı yaradır, əyilən və düzgələn isə turş olanı yaradır; tabe olan və dəyişilən isə kəskin olanı yaradır; əkini qəbul edib, məhsul verən isə şirin olanı yaradır (29, 14).

Qədim şumerlərdə isə dörd allah daha çox hörmət-izzətə malik idi. Bunun da səbəbi bu allahların həyatı yaradan ünsürləri təmsil etmələri idi. Şumerlərdə baş və ikinci dərəcəli allah mövcud idi. Bunların içərisində 4 allah daha çox nüfuz sahibi idi. Bunlar səma allahı Anu, hava allahı Enlil, su allahı Enki və böyük allah Ningirsu idi. Bu dördlük bütün allahlara rəhbərlik edirdi.

Anu şumer dilində göy deməkdir. Allahlar onun övladları idi. Enlil adı bir qədər mübahisəlidir. Belə ehtimal olunur ki, Enlil Şumercə lil (yel, nəfəs, kölgə, ruh) sözündən başlanğıc tapıb. Tarixi məxəzlərdə Enlil «daşqın padşahı», «yel bağı», «ölkə padşahı» rəmzlərində işlədilib. Şumerlərin bu hallarla bağlı belə bir bənzətmələri vardı:

«Anu – əlçatmaz və uzaqdır. Enlil – qüdrətli və əzəmətlidir. Enki – müdrik və müqəddəsdir».

Yaxın və uzaq xalqların mifik təfəkkürlərindəki oxşarlıqlar onların dünyabaxışlarının mərkəzində duran «predmet və nəsnələrin» eyniliyindən xəbər verir. Demək mümkündür ki, dünya ağacının çox dərinlərə işləmiş köklərində açıq-aşkar sezilən eynilik, oxşarlıq vardır. Dünya xalqlarının əksəriyyətində həyat prosesləri əsasən eyni olduğundan gerçəkliyin dərki yolları da bu və ya digər dərəcə də eyni olmuşdur.

Bu dördlüklər dualizm fəlsəfəsinin tərkib hissəsidir. Bu və ya digər dördlüklərsiz həyatın inkişafını təsəvvür etmək mümkün deyildir.

İndi isə Boz ayın komponentinə daxil olan ilaxır dörd çərşənbəyə qayıdaq. Bir çox tədqiqatçılar Novruzun yaranmasını daha çox bu dörd ünsürlə əlaqələndirmişlər.

«Novruz ulu əcdadlarımızın əski bayramlarından olmuş, insana həyat verən 4 ünsürün – suyun, odun, yelin (havanın), torpağın isinməsi, «dirilməsi» istəyi ilə bağlı yaranmışdır» (23, 4).

Bu dörd ünsürdən hər biri ayrılıqda həyat gerçəkliyi, birlikdə isə həyatın inkişaf impulsudur. Bu dörd ünsür kainatın və planetin ardıcıl, fasiləsiz və əbədi inkişafını tənzimləyir. Elə bu zəruri səbəbdən hər bir həyat ünsürünün (od, su, hava və torpaq) ayrıca və bütövlükdə təntənəsini qeyd etmək zəruri idi. Bu zəruri dördlüyün birlikdə yekun təntənəsi də həyati zərurətin diqtəsi idi. Belə ki, bu həyatı gerçəkliklərin (od, su, hava və torpaq) hər biri ayrı-ayrılıqda müxtəlif çərşənbələrdə dirçəlir, canlanırlar.

İnsanlar müşahidələrində yanılmamışdılar. Belə ki, bu dörd çərşənbə dövründə ardıcıl olaraq adıçəkilən həyat ünsürlərində (su, od, torpaq, yel) canlanma və «dirilmə» başlayır.

Xalqın təfəkküründə «İlaxır çərşənbələr» və yaxud «cəmlələr» adı ilə tanınan bu çərşənbələrin hər biri təbiətin həyat ünsürləri sayılan su, od, torpaq və küləyin mahiyyətinə uyğun mərasimlərlə qeyd olunur (23. 4).

Novruz sisteminin mahiyyətində qışa qarşı dirəniş, yazın gəlişini alqışlamaq, kainat və təbiət qanunlarına ciddi əməl etmək kimi nəsnələr vardır.

İlaxır çərşənbələr Novruz komponenti olsa da, bu çərşənbələrin özlüyündə bir bitkinlik vardır. Bu dörd ünsürsüz, ümumən, kainat və planeti təsəvvür etmək mümkün deyildir. Novruz sistemi, əslində, elə bu dörd ünsür üzərində qurulubdur. Bu dördlük (od, su, torpaq və külək) dualist və dialektik inkişafın elementləridir.

Boz ayın birinci çərşənbəsi su çərşənbəsidir. Elə bu səbəbdəndir ki, su çərşənbəsinə «əzəl çərşənbə» də deyilir. İlkin oyanışın səbəbkarı olan su çərşənbəsi xalq tərəfindən çox sevilir. Xalq əzəl sevgisini bu çərşənbəyə verdiyi dürlü adlarla izhar etmişdir: «Əvvəl çərşənbə», «Gözəl çərşənbə», «Sular çərşənbəsi», «Gül çərşənbə» və s.

Xalqın müşahidəsinə görə, təbiətdə ilkin oyanış və hərarət sudan başlayır.

Suyun bir çox dünya xalqlarında, o cümlədən türklərdə müqəddəs sayılmasını da həyatın sudan yaranmasında axtarmaq lazımdır. Bütün dünyada məşhur olan «Su həyatdır» qənaətinin analoqu yoxdur. İnsanoğlu yarandığı gündən, çox haqlı yerə, suyun hər şey olduğunu düşünüb və qəbul edib.

Dünyanın ilkin övladları olan şumerlərin, düşüncəsinə görə, hər şeydən əvvəl su (dəniz) mövcud olmuşdur. Onların inamınca, kosmik dağlar dənizdən yaranıb. Kosmik dağlarda səma və yer bir yerdə qərar tutmuşdur. Hava allahı Enlil onların törəməsidir. Enlil də öz missiyasını yerinə yetirdi – birləşmiş yerlə göyü bir-birindən ayırdı.

Şumer mifinə görə, digər allahlar su (okean) allahı Hammudan törəmişlər. Hammu isə ilkin başlanğıcda – Anu və Kini yaratmışdır. Həyatın sudan yarandığı qənaətinə gələn ilk bəşər övladlarından biri də türklər olmuşlar. İnsanın sudan yarandığı haqqında məşhur Altay əfsanəsində deyilir: «Dünyada yalnız Qara xan və sular vardı. O, təklikdən darıxdı, bir insan yaratdı, İnsana qanad verdi ki, üzsün. İnsan uçmaq istədi. Qara xan onun uçmaq qüdrətini və qanadlarını aldı. İnsanın yaşaya bilməsi üçün torpaq lazım idi. Qara xan bir ovuc ulduz qoparıb suya səpdi, yer yarandı. Ada şəklində olan bu torpaq üzərində 9 budaqlı şam ağacı, hər budağın altında bir adam yaratdı» (32, 11).

Digər bir türk mifində deyilir:

Əvvəlcə yalnız Böyük Tanrı və su vardı. Tanrı suya bir bəyaz qu quşu göndərdi. Ona torpaq gətirməyi əmr etdi. Qu quşu suya baş

vurdu. Dəryanın dərinliklərindən torpaq götürdü. Suyun üzərinə çıxandan sonra ağzındakı torpağı üfürdü. Üfürdüyü torpaq toz halında suya töküldü. Bu tozlar böyüyüb yayıldı, torpaq yarandı. Yaranmış torpaqlar düzənlik idi (32, 60).

Ümumən, türklərdə suya hər şeyin yaradıcısı kimi baxmışlar. Qırğız mifik təfəkkürünə görə də, yer sudan yaranmışdır. Əfsanəyə görə, dənizdə nəslini artırmaq üçün yumurtasını qoymağa yer tapmayan quş qanadlarından lələklərini qoparıb dərya üstə qoyur. Sular qoynundakı yuvadan torpaq yaranır. Digər bir qırğız mifində də insanın yaranışı birbaşa su ilə əlaqələndirilir. Qırğız xaqanı Saqanın qızı 39 qızla göl kənarına gedir. Qızların hamısı əllərini suya salırlar. Qızlar bu sudan hamilə qalırlar. Bunu görən xaqan qızları meşəyə (bəzi mənbələrdə dağa) göndərir. Qızlar orada doğurlar. Bu uşaqlar qırğızların əcdadları olublar (32, 14).

Türklərdə çayların çoxu müqəddəs sayılıb. Altay türklərinin inamına görə, tanrılar Xatın çayının mənsəbində yaşayırlar. Qıpçaqlar – İrtış, yeniseylilər Tom və Kam çaylarını müqəddəs sayıblar. İssık gölün uzaq ətrafında yaşayanlar onu müqəddəs biliblər. Qırğızlar hər il bu gölə qurbanlar verirdilər. Çinlilər İssık gölə İsti dəniz, monqollar Dəmirli göl deyirdilər (32, 29).

Türk mifik təfəkkürünün yaratdığı belə nümunələrin sayını bir qədər də artırmaq olar. Bu əfsanələrin nüvəsində, türk dünya-görüşünün mərkəzində su, yaradıcı bir qüvvə kimi durubdur.

Qədim türklərin suyu müqəddəs tutmalarının başlıca səbəblərindən biri suyun (gölün) göyün(səma) rəngində olması və göy üzünün suda əks olunmasıdır. «Göl», əsasən, göy rəngdə olan səmanı əks etdirdiyinə görə göy təsiri bağışlayır. Bəllidir ki, gölün göy rəngə çalması, həm də suyun dərinliyi və dibində bitən bitkilərlə əlaqədardır. Ona görə də əski türkdilli insan gölə göy+ su (göy+ öl) demişdir (18, 44).

Göy sözünün səmaya, fəzaya məxsus olması su, çay və göl adlarında özünü saxlamışdır.

Göygöl, Göycə gölü və s. Bu adların mənalarında göyə məxsusluq, səmaya aidlik qorunub saxlanıb. Göygöl, Göycə gölü göyə xas su deməkdir. «Göy» həm də qədim türklərdə Tanrını ifadə etmişdir (18, 45).

Türk əməl və fikir tarixindən incəliklə faydalanmış Zərdüşt suya yaradan, yaradılış ünsürü kimi baxmışdır. A.E.Bertels yazırdı ki, «Avesta» anlayışına görə, insan və təbiətin bir-birinə bənzəyişinin səbəbi ondan ibarətdir ki, onların hər ikisi bir damcı sudan yaranmışdır (75, 664).

Zərdüşt suya həm də biokimyəvi nöqteyi-nəzərdən yanaşmışdır. Onun gəldiyi qənaətə görə, insanın içdiyi su üç hissəyə bölünür: zərif, orta və qaba keyfiyyətli. Zərif keyfiyyətli hissə insanın beyninə-iliyə daxil olur, orta keyfiyyətli hissə nitqə çevrilir, qaba hissədə xaric olunur (75, 21).

Göy, əski türklərdə müqəddəs sayılmışdır. Türklər qurda göy börü deməkdə «göy saflığı», «göy təmizliyi» arayıb-axtarmışlar.

Azərbaycan mifik təfəkkürünün, o cümlədən təbiət kultunun tanınmış araşdırıcılarından olan M.Seyidov Öləngin su, yaşıllıq ilahəsi olduğu, Xızırdan əvvəl bu missiyanı daşıdığı qənaətindədir (18, 62).

Əski inanca görə, su çərşənbəsində astronomik yeniləşmə suyu da təzələyir. Türk mifik düşüncəsində su kultu əsas yer tutubdur.

Əcdadlarımızda belə bir fəlsəfi inam olub ki, Həvva ana su, Adəm ata od başlanğıcıdır. Elçin Aslanov yazır: « Onlar od dedikdə Adəmi, su dedikdə Həvvanı-qadın düşünürmüşlər. Təsadüfi deyil ki, bütövlükdə su varlığına həsr edilən birinci çərşənbə yalnız anaların ərli-övladlı qadınların bayramı sayılmış, həmin gün onlar bulaqbaşı və su dəyirmanı ətrafına toplaşaraq, xüsusi mərasimlər icra etmişlər. İkinci od çərşənbəsi isə, əksinə kişilərin sərəncamına verilmişdir. Adəm və Həvva övladlarının, kişili-arvadlı birlikdə keçirdikləri digər çərşənbə bayramlarında cavanların yelləncəklərə qalxıb oyan – buyana havalanması, yaxud müxtəlif hərəkətlərlə torpaq-qadında nəfsani duyğular oyadıb onun, necə

deyərlər, «ana bətnini cuşə gətirmək» cəhdləri, sözsüz, ana torpaq və insanlarda artıma həvəs oyatmaq, nəsilvermə ilə bağlı xüsusiyyətlər aşılamaq məqsədi güdürdü « (53).

Novruza qədərki dörd həftədə icra edilən dörd çərşənbədə Günəş Balıqlar bürcünə daxil olur. Balıqlar bürcünün nişanəsi sudur. Məlumdur ki, martın 21-də Günəş Balıqlar bürcündən Qoç bürcünə keçir. Həmin gün od qalanır, tonqallar çatılır. «Əgər Novruzdan öncəki bütün çərşənbə tədbirləri su nişanı altında qeyd olunurdusa, Novruz günü büsbütün od varlığı ilə əlaqələndirilirdi» (53).

Su çərşənbəsində çeşmələrin gözü təmizlənir, arxlar səliqə-sahmana salınır.

Su çərşənbəsinin özülündə su inancları dayanır. Elə bunun nəticəsidir ki, xalqın inamının nüvəsində və keçirdiyi mərasimlərin motivində su durur. Su çərşənbəsində günəş çıxmamışdan su üstünə gedirlər, təzələnmiş suda əl-üz yuyurlar, su üstündən hoppanırlar, yaralara su səpirlər və s. su ilə əlaqədar işlər görülərdi. İnama görə, təzələnmiş su dərdlərin dərmanı sayılıb. Həmin vaxt təzələnmiş su üstündən keçənlər ilboyu xəstələnməz, dərd-bəladan uzaq olarlar. Xəstəliyi olanlara, səsi batanlara, nitqi qüsurlulara bu sudan içirdərdilər.

İnama görə, suya etiqadı olanların xəstəliklərini, günahlarını ildə bir dəfə su çərşənbəsi mərasimində təzə su yuyub aparardı. İnsanlar bu mərasimdə günah işlətməyəcəklərinə, adamlara yalnız yaxşılıq edəcəklərinə and içirdilər. Bu mərasim adamların suyun başına dövrə vurub nəğmə oxumaları ilə başa çatır:

Sel çapar, su çapar,
Bir günah işlətdim,
Gəl onu tut apar,
Sel çapar, su çapar,
Gəl apar, gəl apar.

Su çərşənbəsi ilə bağlı çeşidli mərasimlər, çoxsaylı inanclar mövcuddur. Bundan başqa, su çərşənbəsi ilə bağlı oyunlar, nəğmələr, fallar, vəsf-hallar, türkəçarələr bu gün də yaddaşlarda yaşamaqdadır. Bunlardan bəzilərinə diqqət yetirək. İnanclara nəzər salaq:

Süfrəyə su dağılması aydınlıqdır.
Su içən adamı qəfil vurmazlar.
Odu su ilə söndürmək günahdır.
Qaş qaralanda isti suyu torpağa tökməzlər.
Yuxuda su görmək aydınlıqdır.
Su dolu qabla qabağına çıxsalar, işin avand olar.

İnanclar el-obada geniş yayılıb. Bugünkü insan üçün, ola bilsin ki, inanclar primitiv təsir bağışlayar, inandırıcı görünməyə bilər. Əslində, inanclar insanlarda möhkəm inam yaradıb, onlarda psixoloji-assosiativ durumu möhkəmləndiribdir. Fal və türkəçarələr də bu mərama xidmət edib. Su ilə bağlı türkəçarələrdən bir neçəsini burada nümunə gətirmək istərdik.

Su çərşənbəsində qorxan adama qorxduğu yerdə su içirdərdilər. Su çərşənbəsində qorxan adamın başından üç dəfə sağdan, üç dəfə soldan su atsan, qorxusu keçər.

Ürəyi keçən adamın üzünə su çiləsən, özünə gələr.

Türkəçarələr inanclardan fərqli olaraq gerçəkliyə əsaslanır. Türkəçarələr uzun illərin təcrübəsinə söykənir. Su ilə müalicə zaman-zaman özünü əyani surətdə doğrultmuşdur. Belə ki, əyani şəkildə sudan müalicə vasitəsi kimi istifadə etmək praktik cəhətdən olduqca asan olub.

Lap qədimlərdən su ilə fala baxmalar da insanlar arasında geniş yayılmışdır. Bu ayin də insanların «su həyatdır» – düşüncəsindən qaynaqlanıb. Fala baxmaların da kökündə suyun paklığı, suyun müqəddəsliyi dayanıbdır. Nümunə üçün bir su falına diqqət yetirək.

Su çərşənbəsində sübh tezdən gedib axar sudan (bulaqdan, çaydan və b.) «lal-dinməz» su gətirirlər. Suyu evə gətirənə qədər heç kimlə kəlmə kəsilməzdi. Suyu bir neçə qaba töküb saxlayırlar. Axşam düşəndə qızlar yığışırlar. Hər kəs öz bəxtinə üzüyünü saçına sürtüb suya atır. Üzük qabın (piyalə) divarına toxunub cingildəyir. Üzük neçə dəfə cingildəsə, qız həmin sayda ildən sonra gəlin köçəcək.

Suyun həyat olduğunu dərk etmiş qədim insan, çox doğru yerə, təbiətin oyanışının, həyatın dirçəlişinin sudan başlandığı qənaətində idi. Su çərşənbəsindən sonra artıq sular donmazdı. Su donmursa, demək, hava isinir, su donmursa, torpağa da artıq hərarət gəlməyə başlayır.

İkinci çərşənbə od çərşənbəsidir. Artıq havalar nisbətən isinməyə, təbiət oyanmağa başlayır. El-obada bu çərşənbəyə «İkinci çərşənbə», «Atəş çərşənbəsi», «Üskü çərşənbə» və s. deyilir. «Od çərşənbəsi» qədim mifik təfəkkür ilə sıx bağlıdır. Odun gerçək həyat ünsürü seçilməsi həm də Günəşlə əlaqədardır. Odun (ocağın) insanın həyatını, cəmiyyətin şəklini dəyişdirdiyi artıq öz təsdiqini tapıb. Əminliklə deyə bilərik ki, odun (ocağın) əldə edilməsi qədim insanı mədəniləşdirdi. Başqa sözlə, insanoğlunun odu əldə etməsi ilə bəşər sivilizasiyasında köklü dəyişiklik baş vermişdir.Od-ocaq sayəsində qədim insan mağaraya yiyələndi, bişmiş qidaya və dəmir istehsalına nail oldu. Şaman təfəkkürünə görə, beş müqəddəs ünsür var: od, dəmir, su, torpaq və ağac. Yuxarıda dedik ki, dəmirin araya-ərsəyə gəlməsi odla əlaqədardır. Od yoxsa, dəmir dünəndən yoxdur. Dəmirin üstünlüklərini əyani şəkildə görən insan onu da od kimi müqəddəs tutmuşdur.

İnsanların oda inamı, odu müqəddəs sayması Günəş müqəddəsliyindən – işığından, istisindən irəli gəlirdi. İnsan övladı başının üstündəki göylə (səma) ayağının altındakı yeri (torpaq) daim müqayisə etmişdir. İnsanoğlu göydə gördüyünün, hiss edib duyduğunu yerdə arayıb-axtarıb. Bu məntiqi analogiyada da insanoğlu səhv etməmişdir. Günəşin yerdəki alternativi od oldu. Tədqiqatçıların

qənaətinə görə, zərdüştlikdən çox-çox qabaq insanlar təbiətin oyanmasını, canlıların dirilməsini odla (Günəş) bağlamışlar. Günəş istilik mənbəyi, həyat rəmzidir.

Uzaq və soyuq Sibirdə yaşayan türk xalqlarının adət və ənənəsinə görə, od müqəddəs sayılmışdır. Onların inamına görə, oda tüpürmək olmazdı, natəmiz şeylər oddan uzaq saxlanılmalı idi. Sibir türkləri od-ocağa kiçik qurbanlar verərdilər, ocağa süd səpir, körək atırdılar. Ocaq kultu daim qadınların nəzarətində olardı. Məsələn, nanaylarda və altaylarda od anası, eveneklər nənə, giləklərdə od qarısı deyilirdi. Eveneklərdə ev sahibəsi süfrə açılmazdan əvvəl ən ləzzətli bilinən tikələri ocağa atar və deyərdi: «Al ye, tox ol, heyvan ver ki, biz də tox olaq».

Digər qonşu xalqlara nisbətən inkişaf etmiş yakut və buryatlarda ocaq təmsilçisi kişi obrazında ifadə edilibdir (45, 96).

İnancını, inamını gerçək həyat qanunları, təbiət qanunauyğunluqları üzərində formalaşdırmış Zərdüşt pozulmaz, dəyişilməz kainat və təbiət qanunlarını ustalıqla mənimsəmişdir. Zərdüştdən əvvəl onun yaşadığı regionda bu qanunauyğunluqlar mövcud olmuşdur. Qədim türk anlamına görə, odu Ülgen yaradıb. Bu haqda qədim türklər bir-birindən dəyərli miflər araya-ərsəyə gətirmişlər. Odu Ülgenin yaratması barədə olan əfsanədə deyilir: Ülgen göydən biri ağ, digəri qara olan iki daş göndərdi. Quru otları ovcunda əzərək bir daşın üstünə qoydu, o biri daşla vurdu. Yaranan qığılcım odu alışdırdı. İnsan bununla odu əldə etdi. Altay türkləri bu gün də dillərində belə bir deyimi tez-tez işlədirlər: «İsti odu yandıraraq verən atam Ülgen». Bu ifadə Ülgenin od tanrısı olduğunu və müqəddəs sayıldığını bir daha təsdiqləyir.

Yakut türklərinin yaratdıqları mifə görə, odu onlara Ulu Toyon bəxş etmişdir.

Qədim türklərin odun yaranması haqqında başqa bir əfsanəsində deyilir: Göyün 3-cü qatında yaşayan tanrı Kuday insanlara od gətirmək niyyəti ilə Ülgenin (od tanrısı) qızlarının yanına gəlir.

Qızların hüzurunda olanda uzun saqqalını ayaqları altında qoyub yıxılır. Qızlar Kudayın yıxılmağına istehza edirlər. Onların bu münasibətindən Kuday inciyir və deyir: «Bunlar daşın necə kəskin olduğunu bilmədikləri halda mənə gülürlər». Qızlar düşünüb daşları bir-birinə vuraraq odu əldə edirlər. Bəzi Altay türkləri Ülgenə Kuday deyirlər. Qədim türklər yerdəki oda göydəki Günəşin rəmzi kimi baxdıqlarından onu müqəddəs bilmişlər. Elə bu inamın nəticəsidir ki, qədim türklər Günəşə – oda müqəddəs baxmış, Günəşi Tanrı misalında qəbul etmişlər. Orxan – Yeniseydəki daş kitabələrin üzərində Günəş şəkli günü bü gün də açıq-aşkar qalmaqdadır. Sayan dağlarında qayalara Günəş şəklinin həkk olunması ciddi mifik düşüncənin məhsuludur. Qədim türklər belə bir düşüncəyə sahib idilər ki, ilahələr, onqanlar çayların başlanğıcında əyləşirlər. Onlarda belə bir inam hakim idi ki, Sayan dağları dünyanın ən uca dağlarındandır. Çaylar (Orxan –Yenisey) başlanğıcını o dağlardan götürür. Bu dağlar uca olduğundan göylərə yaxındır. Tanrıların da məskəni göylərdir.

Orxon – Yenisey əhalisi yaxın onilliklərə kimi Günəşə inam bəsləmişlər (18, 149-150).

Əski Çin mənbələrinin verdiyi məlumatlar da qədim türk xalqlarının Günəşə inandığını təsdiqləyir. M.Seyidov Bahəddin Ögelə istinadən yazır ki, türklərin bəziləri doğan günəşi ya üç, ya da doqquz dəfə salamlaşarmışlar.

Hunların mifik təfəkküründə günəşin müqəddəsliyi ilə bağlı maraqlı əfsanələr vardır. Hunların inamına görə, Metenin oğlu Günəş və Yerdən doğulubmuş. Elə Günəş və Ay da onu hökmdar təyin etmişdir. Onların inamınca, Günəş və Ay hökmdarlıq verir. Bu inam türk xalqlarında xaqan seçmə vaxtı özünü əyani formada göstərmişdir. Xaqan seçərkən tanınmış şəxslər keçənin üstünə əyləşdirilər, camaat çiyinləri üstündə onu yuxarı qaldırar, həmin şəxsi doqquz dəfə Günəşin ətrafına çevirərmişlər. Türklər inanırmışlar ki, xaqanları Göy və Yer qoruyub saxlayırmış. Çünki xaqanların taleyini, bəxtini Günəş və Ay (Tanrı) yazırmış. Elə bu

düşüncənin nəticəsidir ki, hunlar Metenin oğlunu Yerlə Göyün doğduğuna inanırdılar.

Bu tendensiyanın tədqiqi üçün E.Aslanovun araşdırmaları olduqca maraqlıdır. Müəllif «Günəşin təntənəsi» məqaləsində yazır: «Vaxtilə tarixçilərdə hökmdarların həyatı, saray və orada baş vermiş hadisələr daha böyük maraq oyatdığına görə, Novruzun ilkin çağları ancaq saray mühiti ilə əlaqələndirilir və bayram yalnız «taxt-tac sahibləri» – şahlara, sultanlara məxsus rəsmi bir bayram kimi təqdim olunurdu. Burada Novruz bayramı Günəşin taxta çıxması, yaxud cülusutək mənalandırılmış və istər-istəməz həmin dövrlərdə bu sahədə qəbul olunmuş rəsmi mərasimlərə riayət edilmişdir. Belə ki, bir zamanlar işıq tanrının əfsanəvi ulu bir «Şah» olduğuna inanan insanlar mövcud dövlət başçısını səma odunun yer üzündəki əvəzi, kölgəsi saymış, Günəşin «taxta çıxması» günü – Novruz bayramını isə yer üzündəki hökmdarın cülusutək qəbul edir, bayram tədbirlərini onunla əlaqələndirib, onun iştirakı ilə keçirirdilər. Əbəs yerə deyildir ki, Yaxın Şərqdə cülus mərasimləri, bir adət-ənənə olaraq Novruz gününə qədər «yubadılır» və mübarək bayram günü icra olunurdu» (53). Aydınlıq üçün deyək ki, cülus taxta oturma, hökmdarlığa başlamaqdır. Xaqan və hökmdarların (məs. Kəyumərs, Cəmşid və b.) Novruzdan faydalanmalarının kökündə qədim türklərdəki anlam – Günəşin onları seçməsi – durur. E.Aslanovun «Novruz dünən, bu gün, sabah» məqaləsində də tarixi mənbələrdən əxz etdiyi maraqlı bir faktla da rastlaşdıq. Tədqiqatçı yazır: «Salnamələrə görə, hələ e.ə. V-IV yüzilliklərdə Yaxın Şərq hökmdarlarının hərbi yürüş alayları cərgələrində müqəddəs atəşdən və 365 cavanın (bu rəqəm ilin günlərinə müvafiqdir) ardınca, günəş tanrısı Mehrə tərəf səkkiz ağ Nisey atına qoşulmuş ikitəkərli arabadan sonra «Günəşin atı» deyilən, hədsiz dərəcədə cüssəli bir ağ at (ağ – işıq rəngidir) yeriyirmiş. Alayın sonrakı sıralarında əllərində yuxarı, başa qaldırılmış qızıl nar, alma və heyva (hər üçü həyat rəmzidir) sancılmış nizələrlə min nəfər «həzarə» deyilən nizədar dəstəsi

addımlayırmış. Yazılana görə, bu qədər nizəli insan toplusu öz-özlüyündə, kənardan nəhəng bir taxıl zəmisini xatırladırdı»(56).

Bu sonrakı dinlərin də buyurduğu anlamın əski formasıdır. İnsan cəmiyyətinin hazırkı mənəvi düşüncəsini tənzimləyən mütərəqqi dinlər olan xristianlıq və islamda da belə bir stixiya mövcud olub. Bu dinlər də tələqin edirdi ki, hökmdarları Allah seçir. Hətta belə bir «daşlaşmış» fikir də mövcuddur: «Hökmdarlar Allahın yerdəki kölgəsidir».

M.Seyidov «Yaz bayramı» kitabında yazır ki, qədim türklər martın 9-dan başlayaraq ilk yaz bayramını keçirirmişlər (17, 49). Bu mərasim örüş Sara adlandırılıb. Sürülər örüşə buraxılırdı. Təntənəli keçirilən bu bayramda doqquz qız, doqquz oğlan iştirak edirmişlər. Mərasimin ayın 9-da keçirilməsi şamanlarla birlikdə doqquz gəncin fəal iştirak etməsi türklərdə 9 rəqəminin müqəddəsliyindən xəbər verir.

Müəllif oğlan və qızların mərasimdə iştirakını bolluq, artım kimi izah edir. Məlum olduğu kimi, örüş -otlaq deməkdir. İlk yaz bayramını örüş Sara adlandıran türklər onu müqəddəs tutmuşlar. Örüş sözü açıq, aydın və şəffaf olduğu qədər, Sara sözü bir o qədər çoxmənalı, çoxməfhumlu və bir qədər də qaranlıqdır. Onun (Sara) bir çox türk dillərində çoxsaylı anlamı vardır. Sara türk dillərində təmiz, cəsarət, güc, igidlik mənalarında işlədilib. Bu bayramlarda yaşıllıq, bolluq, güc, saflıq və s. müsbət dəyərlər nümayiş etdirilib. Novruzun bütün digər ayin və mərasimlərində olduğu kimi, bu törəndə də həyat elementləri (yaşıllıq, bolluq, güc və s.) nəslin davamına xidmət göstəribdir. Təbiətin təzələndiyini, dirildiyini görən türklər gəncləri vəhdətə – evlənməyə dəvət edirdilər. Bu törənin mayasında Günəşə inam dayanırdı (17, 49-50).

Sara bayramının məna və mahiyyəti Ayzıt bayramı ilə eynilik təşkil edir. Ayzıt bayramı şamanlarla bağlı olsa da, 9 qız və oğlanın seçilməsi, törənin təbiət qoynunda sonuclanması hər iki mərasimin təbiətlə, oyanış və törənişlə əlaqədar olduğunu göstərir. Hər iki törənin nüvəsində türk düşüncə tərzi hakimdir. Təbiət ölüb-dirilən

və canlanandır. Doqquz qız, doqquz oğlanın seçilməsi də, doqquz rəqəminin türk təfəkküründəki müqəddəsliyindən irəli gəlibdir. Böyük ehtimalla deyə bilə

boynunda üçqat qızıl lüləli boyunbağı və papağında şir fiquru vardır. Məlumdur ki, şir günəşi təmsil edib. Bu, mifik düşüncənin əyaniliyidir. Türk mifik inamına görə, insanın atası Günəşdir. Həmçinin qurd da mifik təfəkkürdə Günəşin təmsilçisi olub. «Günəşə inam türkdilli xalqlarda o qədər geniş yayılıbmış ki, onun şəklini və təmsil edənin şəklini yalnız geyimlərinə tikdirməklə, boyunlarından asmaqla kifayətlənmirdilər. Hətta əfsanəvi ulu babalar, igidlər, sərkərdələr Günəşin (bəzən Ayın) şəklini paltarlarına, papaqlarına çəkdirərmişlər.

Misal üçün, «Maaday Qara»dastanında göstərilir ki, Maaday günəş şəkilli paltar geyinərmiş. Hətta xaqanlar çadırlarının önündə Günəşin təsvirini çəkdirərmişlər ki, onları şər ruhlardan qorusun. Bu ənənə son əsrlərə kimi davam etmişdir.

Deməli, soyköklə bağlı əfsanələrdəki, deyimlərdəki adamlar, qurdlar Günəşin rəmzidir. Bəzən azərbaycanlılar, qurdu açıqdan-açığa Günəşin bəlirtisi kimi verərmişlər. Azərbaycanda günəşli gündə yağış yağanda deyirlər ki, qurd quzulayır (balalayır). Nə üçün günəşli havada bu deyim işlənir? Çünki qurd Günəşin bəlirtisi olduğundan, Günəş doğur əvəzinə, qurd doğur deyilir. Axı, günəşli havada yağışın yağması adi hal deyildir. Bu, təbiətin az təsadüf edilən hadisələrindəndir. Bu hadisəni onun doğması ilə bağlamağın belə bir səbəbi ola bilər. Günəş – qurd yağışı doğur, yağdırır, onun vasitəsi ilə yerə bərəkət yollayır (16, 49-50).

«Qurd üzü mübarəkdir» – deyən türk, qurdu Günəşin simvolu bilib. Yeri gəlmişkən, qurd həm də qışın təmsilçisi sayılıb. Tanınmış tədqiqatçı professor M.Seyidov «Yaz bayramı» kitabında yazır: «Göydən yaruqun – şüanın içindən gələn qurd günəşlə bağlı olduğundan o, qışı və eləcə də istiliyi, əksliklərin hər iki qolunu da təmsil etmişdir. Çünki qurd Günəşin bəlgəsidir. Qurd qışı təmsil etdikdə yazla mübarizə aparır, öz ağalığını qorumağa çalışır. O, Günəşin əksliklərini yox, günəşin özünü təmsil edəndə (yaruqun

içində göydən gələrkən) hərdən ulu ataya, hərdən insanlara yol göstərən olur» (16, 65).

«Oğuznamə»nin Uyğurustan variantında göy qurd Oğuza müqəddəs varlıq kimi təqdim olunur: «...Səhər ertədən Oğuz kağanın çadırına güntək bir şüa-yaruq girdi. O, yaruğun içindən göy tüklü bir erkək böri – qurd çıxdı. Bu qurd Oğuz kağanına dedi: - «Ay Oğuz, sən Urum üzərinə yürüşə hazırlaşırsan». «Ay Oğuz, mən sənlə qabaqda gedəcəyəm». Bundan sonra Oğuz kağanı çadırını yığdı, irəli getdi və gördü ki, ordunun qabağında göy tüklü, böyük bir erkək böri (qurd) gedir. O börinin – qurdun dalınca hamı hərəkət edir» (17, 73).

Müəllif bunun ardınca mifə öz münasibətini bildirir: «Yuxarıdakı örnəkdən aydın görünür ki, Oğuzun çadırına yaruq – şüa girir. Bu yaruğun içindən göy tüklü erkək qurd çıxır və Oğuza, onun ordusuna yol göstərir. Burada iki məqama, duruma diqqət yetirməliyik: a) Yaruğun (günəşin şüasının) qurda çevrilməsi ilə mif yaradıcısı qurdun günəşin bəlgəsi olduğuna işarə etmişdir.

b) Göydən gələn yaruğun (günəş şüasının) qurda çevrilməsi mifik təfəkkürdəki dönmə, çevrilmə hadisəsi ilə ilişgəlidir.

Günəş – böri – qurd Oğuzun, ümumiləşdirilmiş deyilsə, insanın çətin vaxtlarda harayına çatır. Elə buna görə də günəş yaruq – şüa şəklində yerə enir və qurda dönüb, Oğuza, insanlara yardım edir» (17, 74).

Qurdun Günəşi təmsil etməsi hər cəhətdən özünü doğruldub. Əski düşüncəyə görə, bir çox təbiət hadisələrini, o cümlədən yağışı yaradan Günəşdir. Qədim insan inanırdı ki, yağış yağdıran yada daşı qurdun qarnındadır (17, 68).

«Böri və keçi» oyununda da qurd qışın təmsilçisidir. Türklərdə yazda evlənmə ilə əlaqədar oyunlardan biri də «Böri (qurd) və keçi» oyunudur. M.Seyidovun fikrincə, bu oyun vaxtı ilə yazla bağlı törən olmuşdur. «Böri və keçi» oyunu toy şənliklərində icra olunmuşdur. Müxtəlif versiyalarda icra olunan bu mərasimin əsas

motivi eyni olmuşdur. Qız (gəlin) qucağında keçi (oğlaq, quzu) rəfiqələri ilə, oğlan (bəy) dostları ilə atlanırlar. Oyunun şərtinə görə oğlan (bəy) qızın əlindən oğlaqı almalıdır. Yarış (vuruş) başlanır. Qız (gəlin) və rəfiqələri oğlağı vermirlər.

Burada qucağında oğlaq olan qız yazın, oğlan isə qışın rəmzidir. Bu törəndə əsas məram yazın həyat, inkişaf, nəsil, soy davamı olmasını nümayiş etdirməkdir. Həyatın – təbiətin və insan cəmiyyətinin inkişafı əksliklərdən – yazla qışın, oğlanla qızın harmonik münasibətlərindən asılıdır. Qurd göydən düşən yaruğun – Günəşin təmsilçisidir. Günəşi təmsil edən qurd insanlara (Oğuzun simasında) yol göstərir. Qışı təmsil etdikdə yazla vuruşur.

Qurdun qışı təmsil etməsi ağlabatandır. Fikrimizcə, bu türk təfəkkürünün məhsulu olan dualist düşüncə ilə bağlıdır. Qurd güclü, qüvvətli olduğundan özündə günəşi və qışı – odu və suyu, istini və soyuğu birləşdirir.

Ümumən, türk xalqlarında od kultu çox geniş yayılmışdır. Türklər həyat və məişətlərindəki bir çox hadisə və məsələləri odla əlaqələndiriblər. Qədim Göy türklər əmin idilər ki, od insanı düşmənindən və bəd ruhlardan hifz edir. Xaqanın yanına gələnləri, xüsusən də xarici qonaq və elçiləri iki odun arasından keçirirdilər ki, yad adamlar pis və yaman ruhlardan təmizlənsinlər. VI əsrdə yaşamış Göy türklər xaqanın yanına gəlmiş Bizans elçilərini od arasından keçirmişlər.

Orta əsr tarixçilərinin yazdığına görə, türklər xaqana ünvanlanmış hədiyyələri də iki od arasından keçirməklə təmizləyirdilər (18, 165-166).

Odun fiziki və mənəvi təmizlənmə vasitəsi olduğuna yaxından bələd olan Zərdüşt özü oda əlahiddə bir münasibət bəsləmiş və odun müqəddəsliyini insanlara təlqin etmişdir. Bu inam qədim Midiyada Zərdüşdən xeyli əvvəl mövcud olmuşdur. Zərdüştlikdə xüsusilə müqəddəs sayılan odun özü pis, yaman və bəd əməllərdən qorunub. Zərdüşt inamına görə, odun (ocağın) qarşısında oturan kahinlər ağızlarını parça ilə bağlayırdılar ki, nəfəsləri oda toxunub

murdarlamasın. Bu əqidənin daşıyıcıları günəşi Ahuraməzdanın gözü, bəziləri isə oğlu olduğunu qəbul edirdilər. Bu inamda olanlar hətta Zərdüştün Ahuraməzdadan yarandığı fikrində idilər.

Zərdüştlik günəşin (odun) müqəddəsliyini əxz etmiş, oda inam formalaşdırmışdır. Oda etiqad yarandıqdan sonra onun şərəfinə şənliklər keçirilmişdir. Böyük ehtimalla demək olar ki, həmin şənliklər od çərşənbəsi günlərində keçirilmişdir. Ancaq Azərbaycanda və digər Şərq ölkələrində odla bağlı bir çox bayram və mərasimlər olmuşdur. Mənbələrdə Sədə və Azər bayramlarının nüfuzlu bir mərasim kimi qeyd olunduqları göstərilir. Azər bayramı azər ayının (22 noyabr – 22 dekabr) doqquzunda qeyd edilirdi. Həmin gün od bayramı adlanırdı. Azər sözünün mənasının od olduğu daha çox vurğulanır. Ö.Xəyyam yazır ki, pəhləvi dilində oda Azər deyirlər (31, 131).

Ə.Biruni də bu bayramın qışın başlanğıcında keçirildiyini təsdiqləyir. Ə.Biruninin yazdığına görə, Azər bayramında evlərdə od yandırılır. Ocaqlar çatılır, həmin vaxt Allaha daha çox dualar edilirdi: Deyirlər ki, od hərarət verir, bitkiləri ziyanvericilərdən qoruyur (31, 130).

Zərdüştlik dövründə Azər bayramından ciddi şəkildə faydalanılmışdır. Azər bayramının mərasimləri atəşgədədə keçirilirdi. Azər bayramı qışa hazırlıq məqsədi daşıyırdı. Qışı qarşılamaq üçün od yandırılmış, xüsusi mərasimlər keçirilmişdir. Havalar soyuyur. Canlıların, xüsusən insanın oda zəruri ehtiyacı yaranır. Elə bu zəruri ehtiyacın nəticəsidir ki, insanlar bu aya «od ayı» (Ö.Xəyyam) deyiblər. Odla əlaqədar keçirilən mərasimlərdən biri də Sədə bayramı idi. Əgər Azər bayramı qışın başlanğıcında keçirilirdisə, Sədə bayramı kiçik çillə girəndə qeyd olunurdu. Novruz sisteminin tərkib hissələri olan bu mərasimlər bir-birini qanunauyğunluqlarla tamamlayırdı. Bu od bayramlarının birincisi qışı qarşılamaq, ikincisi isə yola salmaq üçün keçirilmişdir. Sədə bayramı ikinci od bayramıdır. Sədə bayramı «Avesta» təqviminə görə, beş aylıq qış fəslindən yüz gün keçəndən sonra qeyd edilirdi. Ə.Biruni bu

bayrama «şəbkəznə» də deyildiyini yazıbdır. Havalar bu vaxt çox soyuq olduğundan adamın bədənini şaxta, soyuq kəsir. Biruni bu bayramın kiçik çillənin girməsi ilə bağlı olduğunu da qeyd edibdir (31, 131).

M.A.Dadaşzadə tədqiqatında Sədə bayramının mənşəyi ilə bağlı İran mənbələrindən gətirdiyi məşhur bir əfsanəyə də yer ayırır. Guya bir gün Huşəng onu müşayiət edən dəstə il bir dağın yanından keçərkən qarşısına böyük bir ilan çıxmışdır. O, ilanı öldürmək üçün bir daş atmışdır. Huşəngin atdığı daş ilana dəymir, ayrı bir daşa dəyir, daşların bir-birinə dəyməsindən qığılcım törəyir. Bu qığılcımdan törəmiş od dörd tərəfi yandırır. İlan da yanmışdır. Deyilənə görə, Huşəng həmin günün od bayramı kimi qeyd olunmasına qərar vermişdir .

Sədə bayramının tarixi qədimdir. Ə.Biruni bu bayramın yaradıcısının Ərdəşir Babəkan olduğunu yazır. Bu bayramın od çərşənbəsində keçirildiyi və Novruzun zirvə şənliklərinə hazırlıq olduğu şübhəsizdir. Biruninin yazdığına görə, bu bayramda od yandırır, ocağın başında qoz yeyilir, şərab içilir, şadlıq edilir. Tonqallardan vəhşi heyvanları da sıçradırdılar (31, 133).

Od çərşənbəsində günəş və odla birbaşa bağlı olan inamlar, inanclar və digər folklor nümunələri mövcud olmuş, bir-birindən fərqlənən müxtəlif mərasimlər keçirilmişdir. «Qodu-qodu» mərasimi mifik təfəkkürün birbaşa günəşlə bağlı olan ən qədim məhsuludur. «Qodu-qodu» mərasimi yaranma və formalaşmasına görə çox qədimdir. Adətən, uzun müddət havalar yağmurlu keçəndə bu mərasimin keçirilməsinə ehtiyac duyulub. Bu mərasimdə günəşə xitab olunur, onun çıxması, yer-yurdu istilətməsi, canlılara hərarət gətirməsi arzulanır. Qodu günəşin ekvivalentidir. Qodudan günəş istənilir:

Qodu-qodunu gördünmü?
Qoduya salam verdinmi?

Qodu burdan ötəndə,
Qırmızı gün gördünmü?

Yağ verin yağlamağa,
Bal verin ballamağa.
Qodu gülmək istəyir,
Qoymayın ağlamağa.

Xalqın empirik düşüncəsinin gerçəkliyi olan bu mətndə iki vacib məsələ vurğulanır. Birincisi, Qodu günəşin təmsilçisi olduğundan o, günəşi gətirməlidir. İkincisi, Qoduda qurdda olduğu kimi iki xasiyyət birləşib. Qodu güləndə günəşi, ağlayanda yağışı gətirir. Bu səbəbdən «Qodu-qodu» mərasimi yağış-yağmurun kəsilməsini istəyəndə, yəni günəşi arzulayanda və yağışı istəyəndə. «Günəş hər iki təbiət hadisəsinin – istinin də, soyuğun da, quraqlığın da, yağışın da yaradıcısıdır». Qodu günəş istəniləndə qırmızı, yağış arzulananda göy rəngdə təmsil olunub. Qodunu yağıntı çox olan vaxt qırmızı, quraqlıq dövründə yaşıl geyindiriblər. (M.Seyidov «Bir qabartma haqqında», «Elm və həyat» jurnalı 1987, № 4, səh. 17). «Qodu-qodu» mərasimi əski çağ düşüncəsinin məhsulu olsa da, ancaq özünü günümüzə kimi qoruyub saxlamışdır. Onun belə uzun ömürlü olması təsadüfi deyil. Qodu birbaşa günəşlə bağlıdır. Qodunun xarakterindəki əkslik onun qurdla mənşə yaxınlığından xəbər verir. Fikrimizcə, qodu sözü mənşəcə qurd sözünün tarixi fonotik trasformasiyasıdır.

Burada onu da qeyd edək ki, Novruzla bağlı bir çox mərasimlərdən fərqli olaraq, «qodu-qodu» törəni geniş coğrafiyada yayılıb və əski düşüncənin məhsulu olsa da, bizim günlərə kimi gəlib çıxıbdır. Bu mərasim Azərbaycanda XX əsrin 20-30-cu illərinə qədər keçirilmişdir. «Qodu-qodu» mərasiminin iştirakçıları, adətən, cavanlar olardılar. Qız-gəlinlər də bu mərasimdə iştirak ediblər. Qodu rolu el-obanın cəld və çevik bir oğlan uşağına həvalə olunardı. Onun əyninə nimdaş bir paltar geydirər, üst-başını,

sifətini tanınmaz hala salardılar ki, kim olduğu bilinməsin. Qodu əlində çömçə və ya kuklaya bənzər (qadın formasında) ələğacı (adam) tutardı. Dediyimiz kimi, yağış dilədikdə Qoduya boz və ya göy rəngdə (su rəmzi) paltar geyindirilərdi. Qodu başının dəstəsi ilə kəndi evbəev gəzər, xorla oynaq ritmik mahnılar oxuyar və pay – pülüş toplayardılar. Mərasim yağış diləmək məqsədi ilə keçirildisə, camaat Qodunun üstünə su atardı. Əksinə, günəş arzulamaq məqsədi ilə keçirilirdisə, onda Qodunun üstünə kül atırdılar (35, 144). Hər şeydə olduğu kimi, yağış və quraqlığın həddindən artıq olması insanlara və təbiətin özünə belə ziyan vurur, əkin-biçin uzun sürən quraqlıqdan yandığı kimi, aramsız yağan yağışlardan da çürüyüb məhv olurdu. Taxıl və digər məhsulların qıtlığı da insanlara yalnız bədbəxtliklər gətirirdi. Elə bunun nəticəsi idi ki, xalq müdrikcəsinə deyirdi: «Yağmır, yağmır qurudur, yağır, yağır çürüdür». Bu müdrik deyim uzun illərin müşahidəsinin məhsuludur.

Digər həyat ünsürlərindən fərqli olaraq, odla əlaqədar inanclar, mərasim və xalqın onunla bağlı yaratdığı digər folklor nümunələri bu günümüzə daha çox gəlib çatmış, müasir dövrümüzdə də onlara daha çox müraciət olunur.

Odla bağlı bir neçə nümunəyə diqqət yetirək: «Odu, çırağı yandıran xeyir tapar», «Odla oynayan odsuz qalar», «Od küllə gizlənər», «Oddan kül törər» (atalar sözü), «Odun gecə his etməsi yaxşı əlamət deyil», «Ocaq dağıdanın ocağı dağılar», «Ocaq yananda səslənirsə, demək, kimsə sözünü danışır», «Gün doğanda doğulan uşaq göyçək olar», «Çıraq yeri qibləyə olan ev uğurlu olar» (inanclar), «Od haqqı!», «Ocaq haqqı!», «Çıraq haqqı!» (andlar), «Ocağın bərəkətli olsun!», «Ocağın işıqlı olsun!», «Ocağın qaralmasın!» (alqışlar), «Ocağın sönsün!», «Ocaq üzü görməyəsən!», «Oda düşəsən!» (qarğışlar) və s. xalqın təfəkküründə odla bağlı tapmacalar, əfsanə və rəvayətlər və s. saysız-hesabsızdır.

Boz ayın üçüncü çərşənbəsi yel (hava, külək) çərşənbəsidir. Bəzi mənbələrdə və müasir araşdırmalarda yel çərşənbəsi sonuncu

çərşənbə kimi verilir. Bu yerdəyişmənin özündə də bir məntiq mövcuddur. İlaxır çərşənbələrin mənşəyində insanın yaranmasında və fiziki-cismani təşkilində iştirak edən dörd müqəddəs ünsür dayanır. Tanınmış folklorşünas A.Nəbiyev ilaxır çərşənbələrin düzümünü elmi-məntiqi cəhətdən son dərəcə düzgün izah edibdir. Bu inandırıcı izaha heç bir şübhə yeri qalmır. Müəllif «Bayramların sultanı» məqaləsində yazır: «Teoloji düzümdə, yəni insanın yaranma prosesində onların (həyat ünsürləri) sıra düzümü belədir – su, od, torpaq və yel. Əvvəlki üç ünsürün iştirakı ilə yaranan insan müqəvvasına həyat, can verən yeldir. Yəni suyun, istiliyin və torpağın birliyindən yaranan insana nəfəs verməklə, o, həyat funksiyasına yiyələnir. Bu, insanın yaranması üçün zəruri teoloji düzümdür. Yaranan insan isə dünyanı dərk etdikdən, onu mənimsədikdən sonra bu düzüm dəyişir. Yeni düzümdə insanın yaşayışı üçün lazımi məhsullar verən, yetirən torpaq yeldən sonraya keçir və beləliklə, dörd müqəddəs ünsürün mərasim floklorunda yeni düzümü sıralanır. Bu düzümdə insanı yaşayış vasitələri ilə təmin edən torpaqdır. Ona görə də sonuncu çərşənbədə torpaq vəsf olunur və xalq onu torpaq çərşənbəsi kimi keçirir» (24).

Çərşənbələrin digər sıralanması belədir: su, od, torpaq və yel. Hər iki sıralanma özlüyündə doğrudur. Birinci sıralanmada suyun canına istilik gəlir, damarlarında buz əriyir, günəşin (od) hərarəti artır, bundan sonra vədə yeli (yaz küləyi) əsir, nəhayət, planetin ən böyük ünsürü olan torpağın canına hərarət gəlir, onun canındanqanından qışın şaxtası-soyuğu çıxır. Torpağın oyanması ilə bütövlükdə planetin dirçəlişi başlayır. Sonuncu çərşənbənin yel olması da maddi-mənəvi dəyərlərdən qaynaqlanır. Od, su, və torpaq maddidir. Bu ünsürlər kainat və təbiətin arxitektonikasını təşkil edir. Bu möhtəşəm arxitektonikanın çatışmazlığını ruh, nəfəs (yel) tamamlayır. Belə bir analogiya aparaq. Təsəvvür edək ki, insanın bircə anlıq nəfəsi kəsilib, nəfəsi yoxdur. Belə olarsa, insan var ola bilərmi?

N.Gəncəvinin bu dörd ünsürlə bağlı fikirləri hələ də orijinal olaraq qalır. Mütəfəkkirin düşüncəsinə görə, birinci işıqlı oddur, ikinci küləkdir, hərəkətdədir. Hərəkətsiz bilinməz. Üçüncü sudur, hər şeyə təravət, gözəllik verər. Dördüncü torpaqdır.

Fikrimizcə, çərşənbələrin ardıcıllığındakı bu yerdəyişmə Azərbaycanın ərazisində mövcud olan iqlim müxtəlifliyi ilə daha çox bağlıdır. Məlumdur ki, Mil-Muğan (Aran) zonasındakı iqlimlə Azərbaycanın dağlıq və dağətəyi ərazisində mövcud olan iqlim eyni deyildir. Aran zonasında torpaq erkən oyanır. Oyanmış torpaq yaşıla bürünür.

Biz sıralanmada üçüncü çərşənbənin yel çərşənbəsi olduğunu qəbul etdiyimizdən bu məqamda elə ondan danışacağıq. Xalq bu çərşənbəni «Yelli çərşənbə», «Küləkli çərşənbə», «Külək oyadan çərşənbə» və b. adlarla adlandırır. Muğan zonasında bu çərşənbəyə «Heydər çərşənbə» də deyilir. (A.Nəbiyev). Bu çərşənbəyə verilən adların hər bir ad mahiyyətini doğruldur. Qədim insan dünyagörüşündə haqlı idi. Onların düşüncəsinə görə, bu çərşənbədə oyanmış külək, suyu və odu hərəkətə gətirir, torpağı qızdırır. «Yel çərşənbəsində əsən isti və ya soyuq küləklər yazın gəlişindən xəbər verir. Gün ərzində külək bir neçə dəfə dəyişir. Bu dəyişmələr yelin özünün təmizlənməsi kimi qəbul edilir» (23, 30).

Əski inamlara görə, «qara nəhrdə» yatmış dörd cür külək yer üstünə çıxaraq təmizlənir, sonra hərəsi təzə bir formada görsənir. Onların (külək) təzə libasları ilə adları arasında bir yaxınlıq, oxşarlıq görünür. Rənglərin mifik mahiyyəti açıq-aşkar duyulur. Türk mifik düşüncəsində ağ yel – ağ libasla, qara yel – qara libasla, xəzri – göy libasla, gilavar – qırmızı libasla təsəvvür edilir (23,30). Mifik düşüncəyə əsasən, yel çərşənbəsində bu dörd yel birləşib yer üzünü dolaşır. Yel çərşənbəsində külək gün ərzində bir neçə dəfə dəyişir. İnama görə, Yel baba suyun, torpağın donunu açır, odu üfürür, günəşin qabağını kəsən buludları qovur.

Yelin (külək) digər ünsürlərdən əsas fərqi onun birbaşa hərəkətlə bağlılığıdır. Bu hərəkət yeli yerindən oynatdıqdan sonra o, sərhəd tanımır, «laməkan» olur. Elə bu sərhədsizlik, «ləmə-kanlıq» ona ən qədim cağlarda Tanrı statusu qazandırmışdır. «Əski inamlarda yel, ya özü Tanrıdır, ya da dünyanı idarə eləyən tərəfindən göndərilən qüdrətli bir antropomorfdur. O, lazım olanda insanları əzizləyir, onlara kömək edir, qəzəblənəndə isə adamları cəzalandırır» (23, 30).

Dörd səmavi kitabda da (Zəbur, Tövrat, İncil, Quran) yel ilahi-ləşdirilir, müqəddəs obraz kimi təsvir olunur. Sonuncu müqəddəs səma kitabı olan Quranda isə yel Allahın mərhəmət və cəza vasitəsi hesab edilir.

Bu məqamında, «Avesta»nın küləyə münasibətini xatırlatmaq gərəkli olardı. «Avesta» etiqadına görə, «Yelin gücü Hörmüzün gücüdür. Yel Hörmüzdən güc alıb, dünyaya ayaq açmışdır».

Yuxarıda dediklərimiz əski təfəkkürün dəyərlərini təsdiqləyir. Müqəddəs səmavi kitablarda da yelin (küləyin) tanrılarla (Göylərlə) bağlı olduğu bir daha vurğulanır. Qədim türklərin təfəkküründə yel Tanrı statusu qazanmışdır. Yelin Tanrı möhtəşəmliyinə yüksəlməsi onu xalqın yaratdığı şifahi ədəbi nümunə və mərasimlərdə əbədiləşdirmişdir.

Yelin ilahiləşdirilməsi xalq düşüncəsinin məhsulu olan əfsanə, rəvayət, mif, nəğmə, mərasim və s. folklor janrında qorunub saxlanılıb.

Yelin (küləyin) təbiət proseslərində, insanın həyat və məişə-tində əvəzsiz əhəmiyyəti vardır. Yetişdirdiyi məhsulu xırmanda döymüş zəhmətkeş insan taxılı, saman və küləşdən təmizləmək üçün Tanrıdan yel (külək) diləyir:

A Yel baba, Yel baba,
Qurban sənə, gəl baba.
Taxılımız yerdə qaldı,
Yaxamız əldə qaldı.

A Yel baba, Yel baba,
Qurban sənə, gəl baba.

Xalqımızın yellə (küləklə) bağlı min illər ərzində düzüb-qoşduğu bəzi ədəbi nümunələrə, ötəri də olsa, diqqət yetirək.

«Xırman sovrulandan sonra ilk buğda götürənin oğlu olar», «Yel çərşənbəsi gecəsi söyüd ağacının altında gedib niyyət elə və Yel babanı çağır. Əgər Yel baba sənin səsini eşidib əssə və söyüdün budaqlarını torpağa toxundursa, diləyin yerinə yetər».

(inanclar),

Əl ilə tutmaq olmaz,
Göz ilə görmək olmaz. (Yel)

Hər yan ələk-vələkdir,
İşi tamam kələkdir.
Dəyirmana can verər,
Xırmana da gərəkdir. (Yel) (tapmaca)
«Yel əsməyincə, yarpaq tərpənməz»,
«Yel apardığın qaytarmaz». (atalar sözü)

Yel əsdi yurdum üstə,
Toz düşdü qurdun üstə.
Yurd üçün baş qoyanı,
Sən bizim eldən istə. (bayatı)

Tufan qopar, yel ağlar,
Çaylar daşar, sel ağlar
Qəriblikdə ölənin
Yasın tutar, el ağlar (ağı)

Xalqımızın empirik təfəkküründə görə, ilin sonuncu çərşənbəsi torpaq çərşənbəsidir. Bu inamda bulunan xalq son dərəcə haqlıdır.

Təbiətin digər komponentlərinə nisbətən torpaq qış yuxusundan gec oyanır.

Torpaq planetin ən böyük və zəruri komponentidir. Digər komponentlər torpağın üstündə yerləşir və onun qoynunda intişar tapır. Torpağın oyanışı ilə ilin təzələnməsi əyaniləşir. Digər üç ünsürün (su, od, yel) dirçəlişi ilin təzələnməsini hələ tam ortaya qoya bilmir. Torpağın oyanışı bütövlükdə təbiəti cana-qana gətirir. Bu səbəbdən xalq bu çərşənbəyə «İlaxır çərşənbə», «Torpaq çərşənbəsi», «Yer çərşənbəsi» deyibdir. Torpağa gəlmiş hərarət suda və havada duyulur. Donmuş torpağın canı-qanı isinir. Dirçəlmiş torpaq şumlanır, əkin hazırlanır. Torpağın oyanmasına insanlar daha çox sevinir. Əcdadlarımız inanıblar ki, torpağın dirçəlişi suya, oda və yelə daha çox hərarət bəxş edibdir. Xalqın bu inamı onun mifik düşüncəsində əbədiləşdirilmişdir.

Özündən əvvəlki gerçək mənəvi sərvətləri mənimsəmiş «Avesta»da torpağa münasibətdə varislik hissi qorunub saxlanılmışdır. «Avesta»da torpaq canlı varlıq kini təqdim olunur. Torpaq insanın ilkin yaradıcısı –ana bətni kimi təsvir və təsəvvür olunubdur. «Avesta» inamına görə, şər allahı Əhrimən Qayomardı öldürür. Qayomardın sol qabırğasından iki damcı tər torpağa düşür. Bu damcılardan kol-revac göyərib qalxır. Doqquzuncu ayda kollarda düyməciklər əmələ gəlir və birləşir. Bunlardan ilk insanlar yaranır. 50 il müddətində ilk kişi və qadın bir-birlərinə toxunmadan ömür edirlər. 50 ildən sonra şər təmsilçisi Əhrimən qoca kişi görkəmində onlara yaxınlaşıb, meyvə yeməyə və cinsi münasibətdə olmağa tamahlandırır. Bundan sonra dünyaya yeni insan gəlir.

Mahiyyətcə bu mifə yaxın olan digər bir mifdə göstərilir ki, Qayomard ölümdən əvvəl torpağa toxum qoyur. Həmin toxum 40 il günəş işığında qalandan sonra ondan revac kolları əmələ gəlir. Bu kollar insan formasına düşürlər. Maşya və Maşyana insanların ilk əcdadları olublar (77).

Bu miflərdən görünür ki, torpaq bəşərin ilkin rüşeymini canlandıran, dirildən bir varlıq kimi dərk olunubdur. Ölüm-dirim

dualizmi həyatın və bəşərin yaranması və inkişafıdır. Qayomard ölməsə, insan nəsli yaranmazdı. Təbiət ölməsə, yenidən dirilə bilməz.

«Avesta»da dilə gələn torpaq insanlara buyurur ki, ondan hər vasitə ilə istifadə etsinlər, ona əmək sərf edib, ondan layiqincə faydalansınlar. Torpaq insanoğluna müraciət edərək deyir ki, ey insan, sən məndən ikiəlli yapışıb, məni layiqincə becərsən, mən yorulmaq bilmədən sənin üçün istədiyin neməti yaradaram, sənə bol ruzi, bol məhsul verərəm. Əgər belə etməsən, torpaq üzərində əməyin olmasa, dilənçilərə qarışıb özgələr qapısında boyun bükəcəksən. Sənin qiymətin zəngin evlərin tullantısı olacaqdır (77, 89).

Sonuncu çərşənbə sayılan torpaq çərşənbəsi digər çərşənbələrdən fərqli olaraq daha təntənəli keçirilir. Axırıncı çərşənbə özünəməxsus ayin və mərasimləri ilə digər çərşənbələri geridə qoyur. Soyuqdan-şaxtadan olmazın əzab-əziyyətini görmüş, məşəqqətini çəkmiş insan qışı yola saldığına sevinir, sevincini-şadlığını bayram səviyyəsinə qaldırır. Bir çox regionlarda ilaxır çərşənbənin təntənəsi Novruzu belə üstələyir. Bu çərşənbə mərasimləri sübh tezdən bulağa, çaya getməklə başlayır. İnsanlar bulaq başına, çay kənarına gələr, oradan su götürər, suyun üstündən atlanar, dərdini, arzusunu suya danışar və sudan dilək diləyərlər.

Axır çərşənbənin gecə mərasimləri də dəbdəbəli keçirilir. Tonqallar çatılır, od üstündən tullanılır, uşaqlar qohum-qonşuya üz tutur, evlərə torba atılır, qız-qadınlar qulaq falına çıxırlar. Axır çərşənbədə evlərdə şam yandırılır, xonça düzəldilir. El-obada camaatın gur yaşadığı yerlərdə yumurta döyüşdürülür, digər xalq oyunları keçirilir. İnsanlar məişətdə və təsərrüfatlarda köklü yeniliklər edirlər. Qız qadınlar ev-eşikdə təmizlik işlərinə başlayar. Ev-eşik silinib təmizlənər, yorğan-döşək gün altına atılar, ev-eşikdə nə varsa suya çəkilər, qapı-baca açıq qoyular, evin havası dəyişilər.

Kişilər də həyət-bacadə əsaslı işə başlayar. Bağ-bağat, həyət-bacaya əl gəzdirərlər, səliqə-sahmana salınar. Bağ-bağatda ağacların qol-budağı budanar, artıq nə varsa yandırılar, ağacların dibi

bellənər. Axır çərşənbədə torpağa əlahiddə bir sevgi ilə qayğı göstərilərdi. Bağ-bağatda, əkin-biçin yerlərində torpaq daşlardan təmizlənər, əkin üçün yararlı yerlər əkilib hazırlanırdı. Axır çərşənbə ilə bağlı ayin və mərasim çoxsaylı və çoxqatlıdır. Sonuncu çərşənbə ilin ən əziz günü sayılır. Sovet hakimiyyətinin kəskin maddi-mənəvi repressiya illərində xalqımız Novruzu təntənəli qeyd edə bilmədiyi halda, axırıncı çərşənbəni son dərəcə yüksək təntənə ilə keçiribdir. Bunun səbəbi ilin axırıncı çərşənbəsinə olan inam və inancda, onun yaratdığı ovqatda, ilaxır çərşənbə ərəfəsində kainat və planetdə gedən təbii proseslərdə axtarılmalıdır. Axır çərşənbə Novruz sisteminin mükəmməl və ən uca nöqtəsidir. İlaxır çərşənbə ayin və mərasimləri ölçüyəgəlməz dərəcədə zəngin və rəngarəngdir. Bu çərşənbədə keçirilən ayin və mərasimlər Novruza hazırlıq mərhələsini bütövlükdə tamamlayır. İlaxır çərşənbələr özündə gerçək simvolikanı qoruyub saxlayıbdır. Bu çərşənbələr insanın yaranmasında fundamental rol oynayan dörd ünsürün hər birini ayrı-ayrılıqda vəsf edir, yaşadılması üçün gələcəyə ötürür. İşıq (od) ata, Su ana başlanğıc, Göy üzü Ata, Yer üzü (Torpaq) ana sayılıbdır. Əslində, Novruzun son tamamlama mərhələsində keçirilən şənlik və mərasimlərlə ilaxır çərşənbələrin ayin və mərasimləri üst-üstə düşür. Elə bu analogiyanı nəzərə alıb, ilaxır çərşənbədə keçirilən tədbirlər barədə burada danışmaq fikrində deyilik.

IV FƏSİL

NOVRUZUN ELMİ-ASTRONOMİK ƏSASLARI VƏ ƏHATƏ COĞRAFİYASI

4.1. Novruzun elmi astronomik əsasları

Novruzun elmi astronomik əsasları sırf kainat qanunlarına söykənir. Novruzun təbiət qanunlarına əsaslanması onun sırf kainat hadisəsi olduğunu təsdiqləyir. Bu dərin elmi əsasları Novruzu əfsanələşdirilmiş illüziyalardan uzaqlaşdırır. Sırf kainat (kosmos) qanunlarına söykənən Novruz həyati gerçəkliyin təsdiqidir. İnsanların bu əbədi və dəyişilməz kainat qanununu necə öyrənmələri hələ də tam elmi izahını tapmayıb. Tədqiqatçılar bunun ən çox insanların empirik təfəkkür və çoxillik müşahidləri əsasında müəyyənləşdirildiyi qənaətindədirlər. Bu mülahizə də inandırıcı görünür. Bununla bərabər, qədim insanlar Novruz sistemini, onun komponentlərini və Novruzdan başlanan yeni il təqvimlərini həyati müşahidələrdən daha çox, dəqiq elmi əsaslar üzərində yaratmışdırlar. B.e. çox-çox əvvəllər yaşamış insanın yaratdığı təqvimlərin qüsuru son dərəcə cüzi olmuşdur. Əslində, həmin cüzi pozuntular hətta müasir təqvimlərdə belə hələ də qalmaqdadır. E.ə. yaşamış əcdadlarımızın ilin, ayın, günün dəqiq hesabatını verməsi daha çox elmi əsasların mənbəyi olduğunu təsdiqləyir. E.ə. VI əsrdə midiyalıların ili Novruzdan (martın 21-dən) başlamaları sırf astronomik elmi əsaslarla bağlı idi. Həmin gün yerin şimal yarımkürəsində gecə-gündüzlə bərabərləşir. İnsanların arzu-istəyindən, iradəsindən asılı olmayaraq ilin yeni fəsli-yaz başlanır. Fəsillərin ardıcıl gəlib bir-birini əvəz etməsi, yerin Günəş ətrafında fasiləsiz dövr etməsi pozulmaz, dəyişilməz olan əbədi kainat hadisəsidir. Yaz, yay, payız və qış ardıcıllığı və əvəzlənməsi Günəş-Yer harmoniyasının əbədi

hərəkətinin nəticəsidir. Bu pozulmaz, dəyişilməz növbəli ardıcıllığa səbəb Yer oxunun Günəş ətrafına dolandığı orbitə 66°33 meyilli olmasıdır. Bu ox öz yerini paralel şəkildə dəyişdirdiyindən ilboyu növbə ilə gah şimal, gah da cənub ucu, yəni planetin əks qüvvələri Günəşə meyilli olur. Bu vaxt Günəş Yerin növbə ilə həm şimal, həm də cənub yarımkürəsini qızdırır və işıqlandırır. Elə bunun nəticəsidir ki, şimal yarımkürəsində yay olursa, cənubda bunun əksinə qış olur. Şimalda yazdırsa, cənubda həmin vaxt payız olur və yaxud əksinə. E.ə. yaşamış əcdadlarımızın dəqiq müəyyənləşdirdikləri bu astronomik hadisənin sırf elmi əsaslara söykəndiyini sonradan modern elmi texnologiyalar sayəsində birmənalı təsdiq edilmişdir. Azərbaycan MEA-nın N.Tusi adına Şamaxı Astrofizika Rəsədxanasının Bakı bölməsinin rəhbəri Rəhim Zeynalov «Kainatın bayramı» məqaləsində yazır: «Günəşin ekliptika (fələk) adlanan zahiri hərəkət müstəvisi ilə ekvator müstəvisi 23 dərəcə 27 dəqiqə bucaq altında sferanın mərkəzindən keçən bir düz xətt boyunca kəsişirlər. Bu duz xəttin göy sferini kəsdiyi nöqtələr bərabərlik nöqtələri adlanır. Bu nöqtələrin birində Günəş göy ekvatorunu kəsərək, göy sferinin cənub yarımkürəsindən şimal yarımkürəsinə, digərində isə tərsinə-şimal yarımkürəsindən cənub yarımkürəsinə keçir. Bu nöqtələrə uyğun olaraq yaz və payız bərabərliyi deyilir. Günəş öz zahiri hərəkətində bu nöqtələrdə (ilin qısa və uzun olmasından asılı olaraq) martın 21-də (bəzən 20-də) və sentyabrın 23-də (bəzən 22-də) olur» (65).

Yuxarıda qeyd olunan astronomik hadisə sakini olduğumuz şimal yarımkürəsinə aiddir. Şimal yarımkürəsində yaz fəsli martın 21-dən iyunun 21-dək, yay fəsli iyunun 22-dən sentyabrın 22-dək, payız sentyabrın 22-dən dekabrın 22-nə, qış dekabrın 22-dən martın 22-dək davam edir. Bu qeydəalma Novruz təqviminə əsaslanır. Artıq yazın başlanğıcı şimal yarımkürəsində yaşayan xalqlar, o cümlədən Azərbaycan türkü üçün həmişəlik qəbul olunub.

İnsanoğlu uzunmüddətli vaxtların hesablanması üçün təqvimlər yaratmışdır. Hər bir yaradılmış vaxt, zaman ölçüsünün özünəməxsus astronomik elmi əsasları mövcuddur. Hələ eradan çox-çox əvvəl insanlar ciddi həyati zərurət duyduqları təqvimləri arayaərsəyə gətirmişlər. Tarixin yaddaşı bu günə qədər özündə üç təqvim sistemini qoruyub saxlamışdır. Başqa sözlə, üç növ təqvim mövcud olmuşdur. Digər tarixi faktlardan fərqli olaraq, təqvimlər tarixlə birgə yaşamış, ona zaman-zaman yoldaşlıq etmişdir. Obrazlı desək, tarix – təqvim, təqvim – tarix deməkdir. Tarix və təqvim – hər ikisi zamanın möhürüdür. Bu səbəbdən təqvimlər tarixin yaddaşından sürüşüb düşə bilməzdi. Hər üç təqvim – Günəş təqvimi, Ay təqvimi və Ay-Günəş təqvimi özlüyündə astronomik elmi dəlillərə əsaslanır.

Ehtimal etmək olar ki, Ay təqvimi Günəş təqvimindən bir qədər əvvəl yaranıbdır. Bu mülahizəni Ay təqvimindəki mövcud olan qüsurlara görə irəli sürürük. Ay təqviminin əsasında zaman vahidi olaraq Ayın Yer ətrafında sinodik dolanma dövrü durduğu üçün ay təqvimləri adlanır. Sinodik ay isə Ayın eyniadlı iki ardıcıl səfhəsi arasındakı müddət deməkdir. Bir sinodik ay 29, 53 gündən ibarət idi. Bir qədər də açıq desək, 29 gün 12 saat 1 dəqiqə 12 saniyədən ibarətdir. Bir nominal gün Yer kürəsinin öz oxu ətrafında tam fırlanma vaxtıdır. Hər bir təzə gün Ayın doğulduğu gündən başlanır. Bir «Ay ili» 12 aydan, yəni 354,36 (12×29,53) gündən hesab edilirdi. Ay ili 354, uzun il olduqda isə 355 gündən ibarət olurdu. Buradan da görürük ki, Ay ili Günəş ilindən düz 11 gün qısa olubdur. Bu səbəbdən də Ay ilinin başlanğıcı hər il irəli sürüşürdü. Bu sürüşmə və çatışmazlıqlar Ay təqviminin qüsurlarını açıq-aşkar göstərirdi. Konkret qüsurların əzabını çəkən insanlar yeni təqvim yaratmaq haqqında fikirləşməli oldular. E.ə. VI əsrdə «Avesta» təqviminə və e.ə. II minillikdə Babilistanda Günəş təqviminə keçməli olmuşlar. Təkrar da olsa qeyd etməliyik ki, Günəş təqvimi Günəşin hərəkət xəttinə əsaslanır. Bu təqvimin əsas zaman

komponentləri sutka və tropik ildir. Günəş (tropik) ilinin uzunluğu 365, 25 gün qəbul edilirdi. Daha dəqiq desək, 365 gün 6 saat idi. Bu da 12,4 ay (12 ay, 12 gün) təşkil edirdi ki bir neçə ildən bir Ay ilinə 3 ay da əlavə olunurdu. Bu əməliyyatı aparmaqda məqsəd Ay təqvimi ilini Günəş ilinə yaxınlaşdırmaq idi. Bununla da, Ay-Günəş təqvimi yaradılmışdır. Ay-Günəş təqvimini Babilistandan başqa, Çin, Yunanıstan, Roma və başqa qədim ölkələrdə də tətbiq etmişlər. Bu günün özündə belə, bir çox ölkələrdə hələ də Ay-Günəş təqvimindən istifadə olunur.

Açıq-aydın görünür ki, haqqında söhbət açdığımız hər iki təqvim sistemi – Ay və Ay-Günəş sistemi qüsurlardan xali deyildir. Həmin təqvimlərdə günlər (tarix) və dini bayramlar fəsil və mövsümlərdə yerlərini dəyişirdi. Bu nöqsanlar Günəşin ekliptika dairəsi üzrə hərəkəti və dövrləri əsasında hazırlanmış təqvimlərin, daha doğrusu, Günəş təqvimlərini meydana gətirmişdir. Vaxtın Günəşin hərəkəti ilə hesablanması eramızdan hələ dörd min əvvəl qədim Misirdə yaradıldığı ehtimal olunur. Günəş təqvimi daha mükəmməl və geniş yayılmış bir təqvimdir. Qeyd edildiyi kimi, Günəş ilinin uzunluğu 365 gün qəbul edilmişdir. İl 12 aydan, hər ay isə 30 gündən ibarət olmuşdur. Yerdə qalan 5 gün isə ilin sonuna əlavə olunmuşdu (66).

Yerin Günəş ətrafında illik qət etdiyi məsafə orbit üzrə 940 mln. km-dir. Bu məsafəni Yer saatda 107 min km və yaxud 29, 8 km/san sürəti ilə qət edir. Yerin Günəş ətrafında tam dövr etməsi 365 sutka 5 saat 48 dəqiqə 46 saniyəyə başa gəlir. Bu müddət il adlanır. Yer kürəsi öz oxu ətrafında tam hərəkətini 24 saata (daha dəqiqi 23 saat 56 dəqiqə 48 saniyə) başa vurur.

Yerin öz oxu ətrafında tam fırlanmasına bir sutka (gecə-gündüz) deyilir.

Yerin fırlanması nəticəsində gecə ilə gündüz növbələşir və vaxt vahidi yaranır. Bu harmoniyanın sayəsində Yer səthində işıq-isti və soyuğun dəyişməsi – atmosfer sirkulyasiyası yaranır. Bununla

bərabər, Yerin saat qurşaqlarını ayırmaq, vaxtı dəqiq hesablamaq mümkün olur. Yer öz oxu ətrafında qərbdən şərqə doğru hərəkət edir. Elə bu səbəbdən də Günəş şüaları yer üzünü şərqdən qərbə doğru meridianlar üzrə işıqlandırır. Hər bir meridian xətti üzərində yerləşən ərazilər eyni vaxt ərzində Günəş işığına qərq olur. Coğrafi enliyindən asılı olmayaraq, coğrafi uzunluqları eyni olan bütün coğrafi məkanlarda vaxt fərqlənmir. Bu, yerli vaxt adlandırılır.

Yerin Günəş ətrafında fırlanması nəticəsində fəsillərin yaranması da astronomik elmi əsaslarla sübuta yetirilmişdir. Sırf Novruz mövzusu ilə bağlı olduğuna görə elə ilin başlanğıc günü olan 21 martdan başlayaq. Aydındır ki, 21 martda Günəş qütblərdən eyni məsafədə yerləşən ekvator xətti üzərində zenitdə olur. Günəşin bu mövqeyi nəticəsində onun şüaları Yer kürəsinin şimal və cənub yarımkürələrini eyni vaxtda bərabər işıqlandırır və qızdırır. Bu vaxt gecə ilə gündüz bərabərləşir. Martın 21-nə yaz gecə-gündüz bərabərliyi deyilir. Martın 21-dən Yer kürəsi də elə bir mövqe tutur ki, Günəş tədricən şimal yarımkürəsinin üzərinə doğru meyillənir. Bu zaman şimal yarımkürəsində gündüzün uzunluğu tədricən artır, temperatur yüksəlir. Bu astronomik hadisəyə görə 21 mart şimal yarımkürəsində yaz fəslinin başlanğıc günü hesab olunur.

Bir çox Şərq ölkələrində martın 21-i yeni ilin başlanması kimi qeyd olunur. Üç aydan sonra 22 iyunda Günəş ekvatordan 23° 27`şimal enliyi (paraleli) üzərində zenitdə olur. İyunun 22-si şimal yarımkürəsində ən uzun gün və ən qısa gecə olur. Ona görə də 22 iyuna yay gündönümü deyilir. 22 iyun şimal yarımkürəsində yay, cənub yarımkürəsində isə qış fəslinin başlandığı gündür. Bu müddətdə Yerin şimal yarımkürəsində 4, 6 dəfə istilik artır.

Sentyabrın 23-də yenidən Yer kürəsi fəzada elə bir mövqedə olur ki, Günəş şüaları ekvator xəttinin üzərində zenitdə olur. Ötən vaxt müddətində şimal yarımkürəsində günün uzunluğu tədricən qısalır, gecənin uzunluğu artır, istilik artır. Bu dəyişikliyin nəticəsidir ki, 23 sentyabr şimal yarımkürəsi üçün payız, cənub yarımkürəsi üçün isə yaz fəslinin başlanması günüdür.

23 sentyabrda Günəş 21 martda olduğu kimi, Yerin şimal və cənub yarımkürələrini bərabər səviyyədə isidir və işıqlandırır. Bununla yanaşı, sutka ərzində gecə və gündüzün uzunluğu tam bərabər olur. Elə bu kainat hadisəsinə görə 23 sentyabra payız gecə-gündüz bərabərliyi deyilir. Günəşin şimal və cənub yarımkürəsində olduğu müddətlərdə gecə ilə gündüzün uzunluqlarında müəyyən vaxt fərqləri nəzərə çarpdığı halda, Günəş ekvator xətti üzərində, zenitdə olduğu zamanda (21 mart və 23 sentyabr) gecə ilə gündüz arasında heç bir fərq müşahidə olunmur. Elə yaz və payız gecə-gündüz bərabərliyi məfhumu da bununla bağlı yaranmışdır.

23 sentyabrdan başlayaraq Günəş cənub yarımkürəsi üzərinə keçməklə üç aydan sonra, yəni 22 dekabrda 23,5° cənub enliyinə çatır. Bu vaxt şimal yarımkürəsində qış, cənub yarımkürəsində isə yay fəsli başlayır. Bu zaman yerin cənub qütb sahəsi Günəşə daha çox meyillənmiş olur. Günəşin cənub yarımkürəsi üzərində 23,5° cənub paralelində, zenitdə olduğu 22 dekabra qış gündönümü deyilir.

Günəş 22 dekabrda, 23.5° cənub enliyindən ekvatora doğru dönərək üç aydan sonra, yəni 21 martda yenidən ekvator xətti üzərində, zenitdə olur. Bununla da, yenidən şimal yarımkürəsində bir daha yaz fəsli başlanır. Yerin Günəş ətrafında hərəkəti ilə əlaqədar olaraq fəsillərin əmələ gəlməsi və növbələşməsi dövrü bir il müddətinə başa çatır. Yer kürəsində il ərzində bir-birini müntəzəm əvəz edən 4 fəsil – yaz, yay, payız və qış yaranır.

Yuxarıda göstərilənlər fəsillərin ardıcıl bir-birini əvəz etməsi haqqında astronomiya elminin qəti qənaətidir. Ancaq eramızdan xeyli əvvəl yaradılmış Novruz sistemindən qidalanan təqvimlərlə elmin son texnologiyası əsasında yaradılan müasir təqvimlər arasında elə bir ciddi fərq yoxdur. Əslində, bütün təqvimlər mahiyyətcə bir-birinə çox yaxındırlar. Onlar yalnız bəzi zahiri dəyişikliklərlə fərqlənirlər. Ona görə ki, bütün təqvimlər (lap qüsursuzlar belə) kainat qanunauyğunluqlara söykənir. Burada bir məsələyə toxunmaq gərəkli olardı. Yuxarıda gördük ki, fəsillərin bir-birini

ardıcıl və müntəzəm əvəz etməsi, ilin martın 21-də dəyişməsi sırf kainat hadisəsidir. Bu, əbədi və əzəli, pozulmaz və dəyişilməz kainat hadisəsi astronomik elmi əsaslarla sübuta yetirilib. Bu məsələ artıq birmənalı həllini tapdığından heç kəsdə şübhə doğurmur. Sırf astronomik elmi şərhini tapmış illərin bir-birini əvəz etməsi məsələsinə Novruz sistemində olduğu kimi, rəvayətlə bağlamaq istəmişlər. İlin müəyyən bir heyvanın (at, it, pələng, dovşan və s.) üstündə təhvil olmasına da insanlar inanmışlar. Bir çox tədqiqatçılar bu rəvayətlərin məntiqsizliyinə, çox doğru yerə, şübhə etmişlər. Əslində, bu rəvayətlərin bəzisi o qədər primitivdir ki, özlüyündə gülüş hədəfinə çevrilir. Məsələn, rəvayətlərin birində deyilir ki, il təhvil olunan gün bir nəfər münəccim quyuya düşür, üstünü bir şeylə örtür, orada fal açır ilin hansı heyvan üstündə təhvil olunacağını quyuda bilir. Cəfər Quluzadə «Bahar nə zaman başlanır?» məqaləsində yazır ki, ilin nə üstə təhvil olmasının heç bir elmi əsası yoxdur. Akademik Fuad Qasımzadə də onun bu mülahizəsi ilə razılaşmışdır. Onun qənaətincə də, il heç bir heyvan üstə təhvil olmur. Bunun ardınca F.Qasımzadə yazır ki, məsələnin özünün doğmasının müəyyən dərəcədə elmə, təqvimə, astronomiyaya aidiyyəti var və bunu izah etmək lazımdır (37,57). F.Qasımzadə bu mülahizəsində də tamamilə haqlıdır. Fikrimizcə, qədim insanlar əsassız, maddi-mənəviyyatsız heç nə yaratmayıblar. İlin hər hansı heyvan və həyati ünsürlər üstündə təhvili məsələsi də tamamilə maddi-mənəvi əsassız ola bilməz. Çox böyük ehtimalla deyə bilərəm ki, ilin heyvanlar və həyat ünsürləri (od, su, torpaq, ağac və metal) üzərində təhvili kainat (kosmos) və planet (yer) münasibətlərinin əvəzsiz, dəyişilməz olduğuna, təbiət və cəmiyyət münasibətlərinin qarşılıqlı harmoniyasına açıq işarədir. Bir qədər də açıqlasaq, belə qənaət hasil olur ki, insan bütövlükdə kainat və planetdən kənarda yaşaya bilməz. Kosmos və yer dəyişilməz və əbədi vəhdətdədir. Kosmosdakı bütün dəyişikliklər, xüsusən Günəş və Ayın qarşılıqlı harmonik astronomik asılılığı insan həyatına, hətta hər bir insanın şəxsi taleyinə birbaşa təsir göstərir. Həmin

təqvimlərin yaradıcılarının da məqsədi «kodlaşdırılmış» insan bioqrafiyalarının əyani surətdə oxunmasına yardım etmək olubdur. İnsafən də deyək ki, müəyyən mənada bu niyyətə-yaxın gələcəyin proqnozlaşdırılmasına qismən nail də olublar. Göyü (səmanı) planetin və bütövlüklə kainatın aynası, güzgüsü bilən türklər yer üzərindəki həyatlarını göylərə(səmaya) nəzərən qururdular. Orijinal tədqiqatlar müəllifi olan Razim Əliyevin bu məsələyə yanaşması olduqca məntiqlidir. O, «Məxfilik qrifi, yaxud mif, fəlsəfə, din və dil düyünü» əsərində yazır: «Əcdad Boz qurd heç də yer üzərindəki qurd deyil, Səmadakı, göydəki qurddur, bürcdür (çox vaxt qurdu göy dərili təsvir edirlər). Türklərə öz yurdlarına qayıtmaq üçün bələdçilik edən də göydəki qurddur – Qurd bürcüdür. Belə ki, qədim türklər səmada qurd bürcünü istiqamət tutaraq hərəkət etmişlər» (38, 30).

Qədım Çin mənbələri bu barədə özündə xeyli bilgi saxlayırdı. Bu bilgiləri çinlilər türklərdən mənimsəyiblər. İlin heyvan və ünsürlər üstündə təhvili qədim Çin düşüncəsi ilə daha çox bağlıdır. Qədim Çin düşüncəsinə görə, dünya 5 əsas ünsürdən ibarətdir. Bunlar su, od, metal, ağac və torpaqdır. Bu ünsürlər hərəkətdə, bir-biri sıx əlaqə və bir-birləri il dövri şəkildə qarşılıqlı asılılıqda mövcuddurlar. Su odu söndürür, od metalı əridir, metal ağacı kəsir, ağac da torpaqda boy atır, torpaqda su yaranır. Bu ünsürlərin hər biri özündə iki səma kötüyünü birləşdirir və iki halda (erkək və dişi) olurlar. Səma budaqları 10-lu, yer budaqları 12 silsiləli, 60 illik dövrü təşkil edir.

Qədim çinlilər 12-li yer budaqlarına uyğun olaraq ilin aylarını 12-lik rəmzi ilə adlandırırdılar. Bu rəmzlərə müvafiq surətdə heyvan adları verilmişdir: siçan, inək, pələng, dovşan, əjdaha, ilan, at, qoyun, meymun, toyuq, it və donuz. Dünya xalqlarının, demək olar ki, hamısında heyvan kultu bu və ya digər dərəcədə aparıcı olmuşdur. «Qədim dövr allahlarının əksəriyyəti heyvan simalarında təqdim olunurdu. Heyvanlar allahın yol yoldaşı və köməkçiləri hesab olunurdu. Məsələn, qədim yunanlarda ovçuluq ilahəsi Artemida

xallı maral obrazında təsvir olunurdu. Siniflərə bölgünün olduğunu bilməyən xalqlarda belə təsəvvür vardı ki, insanların mənşəyi heyvanlarla, quşlarla, balıqlarla və hətta həşəratlarla əlaqəlidir.

Kaliforniyalı Koyot hinduları belə hesab edirdilər ki, onların əcdadları canavar olmuşdur. Sibir xalqlarının əksəriyyəti Ob xantları, Ural mansiləri, narım selkupları öz mənşələrini mifik təsəvvürlərinə görə, ayıdan, dovşandan, qazdan, durnadan, balıqdan və qurbağadan götürürdülər.

… Bir sıra xalqların miflərində heyvanlar insanlara od verir, sənət öyrədir. Buryat əfsanəsinə görə, birinci şaman qartal olmuşdur. O, qadınlarla əlaqəyə girərək, onlara şamanlıq öyrətmişdir» (29, 135-136).

Çinlilərin inamına görə, su əjdahanın təsir dairəsində olmuşdur (Azərbaycan xalq nağıllarında əjdahanın suyun qarşısını kəsib qurban tələb etdiyi bizlərə bəllidir). Çində əjdaha yalnız suların sahibi deyil, müqəddəs sayılmış, Çin imperatorunun, ümumən, Çinin simvolu olmuşdur. Qərb xalqlarından fərqli olaraq, Çində çox vaxt əjdaha müsbət rolda – xeyirxahlığın, sülhün simvolu sayılmışdır. Çində beşinci ayın beşinci günü keçirilən əjdaha bayramı ən sevimli bayramlardan biri hesab edilirdi. Həmin gün bayram libasında olan qayıqlarla çaylarda gəzər və sulardakı əjdahalara qurban verilərdi. Bundan başqa, çinlilər feniks quşuna, fil və tısbağaya etiqad etmişlər. Heyvanların şahı sayılan şirə isə xüsusi inamla etiqad bəsləmişlər. Onlar çox vaxt şir təsvirlərinin altında «van» (padşah) işarəsi cızırdılar. Şir, xəstəliyin düşməni, sağlamlığın dostu hesab edilirdi. Orta Asiya türklərində (özbək, qazax və b.) belə bir inam mövcud olmuşdur ki, guya şir insanların dilini başa düşür. Özbəklər şiri müqəddəs hesab edir, onu öldürməyi günah bilirdilər. Şirlə rastlaşdıqda ona baş əyməli, şiri-xuda deyilməli idi.

Tarixi və ədəbi abidələrdə göstərilir ki, Yaxın Şərq ölkələrində bir zamanlar şir ağ atla yanaşı, alovun-işığın, həyatın simvolu hesab edilən Günəşi yerdə təmsil edən bir heyvan sayılırmış.

Maraqlıdır ki, heç vaxt şir olmayan Çində bayram şənliklərində onun müqəvvasını gəzdirib, onunla rəqs ifa edilməsi Novruz mərasimindən gəlmədir (56).

Çində şirlə bərabər, pişiklər, xoruzlar, meymunlar, ilanlar da müqəddəs sayılmışdı. Qədim Çində ata xüsusi hörmət bəslənilmişdir. Ata belə əlahiddə münasibət atın fövqəlgüc və əhəmiyyətə malik olması ilə bağlıdır. «Atlar dövlətin hərbi hazırlığıdır. Əgər səma bu hazırlığı əldən alırsa, onda dövlət tənəzzülə məruz qalar» (29, 137-139). Çində ata ilahi mənşəli bir varlıq kimi də baxmışlar. Elə bu inamın nəticəsidir ki, miflərdə səma atlarından danışılır. Qədim inamlarda qanadlı atlardan söhbət açılır. Geniş yayılmış miflərin birində at əjdahanın qohumu kimi verilir və suyun, möcüzəli gücün yaxını hesab olunurdu. Sudan yaranmış qeyri-adi atlar haqqında, ümumən, türk, o cümlədən Azərbaycan türklərinin təfəkkürünün məhsulu olan miflərdə də danışılır. Yeri gəlmişkən, onu da qeyd edək ki, qədim Çində atın belə fövqələzəmətə malik olması türklərlə birbaşa bağlıdır. Belə ki, həmin atları Çinə türklər vermişlər. Biz burada məqsədli şəkildə Çin mifologiyasındakı heyvan kultundan söhbət açdıq. Buna ilin heyvanlar üstündə təhvil olması ilə bağlı məsələ səbəb oldu.

İlin heyvan və ünsürlər üstündə təhvil verilməsinin özündə elmi izahını hələ dəqiq bilmədiyimiz dərin bir mətləb gizlənir. Hələlik əfsanələrə bələnmiş əsl həqiqət tarixin hansı dönəmindəsə açıqlanacaqdır. İlin müəyyən heyvanlar üstündə təhvil olmasını bir çox orta əsr mütəxəssisləri də qəbul etmişlər. Zodiak (zodiak yunan sözü olub, mənası «heyvanlar dairəsi» deməkdir) bürclərinin adları şərti olsa da, Günəşin il ərzində hərəkət trayektoriyası həmin bürclərlə əhatə olunur. Günəş il ərzində – 12 ay müddətində zodiak adlanan – Qoç, Buğa, Əkizlər, Xərçəng, Şir, Qız, Tərəzi, Əqrəb, Oxatan, Oğlaq, Dolça və Balıqlar bürclərində qərbdən şərqə öz yerini dəyişir. Bu zodiak bürcləri göy sferasının böyük dairəsi boyunca yerləşir. Həmin dairə ekliptika adlanır. Ekliptika müstəvisi

ekvator müstəvisi ilə 23 dərəcə 27 dəqiqə bucaq altında sferanın mərkəzindən keçən xətlə kəsişirlər. Yuxarıda qeyd etdik ki, həmin kəsişən nöqtələr bərabərlik nöqtələri adlanır (66). Bunları qeyd etməkdə məqsədimiz Günəşin zodiak düzümündə hərəkət ardıcıllığını göstərməkdir. 12 zodiak astronomik hadisənin təzahürüdür. 12 zodiakda heç bir fərqlilik yoxdur. Yalnız zodiakların adlarında müəyyən şərtilik ola bilər.

Bütün dünyada tanınmış məşhur özbək alimi Uluqbəy (1394-1449) tərtib etdiyi astronomik cədvəllərdə və «Yeni astronomik cədvəllər» əsərində yaz gecə-gündüz bərabərləşməsi vaxtını həmin heyvanların adları ilə 12 yerə bölmüşdür və hərəsinə 2 saat ayırmışdır. 24 saatdan ibarət olan sutkanın hər iki saatı bir heyvanın adı ilə adlanır. Saat 00-dan 2^{00}-ə kimi, 2^{00}-dən 4^{00}-ə, 4^{00}-dən 6^{00}-ya, 6^{00}-dan 8^{00}-ə və s.

Dəqiq koordinatlar və təsdiqini tapmış astronomik müşahidələr vasitəsilə Novruzun astronomik hadisə olduğu qəbul edilibdir. Martın 21-də Günəşin cənub yarımkürəsindən şimal yarımkürəsinə keçməsi, bunun nəticəsində kainat və təbiətdə köklü dəyişikliklərin baş verdiyi gözləgörüləsi, hissolunası, duyulası gerçəklikdir. Kainatın əzəli-əbədi qanunlarına söykənən Novruz sistemi əfsanə və dinlə bağlılığı qəbul etmir. Novruz sistemi kainat qanunlarına əsaslandığından ən qədim dinlərdən olan zərdüştlikdən belə çox-çox əvvəl yaranıb. Novruz bayramının nəinki islam dinindən, hətta atəşpərəstlikdən də əvvəl meydana gəldiyini tarixi fakt və mənbələr təkzibolunmaz dəlillər və sübutlarla təsdiqləyibdir. Görkəmli Azərbaycan şairi N.Gəncəvi «İskəndərnamə»də yazır ki, İskəndər İran və Azərbaycana gəlməmişdən əvvəl buralarda Novruz və Sədə bayramları keçirilirdi. Novruz sisteminin uca nöqtəsi sayılan bayram hissəsi ayın, günün dəyişdiyi astronomik hadisə olduğundan hər hansı dini baxışa və ya digər düşüncəyə dünyəvi ehtiyacı yox idi. Biruninin dediyi kimi, «bayram var ki, səbəbi dini işlərdir, bayram da var ki səbəbi qeyri-dini işlərdir». O, Novruzu qeyri-dini bayramlar sırasına aid edir.

İ.S.Braginski «Bahar bayramı haqqında» məqaləsində yazır ki, Novruz bayramından yazan orta əsr müəllifləri Şərq ölkələrində hətta islam dini yaradıldıqdan sonra da bu bayramda yaz əmək ənənələrinin möhkəm yer tutmasını qeyd etmişlər. «Avesta» Novruz sistemindən kifayət qədər bəhrələnibdir. Zərdüşt dinində od müqəddəs sayılıb. Bu özəl inam Novruzdan gəlirdi. Ancaq Novruzdakı oda inancla «Avesta» inamı arasında kəskin fərq də duyulur. Novruz düşüncəsində odun üstündən tullanmaq, odda təmizlənmək adəti olduğu halda, zərdüştlükdə bu hərəkət qəbahət sayılırdı. Müqqədəs hesab edilən şeyin üstündən tullanmaz, ağırlıq-uğurluğu, azar-bezarı onun üstünə tökməzlər. Bu mərasim atəşpərəstlikdən çox-çox qədimdir. Görünür, o dövrdə hələ od müqəddəsləşdirilməmişdir (51). Ancaq islamın müqəddəs kitabı olan Quranda Novruz bayramının adı belə çəkilməyibdir. Novruz bayramının Həzrət Əli ilə əlaqələndirilməsi heç bir məntiqə uyğun gəlmir. Ən birincisi, Novruzun islam dinindən xeyli əvvəl formalaşdığı həqiqi təsdiqini tapıbdır. Həzrəti Əlinin Novruz bayramının yaradıcısı kimi qələmə vermək gerçəklikdən çox uzaqdır. Axı Əli İbn Əbu Talıbın vətəni olan Ərəbistanda Novruz bayramı birmənalı şəkildə qeyd olunmur. Bu məsələdə Həzrəti Əli ilə bağlı ikinci bir əsassız versiya da irəli sürülür ki, bu da havadan asılı qalır. Bu versiyanın tərəfdarları yazırlar ki, guya Məhəmməd peyğəmbər həmin gün (Novruz günü) Əlini şiələrin başçısı elan etmişdir. İslam tarixindən məlum olur ki, şiəlik bir təriqət kimi Həzrəti Məhəmməd dünyasını dəyişəndən sonra meydana gəlibdir.

Əsl həqiqəti isə islam tarixinin özü diktə edir. Tanınmış fransız islamşünası A.Masse tarixi faktlara istinadən yazır: «656-cı il dekabr ayının əvvəllərində Əlinin xəlifə seçildiyi gündən beş aydan artıq vaxt keçmişdir» (43, 52).

Bu tarixi faktdan açıq şəkildə aydın olur ki, Əli hakimiyyətə martda (Novruzda) yox, iyulun əvvəllərində keçmişdir. Tarixin yaddaş da təsdiqləyir ki, Əlinin hakimiyyətə gəlməsinin Novruzla heç bir bağlığı yoxdur. Novruz türklərin əhval-ruhiyyəsinə uyğun

olaraq çalıb-oxumaq, deyib-gülməklə müşayiət olunur ki, bu optimist keyfiyyətlər də islam dini ilə bir o qədər bağlı deyildir. XI əsrdə yaşamış böyük mütəfəkkir, filosof şair Ö.Xəyyam «Novruz-namə» adlı xüsusi traktat yazmış, Novruzu «xalqın əvəzsiz şənliyi» adlandırmışdır.

Bütün dünyanın böyük mütəfəkkirlər kimi tanıdığı Rudəki, Firdövsi, İbn Sina, Xaqani, Nizami və b. Novruza təbiətin diktə etdiyi əsl xalq bayramı kimi baxmışlar. Tarixin müxtəlif dönəmlərində yazın gəlişi münasibəti ilə onlarla «Bahariyyə» yazılmışdır. Bütün bunlar əsas vermir ki, həmin bayramın yaradıcısının Həzrəti Əli olduğu qənaətinə gələk.

Novruz bayramının geniş kütlə arasındakı nüfuzunu hiss edən din xadimələri müxtəlif dövrlərdə ondan bu və ya digər formada faydalanmağa çalışmışlar. «Bu bayramı müxtəlif dövrlərdə hakim siniflər öz mənafelərinə xidmət edən bayrama çevirməyə çalışmışlar: atəşpərəstlik və islam dini nümayəndələri ona öz təsirlərini göstərməyə, ona gah İranın əfsanəvi hökmdarlarından olan Cəmşidin, gah da Həzrəti Əlinin taxta çıxması günü ilə əlaqələndirməyə çalışmışlar.

…Ancaq xalqı buna inandıra bilməmişlər. Əslində, Novruz bayramı nəinki islam dininin prinsiplərinə uyğunlaşmamış, bəlkə də, bu prinsiplərin ziddinə olmuşdur. Təkcə onu qeyd etmək kifayətdir ki, islam dini ilə əlaqədar olan dini bayramlar kədər və matəm günləri olduğu halda, Novruz-şənlik, sevinc bayramıdır. Toy mərasimləri çox vaxt Novruz günlərində keçirilmişdir» (48, 74-75).

Ümumən, vahid bir sistem olan Novruzun son günü astronomik hadisəyə təsadüf etdiyindən təntənəli qeyd olunubdur. Həmin gün – martın 21-i sabitdir. Hər il eyni astronomik hadisə baş verir. Novruz bayramı günü dəyişilməzdir. Tarixin müxtəlif dönəmlərində bu bayramın təntənəsinə, şöhrətinə göz dikilib, şərik çıxılıbdır. Dini bayramlar qəməri təqvimi ilə keçirildiyindən sabit qala bilmir,

yerini hər il dəyişir. Qəməri ildə aylar 28-29 gündən ibarət olduğundan il 354 gündən artıq olmur. Günəş təqvimi də bundan 11 gün artıqdır. Elə bu səbəbdəndir ki, qəməri təqviminə əsaslanan dini bayramlar Günəş təqviminə nəzərən hər il 10-11 gün irəli çəkilir. Məsələn, bu il Qurban bayramı aprelin 10-da keçirilibdisə, gələn il fevralın sonuna düşəcəkdir. Daha bir il sonra isə fevralın 20-sinə təsadüf edəcəkdir. Digər dini bayramlar da (orucluq, məhərrəmlik və s.) bu taleyi yaşayır. Hər il 11 gün fərq olmaqla, hər 33 ildən bir qəməri il, Günəş ilindən düz bir il geri qalır. Bu müqayisə bir daha sübut edir ki, Novruz dini bayram deyil. Dini bayramlar qəməri təqvim, Novruz isə Günəş təqviminə əsaslanır. Novruz bayramı sabit bayram olduğundan islam din xadimləri rişxəndlə ona «topal bayram» demişlər» (51).

Novruzun şiə təriqəti ilə əlaqələndirilməsində daha bir ziddiyyətlə rastlaşırıq. Aydındır ki, bu kainat bayramını şiə təriqətinə mənsublarla eyni təntənə ilə sünni məzhəbinin daşıyıcıları da qeyd edirlər. İslam dininə mənsub Azərbaycan türklərinin böyük bir hissəsini təşkil edən sünni təriqətinin tərəfdarları da şiələrlə birgə bu bayramı böyük təntənə ilə keçirirlər. Bu versiyanı Novruzun sünni məzhəbinin daşıyıcıları tərəfindən dəbdəbə və əzəmətli keçirilməsinin özü açıq şəkildə inkar edir.

Novruzun islam dininə bağlılığını açıq-aşkar inkar edən daha bir «əşyayi-dəlil» vardır. 1897-ci ildə F.A.Brokhauz və İ.A.Yefromin Sankt-Peterburqda nəşr etdikləri «Ensiklopedik lüğət»də deyilir ki, Novruz baharda gecə və gündüzün bərabərləşdiyi gün şərəfinə keçirilən yeni il bayramıdır, mey və qızılgüllər bayramıdır. Adıçəkilən «Ensiklopedik lüğət»də daha çox diqqətiçəkən Novruzun mey bayramı kimi qeyd olunmasıdır (37, 17). Mifik şah olan Cəmşidin (Cami Cəmşidin) meyin yaradıcısı olması barədə əfsanə də elə bu fikirdən su içir. Novruz bayramında mey (şərab) içilməsi onun islamdan çox əvvəl yarandığını bir daha təsdiqləyir.

Novruz və dinlərin xronologiyasına azacıq nəzər saldıqda görürük ki, Novruz dinlərdən çox əvvəl meydana gəlibdir. Novruz qanunauyğunluqları insanların həyat normalarına çevrilibdir. Novruz qanunauyğunluqlarının insanların şüuraltına keçdiyini, insanların həyatlarını Novruz sisteminə uyğun qurduqlarını açıq-aşkar görən dini ideologiya tərəfdarları Novruzdan faydalanmağa başlamışlar.

4.2. Fəsillərin yaranmasında Novruzun yeri

Yuxarıda Novruzun bütöv bir sistem olduğunu dönə-dönə qeyd etdik. Novruz yalnız martın 21-22-ni əhatə etmir. Bir daha vurğulayırıq ki, ilin təzələnməsini təsdiqləyən astronomik hadisənin – Günəşin zenitdə olması, günəş şüalarının yerin hər iki cənub və şimal yarımkürələrini eyni səviyyədə işıqlandırması, gecə-gündüz bərabərliyinin yaranması Novruzun təntənə dövrü sayılır. Təqvim Novruzdan (21-22 mart) başlanır. Həmin gün yaz fəsli də başlayır. Günəşin gecə-gündüz bərabərliyindən (21 martdan) ilin ən uzun gündüz vəziyyətinə qədər (22 iyuna) olan dövr yaz adlandırılır. Elə bu qlobal kainat hadisəsini müşahidə edən insanlar həmin günləri martın 21-22-ni dəbdəbəli bir formada qeyd edirlər. Novruz bayramı bu təntənələrlə başa çatsa da, Novruz sistemi bir tsikl kimi davam edir. Kainat və planetin sirlərinə kifayət qədər bələd olan Azərbaycan türkləri yazın ilk gününü həssaslıqla müşahidə etmişlər. Xalqın min illərlə apardığı müşahidələrdən gəldiyi qənaətə görə, bahar fəslinin birinci günü yazı, ikinci günü yayı, üçüncü günü payızı, dördüncü günü qışın əlamətlərini bildirirdi. Baharın ilk günü yağmurlu-yağmursuz, küləkli-küləksiz keçməsi ilə müəyyənləşdirilərdi ki, yaz necə keçəcəkdir. Əgər hava küləksiz və yağmursuz keçərdisə, yazın da xoş keçəcəyi güman edilərdi. Əgər həmin gün hava soyuq və yağmurlu keçərdisə, yazın da yağmurlu olacağı qənaətinə gəlinərdi. Empirik müşahidə əsasında xalq belə

bir dəqiq qənaətə gəlmişdi ki, yaxşı il yazından bəlli olar. Hava, günəş və ümumən, təbiət üzərində aparılan müşahidələr nəticəsində qarşıdakı üç gündə digər üç fəsil-yay, payız və qış haqqında proqnoz verilərdi.

Xalq yazın birinci ayını «qarayaz» adlandırır. Bunun belə adlandırılması torpağın tam göyərməməsi, yaz şumunun aparılması ilə bağlıdır. Qarayaz düz bir ay (22 aprelə qədər) davam edərdi. Bir ay keçəndən sonra deyərdilər ki, yazın «qırxı» çıxdı. Yazın qırxı çıxandan sonra camaatda bir rahatlıq, arxayınçılıq yaranardı. Qarayazdan ən çox yadda qalan el arasında «Qarının borcu» və «Danaqıran» adlandırılan günlərdir. Bu günlər barədə xalqın yaddaşında müxtəlif variantlı məzmuna malik əhvalatlar yaşamaqdadır. «Qarının borcu» adlandırılan günlərlə bağlı «Danaqıran»la əlaqədar folklor nümunəsinin bir versiyasında deyilir ki, danaqıran çiçəyinin (el arasında Novruz gülünə danaqıran deyirlər) açdığını görən bir kişi mal-qarasını yaylağa aparır. Ehtiyatını əldən verməyən kişi özü ilə yaylağa 40 şələ ot, 40 kötük odun və 40 ədəd çörək götürübmüş. Qəflətən hava tutulur, çovğun qopur, qar yağır.

Kişi 40 şələ otu heyvanlara yedizdirir, 40 çörəyi özü yeyir, 40 kötüyü isə yandırıb qurtarır. Hava açılmır ki, açılmır. Ot-ələfi olmayan mal-heyvan acından tələf olur. Başına gələn olaydan dərin peşmançılıq hissi keçirən kişi öz-özünə deyir: «Ay bunu qırx deyən zalım, elə əlli deyərdin də!» Bu əhvalatla bağlı Şirvan bölgəsində belə bir deyim formalaşıb: «Qırx kötük yanan, qırx çuval saman, Allah aman» (36, 143). Həmin dövrə – martın sonu ilə aprelin birinci yarısı arasına Azərbaycanın bir çox regionlarında «keçiqıran» deyilir. Həmin ərəfədə havalar sazaqlı, soyuq keçir, soyuq küləklər əsir. Məlumdur ki, keçi də şaxtaya, soyuğa dözümsüz olduğundan qışdan çox arıq çıxır. Qışdan arıq çıxmış keçilər yazın soyuq-sazağına duruş gətirə bilməyib qırılır. Elə buna görə də həmin dövrə keçiqıran deyirlər.

Yazın qırxı çıxdıqdan sonra yaz şumunun qırğın dövrü başlayırdı. Yaz şumu da, adətən, bir ay davam edirdi.

Yazın son dövrü 20 gün davam edir ki, həmin dövrə «qızılgül» dövrü deyilir. Bu dövrdə əhalinin olan-qalan azuqəsi tükənir, yeni məhsulun yetişməsinə isə hələ çox qalır. Yazın «qızılgül» dövrü əkin-bicin adamları arasında «arpa biçini» və ya «arpaya cin çəkilən» dövr kimi tanınıbdır. Bu vaxt artıq güneylərdə əkilmiş arpa biçilməyə başlanardı.

İyunun 22-də yay fəsli başlayır. Yay fəsli gündüzün ən uzun vaxtından (22 iyun) payız gecə-gündüz bərabərliyinə (22 sentyabr) qədərki dövrü əhatə edir. Martın 22-dən uzanmağa başlayan gün iyunun 22-dək davam edir. İlin ən uzun günü və ən qısa gecəsi də elə iyun ayının 22-nə düşür. Astronomik təzələnmə səbəbindən bu dövrə Novruzun yay məqamı deyilir. İyunun 22 – dən başlayaraq gündüzlər get-gedə qısalmağa, gecələr isə uzanmağa başlayır. Bu hal dekabrın 22-dək davam edir. Lap qədimlərdən xalq arasında yay ilin «anbarı» sayılıb. Bütün kənd təsərrüfatı işləri – əkin-biçin və məhsul toplanışı məhz yayda həyata keçirilirdi. Hətta yayın son ayında əkin-səpin də aparılırdı. Xalqın təcrübəsinə görə, yayda aparılan əkin-səpin daha çox məhsul verirdi. Uzun illərin müşahidə və təcrübəsinə istinad edən xalq yayı iki əsas mərhələyə bölürdü. İyunun 22-dən başlanan birinci mərhələ 45 gün davam edirdi. Bu mərhələ «quyruq doğdu» və ya «quyruq dondu» dövrünə kimi davam edir.

Quyruq doğana qədər olan dövrün özünü də xalq 2 mərhələyə bölürdü.Xalq təqvimində iyunun 15-dən iyulun 15-ə qədər olan dövrə «qoradəyən ay» deyilərdi. Bu dövrdə qora istidən sulanır. Onun ardınca «qorabişirən ay» gəlir. İyulun 15-dən avqustun 15-ə qədər olan dövrə qorabişirən ay deyilib. İlin ən isti günləri bu ərəfəyə təsadüf etdiyindən qora yetişirdi, şirinləşirdi. Quyruq dondu və ya quyruq doğdu ilə yayın ikinci mərhələsi başlayır. Qeyd etdiyiniz kimi, bu mərhələnin adı ilə bağlı xalq arasında iki versiya vardır. Bir versiyaya görə, həmin vaxt – düz yay yarı olanda Ayı bürcündə dalbadal quyruqlu kimi 2-3 ulduz görünür.

Həmin ulduzun doğması ilə əlaqədar olaraq bu vaxta quyruq doğan deyilir. Yayın həmin mərhələsində istilər bir qədər səngiyir.

İkinci versiyaya görə, həmin gün – avqustun 6-da kəsilmiş qoyunun gecə çöldə ağacdan asılmış quyruğu donur. Hər iki variantın ifadə mahiyyəti eynidir. Yayın şiddətli istiləri həmin vaxt bir qədər sınır, azalır. Yayın ikinci mərhələsi başlayandan sonra camaat qışa hazırlığı daha da sürətləndirir. Azərbaycanın bir çox regionlarında quyruq doğandan sonra yay şumuna başlanılırdı. Yayda əkilən taxıl «arağac» adlanardı. Xalqda minillik müşahidələr belə bir qənaət yaratmışdı: «əkin gərək iki yay görsün, yay ək, yay biç». «Xalqın qənaətinə görə, quyruq doğana qədər bal kəsmək olmazdı, çünki həmin ərəfədə bal sulu olar. Quyruq doğandan sonra camaat bal kəsməyə başlayardı» (36, 148).

Novruz sisteminin üçüncü məqamı payızdır. Payız sentyabrın 22-dən dekabrın 22-dək davam edir. Novruzun payız dönəmində yaz məqamında olduğu kimi, gecə ilə gündüz yenidən bərabərləşir. Günəşin istiliyi azalır, işıqlı gündüzlər qısalır. Sentyabrın 21-22-də Novruzun yaz dönəmində olduğu kimi, gündüz ilə gecə bərabərləşir. Xalqın inam və müşahidəsinə görə, Günəşin hökmranlıq müddəti qurtardığından taxtdan düşür. Payız-yaz və yayın maddi-mənəvi yekunudur. Əkin-biçin adamları yetişdirdiyi məhsulları yığıb toplayar, yaylaqlara qalxanlar geri dönürlər.

Günlər getdikcə qısalır, havalar soyumağa başlayır, köçəri quşlar isti ölkələrə qayıdır. Payızda yetişmiş məhsul yığılır, yeni məhsulun özülü qoyulur, payız şumu və səpini aparılır. Dağlıq və dağətəyi bölgələrdə payız şumuna bir qədər tez başlanılardı ki, əkilmiş taxıl soyuğa, qara düşməsin.

İnsanlar qısa hazırlığın əsas işlərini payızda görər və tamamlayardı. Qışın sərt və mülayim keçəcəyini də müxtəlif yardımçı təbii vasitələrin köməkliyi ilə elə payızda müəyyənləşdirilərdi. Xalq fenologiyasına (bitki və heyvanların həyatındakı hadisələrin qanunauyğunluğu) görə, çinar ağacı yarpağını başdan tökməyə baş-

layardısa, həmin ilin qışı mülayim keçəcəyi gözlənilirdi. Əgər çinar aşağıdan yarpaq tökümünə başlayardısa, qışın sərt olacağı proqnozlaşdırılırdı. Ağaclar yarpaqlarını gec tökərdisə, qışın son dərəcə sərt keçəcəyi və uzun sürəcəyi gözlənilirdi. Xalqın inam və müşahidələrində belə nümunələr saysız – hesabsızdır. Əvvəlcədən aparılan empirik müşahidələr sərt və ağır qışla bağlı idi. Sözün həqiqi mənasında, qış insanlar üçün məşəqqətli bir dövr sayılırdı. Elə bu səbəbdən xalq payızla bağlı deyirdi:

«Qorx payızdan, qabağından qış gəlir. Qorxma qışdan, qabağından yaz gəlir». Xalq maddi-mənəvi cəhətdən payızdan qışın sərt üzünə hazırlaşırdı. İqtisadi baxımdan qışa hər cür ehtiyat görmüş insanlar mənəvi – psixoloji baxımdan da qışa tam hazır olduqlarını nümayiş elətdirirdilər. Qədim tarixə malik olan «Kəvsəc» bayramı da elə bu niyyətlə keçirilirdi. «Kəvsəc» oyunu payızın ortalarında (noyabrda) keçirilirdi. Bu o vaxt olur ki, havalar soyuyur, yer – yurd qırov bağlayır. «Kəvsəc» geniş xalq kütlələrinin marağına səbəb olan mərasim tamaşası olub. Xalqın iştirakı ilə meydanda keçirilən bu mərasim tamaşasının leytmotivini qışı nüfuzdan salmaq, onu qorxutmaq, camaatı psixoloji cəhətdən qışa hazırlamaq təşkil edir. Komik qiyafədə olan bir nəfər əynində cındır paltar qatıra minib meydana çıxar və əlində tükü yolunmuş qarğa tutarmış. Ətrafdakılar onun üst-başına soyuq su tökərmiş. Ancaq o, bunu hiss etdirmədən «istidir – istidir», – deyə qışqırar, əlindəki yelpiklə üzünü yelləyərdi. Həmin şəxsin bir əlində qarğa tutması da təsadüfi olmayıb. Xalqımızın inamlarından bizə məlumdur ki, qarğanın «qarr», «qarr» səslənməsi qarın, qışın çağırılması kimi mənalandırılıb. Buradakı qatır da qışın simvoludur. Məlumdur ki, qatır doğub-törəmir, artıb-çoxalmır. Qış da qatır kimi barsız-bəhərsizdir, nəsil artıran yox, nəsil kəsəndir (40, 109).

Tədqiqatçıların bəziləri «Kəvsəc» mərasim tamaşasını Novruz ərəfəsində keçirilən «Qarı ilə martın deyişməsi» və qarı nənə ilə

bağlı olan digər süjetli səhnələrlə eyniləşdirirlər. «Kəvsəc» meydan tamaşasının bir sıra variantları olmuş (A.Nəbiyev), ancaq yuxarıda qısa mündəricəsini xatırlatdığımız mərasim oyunu daha qədim və populyar olmuşdur. Onun məzmunundan göründüyü kimi, orada qışın yazla deyişməsi – mübarizəsi yoxdur. Dediyimiz kimi, qışı mənən əzmək, onu hörmətdən salmaq, ona əhəmiyyət verməmək daha çox qabardılır. Qış şər qüvvə kimi diqqətə çatdırılsa da, onun mənəvi qələbəsinin olmayacağı, tezliklə yox olacağına psixoloji bir inam yaradılır. Xalqın təfəkküründən süzülüb gəlmiş və zaman – zaman cilalanmış belə nümunələrdən daha xarakterik olanına diqqət yetirək:

Üçü bizə yağıdı,
Üçü cənnət bağıdı.
Üçü yığıb gətirir,
Üçü vurub dağıdır.

Son dərəcə açıq-aydın və şəffaf olan bu folklor nümunəsi qısa, lakonik olduğu qədər də, mündəricə baxımından da olduqca zəngindir. Bu poetik nümunədə ilin fəsillərinin xarakteri müdrikcəsinə təsvir olunub. Bizə yağı kəsilən qış, cənnət bağı yaz, var-dövlət yığıb toplayan yay, əldə edilmiş nemətləri dağıdan isə payızdır.

İlin son fəsli, canlı təbiətə və insanlara yağı kəsilən qışdır. Qış fəsli dekabrın 22-dən martın 22-dək davam edir. Bir qədər irəlidə qeyd etdik ki, 40 günlük böyük, 20 günlük kiçik çillədən və 30 günlük Boz aydan ibarətdir. Qışla vağlı bəzi məlumatları əvvəldə verdiyimizdən burada təkrara ehtiyac duyulmur.

Novruz daxili harmoniyası, dəyişilməz nizamı olan sistemdir. 365 (4 ildən bir 366) gündən ibarət olan il, 4 fəslə, hər fəsil 3 aya, hər ay özlüyündə 4 həftəyə, həftə isə 7 günə bölünmüşdür. Bu harmoniya sutka ərzində də özünü qoruyub saxlayır. Əski zamanlarda Azərbaycan türkləri vaxt və təqvim anlayışını özləri üçün dəqiqləşdirmişdir. Vaxt və təqvim anlayışlarında zərrə qədər

səhvə yol verməmələrinə əmin olan müdrik xalqımız qənaət və düşüncələrini folklor nümunələrində belə açıqlamışdılar.

Babanın bir çuxası var,
On iki cibi,
Hər cibində otuz düymə,
Hər düymənin bir üzü ağ,
Bir üzü qara.

Xalqın təvəkküründə baba kainatı, çuxa ili, on iki cib ilin aylarını, otuz düymə ayın günlərini, ağ və qara düymələr isə gecə və gündüzün rəmzidir.

Məna və mahiyyətcə bu tipli folklor nümunələri olduqca çoxdur. Dərin müşahidə və güclü yaddaşa malik xalqımız hər ayın və hətta hər günün belə xarakterini müəyyənləşdirə bilmişlər. Fevralın 20-dən martın 20-nə qədər olan bir aylıq dövrə Boz ay, aprel ayına – leysan, may ayına ağlar – güləyən, iyuna – vaynənə, iyula – qorabişirən, avqusta – quyruq donan, (quyruq doğan), sentyabra – sol, yan, noyabra – qırovdüşən deyiblər.

Bu adlar ötəri, təsadüfi verilməyib. Uzun illərin dəqiq və dərin müşahidələrindən, dönə-dönə sınaqdan çıxarıldıqdan, təcrübədən keçdikdən sonra verilibdir. Fevralın sonu və martın ilk ongünlüyü havalar boz-bulanıq, dumanlı, aprelin yağıntılı mayın istili-soyuqlu, iyulun həddindən artıq isti, avqustun nisbətən mülayim, sentyabrda isə ot-ələfin yanıb-saralması bu ayların belə adlandırılmasını şərtləndirib.

Xalqın uzun illər ərzində gəldiyi qənaət belə idi ki, payız gecə-gündüz bərabərliyindən sonra günəş tədricən taqətdən düşür, gücsüzləşir. Xalq da belə bir inam var idi ki, günəş dərinliyə düşür. Dekabrın 21-22-ə kimi günəş tamam taqətdən düşmüş bir durumda olur. Dekabrın 21-22-nə qədər gündüzlər qısalır, gecələr uzanır. Nəhayət, qış gündönümündə Günəş zodiakın ən dərin guşəsinə – Oğlaq (Təkə) bürcünə girir. Həmin gün (dekabrın 21-22-si) ilin ən

uzun gecəsidir. Bu astronomik hadisə də dualizmin əlamətidir. Gecə ilə gündüzün döyüşü gedir. Həmin gecənin uzunluğu 14 saat olur. Xalq həmin gecəyə «şəbi – yelda», «leylət – təvil» (ilin ən uzun və qaranlıq gecəsi) demişdir. «Şəbi – yelda» gecəsinin səhəri günəş yeniləşmiş bir vəziyyətə gəlir. O, xeyli güclənmiş, qüvvətlənmiş bir durumda olur. XX əsrin ortalarına kimi xalqımız dekabrın 21-ni – qış gündönümünü təntənəli şəkildə, bayram səviyyəsində qeyd etmişlər. Bayram ayrı-ayrı dövrlərdə müxtəlif adlar daşısa da, onun mahiyyəti və məqsədi dəyişməmiş, erkən çağlar «Sıraqan», yaxud «Çıraqan», yəni işıq bayramı, nursaçan bayram, sonralar isə «Nüvədruz» adı (sözün mənası doxsan gündür. Novruza qədərki 90 günlük qış soyuqları dövrünə işarədir.) altında qeyd edilmişdir. Elə bu səbəbdən çox vaxt onu «Doxsan bayramı» da adlandırmış, son yüz ildə isə o, sadəcə, «Çillə gecəsi», yaxud «Şəbi-çillə» mərasimi kimi el içində şöhrət tapmışdır (55).

Xalqın bu günü bayram səviyyəsinə qaldırmaqda niyyəti Günəşin «çilləsini» kəsmək olubdur. Mənbələrə istinadən tam əminliklə deyə bilərik ki, Azərbaycanın bir çox yerində dekabrın 21-də küçə və meydanlarda tonqallar çatılar, ev-eşik, dükan-bazar işığa qərq olardı. Həmin gecə hər bir ev sahibi öz evində olmalı, bayramı ailə-uşağı ilə birlikdə qeyd etməli idi.

Qış gündönümü şərəfinə keçirilən törənlərdə də Novruzun rəmz və əlamətləri açıq-aydın görünür.

İnama görə, adamlar bu uzun gecəni yatmaz, səhəri «dirigözlü» açardılar. Taxt-tac sahibləri həmin gecə bayram edən rəiyyətinə baş çəkərdi. El arasında belə bir əfsanə yaşayır. Həmin uzun gecədə odun şələli Harur adlı bir şəxs mömin adamların evinə gedər, odun şələsini həmin adamın evinin astanasında qoyarmış. (Harun – səxavətli, varlı, dövlətli mənasındadır.)

Evin kəndarına qoyulmuş odun elə həmin an qızıl külçələrinə çevrilərmiş. Həmin vaxt kim zirək tərpənsəydi, qızıl külçələrinə yiyələnə bilərmiş. Elə bu inama görə də həmin gecəni heç kim

yatmır, möcüzə gözləyirmiş. El-obada belə bir adət olub ki, həmin gecəni kim yatsa, paltarını palaza, döşəyə tikər, üz-gözünü kömürlə qaralayar, ağız-burnuna, göz-qaşına bəhməz yaxarmışlar. Yuxudan ayılan adam gözlərini açа bilmir, hövlnak yerindən sıçrayıb qalxmaq istəyir, yorğan-döşək, paltar-palazla birlikdə qalxardı. Həmin şəxs nə baş verdiyini bilmədiyindən ağlayar, ətrafdakı adamlar isə şaqqa çəkib gülüşərdilər. Səhərə qədər yatmamış oyaq qalanlar dan üzündən günəşi görməyə, onu qarşılamağa gedərdilər. İnsanlar günəşi hərarətlə qarşılayırdılar.

Bir çox mənbələrdə Xəzan – Mehrikan bayramının məhz həmin ərəfədə payızın sonu, qışın əvvəlində keçirildiyi qeyd edilir. E.Aslan «Günəş taxtdan düşəndə» məqaləsində yazır: «İlk vaxtlar Xəzan – Mehrikan bayramı günü dövlət başçısı ulu Novruzda olduğutək, başında qızıl tac, əynində zəngin bayram libası taxta qalxardı. «Bayram münasibəti ilə saraya təşrif gətirmiş baş kahin – «möbədan « əlində sovqat – yeddi növ dənli bitki unundan bişirilmiş yeddi növ – alma, heyva, nar, lumu, innab, bir salxım ağ üzüm, ağ şəkər parçası və bir dəstə üzərlik otu yerləşdirilmiş gümüş sini – xonçanın («xonça» –kiçik gün mənasındadır) üzərində dua oxuyar, sovqatı hökmdarın önünə qoyub, ona uzun ömür, hədsiz-hüdudsuz hökmranlıq illəri və şan-şöhrət arzular, bayramla alqışlardı» (57). Göründüyü kimi, bu bayramla Novruz bayramı arasında hədsiz eyniliklər vardır. E.Aslanın yazdığına görə, Mehrikan – Xəzan bayramı islamdan öncə III-V əsrlərdə, təxminən beş yüz ilə yaxın dövrdə və ondan sonrakı əsrlərdə Azərbaycanda Novruzdan sonra əhali tərəfindən çox sevilən bayram olmuşdur. Mehrikan bayramından zərdüştlik daha çox faydalanmışdır. Burada tarixdə bu bayrama münasibəti də qeyd etmək maraqlı olardı. M.A.Dadaşzadənin yazdığına görə, Mehrikan bayramı həmişə payız fəslinin əvvəlində, məhsul yığımından sonra keçirilmişdir (31, 124). E.Aslan istinad etdiyi mənbələrə əsasən yazır ki, orta çağların məxəzlərində iki Mehrikan bayramından danışılır. Meh-

rikan bayramı 1079-cu ilə kimi dekabrın 21-22-də qeyd olunmuş, 1079-cu ildə təqvim dəyişikliyi nəticəsində Mehrikan bayramı düz 90 gün irəliyə-payız fəslinə çəkilibdir. Buradan da aydın olur ki, tarixdə Mehrikan həm payız, həm də qış bayramı kimi qeyd olunubdur (58).

Mehrikan bayramı təqvim dəyişikliyindən sonra payız gecə-gündüz bərabərliyi günü (21-22 sentyabr), əski təqvimlə mehr ayının 16-dan 22-nə kimi günəşin son dəfə yer üzünə istilik, hərarət bəxş etməsi naminə keçirilibdir. Ə.Biruni bu bayramın mehr ayının 16-dan 30-na kimi qeyd olunduğunu göstərir. Z.Qəzvini isə Mehrikanın mehr ayının 16-da təntənəli keçirildiyini qeyd edir (31, 125).

Bir çox inzibati səbəblərdən Novruzdan fərqli olaraq, Mehrikan dövrümüzə gəlib çıxa bilməmişdir. XIV əsrdə Səlcuqların hakimiyyəti dövründə Mehrikan bayramı rəsmi dövlət bayramı kimi ləğv olunmuş, sonrakı illərdə isə tamamilə aradan qaldırılmışdır. Mehrikan bayramı cəmi dörd yüz il (XI -XIV əsrlər) yaşaya bilmişdir (58).

Novruz sisteminə daxil olan mərasimlərdən biri də Sədə bayramıdır. Tarixdə bu mərasim od-atəşfəşanlıq bayramı adlandırılıb. Sədə-şölələnən od mənasını daşıyır (31, 128). Sədə bayramı ilə bağlı orta əsr müəllifləri sələflərinin istinad etdikləri rəvayətə əsaslanırlar. Pişdadilər sülaləsinin hökmdarlarından olan Huşənglə bağlı olan həmin rəvayəti bir qədər irəlidə qeyd etmişik.

Ə.Biruni Sədə bayramının yanvarda yox, qış gündönümündə (dekabrın 21-də) keçirildiyini yazır: «Sədə günü qış cəhənnəmdəki zağasını tərk edib, bu dünyaya qədəm basır. İnsanlar qışın üz verə biləcək xəta-bəlasını özlərindən uzaqlaşdırmaqdan ötrü tonqallar çatıb, od-alov yaxır, ətirli ot və ağac yandırırlar». E.Aslanov, həmçinin şərqşünas Y.E.Bertels də Çırağan – Nüvədzuzdan 40 gün sonra icra edilən Sədə bayramının yanvarda qeyd olunmasına təəccüb edib, şübhə ilə yanaşıblar: «Sədə bayramında Günəşin

anadan olması» və onun yaza doğru dönüşünün qeyd edilməsinə heç bir şübhə ola bilməz. Belə olarsa, Sədənin icrası qışdönümü gününə düşməlidir» (58).

Məlumdur ki, oda inam, oda sitayiş zərdüştlikdən çox-çox əvvəllər mövcud olmuşdur. Zaman-zaman Azərbaycanda odla bağlı bir çox bayram və mərasimlər olmuşdur. Sədə bayramı bəhmən ayının 5 və 10-cu günləri (yanvarın 24-29-da) arasında keçirilirdi. Ə.Biruni yazırdı ki, Azərbaycanda od bayramı vaxtı evlərdə od-ocaq yandırılardı. Tonqallar çatılardı. Allaha dualar edilərdi. Şənlik keçirmək üçün camaat bir yerə yığışardı. Belə bir inam olmuşdur ki, od bitkilərə hərarət verir, onları ziyanverici həşəratdan qoruyur. Odla bağlı geniş yayılmış bayramlardan biri də Azərbaycanda olubdur. Bu od mərasimi Atəş ayının doqquzunda (22 noyabr – 22 dekabr) keçirilibdir.Novruz sisteminin ilk araşdırıcılarından olan Ö.Xəyyam Mehrikan bayramı haqqında «Novruznamə»sində yazmışdır: «Bayram hər il xəzan vaxtı Turan və İranda təntənə ilə qeyd edilirdi»(58).

Məxəzlərin özündə qoruyub saxladığı faktlardan belə qənaətə gəlmək olur ki, Turan dünyası Novruz sisteminin tərkib hissəsi olan Mehrikanı-Payız bayramını Novruz kimi təntənəli qeyd etmişdir. İnsanlar min bir zəhmət hesabına topladıqları bol məhsulu çal-çağır sədaları altında nümayiş elətdirir, şənlənir, sanki bununla qarşıdan gələn ayazlı, şaxtalı qışdan qorxmadığını, əksinə hər cəhətdən hazır olduğunu göstərir.

Mənbələrə istinadən müəyyən edilib ki, Azər və Sədə mərasimlərindən əlavə, odla bağlı bir neçə bayram mövcud olmuşdur.

Həyat ünsürlərindən sayılan su ilə bağlı müxtəlif törənlər keçirilmişdir. Suyun həyat rəmzi, aydınlıq və uğur simvolu sayılması təsadüfi olmamışdır.

Əski çağlarda azərbaycanlılar suya müqəddəs varlıq kimi yanaşmış, onu ilahiləşdirmişlər. Azərbaycanda yaranmış inama əsasən, Nahid su ilahəsi kimi xüsusi hörmətə malik olmuşdur.

Nahidin şərəfinə Midiya dövründə bir çox şəhərlərdə məxsusi məbədlər tikilmişdir. Həmin dövrdə daha çox şöhrətlənmiş Həmədan məbədini Midiya hökmdarı Kiaksarın tikdirdiyi qeyd olunur. Nahid qadın surətində təsvir və təsəvvür edilib. Bu düşüncə də təsadüfi olmayıb. Qadın yeni həyatın yaradıcısı və təməlini qoyan kimi canlandırılıb. Zərdüştlik də su ilahəsi Nahidlə bağlı adət və ənənələrdən lazımınca faydalanmışdır.

Zərdüştlikdə quraqlıq dövrlərdə su diləmək naminə Nahidlə bağlı mərasimlər keçirilmişdir. Bu mərasimlərdə qadınlar Nahidə xitabən su istəyirdilər. İnama görə, su ilahəsi Nahid də öz həmcinslərinin dilək və yalvarışlarını daha tez eşidirmiş. Onu da qeyd edək ki, «Avesta»da «Abanyəşt» adlanan fəsil xüsusi olaraq su ilahəsinə həsr olunub.

Orta əsrlərdə su ilə bağlı keçirilmiş mərasimlər Abrizəkan bayramı da adlandırılmışdır. Bu bayramın motivində Tanrıdan yağış, su diləmək dayanıbdır.

Mənbələrin verdiyi məlumata görə, Abrizəkan bayramının da yaranma tarixi eramızdan əvvələ gedib çıxır. Məxəzlərdə göstərilir ki, Ənuşirəvanın babası Firuz şahın vaxtında uzun sürən quraqlıq olur. Firuz şah özü Tanrıya dua edib, yağış diləmişdir. Bu an göy üzünə bulud gəlmiş, yağış yağmağa başlamışdır. Yağışın yağdığını görən camaat sevindiklərindən bir-birlərinin üstünə su səpməyə başlamış, şadlıq etmişlər. Deyilənə görə, elə həmin vaxtdan camaat uzun əsrlər boyu su bayramını qeyd etmişlər. Bayramın keçirilmə vaxtı barədə fikirlər üst –üstə düşür. Abrizəkan bayramı «Avesta» təqvimi ilə tir ayında (ilin dördüncü ayı olub) keçirilibdir. Aydındır ki, ilin yay fəsli dördüncü aydan başlanır və getdikcə də istilər şiddətlənir. Havaların isti keçməsi də əkin-biçin üçün suya, yağışa ehtiyacı birə – ikiqat artırır. Elə bu ciddi zərurətdən – suya-yağışa ehtiyacdan Abrizəkan bayramı qeyd olunubdur. X əsrdə yazılmış «Hüdud əl-Həm» adlı bir mənbədə Abrizəkan bayramının adı çəkilmiş və bayramla bağlı epizodik təsvirlər də verilmişdir.

Adıçəkilən mənbədə göstərilir ki, adamlar çeşmə başına toplanır, çalıb oxuyur, şənlik edir və dualar edirlər (31, 134-135 və 138).

Professor A.Nəbiyev «Ritual, mərasim və bayramlarımız» adlı məqaləsində çox məntiqli bir nəticəyə gələrək yazır: «Çox az xalqlar var ki, onların dünyəvi düşüncəsi bu qədər zəngin, geniş və əhatəli halda bayram ritual və mərasimlərində əks olunsun. Novruz yekunlaşdıqdan sonra onun ümumi məzmun dəyərləri özündən sonrakı ritual, ayin, etiqad və mərasimlərdə xeyli müddət nüfuz və təsirini göstərmişdir. Məhsul bolluğu etiqadları, şum, səpin, əyəsər (döl), calaqkəsmə və s. kimi qismən kiçik, region səciyyəli mərasim və bayramlarda öz modern məzmununu qoruyub saxlayır « (25).

Bakı və regionlarda yaz bayramı Novruzdan sonra keçirilən Güləkən bayramı ilə tamamlanıbdır. Ə.Biruni «Əski xalqlardan qalmış yadigarlar» əsərində Güləkən bayramının Şirvanşah Ənuşirəvan tərəfindən yarandığını göstərir. A.Nəbiyev də yuxarıda adını çəkdiyimiz məqaləsində yazır ki, bayram Novruzdan sonra qızılgül əkmə ilə başlayır. Üç mərhələdə davam edir. Bu mərasim gül-çiçəyin əkilməsi, becərilməsi və böyümüş gül-çiçəkdən gül suyu, gülab və müxtəlif alkoqolsuz içkilərin çəkilməsi, orijinal qoxusu olan ətirlərin alınması, dadlı-ləzzətli mürəbbələrin bişirilməsi ilə başa çatır.

4.3. Novruzun əhatə coğrafiyası

Novruz sisteminin əsas yaradıcıları türklər olsa da, bu sistemin mahiyyətini digər xalqlar da əxz etmişlər. Novruz sisteminin mahiyyətini ən çox şimal yarımkürəsində yaşayan xalqlar mənimsəmişlər. Bunun da səbəbi birbaşa kainatda baş verən astronomik hadisələrlə bağlıdır. Məlumdur ki, şimal yarımkürəsində yaşayan xalqlar ağır, məşəqqətli, qarlı-şaxtalı bir mövsüm yaşayırlar. Bu

təbii proseslərdən cənub yarımkürəsinin xalqlarının xəbəri olmur. Bu iqlim onlara xas deyildir. İlin-günün dəyişməsi, təzələnməsi qlobal kosmik (astronomik) proseslərin müşayiəti ilə baş verdiyindən ilin dəyişilməsinin başqa bir vaxta düşdüyünə zərrəcə şübhə qalmır.

Novruz şimal yarımkürəsində yaşayan xalqların bir çoxunun həyat və məişətini tənzimləyən daimi bir sistemə çevrilibdir. Yaxın və Orta Şərqin bir çox ölkələrinin böyük təntənə ilə qeyd etdiyi Novruz artıq insanların şüuraltına daxil olmuşdur. Novruz Yaxın və Orta Şərqdə mənəvi dəyərləri əsaslı şəkildə müəyyən etmiş, bu ərazidə mövcud olmuş şamançılıq, atəşpərəstlik və islam kimi böyük din və etidadların maddi-mənəvi qaynağı olmuşdur.

Novruz uzaq Altay-Sayan dağlarından tutmuş Balkanlara qədər olan böyük bir ərazini əhatə edir. Yeri gəlmişkən, onu da qeyd edək ki, bu böyük ərazidə məhz türklər məskunlaşmışlar. O da məlumdur ki, türk xalqları Novruzu digər bayramlardan, o cümlədən dini bayramlar olan Ramazan, Qurban və s. törənlərdən daha geniş və təntənəli qeyd edirlər. Sözün bütöv mənasında, Novruz türk xalqlarının ruhudur. Qədim türklərin Ərgənəkon adlandırdığı bu törəni sonralar özbəklər novruz, qırğızlar nooruz, qazaxlar novruz, uyğurlar novruz, krım türkləri naavrez, kazan tatarları neuruz, balkan türkləri mevriz, Bosniya və Kosova türkləri sultani navrız, kipr türkləri mart dokuzu, Anadolu türkləri sultanı nevruz, mart dokuzu, mart bozumu deyirlər (49). Ümumən, türk xalqlarında Novruz bir qurtuluş, oyanış, dirçəliş anlamında qəbul edilibdir. Türk düşüncəsinə görə, Novruz kainat (kosmos) və planet (yer) bayramıdır. Türkiyəli professor Abdulhalük M.Çayın 1996-cı ildə Ankarada nəşr olunmuş»Türk Ergenekon bayramı Nevruz» kitabında Çin qaynaqlarına istinadən yazılır ki, Ergenekon əcdad mağarasıdır (70, 13). Yuxarıda göstərdik ki, türklər Ergenekondan çıxdığı zaman yaz olub və həmin günün şərəfinə bayram edilibdir. Qeyd etdiyimiz kitabda yenə Çin qaynaqlarına istinadən yazılır ki,

türk imperatorluqları dövründə yaz və payız bayramları rəsmi dövlət bayramı kimi qeyd edilmişdir (70, 18).

Türk xalqlarında Novruz mahiyyətcə eyni olsa da, forma və şəkil baxımından fərqlidir. Türk xalqlarında qeyd olunan Novruz təntənələrini məzmun və forma müxtəlifliyinə görə şərti olaraq üç qrupda birləşdirmək mümkündür. Bu bölgü daha çox ərazi əsasında formalaşıb: Mərkəzi Asiya, Ön Asiya və Şərqi Asiya. Mərkəzi Asiyaya Qazaxıstan, Sibir, Altay və Çin türkləri olan uyğurlar daxildir. Orta Asiya türkləri arasında martın 21-də təntənə ilə keçirilən Novruz böyük nüfuza malikdir. Bu bölgədə bayram şənlikləri daha çox kütləviliyi ilə seçilir. Bayram günü əhali kənd-kənd, el-el göy çəmənliklərdə, çay və bulaq başında toplaşır, çalır, oxuyur – elliklə bayram şənlikləri keçirirlər. El-obanın «Daşqazan» dediyi böyük qablarda «bayram aşı» bişirirlər. Bu xörək həm də «gecə» adlandırılır. Xörək əsasən buğdadan hazırlanır. Qaranlıq düşəndən sonra tonqallar çatılır, üstündən tullanırlar. At yarışları və «keçiqapdı» törənləri şənliklərin əsas hissəsini təşkil edir. El şənlikləri aşıqların iştirakı ilə daha da rövnəqləndirilir. Aşıqlar böyük şövq və həvəslə Novruz nəğmələri, «Ərgənəkon», «Manas» və başqa xalq dastanlarından parçalar söyləyirlər (49).

«Türk Ergenekon bayramı Nevruz» kitabında 1989-cu ilin Novruzunda Urumçi televiziyasında yayımlanan «Tanrı Dağında Novruz nəvası» verilişinə istinadən yazılır. «Novruz ilin bahar mövsümünün elçisi, gecə ilə gündüzün bərabər olduğu və təbiətin ən ədalətli günüdür. Novruz bayramı uyğurların ənənəvi bir törənidir». Əcdadlarımız qəbilə, oymaq şəklində köçəri həyatı yaşadıqları çağlardan bəri bu günü milli bayram olaraq keçirirlər. Tarixi qaynaqlarda Novruz ilə ilgili belə bir rəvayət günümüzə qədər qəlib çıxmışdır. Çox qədim çağlarda türk təqvimlərində hunların əcdadları qırılıb tələf olduğundan türk qövmünün içində sağ qalan təkqollu bir bala, bir dişi kök qurd tərəfindən Altay dağlarında əmizdirilib, tərbiyə edilib, böyüdülüb. Bu balanın

sonradan on cocuğu olmuşdur. Bu cocuqların nəsli çoxalaraq bir Novruz günü dağdan enərək dünyaya yayılmışdır.

Əcdadlarımız bu kutlu günü – yenidən başlanğıc, təzədən doğmaq günü kimi qəbul edərək, hər il bahar mövsümündə Novruz gününü – milli bayram olaraq qeyd etmişlər (69, 39-40).

Bu nümunədən də açıq-aydın görünür ki, ümumən, türk dünyasında, türk təfəkküründə Novruzun mənşəyi və mahiyyəti eynidir. Belə ki, bu düşüncə eyni mənəvi qaynaqdan su içir. «Türk Ergenekon bayramı Nevruz» kitabında «Uyğur halk ağız ədəbiyyatının əsasları» adlı əsərdən qaynaqlanaraq yazılır ki, Novruz qazax, qırğız, özbək və tatar türkləri tərəfindən önəmli bir bayram kimi qeyd olunur. Novruzun çinlilərin həyat və məişətinə dərin təsir etdiyi də həmin mənbədə təsdiqlənibdir (70, 40).

Ön Asiya bölgüsünə şərti olaraq Şərqi Anadolunu, Şimali və Cənubi Azərbaycanı və Özbəkistanı daxil etmək olar. Adları çəkilən ərazilərdə qismən İran adət-ənənələrinin təsiri hiss olunsa da, Novruz sistemi bütövlükdə türk düşüncə tərzinin məhsulu olduğundan, sadaladığımız regionlarda da türk ənənələri üstünlüyə malikdir. Bu dominantlıq bütün sahələrdə-törənlərdə, xörəklərdə, məişətdə, adət-ənənədə özünü bu gün də qoruyub saxlayır.

Krım türklərində Novruz navrez şəklində söylənilir. Onlar da bu bayramı 21 martda qeyd edirlər. Günlərin uzanması, gecələrin qısalması səbəbindən həmin günə «gündönümü» də deyirlər. Krım türkləri gecə ilə gündüzün bərabərləşdiyi günü «Kantar» da adlandırırlar.

Bayram günü uşaqlar üç və səkkiz nəfərdən ibarət qruplar halında, böyük qol-budaqları olan bir ağac parçasını Novruz çiçəkləri ilə bəzəyirlər. Həmin ağac əllərində evləri gəzirlər. Novruz nəğmələri oxuya-oxuya evləri dolaşırlar. Ağac parçasındakı çiçəklərdən birini ev sahibinə verirlər. Ev yiyələri aldıqları «Novruz çiçəklərinin» əvəzində uşaqlara yumurta, şirni, pul və başqa bayram sovqatları bəxş edirlər. Çiçəklərlə bəzədilmiş ağac parçasında isə şal, dəsmal, atlaz parça və şeylər bağlayırlar. Qızlar

isə saçlarının uzanması, könüllərinin gənc qalması inancı ilə başlarına Novruz çiçəkləri taxırlar (70, 61). Balkan türklərində Novruz mevris adlandırılır. Həmin gün çəmənlik törənləri daha geniş keçirilir. Balkan türkləri də törənləri, bir qaydada olaraq, ağaclıq, yaşıllıq bol olan yerlərdə, bulaq və çay kənarında keçirirlər. Bunun üçün bir gün əvvəlcədən hazırlıq görülür. Xüsusi hazırlanmış yeməklər də mərasim keçiriləcək yerə gətirilir. Mərasimdə rəngarəng əyləncəli tədbirlər, çeşidli oyun və mahnılar ifa olunur. Törən başa çatan vaxtı, evə dönüş ərəfəsində iştirakçılar bulaq və çay suyu ilə bir-birinin üstünə su səpirlər. Bu adəti yerinə yetirənlərdə yazın yağmurlu keçəcəyinə, bol məhsul olacağına daxili bir inam var idi.

Yuqoslaviya türkləri Novruz bayramına «Sultani Navruz» deyirlər. Yuqoslaviya türkləri ümumi türk dünyasına xas olan Novruz özəlliklərini hifz etməklə yanaşı, xarakterik adət və inancların da yaradıcılarıdır. Bayram üçün məxsusi olan «kravay» və «kol börek» adlı yeməklər hazırlayırlar. Kravay bayram ərəfəsi hazırlanır. Bu xörək hazırlanarkən onun içinə qədim gümüş pul da qarışdırılır. Kol börek də bayram günü hazırlanır. Xörək hazır olanda evin xanımı sidqi ürəkdən deyir: «Bu kollar bir-birinə sarıldığı kimi, ailəmizdə bir -birinə bağlı olsun. İnşallah!» Bayramın sabahısı evin ağsaqqalı kravayı parçalayıb bütün ailə üzvlərinə paylayır. Gümüş pul kimə düşərsə, həmin adam daha şanslı sayılır.

Kravay və kol börek kimi yeməklərin yanında süfrəyə soyutma yumurta da qoyulur.

Həmin gün qızlar öz aralarında martufal oyunu keçirirlər. Bu törən digər türk xalqlarında olan falabaxma mərasiminin eynidir (70, 64-65).

Kıbrıs (Quzey Kipr) türklərində Novruz ənənələri «Mart doq-quzu» adlandırılır. Məlumdur ki, əski təqvimlə ilin-günün təzələn-məsi martın 9-na təsadüf edirdi.

«Kıbrıs türk alt kültüründə inanc kurumu» adı altında keçirilən toplantıda ixtiyar bir kişi Novruzla bağlı kəndlərində keçirilən törənlərdən söhbət açıbdır.

O, söhbətində «çox əskidən türklərin dağa çıxmağı ilə ilgili bir əfsanə dolaşır» söyləyib. Martın 9-nu bayram etdiklərini xatırladıb. Bu ifadə, həqiqətən, türklərin Ergenekondan çıxması ilə daha çox səsləşir. Yaxın tarixə kimi əski təqvimlə türklər martın 9-nu bayram edirdilər. Bayram törənləri təbiətin qoynunda, çəmənliklərdə keçirilirdi. Əski çağların bir çox adəti davam etdirilirdi. Qədimdə olduğu kimi, ipçəkmə, tullanma, qaçış, güləş və s. xalq oyunları oynanılırdı (70, 68).

Ümumən, türk xalqlarında Novruz sisteminin məna və mahiyyəti eyni olduğundan adlandırılmasında da elə ciddi fərqlər duyulmur. Anadolu türkləri də bu törənə «Sultan Nevrüz», «Nevruz Sultanı», «Mart dokuzu», «Mart bozumu» deyirlər. Bu müxtəliflik daha çox dini təriqət fərqindən yaranmışdır. Anadolu bölgəsində Novruz çox geniş şəkildə qeyd olunur. Anadolunun Mersin Silifke bölgəsində Novruz bayramı çeşidli adətlərlə sıralanır. Martın başlanğıcından camaat Novruza hazırlaşır. Martın ilk günlərində camaat qoyun sürülərini qarlı dağların ətəklərinə sürürlər. «Döl» dedikləri, qoyunların quzulama dövrü artıq arxada qalmış olur. Ağartı və süd məhsulları bollaşır, oğlaq-quzu çol-çəmənliyə yayılır. Bu bölgədə Novruz iki ayrı-ayrı vaxtlarda qeyd olunur. Şəhər camaatı, Novruz günü bazara təsadüf etməzsə, Novruz həftəsinin bazar günündə bayramı təntənə ilə qeyd edirlər. Silifke bölgəsində Novruz, adətən, mart ayının üçüncü həftəsinin bazar günü keçirilir. Ancaq kənd və yaylalarda Novruz martın 22-də keçirilir.

Kənd camaatı 22 mart səhəri dəstə-dəstə piyada və atlı formada özlərinə yaxın olan yaylaların yolunu tutub gedirlər. Həmin ərəfədə yaylalarda oba evləri və davar evləri çoxdan yerləşmiş olurlar. Davar evlərində məskunlaşanlar kənddən gələn qohum-əqrəbalarını, dost-tanışlarını, qonşularını qonaq kimi qarşılayırlar. Kənddən yaylaya gəlmiş insanlar gəldiklərini havaya atəş açmaqla

bildirirlər. Davar evlərində məskunlaşmış obaların ağsaqqalı da gələnləri qəbul etməsini göyə bir atəş açmaqla cavablayır. Bundan sonra gələnlərlə bir yerdə yayla camaatı tək-tək silahlardan atəş açırlar. Sonra qarşılıqlı bir güllə atmaqla salamlaşırlar. Bir-birlərinə «Novruzunuz kutlu, dölünüz hayırlı ve bereketli olsun!» deyə təbrik edirlər. Gələn qonaqlar çadırlarda yerləşdirilir. Söz-söhbətə başlanılır. Bu vaxt süd və ayran içilir. Döl dövründə 20 quzu və ya oğlaq olmuş sürü sahibi həmin gün qurban kəsir. Bu mərasim hər obada və hər çadırda eyni şəkildə icra olunur. Kəsilmiş qurban elə meydanda bişirilib yeyilir.

Sünni məzhəbinin daşıyıcıları bu bayram törəninə öz imamlarını da dəvət edirlər. Törəndə iştirak edən imamlar dualar edirlər Mərasim iştirakçıları xor halında «Amin» deyib imamların dualarına həmrəyliyini bildirərək səs verir, şükürlər edirlər.

Bu törənlərdə gənclər də fəal iştirak edirlər. Bayram süfrəsi arxasında əyləşirlər. Davul, zurna, qaval və digər musiqi alətləri altında gənclər oynayır, şərqi və türkülər söyləyərlər. Gənclərin bu törəninə bir qədər sonra yaşlı kişilər, qız və gəlinlər də qoşulurlar. Axşamdan xeyli keçənə qədər bayram törəni davam edir. Törən başa çatandan sonra kəndlərdən gələn dəstələr doğma evlərinə qayıdırlar (70, 72). Yuxarıda göstərdik ki, ümumən, türk xalqlarında, o cümlədən Anadolu mahalının ayrı-ayrı bölgələrində Novruzla bağlı müxtəlif adət-ənənə və inanclar mövcuddur.

Güney doğu Anadolu bölgəsində 22 marta «Sultan Nevruz» deyilir. Xalq arasında yayılmış inanca görə, 21 martdan 22-nə keçən gecə Sultan Novruz dəqiq məlum olmayan bir saatda göydə ayaqlarında halqaları cingildədərək, batıdan doğuya (qərbdən şərqə) köç edən gözəl bir qızdır. İnanca görə Novruz gecəsi sübhədək yatmayıb oyaq qalanların bütün arzu-dilək̀ləri hasil olar. Bir qabı su ilə doldurub ay işığının altında qoyur, yatmayıb, səhərə qədər ibadət eləyir, suyun qızıla dönəcəyinə inanardılar. Ertəsi gün

camaat çəmənliklərə, bağ-bostana gedir, orada çiğ kofte, aş, yumurta, maş və başqa nemətlərdən hazırlanmış yeməklər yeyir, şərqi və türkü oxuyur, oynayır və əylənirlər(70,76) .

Mənbələrin yazdığına görə, Şərqi Anadoluda Novruz bayramı lap əski çağlardan Roma təqvimi ilə, bir qaydada olaraq, martın 17-də keçirilir. Şərqi Anadolu bölgəsində müxtəlif məzhəblərə (sünni, şiə və b.) mənsub olan insanlara belə bir inam xas idi ki, bu gecə (Novruz axşamı) müqəddəs gecədir. Həmin axşam canlı-cansız bütün varlıqlar Tanrıya səcdə edirlər. Onların inancına görə, o gün hamının illik taleyi və müqəddəratı təyin olunur. Bu səbəbdən hamı təmiz və təzə paltar geyir, yeni ilə hazırlaşır. Bütün evlərdə bayram süfrələri açılır. Camaat qarşılıqlı şəkildə bir-birini təbrik edir. El-obanın fağır-füqərası ziyarət olunur. Bundan sonra dünyasını dəyişmiş yaxınları üçün fatihələr oxunur.

Bu günün özündə də Şərqi Anadoluda Novruzla bağlı müxtəlif adət və inanclar mövcuddur. 17 mart gününə qovuşan gecə ailə üzvlərinin sayı qədər kiçik daş toplanar. Həmin daşları evin bacasının çölündə bir yerə qoyurlar. Bayramın səhəri sübh tezdən daşlar bir-bir yoxlanılır. Kimin daşının altında qırmızı böcək olardısa, onun işinin, taleyinin uğurlu olacağı güman edilirdi. Bununla bağlı ailəyə həmin üzvünün sahəsində xeyir-bərəkət, uğur nəsib olacağına inanırdılar. Bu inanca Ərzurum və onun ətrafdakı bölgələrdə də rast gəlmək olar (70, 76-77).

Sultan Nevruz ənənəsi «Türkiyə ərazisində, o cümlədən Anadolu bölgəsinin hər tərəfində qorunub saxlanılır və yaşadılır».

Əski zamanlardan Amasiyada ailələr, gənclər əvvəlcədən harada bayram edəcəklərini qərarlaşdırmışlar. Ənənə olaraq Kırklar dağı, Pirlər parkı, Kurtboğan və Şirvanlar türbəsinin ətrafı seçilirdi. Martın 22-də səhər açılmamışdan camaat təmiz və təzə paltarlarını geyinib erkəndən yola çıxır və gəmiçi fanarlarının işığında Kırklar dağındakı məzara ziyarət edir, dualar oxuyur, ürəklərində niyyət

edirlər. Niyyət etmək üçün çoxsaylı görüşlər vardır. Onlardan daha çox məşhur olanının təfərrüatına diqqət yetirək. Niyyət edəcək adam məzardakı daş yığımından bir daş götürüb torbaya atır. Evə aparıb bir yerdən asıb, düz bir il gözləyirlər. İnanca görə, əgər niyyət qəbul olursa, daşların sayı qırx bir olur, olmazsa, yenidən növbəti ili gözləyirlər. Ertəsi il martın doqquzunda qəbul oldu, olmadı, daşlar götürüldüyü yerə atılır. Martın doqquzu günü Pirlər parkı, Şirvanlar türbəsindəki məzarlar da ziyarət edilir, dualar oxunur.

Novruzla əlaqədar Anadoluda saysız-hesabsız adət və ənənələr mövcuddur. Anadolunun Giresun bölgəsində təzə il törənlərinə Mart bozumu deyirlər. 14 mart sabahı erkəndən qalxıb sübh namazı qılınır. Sonra yaxın ərazidəki axar sulardan bir qab su götürüb evə aparılır. Bu sudan hər kəs ev heyvanlarının üstünə səpir. Həmin gün ayağı uğurlu sayılan sınanılmış adamlardan başqa heç bir qonaq qəbul edilmir. Mart bozumunda məhəlli xarakter daşıyan isırğın və ya poaça adlı yeməklər bişirilir. Poaçanın içinə yaşıl bir mirvari qoyulur. Mirvarili poaça kimin qismətinə düşərsə, təzə ildə həmin şəxsin xoş taleli olacağına inanırdılar. Həmin gün süfrəyə yeddi cüt, bir tək baş hərfi «s» ilə başlayan yemək düzülərdi. Soğan, sarımsaq, simit, sırğan, sakarça və s.

Giresundakı Mart bozumu törənləri ilə Yuqoslaviya türklərini keçirdikləri törənlər arasında eyniliklər çoxdur.

Trakiyanın bir çox şəhər və qəsəbələrində də Novruz ənənələri qorunub saxlanılmaqdadır. Bu bölgədə Novruz törənləri Ədirnənin mənzərəli yerləri olan Kavaçkapı, Yangöz çeşməsi, Hamam bayırı, Maşatlıq, Bucuqtəpə və başqa əyləncə yerlərində qeyd edirlər. Bayramdan əvvəlki gün ev-eşikdəki köhnə həsirləri, xalça-palazı günəş işığına atıb üstündən tullanaraq deyirlər: «Mart içeri, pire dişarı» (70, 85-89).

Novruz adət ənənələri təkcə indiki Türkiyə ərazisinldə deyil, türk xalqlarının yaşadıqları bütün bölgələrdə qorunub saxlanılır və

geniş formada qeyd olunur. Uzun illərin aparılmış tədqiqatları nəticəsində belə qənaətə gəlinib ki, Novruz sisteminin yaradıcısı türklər olublar. Kainat və planet qanunlarını özündə birləşdirən bu qədim sistemi sonradan digər xalqlar da qəbul etmişlər. Qədim İran ərazisində yaşayan xalqlar da Novruz sisteminin zənginləşməsinə öz töhfələrini vermişlər. Birmənalı demək olar ki, Novruz sistemi, ümumən, iki xalqın – türk və İran xalqlarının adət-ənənələrinin, mədəniyyətinin təsir dairəsindədir. Uzun illərdir ki, tarixi mənbələrdə İran və fars dövləti məqsədli şəkildə

düştliyin mahiyyəti açıq-aydın göstərir ki, onun mənəvi ideoloji əsasını Novruz sistemi təşkil edir. Başqa cür desək, Zərdüşt öz məktəbini Novruz mənəvi dəyərlərinə istinadən yaratmışdır. Yuxarıda dedik ki, Novruz kainat və planet qanunlarının harmoniyasına əsaslanan bir sistemidir. Demək, Novruz təbii proseslərə söykənən qanunlar sistemidir. Kainat (kosmos) və planet (yer) təbii proseslərin harmoniyasından (vəhdətindən), kontrastından (əksliklərin vəhdətindən), paralel və ardıcıl hərəkət və inkişafından birbaşa asılıdır. Həyatın və cəmiyyətin yaranışı və inkişafı həyat gerçəklikləri ilə bağlıdır. Təbii gerçəklərin inkişafı həyatı elementlərdən – od (günəş), torpaq (yer), su, külək və s. asılıdır. Novruz sistemi özündə elə bu kainat və planet qanunlarını ehtiva edir.

Zərdüşt də təlimində qoyduğu mənəvi prinsipləri Novruz sistemindən əxz etmişdir. Əksliklərin mübarizəsi xeyir-şər, işıq-zülmət, ümumən, bu əks-qütblərin ümumiləşdirilmiş simvolları olan Hörmüz və Əhrimənin mənəvi-ideoloji əsası Novruz sistemində mükəmməl formada mövcuddur. Əski çağlarda atəşpərəstliyi qəbul etmiş İran ərazisində məskunlaşmış xalqlar, o cümlədən midiyalılar və farslar rəsmi təqvimlə fərvərdin ayın 1-də Novruzu qeyd ediblər. Fərrvərdin ayının 1-i həm də təzə ilin başlanğıcı sayılıb. Əhəminilər dövründə (m. ö. 558-331) rəsmi olaraq günəşin Qoç bürcünə girdiyi vaxt yeni il Novruzla başlayırdı. Bu ənənə Sasanilər dövründə də (225-636) davam etmişdir. İran ərazisində yaşayan xalqlar arasında Novruz adət və ənənələri olduqca zəngindir. Qədim iranlılar Novruz günü şərəfinə altun və gümüş sikkələr kəsirdilər (70, 1).

İranda Novruzla bağlı ən geniş yayılmış mərasimlərdən biri «axır çərşənbədir». Bu mərasim ilin sonuncu çərşənbə axşamı keçirilir. Həmin axşam camaat kütləvi şəkildə bayram tədbirlərinə qoşulur. Uşaqdan tutmuş böyüyə qədər hamı bir nəfər kimi tikan kollarını və odunları bir yerə yığıb tonqal çatır, sonra alovun üstündən atlanırlar. Alovdan tullandıqca deyirlər: «Mənim sarılığım sənə keçsin, sənin qırmızılığın mənə!». Bu mərasim tonqal

sönənə kimi davam edir. İnama görə, tonqalı söndürmək olmaz, odun özü yanıb qurtarmalıdır (49). Novruz İranda yaşayan xalqlar arasında əsasən iki gün qeyd olunur. Birinci «Novruzu amme» deyilən gün olur ki, fərvərdin ayının birinci günü qeyd olunur. Qədim İran şahları Novruzun altıncı günü (Novruzu hisse) xalqın bütün istək və arzularını yerinə yetirməyə çalışırlar. Hökmdar başda olmaqla, bütün dövlət rəsmilərinə məhkəmə qurulur, kəmkəsir işləri, nöqsanları saf-çürük edilir, haqqı tapdalanmış şəxsin hüquqları bərpa olunurdu. İranda Novruz bayramı 13 gün davam edir. Bu günlərdə qohum-əqrəba, dost-tanış bir-birinə qonaq gedir, bayram payı aparır, qarşılıqlı olaraq bir-birlərini təbrik edirlər. Yeni ilin 13-cü günü xüsusi qeyd olunur. Bu da təsadüfi deyildir. Məlumdur ki, on üç «adətən, nəhs sayılıbdır. Həmin günə «Sizdəh bedər» (on üçün qovulması) deyilir.

13 nəhs qəbul edildiyindən həmin gün hamı evdən çıxır, dağlara, meşələrə, çəmənliklərə yola düşür, gəzib-dolaşırlar. Camaat həmin çəmənliklərdə, meşələrdə yeyib-içir, şənlik edir. Gecədən xeyli keçənə qədər bu şənliklər davam edir. Bu mərasimi keçirən xalq ruhən dincəlir və arxayın olur ki, nəhs sayılan 13-cü günü ev-eşiklərindən qovublar (49).

Novruzun mənşəyi ilə bağlı İran ərazisində yaşayan xalqların yaratdığı əfsanələrə bələnmiş həqiqətlər və digər maddi-mənəvi abidələr özlərində bir çox gerçəklikləri qoruyub saxlamışdır. Bu əfsanələrdən ən geniş yayılanı İran hökmdarı Cəmşidin Azərbaycana gəlməsidir. Həmin gün hava günəşli olduğundan Cəmşid Azərbaycanı bəyənir. Bu əfsanələşmiş fakt da bir daha sübut edir ki, Novruz sistemi türk xalqları, o cümlədən Azərbaycanla bağlıdır.

İran mənbələrində Tanrının yer üzünü həmin gün yaratdığı, Adəmin məhz o gün xəlq olunduğu və ulduzları bürclərə həmin gün dağıtdığı qeyd olunur (70, 3).

Novruz sisteminin ictimai-siyasi nüfuzundan İran hökmdarları daha çox yararlanmışdırlar. Bu məqamda onu da vurğulamaq

yerinə düşər ki, Novruz adət və ənənələrindən elə ən çox faydalanan da İran olmuşdur.

Novruz adət və ənənəsinin məna və mahiyyəti eyni olduğundan türk və İran xalqlarının bayram keçirmələrində əsaslı və kəskin fərq yoxdur. Elə bu səbəbdən təkrarçılığa lüzum görmədiyimizdən İranda keçirilən Novruz mərasimlərinin hamısının haqqında məlumat vermədik.

Novruz adət və ənənəsi ərəb dünyasında mövcud olmayıbdır. Ərəblər bir neçə əsr yəhudilərin təqvimlərindən istifadə ediblər. Sonralar ərəblər türk və İran xalqlarından «Neyruz» və «Nayruz» deyimində Novruzu qəbul etmişlər. Ərəblər gecə ilə gündüzün bərabərləşdiyi Novruza «Birinci itidaliyün» deyirdilər. Payız bərabərliyinə isə «İkinci itidaliyün» adını vermişdilər. Sasani dövlətini ərəblər süquta uğratdıqdan sonra Novruz adət və ənənələrini mənimsədilər. Ərəblərin Novruz təqvimini müvəqqəti də olsa qəbul etmələri zərurətdən irəli gəlirdi. Vergiləri vaxtında toplamağı qaydaya salmaq üçün dəqiq bir təqvimə ehtiyac var idi. Novruz bəzi vergilərin toplanma vaxtını məlum edirdi. Bunu əvvəllər də açıq-aydın görürdülər. Abbasilər dövründə (750-1258) vergi toplanmasında bir çox qüsurların olması birbaşa təqvimlə bağlı olduğundan xəlifə Mütəvəkkilin dövründə (847-861) Novruzun 17 iyunda keçirilməsi qərara alınmışdır. Bu təqvim xəlifə əl-Mutəzidin zamanında (892-902) yenidən dəyişdirilmişdi. 11 iyun Novruz günü qəbul edilmişdir. Ancaq xəlifə əl-Mutəzid Novruzla bağlı meydan tamaşalarını, at oyunlarını qadağan etmişdir. Bu qadağanın qəbul edilməsində din xadimlərinin rolu xüsusidir. Ancaq bu qadağaların ömrü çox qısa oldu (69, 6-7). A.İmanquliyevanın yazdığına görə, Novruz rəsmi bayram statusuna xəlifə Əl-Məmunun (813-833) dövründə nail olmuşdur. Ondan sonra gələn xəlifələr bu bayramın geniş keçirilməsi üçün hər cür şərait yaratdılar. Bayram günü camaat xəlifəni təbrikə gəlir və ona hədiyyələr bəxş edirdilər. Xəlifələr sarayda bayram şənlikləri təşkil edirdilər. Xəlifə təbrikə gələn camaata pul paylayırmış.

Yuxarıda deyilənlərdən belə qənaətə gəlmək mümkündür ki, Novruz adət-ənənələrinin ilkin yaradıcıları və bu dəyərləri İran ərazisində geniş yayanlar da elə türklər olmuşdur. Novruz adət və ənənəsinə əməl edən xalqların Novruzla bağlı keçirilən mərasimlərində mahiyyət eyniliyi mövcuddur. Hətta İranda mövcud olan adət və ənənə türklərdəkindən əsaslı və kəskin şəkildə fərqlənmir. Bu eynilik də bir daha təsdiqləyir ki, Novruzun ilkin yaradıcıları türk xalqlarıdır.

Bəzi İran tədqiqatçılarının «Novruz iranlıların bayramıdır» fikri ilə heç cür razılaşmaq mümkün deyildir. Tarixi faktlar bu mülahizəni tamamilə alt-üst edir. Sasani hökmdarlığının yıxıldığı m. ö 636-cı ildən İran, islam əqidəsinin yayıcısı sayılan ərəb dövlətinin hakimiyyətinə daxil olmuşdur. 1040-cı illərdən etibarən isə İran ərazisi türk xanədanlığının təsir dairəsində olmuşdur. Türklərin uzun əsrlər İranı öz təsirləri altında saxlamaları da tarixi bir faktdır. O da bir həqiqətdir ki, bu gün də İranda əhalinin böyük kəsimini türklər təşkil edirlər (70, 98).

Novruz mükəmməl bir sistem olduğundan dünyanın böyük bir hissəsini əhatə edir. Bir çox xalqlar özünəməxsus məna və formada bu kainat sistemini mənimsəyibdir. İlin təzələnməsi, yazın gəlişi ilə əlaqədar mərasimlər Dağlıq Altay, Sayan dağlarından başlanır. Orta Asiya, İran, Azərbaycandan tutmuş iç Avropaya qədər geniş bir ərazini əhatə edir. Bu məqamda onu da vurğulayaq ki, ilin təzələnməsini yazın gəlişində bayram kimi qeyd edən xalqlar çoxdur. Bu xalqlar ərazi baxımından bir-birindən uzaq məsafələrdə məskunlaşsalar da, regional kolorit nəzərə alınmasa, digər məsələlərdə oxşarlıq və eynilik mövcuddur. Novruzun türk xalqları və onlara qonşu olan İran və digər xalqlar tərəfindən təntənəli qeyd olunması bu xalqların eyni coğrafi eynilikdə-şimal yarımkürəsində məskunlaşmaları ilə bağlıdır: «Bununla belə, hər bir etnosun və bölgənin başqasında təkrar olmayan, bənzərsiz yaz mərasim və ayınləri mövcuddur. Məsələn, «Sayaçı», «Təkəçi», «Kosa-kosa» (əslində, kosa da təkə deməkdir), «Kilimarası», «Üzüksalma»,

«Can gülüm» və başqa bu kimi sırf elat həyat tərzindən gələn mərasim-tamaşalar təbiətin oyanışı, ilin yeniləşməsi güzəranın, yaşayışın canlanıb-qaynaması ilə bağlı yaranmışdır və istisnasız olaraq hamısı türk bədii təxəyyülünün məhsullarıdır. Həmin folklor örnəkləri Novruzu bayram kimi qeyd edən başqa xalqların (fars, tacik,ərəb) yazı qarşılama mərasimlərində müşahidə olunmur» (59).

NƏTİCƏ

Novruz türk xalqlarının minilliklər ərzində yaşadıb-yaratdığı möhtəşəm mədəniyyət xəzinəsidir. Bu azman mədəniyyət xəzinəsi türk dünyasının ümumi dünyagörüşünü-təfəkkürünü, astronomik zaman barədə gerçək nominal düşüncəsini, həyat tərzini, məişət və təsərrüfatı idarəetmə qabiliyyətini, ay, il və günlər barədə uzunmüddətli müşahidə və empirik təcrübəsini, bir sözlə, cəmiyyətin bütün sahələrinə aid insanın düşüncə və əməlini geniş səpkidə əhatə etmişdir. Novruzu biz bütöv bir sistem adlandırdıq.Bu möhtəşəm sistem insan həyatının ən qlobal və vacib sahələrini özündə cəmləyir. Novruz sistemi dünyanın, həyatın nüvəsini təşkil edən təbiət-kainat və planet qanunlarına əsaslandığından minilliklər ərzində mövcud olmuşdur. Novruz sistemi türk xalqlarının maddi-mənəvi dəyərlərinin min illər boyu qorunub saxlanılmasında, bir növ, insanlar (xalqlar) üçün qoruyucu instinkt funksiyasını yerinə yetirmişdir. Zəngin Novruz adət-ənənələri xalqın yaddaşının «oyaq» qalmasına xidmət etmiş, geniş xalq kütləsini mövcud ictimai formasiyanın siyasi assimilyasiya küləyinin gətirdiyi mənəvi aşınmaya uğramaqdan qorumuşdur.

Novruz bir sistem olaraq bütöv tropik ili əhatə edir. Novruz fasiləsiz tsiklvarı davam edən bir sistemdir. Novruz –yeni gün deməkdir. Novruz tarixinin məşhur araşdırıcısı Ə.Biruni Novruzu «dünyanın başlanğıc günü» adlandırmışdır. İl Novruzda başlayır və Novruzda qurtarır. «Avesta»da dünyanın 365 günə yaradıldığı deyilir. 365 gün bütöv bir ildir.

Türk xalqlarının böyük qismi Novruzun mənşəyini Ergenekonla (Ərgənəkon) bağlayırlar. Əbülqazi Bahadır xanın (1603-1663) türk xalqlarının tarixindən bəhs edən «Şəcərəyi-türk» (1663) əsəri vasitəsi ilə günümüzə gəlib çıxmış «Ergenekon» dastanı Çin mənbələrinə istinadən qələmə alınıbdır. Uca dağların əhatəsində məskunlaşmış qədim türklər 400 ildən sonra Ergenekondan çıxıb dünyaya var olduqlarını bir daha yenidən sübut etdilər. Ergenekondan çıxış – Böyük Azadlıq günüdür.

Şamançılıqdan, Tanrıçılıqdan keçib gələn Novruz sistemi sonralar digər düşüncə və inancların formalaşmasında və təkmilləşməsində əsas qaynaqlardan biri olmuşdur.

Bütün dövrlərdə dinlər, məzhəblər Novruzdan nəinki faydalanmış, hətta onun nüfuz və şöhrətinə sahib çıxmağa çalışmışlar. Novruz dəyərlərinin çoxəsrlik tarixində ona müxtəlif məqamlarda siyasi,dini «rənglər» qatmağa çox ciddi cəhdlər göstərilmişdir. Ancaq alt qatında dəyişilməz təbiət və cəmiyyət qanunları dayanmış Novruz sistemi heç bir yad yamaqları, süni damğaları qəbul etməmişdir. Novruz dəyərlərinin milli qısqanclıqdan iranlılara məxsus olduğunu tədqiqata cəlb edənlər onu unutmuşdular ki, İran ərazisinin böyük bir hissəsində yaşayanlar oranın aborigen sakinlər sayılan Novruz sisteminin ilkin yaradıcıları olmuş qədim türklərdir.

Bir qisim tədqiqatçılar isə heç bir tutarlı əsas olmadan möhtəşəm Novruz sistemini dini məzhəblə əlaqələndirmişdilər. Onlar qlobal milli dəyərlər məcmusu olan Novruzun yalnız ələvilərəşiələrə aid olduğunu gündəmə gətirmişdilər.

Novruzun insanları mənəvi cəhətdən mükəmməl, ayıq-sayıq saxlamasından inzibati-ideoloji administrasiyalar həmişə xoflanmış, ehtiyat etmişlər.Bu səbəbdən tarixin müxtəlif dönəmlərində Novruz dəyərlərinə qarşı taxt-tac sahibləri müəyyən qadağalar tətbiq etmişdilər.

Bütün yuxarıda yazılanlardan sonra belə qənaətə gəlmək olar:

1. Novruz kainat və planet qanunlarına əsaslanan bütöv bir sistemdir.

2. Novruz astonomik zaman müəyyənləşdiricisidir.

3. Novruz tük xalqlarının birgə yaradıb – yaşatdıqları maddi, mənəvi və sosial dəyərlər toplusudur.

4.Novruzun tarixi qədimdir.Bu günümüzə qədər gəlib çıxmış yazılı mənbələrə istinadən deyə bilərik ki,onun beş min ildən artıq yaşı vardır.

5. Ayzıt, Tura, Ergenekon bayramları Novruz sisteminin ilkin komponentlərindəndir.

6. Novruz (Ergenekon) – qurtuluş günüdür (bayramıdır).

7. Novruz etnokulturololoji dəyərlər məcmusudur.

8. Novruz dünyanıdərk gerçəkliyidir.

9. Novruz bütöv bir sistem olaraq 365 günü – 4 fəsli əhatə edir.

10.Novruz sisteminin 4 bərabərlik məqamı – yaz-payız gecə-gündüz bərabərliyi və yay-qış gündönümü mövcuddur.

11.Novruz sistemində iki günbərabərliyi – yaz günbərabərliyi (22 martın) və payız günbərabərliyi (22 sentyabr) cəmlənir.

12. Novruz sistemi iki gündönümünü (22 iyun yay və 22 dekabr qış gündönümü) əhatə edir.

13.Novruz həm də bayramlar toplusudur. Möhtəşəm Novruz təntənələri ilə başlayan il elə Novruz şənlikləri ilə də tamamlanır. Bu bayram toplusuna ilaxır çərşənbələr, möhtəşəm Novruz şənlikləri, payız, qış gündönümləri ilə bağlı keçirilən mili bayramlar və s.regional xarakterli etnik törənlər daxildir.

14. Novruzun çoxəsrlik inkişaf prosesində ilkin mahiyyəti, demək olar ki, dəyişməmişdir. Törən və mərasimləri bu və ya digər səbəblərdən transformasiyaya uğrasa da, tiran ideologiyaların təsirinə məruz qalsa da, təbii və sağlam prinsiplər üzərində ucaldığından ilkin məna və mündəricəsi olduğu kimi qalmışdır.

Ədəbiyyat:

1. Azərbaycan ədəbiyyatı tarixi, 1-ci cild,Bakı,2007
2. ASE, 1-ci cild, Bakı, 1976
3. ASE, 8-ci cild, Baki, 1984
4. Nizami Gəncəvi, «Sirlər xəzinəsi», Bakı, 1981
5. Nizamı Gəncəvi, «Xosrov və Şirin», Bakı, 1982
6. Nizami Gəncəvi, «İskəndərnamə», Bakı, 1982
7. Qətran Təbrizi, «Divan», Bakı. 1967
8. Yusif Vəzir Çəminzəminli, Romanları, Bakı, 1968
9. Əbülqasim Firdövsi, « Şahnamə», Bakı, 1986
10. Əlisa Nicat, Nağıllara dönən tarix, Bakı, 1993
11. Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər, 17-ci cild, Bakı, 2005
12. Elməddin Əlibəyzadə, Azərbaycan xalqının mənəvi mədəniyyət tarixi, Bakı, 1988
13. Elməddin Əlibəyzadə, Qədim dünyamızın ulu kitabı, Bakı, 1996
14. Elməddin Əlibəyzadə, Ana kitabələr, Bakı, 1996
15. Mirəli Seyidov, Qam-Şam və onun qaynaqlarına ümumi baxış, Bakı, 1994
16. Mirəli Seyidov, Qızıl döyüşçünün taleyi, Bakı, 1984
17. Mirəli Seyidov, Yaz bayramı, Bakı, 1990
18. Mirəli Seyidov, Azərbaycan mifik təfəkkürünün qaynaqları, Bakı, 1983
19. Azad Nəbiyev, Mərasimlər, adətlər, alqışlar, Bakı, 1983
20. Azad Nəbiyev, Novruz, Bakı, 1989
21. Azad Nəbiyev, El nəğmələri, xalq oyunları, Bakı, 1988
22. Azad Nəbiyev, Nəğmələr, inanclar, alqışlar, Bakı, 1986
23. Azad Nəbiyev, İlaxır çərşənbələr, Bakı, 1992
24. Azad Nəbiyev, Bayramların sultanı, «Azərbaycan» qəzeti, 20 mart 2004

25. Azad Nəbiyev, Rituallar, mərasım və bayramlarımız, «Azərbaycan» qəzeti, 20 mart 2005

26. Kamil Allahyarov, Novruzun ən qədim qaynaqları, «Azərbaycan» qəzeti, 20 mart 2005

27. Ağayar Şükürov, Mifologiya, 2-ci kitab, Bakı, 1995

28. Ağayar Şükürov, Mifologiya, 3-cü kitab, Bakı, 1995

29. Ağayar Şükürov, Mifologiya, 5-ci kitab, Bakı, 1996

30. «Avesta», Bakı, 1985

31. Məmməd Dadaşzadə, Azərbaycan xalqının orta əsr mənəvi mədəniyyəti, Bakı, 1985

32. Kamil Vəliyev, Elin yaddaşı, dilin yaddaşı, Bakı, 1988

33. Qədim türk ədəbiyyatı (Tərtib edən akademik Nizami Cəfərovdur), Bakı, 2004

34. Nizami Cəfərov, Azərbaycanşünaslığın əsasları, Bakı, 2005

35. Azərbaycan etnoqrafiyası, 1-ci cild, Bakı, 1984

36. Qəmərşah Cavadov, Əkinçilik mədəniyyətimizin sorağı ilə, Bakı, 1990

37. Fuad Qasımzadə, Novruz – bahar bayramı, Bakı, 1989

38. Razim Əliyev, Məxfilik qrifi, yaxud mif, fəlsəfə, din və dil düyünü, Bakı, 2002

39. Şamil Sultanov, Kamil Sultanov, «Ömər Xəyyam» Bakı, 1991 (tərcümə edən Vəli Həbiboğlu)

40. Bəhlul Abdullayev, Haqqın səsi, Bakı, 1998

41. Bəhlul Abdullayev, Göyər, səmənim, Bakı, 1993

42. Bəhlul Abdullayev, Qış və yaz mərasimlərindən, «Qobustan» jurnalı, 1984, №2

43. Anri Masse, İslam, Bakı, 1964

44. Əfzələddin Əsgər, Məmmədəli Qıpçaq, Türk savaş sənəti, Bakı, 1996

45. Dünya dinləri (ensiklopedik məlumat kitabı), Bakı, 2003

46. Rafiq Turabxanoğlu, Türkçülük Turanın ideologiyasıdır, Bakı, 1988

47. Zaur Həsənov, Çar skiflər, Bakı, 2005

48. Həsi Abdullayev, İslam dini haqqında, Bakı, 1958

49. Aidə İmanquliyeva, Novruz şərq ölkələrində, «Ədəbiyyat» qəzeti, №12,21 mart 1991

50. Məhəmmədhüseyn Təhmasib, Xalq ədəbiyyatımizda mərasim və mövsüm nəğmələri. «Ədəbiyyat « qəzeti, 15 mart 1944

51. Məhəmmədhüseyn Təhmasib, Adət, ənənə, mərasim, bayram, «Ədəbiyyat və incəsənət» qəzeti, 12 mart 1966

52. Elçin Aslanov, El-oba oyunu, xalq tamaşası, Bakı, 1984

53. Elçin Aslanov, Novruz bu gün, «Azərbaycan « qəzeti, 20 mart 1997

54. Elçin Aslanov, Günəş taxtdan düşəndə, «Ədəbiyyat» qəzeti, 13 yanvar 1995

55. Elçin Aslanov, Ay gecə çilləsi, «Ədəbiyyat» qəzeti, 18 fevral 1994

56. Elçin Aslanov, Novruz dünən, bu gün, sabah, «Ədəbiyyat» qəzeti, №26, 28 iyun 1991

57. Elçin Aslanov, Günəşin təntənəsi, «Xalq qəzeti», 20 mart 1997

58. Elçin Aslanov, Günəş taxtdan düşəndə, «Ədəbiyyat» qəzeti, 13 yanvar 1995

59. Məhərrəm Qasımov, Noğul-nabatlı, mübarək niyyətli, «Azərbaycan» qəzeti, 20 mart 2004

60. Xatirə Ağayeva, Novruz bayramının mənşəyinə dair, «Şəhriyar» qəzeti, 19 yanvar 1995

61. Nəsir Rzayev, Novruz bayramının tarixi bizə nələr nəql edir? «Qobustan» jurnalı, 1991№ 1

62. Miryəhya Yusifov, Bahar bayramı, «Ulduz» jurnalı, 1982 №3

63. Əlisa Nicat, Şumer incəsənəti, «Qobustan» jurnalı, 1974, №3

64. H.Quliyev, Ş.Həsən, İ.Mahmudov, Azərbaycanda bahar bayramı, «Qobustan « jurnalı, 1986-cı il №1

65. Rəhim Zeynalov, Kainatın bayramı, «Respublika» qəzeti, 19 mart 2001

66. Rəhim Zeynalov, Novruz bayramının astronomik elmi əsasları, «Vətən səsi» qəzeti, 19 mart 1991

67. Pənah Xəlilov, Elin əziz günləri, «Ədəbiyyat» qəzeti, 21 mart 1991

68. Məhəmməd Hatəmi (Tantəkin), Novruz bayramının mənşəyi haqqında, Azərbaycan SSR EA-nın xəbərləri, 1970, №3

69. Braginski İ.S., Bahar bayramı haqqında, «Ədəbiyyat və incəsənət» qəzeti, №20 1967

70. Abdulhalük M.Çay,Türk Ergenekon bayramı Nevruz, Ankara, 1996

71. Kramer S.N., Istoria naçinaetsya Şumere, Moskva, 1965

72. Mifi narodov mira, Moskva, 1980

73. D. Q.Reder, Mifi i leqendı drevneqo dvureçye, Moskva, 1965

74. M.M.Dyakonov, Oçerki istorii drevnoqo İrana, Moskva, 1961

75. Antoloqiya mirovoi filosofii, tom1, çast 1, Moskva, 1970

76. Pyat traktov na memu «Afak i Anfus» Moskva, 1970

77. Braginski İ.S., Iz istorii tadjikskoy narodnoy poezii, Moskva, 1956

78. Belitskiy, Zabıtıy mir şumerov, Moskva, 1980

Xeybər Göyyallı

NOVRUZ:
genezisi, tarixi transformasiyaları və mərasimləri

Kitabın üz qabığında Torpaqqalada (Qax rayonu) tapılmış III minilliyə aid gümüş qabın üzərində təsvir olunmuş maralı parçalayan qanadlı şir (qrifon) simvolik kompozisiyasından istifadə edilmişdir.

Çapa imzalanmışdır: 05.02.2015
Formatı 60x84 1/16
Fiziki ç/v 14,5
Tirajı 100

«Qanun» nəşrlər evi
Bakı, AZ 1102, Tbilisi pros.,76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az